**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**

**B. Məmmədli  Ə. Çingizoğlu**

# URMİYA XANLIĞI

**Bakı – Mütərcim – 2013**

Elmi redaktor: **Süleyman Məmmədov,**
*tarix elmləri doktoru, professor,*
*Əməkdar elm xadimi*

Rəyçilər: **Adil Baxşəliyev,**
*tarix elmləri doktoru, professor*

**Şirxan Səlimov,**
*tarix elmləri doktoru, professor*

**Camal Mustafayev,**
*tarix elmləri doktoru*

**Güntəkin Nəcəfli,**
*tarix elmləri üzrə fəlsəfə doktoru*

**B.Məmmədli. Ə.Cingizoglu Urmiya xanlığı**
– Bakı, Mütərcim, 2013. – 188 s.

Vəsait "Azərbaycan tarixi" fənn proqramı əsasında hazırlanmışdır. Vəsaitdə Urmiya xanlığının sozial-iqtisadi, siyasi və mədəni həyatından bəhs edilir.

Vəsait ali məktəb müəllimləri, tələbələri və magistrantları üçün nəzərdə tutulmuşdur.

Ç $\frac{4702000000}{026}$ xx-13

© B.Məmmədli,Ə.Cingizoglu 2013

# MÜNDƏRİCAT


Giriş ........................................................................................................ 4

Mövzu: Urmiyanın təbii-coğrafi şəraiti ................................................ 5

Mövzu: Urmiya şəhəri ............................................................................ 7

Mövzu: Urmiya xanlığının yaranması ................................................... 11

Mövzu: Xanlığın inzibati quruluşu ......................................................... 23

Mövzu: Xanlığın idarəetmə aparatı ....................................................... 42

Mövzu: Urmiya xanlığının ictimai-siyasi həyatı ................................... 60

Mövzu: Urmiya xanlığının qonşu xanlıqlarla siyasi münasibətləri ........ 112

Mövzu: Urmiya xanlığının sosial-iqtisadi vəziyyəti ............................. 157

Mövzu: Mədəniyyət ................................................................................ 174

Nəticə ....................................................................................................... 182

Mənbə və ədəbiyyat ................................................................................ 183

# GİRİŞ

Xanlıqlar dönəmi Azərbaycan tarixinin, Azərbaycan dövlətçilik tarixinin maraqlı və mühüm səhifələrindən birini təşkil edir. Tarixi mənbələr Urmiyanın Azərbaycanın tarixi ərazisi olduğunu təsdiq edir. Urmiya Azərbaycanın qədim dövlətçilik məkanlarından biri, ilk orta əsrlərdə isə yerli feodal hakimliyinin mərkəzi olmuşdur. XI əsrdə Urmiyanı Səlcuqlar, XIII əsrin əvvəllərində monqollar işğal etdilər. XV əsrdə Urmiya vilayəti Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə qatılmışdı.

Səfəvilərin dövründə isə Urmiyada Avşar elinin valiliyi, bəylərbəyliyi mövcud idi. Avşarlar bu bölgəni idarə edir, onu düşmən basqınlarından qoruyurdular. Səfəvilər dövlətinin süqutundan və Nadir şahın ölümündən sonra XVIII əsrin ortalarında Urmiya xanlığı təşəkkül tapdı.

Cənubi Azərbaycan xanlıqları içərisində Urmiya xanlığı öz varlığı ərzində, siyasi mövqeyinə və hərbi gücünə görə önəmli yer tuturdu.

Sovet tarixşünaslığında ümumiyyətlə, Cənubi Azərbaycan xanlıqlarının tarixinə etinasız yanaşılmış, onun tədris ədəbiyyatı kimi işlənməsi isə diqqətdən kənarda qalmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra, vətən tarixinə yeni baxışlar sistemi formalaşmış Cənubi Azərbaycan xanlıqlarının tarixi kontekstində ayrı-ayrı xanlıqların tarixinə yenidən baxmaq zərurəti yaranmışdır.

Metodik vəsaitdə Urmiya xanlığının tarixi, xanlığı ictimai-siyasi vəziyyəti, sosial-iqtisadi durumu, qonşu xanlıqlarla siyasi əlaqələri, mədəniyyəti və s. məsələlər işıqlandırılmışdır. Vəsait hazırlanarkən, mötəbər mənbələr – arxiv sənədlərindən, AMEA Tarix İnstitutunun elmi arxivindən, İstanbul Başbakanlıq arxivindən, internet səhifələrindən, Azərbaycan, rus, türk və fars tarixçilərinin əsərlərindən istifadə edilmişdir.

# Mövzu

## URMİYANIN TƏBİİ-COĞRAFİ ŞƏRAİTİ

Urmiya xanlığının coğrafi sərhədləri şimaldan Salmas (Xoy xanlığı), şərqdən Urmiya gölü, cənubdan Kürdüstan, qərbdən Türkiyə (Osmanlı dövləti) və İraqla həmsərhəd idi.

Xanlığın ərazisi, Urmiya gölünün sahilləri istisna olmaqla, hər tərəfdən böyük dağ silsilələrindən ibarətdir. Bu silsilələrdən mühümləri: Mur-i Şəhidan, Cəlaləddin, Güruh dağ, Dalamir, Qəndil, Balistan, Quşçu, Boz, Kora və Zənbil adlı dağlardır. Həmin dağların çoxunun üzəri yumşaq qaratorpaqla örtüldüyündən dəmyə əkin üçün əlverişlidir.

Xanlığın torpağı əsasən qara, qumlu, lil torpaqdan ibarətdir. Bu torpaq növlərinin hər ikisi çox münbit və əkinçilik üçün yararlıdır. Türkiyə sərhədindəki dağ silsilələrini zirvəsi ilin bütün fəsillərində qarla örtülü olur.

Xanlığın əsas çayları Baranduz, Şəhər (Urmu), Nazlı, Tatay və yaxud Tamay), Zərinə, Siminə, Qədir, Gidar adlı çaylardır. Bundan əlavə, Urmiyada bir çox kəhrizlər və bulaqlar da vardır. Urmiyada yağıntı Cənubi Azərbaycanın başqa vilayətlərinə nisbətən çoxdur. Buna görə də Azərbaycanın bol suya və su mənbələrinə malik olan yerlərindən biri hesab edilir. Urmiya ərazisindəki göl (Urmiya gölü) təbii-coğrafi və ekoloji cəhətdən olduqca əhəmiyyətlidir. Göl dəniz səviyyəsindən 1275 m yüksəklikdə yerləşir. Gölün dərinliyi təqribən 15 metrə çatır. Duzluq dərəcəsi 150-300-dür.

Urmiya gölü sahillərində vilayətin havası mülayim, başqa yerlərdə isə nisbətən soyuqdur. Burada hava ümumiyyətlə mülayimdir. Şiddətli küləklər yoxdur. Havanın ən isti vaxtlarında şimal və cənub-qərbdən sərin və sakit küləklər əsir. Yerli əhali bu küləkləri «xırman küləyi», «yayın sərin küləyi», «yağışlı Salmas küləyi», «cənub küləyi», «vədə yeli» və sairə adlarla adlandırırlar. Vilayətdə

mövcud olan əlverişli iqlim, bol su, münbit torpaq burada əkinçililiyin bütün növləri və maldarlığın inkişafı üçün şərait yaradırdı.

Qədim zamanlardan Urmiyanı Salmas, Maku, Bəzirgan, Mərənd, Təbriz, Culfa, Kürdistan, Marağa, Sayınqala və başqa yerlərlə bağlayan karvan yolları var idi. Bundan əlavə, xanlıq Urmiya gölü vasitəsi ilə də başqa mahallarla əlaqə saxlamaq imkanına malik idi.

Urmiya xanlığının müxtəlif yerlərində daş kömür, mərmər, duz, mis, dəmir, mineral su və başqa mədənlər vardır. Bu mədənlərin çoxundan hələ XV yüzilin axırlarındək istifadə olunurdu. Lakin istehsal vasitələrinin çox aşağı səviyyədə olması, xarici basqınlar, daxili feodal çəkişmələri yeraltı sərvətlərin normal istehsalına və xalq kütlələrinin ehtiyacının lazımi qədər ödənilməsinə imkan vermirdi. Lakin Urmiyanın təbii-coğrafi şəraiti burada əhalinin əkinçilik, maldarlıq, bağçılıq, üzümçülük və s. məşğul olmalarına şərait yaradırdı. Urmiya şəhəri istisna olmaqla bütün xanlıqda maldarlıq və əkinçilik əsas yer tuturdu.

Urmiya ərazisində müstəqil dövlət, xanlıq yaranması qədim ənənələrə malik ölkədə təsərrüfat həyatının fəallaşmasına, məhsuldar qüvvələrin yüksəlməsinə, ticarətin və sənətlərin canlanmasına çox kömək etdi.

## Mövzu

## URMİYA ŞƏHƏRİ

Xanlığın mərkəzi qədim və zəngin tarixə malik olan Urmiya şəhəri idi.

Urmiya şəhəri-Urmiya gölünün 19 kilometrliyində, uzunluğu 70 və eni 30 kilometr olan böyük bir ovalıqda yerləşir. Şəhərlə göl arasındakı məsafə keçmişdə daha az olmuşdur.

Urmiya dəniz səthindən 1342 metr hündürlükdə yerləşir. Şəhərin havası qışda soyuq, yayda mülayimdir. Şəhər özünün bol suyu, münbit və bərəkətli torpağı, gözəl iqlimi və abadlığı ilə şöhrət qazanmışdır.

Urmiya şəhərinin tarixi çox qədim dövrlərdən bir çox yerli və xarici tarixçilərin diqqətini cəlb etmişdir. İran tarixçilərindən Məhəmmədhəsən xan, Ə.Dehxuda, Ə.Rəzməra öz əsərlərində Urmiya şəhərinin tarixi haqqında qiymətli məlumatlar vermişlər.

İran tarixçisi yazır: "Qədim və böyük olan bu şəhər deyildiyinə görə Zərdüştün şəhəri olmuşdur və Urmiya gölünün qərbində, ondan 3-4 mil aralı olan sahildə yerləşir".

Maddi və mədəni imkanlarına, coğrafi mövqeyinə və iqlim şəraitinə görə Urmiya şəhəri vaxtilə Şərqdə böyük şöhrət qazanmışdır. Urmiya şəhəri Qafqazı Kürdüstan, Qərbi Azərbaycan, habelə Beynəlnəhreyn, Kiçik Asiyanı isə Pakistan və Hindistanın bir sıra şəhərləri ilə birləşdirən ticarət yolları üstündə yerləşirdi. Zaqroş dağlarının şimal-şərq qolunu təşkil edən Sir dağı ilə Urmiya gölü arasında yerləşən bu şəhəri Tərzi təpələri Türkiyə-İran (Güney Azərbaycan) sərhəd zonasından ayırır. Zaqroş dağlarının ən yüksək zirvələrindən başlanğıcını alan Şəhər çayı şəhərə daim təravət və heyrətamiz gözəllik verməklə bərabər, onun ətrafında bağçılıq, bostançılıq və digər kənd təsərrüfatı bitkilərinin inkişafına da geniş imkan yaratmışdır.

Assur mənbələrində Armait (Urmeyate) qalasının adı Zibia (müasir Ziviyə) qalası ilə birgə çəkilir. Həmin mənbədə Manna dövlətinin paytaxtı olan İzirtunun Zibia və Armait qalalarına yaxın yerləşməsi də göstərilmişdir.

Ə.Dehxuda qeyd edir ki, Urmiya gölü Avestada Çiçəst, orta əsr müəlliflərinin əsərlərində Tila, Urmiya şəhərinə gəldikdə isə o müxtəlif mənbələrdə Armait, Tabarma (Tabarmeys) və Urmiya adlandırılmışdır.

Urmiya şəhərinin qədim tarixə malik olması faktını yazılı mənbələrdən əlavə şəhərin özü, habelə onun ətrafından əldə edilən maddi-mədəni abidələr də sübut edir. Urmiya və ona yaxın olan ərazilərdən arxeoloji tədqiqatlar zamanı tuncdan hazırlanmş uzun və gödək qılınclar, üstü naxışlı xəncərlər, ev əşyaları, zinət əşyaları və digər əşyalar əldə edilmişdir. Mütəxəssislərə görə buradan tapılan əşyalar eramızdan əvvəl VII-VI əsrlərə aiddir.

Urmiya ərazisindən tapılan qiymətli maddi-mədəniyyət nümunələrinin çoxu ABŞ, İngiltərə və Fransa muzeylərində saxlanılır. Bundan başqa bu ərazidən tapılan əşyalar İrane Bastan Muzeyində də özünəməxsus yer tutur.

Urmiya şəhəri istər Parfların, istərsə də Sasanilərin dövründə əsas atəşpərəstlik mərkəzlərindən biri və ziyarətgah olmuşdur. Urmiya eramızın VI-VII əsrlərindən etibarən Nəsturilərin (nestorianlar) də dini mərkəzinə çevrilmişdir. Zəkəriyyə Məhəmməd Qəzvininin göstərdiyinə görə Urmiya şəhəri istər ticarət, istərsə də, meyvə və başqa məhsulların bolluğuna görə Şərqdə ən məşhur şəhərlərdən olmuşdur.

Urmiya şəhəri haqqında ərəb müəllifi Yaqut Həməvi yazır: "...mən özüm şəhəri görmüşəm, çox gözəl və bolluq olan bu şəhər əlverişli iqlim şəraitinə, təbii gözəlliyinə, suyunun, meyvəsinin, habelə bostanlarının çox olmasına görə bu dövrdə olan digər şəhərlərdən fərqlənir".

624-626-cı illərdə şəhər Bizans imperatoru İrakli tərəfindən zəbt edilərək qarət edilmişdir. Mənbələr göstərir ki, Urmiya eramızın VIII əsrində Azərbaycanın ən böyük şəhərlərindən biri olmuşdur. Şəhəri düşmən hücumundan müdafiə etmək üçün onun qala

divarlarının ətrafında yerli əhali tərəfindən on min addım uzunluğunda dərin xəndək qazılmışdır. Şəhərin böyüklüyünü gözlər önünə sərən bu xəndəklərin izləri indi də qalmaqdadır. I Şah Abbasın dövründə müdafiə məqsədi ilə şəhərin cənub-şərqində qala tikdirildi və Avşar elindən iyirmi min nəfər buraya köçürüldü.

XIX yüzilin əvvələrində Azərbaycan şəhərlərinə səyahət edən Hacı Zeynalabdin Şirvani həmin dövrdə Urmiyanın vəziyyəti haqqında geniş və maraqlı məlumat verir. O yazır: «Urmiya ruha qida verən, ürək açan, sağlam havaya və bol suya malik bir şəhərdir. Onun həyətlərindən su axır... Çox gözəl sahə və xeyir verən kəndlərlə əhatə edilmişdi. Şəhərin rəngarəng meyvələrlə dolu səfalı bağları vardır".

XVIII yüzilin sonu və XIX yüzilin əvvələrində ona dəyən dağıdıcı zərbələrlə baxmayaraq, şəhər öz əzəmətini hələ də saxlamışdır. Onun tərifi həmin dövrdə yaşayan qərb və rus səyyahlarının əsərlərində öz əksini tapmışdır. Rus səyyahı Nikolay Zeydlits yazır: «Urmiya Azərbaycanın gözəl şəhəridir. O, özünün möhkəm qala divarları, geniş, düz küçələri və çoxlu meydanları ilə Təbrizdən fərqlənir».

Şəhər əhalisinin suya olan ehtiyacı Urmiya və yaxud «Şəhər» çayı adlanan çay vasitəsilə təmin edilirdi. Əhalinin əsas peşəsi bağçılıq, xüsusilə üzümçülük, sənətkarlıq, ticarət, əkinçilik və maldarlıq idi.

Xanlıqlar dövründə şəhər qalın və möhkəm daş hasarla əhatə edilmişdir. Qala divarlarının ətrafında geniş və dərin xəndəklər qazılmışdı. Şəhərə daxil olmaq üçün qala divarlarında Torpaqqala, Həzaran, Bazarbaşı, Şah Yurdu, Hindi, Məşəd, Ərk adlı darvazalar var idi.

Şəhərdə müxtəlif qollara malik olan üstü örtülü bazar və ticarət əhəmiyyəti daşıyan bazariçi karvansaralar mövcud idi.

Urmiya şəhəri və ətrafı mütəmadi olaraq kürd basqınlarına dağıntılarına məruz qalmışdı. Bu basqınlar Qacarlar dönəmində sona çatdı. Tarixçi Əminə Pakrəvan yazır: «Urmu kəndlərini kürd qaçaqçılarının yağmalanmasından qurtaran Abbas mirzəyə Azərbaycanın bu bölgəsində ayrıca bir sevgi var idi. Bu bölgələr həm də Avşar soyunun çox olduğu yer idi. Çox məğrur davranan avşarlara Abbas

mirzənin ehtiyacı var idi. Süvariliyi bir kültür olaraq ta qədimdən özləri ilə bərabər daşıyan Avşarlar Abbas mirzənin istəyinə müsbət cavab verib ordunun süvarilər qisminə qatılırdılar. Abbas mirzənin çətin günlərində də bəlli oldu ki, Avşarlar ənənələrdən gələn ehtiraslarını öz içlərində boğaraq şahzadənin islahatlarına qarşı çıxmamışlar».

# Mövzu

## URMİYA XANLIĞININ YARANMASI

Urmiya vilayətinin Səfəvilər dövründə paytaxtı Təbriz olan Azərbaycan bəylərbəyliyinin tərkibinə daxil idi. Bu vilayəti bəylərbəyilər tərəfindən təyin, şah tərəfindən təsdiq edilən hakimlər idarə edirdilər. Sonralar Urmiya hakimlərinə də bəylərbəyi ünvanı (titulu) verdilər. Urmiya hakimləri, bəylərbəyləri adətən Avşar elinin Qasımlı oymağından çıxırdılar.

1628-ci ildə I Şah Abbas Səfəvi (1581-1629) tərəfindən Kəlbəli sultan Qasım sultan oğlu İmanlı-Avşar Urmiya hakimi təyin edilmişdi. Kəlbəli sultan hakim təyin edilən çağdan quldur Bərədost tayfasını Urmiyadan təmizlədi. Onun ölümündən sonra Bərədost tayfası Urmiyanın Tərgivər, Dəst, Bərdəsür və Mərgəvər bölgələrinə hücum edib yağmaladılar.

Kəlbəli sultan 1639-cu ildə basqınçıların növbəti hücumunda öldürüldü. Onun törəmələri Qasımlı kimi tanınırdılar.

Kəlbəli sultandan sonra qardaşı Gəncəli xan Urmiyaya hakim təyin edildi. Gəncəli sultan Bərədost tayfasına tutarlı cavab verib onları Urmiyanın sərhəd-sınırlardan bayıra atdı.

Gəncəli xan 1650-ci ilədək Urmiyanın hakimi oldu.

Gəncəli xandan sonra əmisioğlu Məhəmmədqulu xan Urmiyaya hakim təyin edildi. Məhəmmədqulu xan öncə Fərəh vilayətinə başçılıq etmişdi.

Məhəmmədqulu xandan sonra Urmiyanın hakimi II Gəncəli xan oldu. Gəncəli xan Məhəmmədisa xan oğlu Urmiya şəhərində dünyaya göz açmışdı. Avşar böyüklərinin tələbi ilə II Şah Abbas Səfəvi (1642-1667) onu əmisinin yerinə Urmiyaya vali təyin etmişdi.

Dövrün görkəmli səyyahı və Osmanlı elçisi Övliya Çələbi Urmiyada Gəncəli xanın qonağı olmuşdu. Övliya Çələbi yazır: «Gördüm ki, xan telli bir cavan olub şan-şöhrətli və yaxa xadimləri pis

deyil, çox sağlam nökərləri var… nəhayət bu ehtişam və dəbdəbə ilə qalaya yaxınlaşdıq. Xan irəli getdi». Övliya Çələbi onun yanına 40 min qoyunun Van əyalətinə, Pinyaniş kürdlərinə qaytarılması tələbi ilə gəlmişdi. İbşir paşanın öyrətməsi ilə Pinyaniş kürdləri tez-tez Urmiyaya hücum edib, avşarların qoyunlarını qarət edirdilər. Avşarlar sonda cana yığılıb, Vana basqın etmişdilər. Gəncəli xanın başçılığı ilə top və tüfənglə təchiz edilmiş 20 min nəfərlik Urmiya qoşunu Osmanlı sərhədini keçdi. Onlar kürdləri cəzalandırıb, 40 min baş qoyun qənimət əldə edib yurdlarına gətirdilər.

Övliya Çələbi daha sonra yazır: «Günortadan sonra eşikağası gəlib, «Buyurun, sizi xan istər» deyincə, Van ağalarının məktublarını, Mahmudili İbrahim və Evliya bəylərin qoyun toplamaq üçün verdikləri rica məktublarını da götürdüm. Paşa əfəndimizin xana hədiyyə olaraq göndərdiyi atları qiymətli daşlarla bəzədilmiş yəhərlərlə yəhərləyib, atlas noxtalarını yedəkçilər tutub çəkirdilər. Yenə də alayla bizim əsas nümayəndələrimiz bərabər hərəkət edir və xanın adamları da öndə gedirdilər. Xan, hüzuruna çəkilən və belinə qiymətli yəhər qoyulmuş iki baş köhlən atı görüncə ağlı başından çıxdı. O biri atı da gördükdə həddindən artıq heyrətləndi...

Ertəsi gün sultanlar Urmiya divanına gəlib, üç günə iyirmi min qoyun toplayaraq həqirə təslim olundu. Dərhal Pinyanişlərin adamları ilə bizim on nəfər adamlarımıza qoyunları verib, Vana, - paşaya yolladıq».

Övliya Çələbi daha sonra qeyd edir: «Urmiyadan Təbrizə və oradan İsfahana getdiyimiz H. 1065 (1654)-ci il zilhiccə ayının birinci günü Urmiya şəhərindən çıxdığımız zaman boynunda lənət halqası olan zavallı xanı atına mindirib, atın qarnı altından ayaqlarına dəmir zəncir bağlayıb, qırx nəfəri də atlarının üstündə gərdənlərində zəncirlərə bağladılar. O uğursuz gündə Urmiyadan quzeyə doru hərəkət edərkən qarşı tərəfdən göy üzünü toz bürüdü və nəfir çalan Əcəm əsgərləri göründü. Onların içərisində bir nəfər əsgər irəli çıxdı. Birdən gördük ki, bir Əcəm əsgəri nəfir və gəranay, kus vuraraq bizə yaxınlaşdı. Və bu vaxt eşikağası ilə birlikdə bir nəfər adlı-sanlı böyük xan əli-ayağı bağlı olan Gəncəli xana yaxınlaşdı və

onlar görüşüb, ağlaşdılar. «Hökm Allahındır bəradər, gözəlcə şah sağ olsun» dedi. Və böyük alayla Urmiyaya girərkən, şəhərin torpaq (çiy kərpic) qalasında o qədər top, tüfəng atıldı ki yer, göy tir-tir titrədi. Həqir bu hal nədir? Deyə Əcəmlərdən sordum. «Buna keçəl Rüstəm xanın kiçik oğlu Tağı xan deyərlər. Bu əli-ayağı bağlı olan Gəncəli xanın yerinə Urmiyaya xanı oldu» dedilər».

Övliya Çələbiyə görə, Təbriz bəylərbəyi Gəncəli xanı danlayarkən onun əmilərinin şahın yanında xidmət etdiyini bildirir.

Gəncəli xan haqqında şah fərmanında deyilir: "Əvvala xuda adına, Məhəmməd Levlak adına.. Əvvəlki adı pis Urmiya xanın adını yox etmək üçün əli-qolu bağlı hüzuruma gətirdib, odda yandırmalıydım. Osmanlı ağaları rica etdiklərinə görə günah dəftərinə əfv qələmi çəkib, bütün malları və ərzağı yenə özünə verilsin. Tuğ, sancaq, ələm, küs, nəfir və gəranayları alınıb, xəzinəmə göndərilsin. Və özü işdən qovularaq min qamçı vurulub, azad edilsin".

II Şah Abbas (1642-1666), eli, Urmiya əhalisini dolandırmadığından, qonşu Osmanlı dövləti ərazisinə izinsiz basqın etdiyindən Gəncəli xanı valilikdən çıxarmışdı. Əvəzinə Tağı xan Pörnək-Türkman, sonra Silsüpür xan Cəlali təyin edildi. Onlar kürd basqınlarına duruş gətirə bilmədiklərindən avşarlarla əvəzləndilər.

İmamverdi xan Avşar Silsüpür xan Cəlalidən sonra, Şah Süleyman Səfəvi (1667-1694) tərəfindən Urmiya vilayətinə hakim təyin edilmişdi. O, bir müddət Urmiyanı idarə edəndən sonra vəfat etdi.

Sübhanverdi xan Avşar Fəzləli xandan sonra Şah Süleyman Səfəvi tərəfindən Urmiyaya vali təyin edildi. Onun hakimiyyəti dönəmində bir sıra hadisələr baş vermişdi. Avşar elinin qəhrəmanlıq dastanını təqdir edən Xudadad bəy Qasımlı saraya cəlb olunmuşdu. Bu hadisənin təfsilatı budur ki, Qasımlı oymağının başçısı, nüfuzlu feodallardan sayılan Məhəmmədxan bəy Avşar oğulları Xudadad bəy və Fətəli bəylə Sübhanverdi xanın yanına çağırılmışdı. Saraya daxil olanda gözətçilər onları içəri buraxmırlar. Məhəmmədxan bəy güclə içəri daxil olmaq istəyəndə gözətçilərdən biri onu təhqir edir. Xudadad bəy atasının təhqir olunmasına dözə bilməyib gözətçini xəncərlə öldürür. Digər gözətçilər tökülüb Xudadad bəyi tuturlar.

Onu Sübhanverdi xanın hüzuruna aparırlar. Sübhanverdi xan onu cəsurluğuna, cavanlığına, comərdliyinə bağışlayır. Ölənin qanbahasını özü ödəyir. Xudadad bəyi naib vəzifəsinə təyin edir.

Həmin dönəmdə bir sıra qiyamçılar sərhədlərdə yağılığa başlayırlar. Ənzal, Sumayi və Barandust (Bəradost) mahalları arasında bir sıra qətl-qarətlər baş verir. Quşçu və Qulunçu gədiklərini tutan qiyamçılar Urmiya şəhərinə gələn yolları bağlayırlar. Sübhanverdi xan bu qiyamçıları yatırmaq üçün qoşun göndərir. Qoşun əhli qiyamçıların çox möhkəmləndiyini görüb xana bildiriş edirlər. Sübhanverdi xan bu dəfə Xudadad bəyi bir dəstə ilə onların yardımına yollayır. Xudadad bəy yetişib Avşar qoşununa qoşulur. İstisu deyilən tərəfdən qiyamçı dəstəsi hərəkətə gəlir. Qiyamçılar yaxşı mövqe seçib Avşar ordusunu gülləyə tuturlar. Avşar qoşunu qaçmağa üz tutur. Bu vəziyyəti görən Xudadad bəy özünün dəstəsi ilə müqavimət göstərir. Onun müqavimətini görən digər avşarlar da geri qayıdırlar. O qədər vuruşurlar ki, qiyamçıları əzib geri qovurlar. Xeyli qənimət ələ keçirirlər. Qoşun Urmiyaya qayıdandan sonra Sübhanverdi xan qələbədən məmnun qalır, Xudadad bəyə ənam-ərməğan verir. Bu uğuru Şah Sultan Hüseyn Səfəviyə (1694-1722) bildirir. Sonra özü şahın yanına gedir. Xudadad bəyin şücaəti haqqında şaha ətraflı məruzə edir. Onun saraya gətirilməsini istəyir. Şah Sultan Hüseyn Səfəvi Xudadad bəyi qəbul edib «Nəbil xan» ünvanı, cəvahirlə işlənmiş qılınc, yəhər-yüyənli at bağışlayır. Urmiya bəylərbəyilini də fərmanla ona verir.

1707-ci ildə Xudadad bəy Qasımlı Urmiyanın hakimi təyin edildi.

1708-ci ildə Sübhanverdi xan Ərdəlani öz dəstəsi ilə Urmiya ətrafına basqın etmişdi. Xudadad xan İstisu ətrafında onu qabaqlayıb darmadağın etdi.

Xudadad xan 1722-ci ilədək Urmiyanı idarə etmişdi.

1722-ci ildən sonra Urmiyanın hakimi Məhəmmədqasım xan Qasımlı-Avşar oldu. Ondan sonra, 1724-cü ildən oğlu Məhəmmədmusa xan Urmiyaya başçılıq etdi.

Tarixçi Mirzə Rəşid Ədibüşşüara «Tarixi-Əfşar» kitabında

yazır ki, Nadirqulu xan Qırxlı-Avşar Urmiyaya gələndə Avşar elindən 2 min nəfər siyahı ilə onun qvardiyasına yazılırlar. İlkin yazılanlar içində Avşar elindən Məhəmmədmusa xan Qasımlı, Məhəmmədisa xan Qasımlı və qardaşı Məhəmmədsəmi xan, Məhəmmədqulu xan Araşlı, Bəhram bəy Araşlı, Fətəli bəy Araşlı, onun oğlu, Löhrasib bəy Mahmudlu, Mömün bəy Avşar Sayınqalalı, Qasım bəy Qasımlı, Qəhrəman bəy Ərəbli, Şəhriyar bəy Səfiyar bəy oğlu Gündüzlü, Mirzə Həmzə İmanlı və Mirzə Məhəmməd İmanlı var idilər. Nadirqulu xan qaynı Pero bəyi xan ünvanı Urmiyaya hakim təyin edib yeni təşkil etdiyi 2 minlik avşar qoşunu ilə bərabər Salmas yolu ilə Təbrizə gedir.

Təbrizdə Bisütun bəy Avşarla qarşılaşır. Nadirqulu xan Azərbaycana gələndə Bisütun bəyə məktub göndərərək həmyerli olduğunu bildirdi. Ona xan ünvanı verib Azərbaycana vali təyin etdi.

1724-cü ilin fevralında Osmanlı qoşunu yenidən Azərbaycana yürüş etdi. Bu dəfə yürüşün başlıca istiqaməti Cənubi Azərbaycan idi. 60 minlik Osmanlı qoşununun baş komandanı təyin edilmiş Van paşası Abdullanın ilk hücumuna Xoy şəhəri məruz qaldı. Bu şəhəri tutmaq üçün 3-5 minlik Osmanlı qoşunu göndərilmişdi. Osman paşanın rəhbərlik etdiyi hərbi hissələr əhalinin müqavimətini qıra bildi və şəhər ələ keçirildi. Lakin Xoy əhalisi qüvvələrini yenidən toplayaraq osmanlı qoşununu şəhərdən çıxarmağa müvəffəq oldu. Osman paşanın köməyinə göndərilmiş digər dəstə ilə birlikdə Xoy şəhəri mühasirəyə alındı. Xoy əhalisi uzun müddət müqavimət göstərdi. C.Hanveyin yazdığına görə, mühasirə 2 ay davam etdi. Xoy əhalisi osmanlı qoşununa ciddi müqavimət göstərirdi. Lakin buna baxmayaraq, şəhər ələ keçirildi və qarət edildi.

Osmanlı ordusunun baş komandanı Əli paşa Xoydan, Salmasdan Urmiyaya tərəf hərəkət edir. Urmiyanın Çaharbəxş kəndinə çatanda dayandı. Burdan topla Urmiya şəhərini vurmaq olardı. Avşarlar qalanın içinə çəkildilər. Hər iki dövlətin arasında danışıqlar getdiyindən hələlik gözləməli oldular.

Bəzi tarixçilər göstərirlər ki, Osmanlılar Xoydan sonra birbaşa Təbrizə hücum etmişlər. A. Əbdürrəhmanova görə, Osmanlı qoşun-

ları Təbrizi tutmaq üçün ilk dəfə 1725-ci ilin fevralında uğursuz cəhd etmişdi. Ancaq tarixi tədqiqatların və mənbələrin diqqətlə öyrənilməsi göstərir ki, bu hadisə 1724-cü ilin avqustunda baş vermişdi. Türkiyə tarixçisi İ.H.Danişməndin yazdığına görə 1724-cü il avqustun 31-də Təbrizin Osmanlı qoşunları tərəfindən ilk mühasirəsi uğursuz nəticələnmişdi.

J.F.Hammerə görə, vəzir Köprüllü Abdulla paşa Xoy və Çors tutulandan sonra, 1724-cü ilin avqustunda Təbrizə tərəf yola düşdü. O, Tasuca çatanda, Urmiya çayının sahilində Osmanlı qoşunları və Təbrizdən çıxan dəstələr arasında toqquşma baş verdi. Qələbə osmanlılara nəsib oldu, bundan sonra şəhər onlar tərəfindən mühasirəyə alındı. Mühasirənin 16-cı günü mühasirədə olanlar həmlə etdilər, bundan dörd gün sonra isə onlar 2 min nəfərlik qoşun və dəvələr üstündə 70 səhra topları ilə Hələbli İbrahim paşanın qarşısına çıxdılar. O, ərzaq ehtiyatları ilə osmanlı ordusunun əsas qüvvələrinə köməyə gəlirdi. İkdəli kəndi yaxınlığında baş verən döyüşdə osmanlılar məğlubiyyətə yaxın idilər, lakin Abdulla paşanın düşərgəsindən kömək vaxtında çatdı və döyüş onların xeyrinə qurtardı. Nəticədə, osmanlılar 700 əsir və 61 top ələ keçirdi.

Beləliklə, 1724-cü il kampaniyası ərzində Osmanlı imperiyası nisbətən kiçik ərazini tutmağa müvəffəq olmuş, lakin bu zaman böyük ziyan çəkmişdi, əldə olan məlumata görə, Xoy, Həmədan, İrəvan, Urmiya və Təbriz yaxınlığında 40000 nəfər döyüşçü itirmişdi.

1731-ci ildə osmanlı qoşunlarının Cənubi Qafqaza və İrana yeni, bu dəfə qısamüddətli hücumu başladı. 1731-ci il avqustun 10-da Əhməd paşa döyüşsüz Kirmanşahı tutdu. II Təhmasibin uğursuz əməliyyatları da osmanlıların müvəffəqiyyətinə şərait yaratmış. Belə ki, 1731-ci ildə Nadir Xorasanda qiyamın yatırılması ilə məşğul olduğu zaman II Təhmasib öz nüfuzunu qaldırmaqdan ötrü İrəvan və Naxçıvana yürüş etmiş, lakin məğlubiyyətə uğramışdı. Bundan faydalanan Osmanlı qoşunları irəliləyib böyük itki bahasına Urmiya şəhərini tutmuşdu.

Şah II Təhmasib Səfəvini (1722-1732) devirəndən sonra Nadirqulu xan Osmanlı imperiyasına qarşı hərbi əməliyyatları geniş-

ləndirərək, ümid edirdi ki, qələbələr hakimiyyətini möhkəmləndirməkdə ona kömək edər. O, Uğurlu xanı Gəncəyə göndərdi, özü isə yüzmin nəfərlik ordu ilə İraq tərəfə hərəkət etdi. 1732-ci ilin dekabrında Nadir qoşunla Kirmanşaha daxil oldu və Bağdadı hədələməyə başladı. Urmiyanın feodalları Nadirqulu xanın hücumunu eşidib səfərbərlik elan etdilər. Onlar qoşun yığıb eldaşlarına yardım etmək qərarına gəldilər.

İ.Neplyuyev 1733-cü il martın 1-də İstanbuldan yazırdı ki, Nadir bütün ordusu və artilleriya ilə Bağdada yaxınlaşmışdı. Bağdadlı Əhməd paşa ona qarşı Qara Mustafa paşanın komandanlığı altında qoşun göndərmiş, ancaq qoşun şəhərin girəcəyində məğlub edilmiş və Nadir Bağdadın mühasirəsinə başlamışdı.

Nadirqulu xanın hücumu Osmanlı hökumətində çaşqınlığa səbəb oldu, çünki ondan bu cür sürətli hərəkət gözləməmiş və cəbhədə kifayət qədər hazırlıq görməmişdi. Sultanın yanında çağırılan divanda mümkün qədər tezliklə qoşun toplayıb Nadirqulu xanı barışığa məcbur etmək məqsədilə əks hücum təşkil etmək qərara alındı.

Ancaq Nadirqulu xanın hücumunun qarşısını almağa nail olmayan Osmanlı komandanlığı barışıq xahiş etdi və 1733-cü ilin fevralında Nadirqulu xan və Bağdad hakimi Əhməd paşa arasında hərbi əməliyyatların dayandırılması haqqında saziş bağlandı. Osmanlı imperiyasının döyüşkən əhvali-ruhiyyəli dairələri məğlubiyyətlə barışmaq istəmir və bunun əvəzini çıxmağı tələb edirdilər. İmperiyanın ali mənsəb sahiblərindən bəziləri divanda vəziri vaxtında Əhməd paşaya kifayət qədər yardım göndərməməkdə məzəmmətləmişdilər. Vəzir isə bu ittihama cavab olaraq bildirmişdi ki, qış fəsli və qoşun pis vəziyyətdə olduğuna görə bunu edə bilməmişdir. Vəzir demişdi ki, özü qoşuna başçılıq etməyə hazırdır, lakin baş sərəsgər vəzir yox, keçmiş vəzir Topal Osman paşa təyin olundu. O, döyüşən orduya yardım göndərdi. Özü isə Bağdada gəldi.

1733-cü ildə Urmiyanı mühasirəyə alan Osmanlılar vaxtdan səmərəli istifadə edib, Urmiya şəhərinin Hindu darvazasının altından lağım vurdular. Ora xeyli barıt doldurdular. Yuxunun şirin çağında Osmanlı sərkərdəsi Əli paşa lağımı partlatdı. Urmiya hakimi

Pero xan özünü darvazaya yetirincə Qarasandıq qəbrstanlığının ətrafında yaşayan camaat silahlanıb osmanlıların qarşısını kəsdilər. Maraqlıdır ki, Pero xan qaça-qaça darvazaya gəlmişdi. Partlayışdan xəbərləri olmayan arvadlar elə başa düşdülər ki, o qorxusundan qaçır. Onu nifrətlə süzüb nifrin yağdırdılar. Pero xan isə qeyzlə osmanlı və əfqanların üstünə şığıdı. Avşarlar Pero xanın şücaətini görüb «Ya Heydəri-Kərrar» deyib hücuma keçdilər. Urmiya sərkərdəsi Qasım xan Avşar evindən çıxıb darvazaya yetişdi. Fərhad xan Qasımlı şəhərin cənub hissəsindən özünü çatdırdı. Allahverdi xan və Löhrasb bəy Mahmudlu digər tərəfdən gəlib olay yerinə yetirdi. Darvaza vuruşunda Avşar eli başçılarının çoxu yaralanmışdı. Ortada xeyli cəsəd qalmışdı. 400 nəfər osmanlı ölmüşdü. Avşarlar hücumçuları darvazaya qədər geri oturtdular. Sərhəddə yaşan əşirətlərdən bəziləri osmanlı və əfqanlara kömək edirdilər.

Osmanlı dövləti tərəfindən Bağdadın valisi Əhməd paşa Azərbaycandakı qoşunlarının başçılarına əmr verdi ki, bütün savaşlar saxlanılsın. Əli paşa bu hökmü alıb savaşı saxladı. Osmanlı dövləti ilə II Təhmasibin arasında sülh sazişi baş tutmuşdu. Urmiya hakimi Pero xan osmanlılardan əl çəkməyib ardlarına düşdü. Bir xeyli onları izləyəndən sonra geri döndü. Onlardan qənimət əldə etmişdi.

1733-cü ildə Krım tatarlarının Azərbaycana atılması ilə Osmanlı imperiyası Səfəvi dövləti ilə müharibədə üstünlüyə nail olmadı. Sentyabrda, osmanlı qoşunları tərxis olunanda, Nadirqulu xan Kərkükün yanında göründü. Baş vermiş vuruşmada osmanlı sərəsgəri Topal Osman paşa yaralandı və sonra öldü. Anadolu valisi Körpülü Abdulla paşa onun yerinə təyin olundu.

Nadirqulu xanla müharibədə çətin vəziyyətə düşmüş Osmanlı hökuməti 1733-cü ilin dekabrında Surxay xana xələt, qılınc və 100 kisə ağça göndərib, ondan Gəncə mühafizi Əli paşa və İrəvan sərəsgəri Əli paşa ilə xəbərləşərək, yazda öz dəstələri ilə Kərkük və Mosul bölgəsinə getməsini tələb edirdi.

Bu arada isə Nadirqulu xan Şəhrizuru, Kərkükü və Dərnəni ələ keçirdi. 1734-cü ilin yanvarında, o, artıq Bağdada yaxınlaşdı və nümayəndəsini Əhməd paşanın yanına göndərərək İrəvan, Gəncə,

Tiflis və Kaxetiyanın ona verilməsini tələb etdi. Əhməd paşa qalanı müdafiə edə biləcəyinə əmin olmadığı üçün öz hökuməti ilə danışıqlar aparmaq üçün 70-80 gün möhlət xahiş etdi. Bununla razılaşan Nadirqulu xan İrana qayıtdı.

Osmanlı hökuməti Nadirqulu xanla sülh danışıqları aparmağı Gənc Əli paşaya tapşırdı. Bu vaxt Nadirqulu xan Dağıstana yürüşdə olduğu üçün o, əvvəlcə Tiflisdə gözləməli oldu, sonra isə müzəffər sərkərdənin Muğandakı düşərgəsinə yola düşdü.

1735-ci ildə Nadirqulu xan parlaq zəfərlərdən sonra Muğana gəlib otraq elədi. Seçkin əmirlər qurultay çağırıb Nadirqulu xanı şah seçdilər.

Nadir şah Muğan qurultayında çox mühüm bir qərar da qəbul etdirdi. O, türk xalqları arasında ədavətə son qoymağa çalışaraq sünni və şiə məzhəblərini barışdırmaq istəyirdi. Buna görə Muğan qurultayından İstanbula xüsusi elçilik göndərildi. Nadir Cəfəri məzhəbinin sünnilüyün beşinci məzhəbi kimi tanınmasını istəyirdi.

1736-cı ildən başlayaraq Nadir şah Osmanlı dövləti ilə barışmağa və yaxınlaşmağa çalışırdı. O, Osmanlı imperiyası ilə müharibəni dayandırıb qüvvələrini xalq çıxışlarını yatırmağa və ən başlıcası Orta Asiya, Əfqanıstan və Hindistana yürüşə yönəltmək istəyirdi. Buna görə də Nadir şah öz elçilərini İstanbula göndərdi.

Nadir şahın sülh təklifindən istifadə edən ingilis diplomatiyası Rusiyaya qarşı yönəlmiş İran-Osmanlı ittifaqı yaratmaqa çalışırdı. Nadirin və Sultanın elçiləri arasında ilkin danışıqlar 1736-cı ilin mayında Ərzurumda başladı. Lakin danışıqlar uğurla nəticələnmədi. Məlum olduğu kimi 1735-ci il Gəncə müqaviləsinin üçüncü maddəsinə görə Rusiya və İran bir-birindən xəbərsiz Osmanlı hökuməti ilə müqavilə bağlamamalı idilər. Lakin Rusiya osmanlılarla müharibə vəziyyətində olduğundan Osmanlı nümayəndələri rus nümayəndələrinin sülh danışıqlarında iştirak etməsinə kəskin etiraz etdiyi üçün danışıqlar dayandırıldı. Bundan ruhlanan rus hökuməti Nadirin Osmanlıya qarşı hərbi əməliyyatları yenidən başlayacağına ümid edirdi. Peterburqdakı İran səfirinə bildirildi ki, Osmanlı hökuməti rus nümayəndələrinin sülh danışıqlarında iştirakına etiraz etdiyinə

və Nadir şah Osmanlı imperiyası ilə əlverişli müqaviləni bağlamaqdan imtina etdiyindən Rusiya da şahın razılığı olmadan osmanlılarla sülh bağlamayacaqdır.

Lakin Nadir şah əslində Rusiyanın gözündən pərdə asırdı. O, İstanbula göndərdiyi elçisinə Osmanlı sarayı ilə danışıqları ruslardan gizli davam etdirməyi tapşırmışdı.

1736-cı ilin martında Gənc Əli paşa ilə Nadirin nümayəndəsi Mirzə Məhəmməd arasında danışıqlar başlandı. Sultan IV Muradın dövründəki sərhədlərin bərpası haqqında razılıq əldə edildi. İran tərəfi 4 başlıca şərt irəli sürdü:

1. Məkkəyə həccə yola düşən İran tacirlərinin üzərinə «bac» qoyulmayacaq.

2. Şahlıq ərazisindəki əhalinin, o cümlədən azərbaycanlıların etiqad etdiyi şiəlik sünniliyin Cəfəri məzhəbi (beşinci məzhəbi) kimi qəbul edilməli və Kəbədə bu məzhəb tərəfdarlarının mərasimi icra etməsi üçün yer açılmalıdır.

3. Hər iki hökumət İstanbulda və İsfahanda nümayəndəlik açmalı və İran zəvvarları Məkkəyə həccə gedəndə onları İran nümayəndəsi müşayiət etməlidir.

4. Hər iki tərəf hərbi əsirləri azad etməlidir.

Gənc Əli paşa bu cür şərtləri qəbul etməyə səlahiyyəti olmadığını bildirdi. Ona görə Nadir müqaviləni müzakirə etmək, həmçinin özünün tacqoyma mərasimi keçiriləcəyini elan etmək üçün Əbdülbaqi xan, Mirzə Əbdülqasım və rəisül-üləma Əli Əkbər mollanı İstanbula göndərdi. Nadirin nümayəndələri 1736-cı ilin iyulunda İstanbula gəldilər və rəis-ül-kittab İsmayıl əfəndi və Rahib əfəndi ilə görüşdülər.

Sentyabrın 24-də İran nümayəndələrinə 4 şərtdən 1, 3 və 4-cünün qəbul olunduğu bildirildi. Cəfəri məzhəbinin sünnilüyün beşinci məzhəbi kimi qəbul edilməsinə dair 2-ci şərtə gəldikdə isə, onu hər iki ölkənin ruhani alim-üləmalarının ümumi müzakirəsinə vermək qərara alındı.

İkinci şərtin müzakirəsi və Nadirin tacqoyması münasibətilə təbriki üçün baş miraxur Qara Mehmet paşanın oğlu Mustafa bəyin

rəhbərliyi altında İrana elçilik göndərildi. Bu vaxt Nadir şah artıq Hindistan yürüşündə idi. Osmanlı nümayəndələri Nadirin Cəfəri məzhəbinin sünnülüyün beşinci məzhəbi kimi tanınmasına israr etdiyini bilərək, Qəndəhardan geri qayıtdılar. Beləliklə, Osmanlı-İran müqaviləsi bağlanmamış qaldı. Lakin Nadir Hindistan yürüşündə olduğuna, Osmanlı imperiyası Rusiya ilə müharibə apardığına görə Osmanlı-İran müharibəsinə bir müddət ara verildi.

Nadir şah dövlətində yeni inzibati-ərazi sisteminin əsasını qoydu. Səfəvilərdən qalma bəylərbəyiliyi ləğv edib 3 əyalət yaratdı. Bu əyalətlərdən biri Dərbənddən başlayıb Qaplankuhda bitən Azərbaycan idi. Azərbaycana qardaşı İbrahimzaman xanı başçı qoydu.

1740-cı ildə Aşur xan Babalı-Avşar Nadir şah tərəfindən Urmiya hakimi təyin edildi. 1744-cü ilədək oranı idarə etdi.

Məhəmmədisa xan Məhəmmədqasım oğlu Qasımlı-Avşar Urmiya tarixində önəmli rol oynaya simalardandır. Əvvəlcə böyük qardaşının yanında sərkərdə kimi xidmət etmişdi. Bir çox döyüşlərə qatılmışdı. Kürd əşirətlərinin qiyamlarının yatırılmasında iştirakçı olmuşdu. Nadir şah Qırxlı-Avşar Urmiyada olanda onu Qasımlı oymağına başçı təyin etmişdi.

Urmiya hakimi Aşur xan Babalı ona tapşırmışdı ki, 3 min ailəni Urmiya ətrafından Sayınqala mahalına köçürsün. O, bu tapşırığı can-başla yerinə yetirmişdi.

Onun başçılığı dönəmində Laicanda yerləşən balbaslar Urmiyanın ətrafına və Marağaya hücum edib qətl-qarətlə məşğul olmuşdular. O və Marağa hakimi bu olayı Gərmrud Qaraçimənində olan Nadir şaha yetirdi. Nadir şah oğlu Nəsrulla mirzəni və qardaşı İbrahim xan Zəhirüddövləni balbasların qiyamını yatırmağa göndərdi. Məhəmmədisa xan Urmiya tərəfindən hərəkət edib, onlara qoşulmuşdu. Birləşmiş qoşun bir sutkada Laicanın ətrafına yetişdi. Qiyamçı Balbas tayfası özünü müdafiə etmək üçün hazırlaşdı. Avşar qoşunu bir həmlədə balbasları yendi. Balbaslar qaçıb, Səmər dağına sığındılar. Səməri səngər edən balbaslar avşarlara qarşı tab gətirə bilmədilər. Balbas tayfasından toplanan 2 minlik qoşunun qırılanı qırıldı, qalanı əsir düşdü. Avşar qoşunu xeyli qənimət ələ keçirdi.

Məhəmmədisa xan Aşur xanın yerinə Urmiyanın hakimi təyin olundu. O, öz dəstəsinin başında Şirvan və Dağıstan yürüşündə iştirak etməkdən imtina etdi. Bu hərəkətlərinə görə Azərbaycan sərdarı Əmiraslan Qırxlı-Avşar onu vəzifədən çıxardı. Əvəzinə Məhəmmədkərim xan Qasımlını Urmiyaya hakim göndərdi.

Fəaliyyətinin birinci dövründə ölkəni xarici müdaxiləçilərdən təmizləyən Nadirin, şah seçildikdən sonra apardığı saysız-hesabsız müharibələri və ağır vergi siyasəti xalqın vəziyyətini daha da ağırlaşdırırdı.

1745-ci ildə Məhəmmədkərim xan Nadir şaha qarşı çıxdığına görə, tutulub kor edildi.

Nadir şahın ölümündən sonra, 1747-ci ildə Fətəli xan Araşlı-Avşar Fars əyalətinin hakimi olmuşdu. Fars əyalətində yaşayan Bayat elinin başçısı Saleh xan onu və qardaşı Məsuməli xanı qovub Şirazdan çıxartdı. 1747-ci ilin sonlarında Fətəli xan ana yurdu Urmiyaya gəlib taxta çıxdı. Urmiyanın ilk müstəqil xanı oldu.

## Urmiyanın hakimləri

| | |
|---|---|
| Kəlbəli xan Qasım sultan oğlu İmanlı | 1628-1639 |
| Gəncəli xan Qasım sultan oğlu İmanlı | 1639-1650 |
| Məhəmmədqulu xan İmanlı | 1650-1652 |
| II Gəncəli xan Qasımlı-Avşar | 1652-1654 |
| Tağı xan Rüstəm xan oğlu Pörnək-Türkman | 1654-1657 |
| İmamverdi xan Avşar | 1657-1675 |
| Fəzləli xan İmanlı-Avşar | 1675-1693 |
| Sübhanverdi xan Avşar | 1693-1702 |
| Xudadad xan Məhəmmədxan bəy oğlu Qasımlı-Avşar | 1702-1722 |
| Məhəmmədqasım xan Xudadad xan oğlu Qasımlı-Avşar | 1722-1724 |
| Yusif paşa | 1724-1729 |
| Pero xan Avşar | 1729-1740 |
| Aşur xan Babalı-Avşar | 1740-1743 |
| Məhəmmədkərim xan Qasımlı-Avşar | 1743 |
| Fətəli xan Araşlı-Avşar | 1744-1746 |

## Mövzu

## XANLIĞIN İNZİBATİ QURULUŞU

Xanlıq mərkəz Urmiya şəhərindən və mahallardan ibarət idi. Mahallar nahiyələrə, nahiyələr kəndlərə, obalara bölünürdü.

Xanlıq dönəmindən əvvəl mövcud olmuş inzibati-ərazi quruluşu xanlıqlar dövründə də olduğu kimi saxlanmışdı.

### *Dol mahalı*

Urmiya vilayətinin inzibati-ərazi vahidlərindən biri də Dol mahalıdır. Dol mahalında avşarlar binə bağlamışdılar. Dol mahalının ərazisi Qaşqagədikdən Xantavusa qədərdir. Oranın məsafəsinin uzunluğu təxminən 5 ağacdır. Tarix kitablarında yazılır: «Dol mahalı Urmiya gölünün sahilində yerləşir. Kiçik olmasına baxmayaraq çox abaddır. Dol qərb tərəfdən Kurd, Meh dağları, şimaldan Baranduz mahalı ilə həmsərhəd idi.

Dol mahalında Urmiya gölü sahilindən külli miqdarda duz əldə edilirdi. Mahalın kəndləri əsasən onun mərkəzində uzanan bağbağatlı geniş Zirə və Naznaz dərələrində yerləşirdi. Həmin kəndlərin birində, Səmədlidə mahal bəyləri yaşayırdılar. Dolun tabeliyində Rəşki-Sultanava, Pirəli, Kamanə, Nizava, Nara, Oğul Daşağıl, Birinci Kənan, Ikinci Kənan, Bərdəxoş, Nazlı, Papaz, Zivə, Carava, Şeytanava, Samurta, Xudrava, Dölə, Dördbənd, Talava, Cuşbər, Balıstan, Xan, Tavus və Təzəkənd kəndləri var».

XVII yüzildə Urmiya hakimi Kəlbəli xan Qasımlı-Avşar Dol mahalını Gündüzlü (Qaroğlu) oymağına vermişdi. Gündüzlü oymağı orda kənd salıb, arx çəkib, ağac əkmişdi.

Dol mahalındakı Gündüzlü oymağının əmirlərindən biri də Qoca bəydir. Nadir şah Qırxlı-Avşara xidmət etmişdi.

1747-ci ildə Nadir şahı öldürən qəsdçilərin arasında Qoca bəyin də adı çəkilir.

Gündüzlü oymağının adlı əmirlərindən biri də Səfiyar bəy idi. Səfiyar bəy XVII yüzilin ikinci yarısında yaşamışdı.

Səfiyar bəyin Şəhriyar bəy, Hacı bəy adlı oğulları vardı.

Şəhriyar bəy Dol mahalında doğulmuşdu. Mədrəsə təhsili almışdı. Həyatını hərb sənətinə bağlamışdı. Gündüzlü oymağının başçısı idi. Nadir şaha, Əmiraslan xan Qırxlı-Avşara xidmət etmişdi. Şahdan xan ünvanı almışdı.

Şəhriyar xan Əmiraslan xanın fərmanı ilə Urmiyaya hücum edərkən Mehdi xan tərəfindən tutulub, zindana salınmışdı.

Nağı xan Qasımlının özbaşınalığından bezən Urmiya camaatı qonşu mahallara daşındı. Bu halda Mirzə Məhəmmədrza Mirzə Məhəmmədəli oğlu Avşar bir dəstə adamla dilbir olub, qərarlaşdılar ki, Urmiyaya gəlib Nağı xanı öldürsünlər. Zindandan Şəhriyar xan Gündüzlü-Avşarı azad edib, taxta əyləşdirsinlər. Xəbərçilər Nağı xanı duyuq saldılar. Nağı xan yaxınlarından bir dəstə adamı göndərdi ki, yollarda keşik çəksinlər. O adamlardan kimi görsələr öldürsünlər. Torpaqqala adlı yerdə qəsdçilərlə üzləşən Nağı xanın adamları onları öldürüb, dəfn etdilər. Nağı xan Şəhriyar xanı da aradan götürülməsini əmr etdi. Şəhriyar xan və qardaşı Hacı xan Qaraca hamamında çimərkən yaxalandı. Hacı xan hamamın külbəsindən çıxıb qaçdı. Şəhriyar xan isə ələ keçirilib, öldürüldü.

Şəhriyar xanın Məhəmmədtahir bəy adlı oğlu vardı.

Məhəmmədtahir bəy Dol mahalında dünyaya gəlmişdi. Hərb sənəti ilə məşğul idi. Atasından sonra oymaqlarının başçısı olmuşdu. İmamqulu xan Qasımlı-Avşara xidmət etmişdi. Xandan sultan ünvanı almışdı. Müqəddəs Məkkəyi müəzzəmi ziyarətdə bulunmuşdu.

Hacı Tahir sultanın Şəhriyar bəy adlı oğlu vardı.

II Şəhriyar bəy Dol mahalında dünyaya göz açmışdı. Hərb sənəti ilə ilgilənmişdi. Atasından sonra oymaqlarının başçısı olmuşdu. Məhəmmədqulu xan Qasımlı-Avşara xidmət etmişdi. Xandan sul-

tan, sonra xan ünvanı almışdı. Müqəddəs Məkkəyi müəzzəmi ziyarət etmişdi.

Hacı Şəhriyar xan Urmiya xanlığı ləğv olunandan sonra qacarlara xidmət etmişdi. Fətəli şahdan Izəzzəddövlə ləqəbini almışdı.

Hacı Şəhriyar xanın Möhbəli xan, Əhmədəli xan, Məhəmməd xan, Cəlaləssəltənə xan adlı oğulları vardı.

Möhbəli xan Urmiyada anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Qacarlara xidmət etmişdi. Salari Müzəffər ləqəbini daşıyırdı.

Möhbəli xanın İzəzzəddövlə xan adlı oğlu vardı.

Hacı Şəhriyar xanın ikinci oğlu Əhmədəli xan Urmiya şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Qacarlara xidmət etmişdi. Fəthəssəltənə ləqəbini daşıyırdı.

Hacı Şəhriyar xanın üçüncü oğlu Məhəmməd xan Urmiya şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Qacarlara xidmət etmişdi. Sərtip rütbəsi almışdı.

Hacı Şəhriyar xanın dördüncü oğlu Cəlaləssəltənə xan Urmiya anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Qacarlara xidmət etmişdi.

I Səfiyar bəyin ikinci oğlu Hacı bəy Urmiya ətrafında anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Nadir şaha, sonra Əmiraslan xan Qırxlıya xidmət etmişdi.

1763-cü ildə Balbas və Zərza əşirətləri Rüstəm xan Qasımlı-Avşara qarşı üsyana başladılar. Gündüzlü oymağının binə bağladığı Dol mahalını qarət etdilər. Rüstəm xan bu xəbəri eşidib, Sayınqala hakimi Mömün xanı və Qarahəsənli oymağının başçısı Məhəmməd bəyi Qasımlıdərəsi yolu ilə kürdlərin ayaqlanmasını yatırmağa göndərdi. Ardlarınca özü də Qaşqagədik yolu ilə getdi. Balbas tayfası Mənqur və Pİran tayfaları ilə birlikdə Üşnəviyyə qəsəbəsində oturaq etmişdi. Rüstəm xan Qəndil ətrafına yetişəndə balbaslarla üzləşdi. Ağır bir savaş baş verdi. Nəhayət Avşar elinin şücaəti ilə Balbas tayfası yenildi. Sığnaq mahalına üz tutub qaçdı. Qarət olunmuş mallar geri qaytarıldı.

### *Nazlı mahalı*

Urmiya vilayətinin inzibati bölgələrindən biri də Nazlı mahalı idi. Mahalın ərazisi 96 kvadrat km-dən ibarət idi. O, şimaldan Ənzəl, şərqdən Urmiya gölü, cənubdan Sumay, qərbdən Urmiyanın özü ilə həmsərhəd idi. Mahalın mərkəzi Saatlı qəsəbəsi idi. Bu qəsəbə öz adını Avşar elinin Səidli oymağından almışdı. Qəsəbədə mahal hakimləri, ruhanilər və başqa imtiyazlı təbəqələr əyləşərdilər. Nazlı mahalında Avşar elinin Kuhgiluyəli (Kəhgəhli) oymağı yaşam sürürdü.

### *Rövzə mahalı*

Urmiya xanlığının inzibati yörələrindən biri Rövzə mahalı idi. Rövzə mahalı şimaldan Sumay, şərqdən Nazlı, cənubdan Tərgəvər, qərbdən Urmiya ilə sınırlanır. Sənədlərdən görünür ki, Rövzə mahalına 25 böyük və kiçik kənd bağlı idi. Əhali əsasən heyvandarlıqla və əkinçiliklə məşğul idi. Mahal bəyləri Lar adlı böyük bir kənddə yaşayırdılar. Kəlbəli sultan Qasımlı elin Qırxlı oymağını Rövzə çayının sahilində yerləşdirmişdi.

### *Sulduz mahalı*

Urmiya vilayətinin inzibati bölgələrindən biri də Sulduz mahalı idi. Mahal öz adını XIII yüzildə monqollarla Azərbaycana gəlmiş Sulduz ulusundan alıb. Qədir çayının mənsəbində yerləşən bu mahal cənub tərəfdən Firəngi dağları ilə əhatə edilmişdir. Bu dağda kükürd. əhəng və başqa minerallarla zəngin çoxlu mineral su bulaqları vardır. Mahal şərq tərəfdən Soucbucaqla həmsərhəddir. Urmiya gölünün cənubunda yerləşir. Sulduzda bir sıra Aysoru (Assuriyalı) ailəsi yaşayırdı. Bu bölgədə Avşar eli ilə yanaşı Zaza, Pİran və Məməş kürd tayfaları da qərar tuturdular.

Mahal bəyləri Rahidanə adlı kənddə yaşayırdılar. Bu kənddə müdafiə əhəmiyyətli qala və istehkamlar yox idi.

1723-cü ildə Sulduz mahalında yaşayan Balbas kürd tayfası Gündüzlü avşarlarının üstünə hücum edib, qətl-qarətlə məşğul olmağa başladı. Urmiya bəylərbəyi Xudadad xan avşar igidlərindən bir dəstəni balbasların üzərinə göndərdi. Avşarlar Qəndili-Laican adlı yerdə onların üstünə hücuma keçdilər. Balbaslar seçmə igidlərdən təşkil olunduğuna baxmayaraq məğlub oldular. Çoxlu qənimət ələ keçdi. Xudadad xan qoşununu geri çəkib, Dolmalar adlı yerdə saxladı. Qoşun çəməndə otraq etmişdi. Bir cinahdan özü şəhərə getmək istədi. Dirçələn balbaslar özlərini cəmləyib, əsirlərini azad etmək və qənimətləri geri qaytarmaq üçün qəfildən Avşar qoşununa hücuma keçdilər. Balbaslar əsirləri aparan döyüşçüləri öldürüb, yoldaşlarını azad etdilər. Bu xəbər Xudadad xana yetişcək qeyzindən özünü xəncərlə öldürdü.

1783-cü ildə Urmiya hakimi İmamqulu xanla Təbriz yürüşündə iştirak edən Balbas tayfasının başçısı Qərəni ağa Məməş Marağa yolu ilə qayıdarkən Sulduz mahalında qarətlə məşğul olmuşdu. Bu xəbəri eşidən İmamqulu xan sərkərdəsi Sərməst bəy Avşara tapşırmışdı ki, Qərəni ağanın yanına gedib, qarət olunmuş malları yiyəsinə qaytarmasını istəsin. Əgər boyun qaçırsa, ona qarşı savaş açsın. Özü də qoşun toplayıb, Sərməst bəyin ardınca getdi. Bilirdi ki, əgər savaş başlasa, Sərməst bəy az miqdar qoşunla onunla bacarmayacaq. Həm də quldurxasiyyət Qərəni ağanın tərsliyinə bələd idi.

Qərəni ağa ilə söhbətləşəndən sonra bəlli-başlı cavab almayan Sərməst bəy Avşar savaş əmri verdi. Azsaylı olduqlarından məğlub olub geri çəkildi. Sərməst bəy qaçarkən arxadan vuruldu. Yerdə çabalayarkən özünü yetirən Qərəni ağa onun başını kəsdi. Bu heyndə Avşar qoşunu özünü yetirdi. Çatan qoşun savaşa başladı. İmamqulu xan Sərməst bəyin ölməyini öyrənib, özü də savaşa qatıldı. Qərəni ağa tablamayıb, qaçdı. Digər balbas başçıları da onun ardınca götürüldülər. İmamqulu xan balbasları cəzalandırıb, xeyli qənimətlə Urmiya şəhərinə qayıtdı. Sulduz mahalından qəsb olunan mallar yiyələrinə qaytarıldı.

## *Baranduz mahalı*

Bəzi mənbələrdə bu mahalın adı Bərədost da yazılır. Mahal öz adını Bəradost tayfasından alıb. Bəradost tayfası bəzi qaynaqlarda Lolan da adlanır. Lolan İraq və İran sınırı arasındaki bölgədə yaşayan ünlü bir tayfa idi. Geniş bir coğrafi əraziyə dağılmış olan lolanlar, Urmiya xanlığının siyasi yaşamında az-çox rol oynamışdılar. Sədakan bölgəsi (İraq) lolanlarin yaşadığı ən böyük yurddur. İrandaki lolanlar Urmiyannn Somay, Bəradost, Dol, Baranduz, Mərgəvər və Tərgəvər mahallarında yaşayırdılar. Şərəfnaməyə görə lolanlar Urmiya çevrəsində güçlü bir bəylik qurmuşdular. Lolanlar Dumdum savaşında (1609-cu ildə Bəradost ağası Əmir xan Lepzerin və I Şah Abbas arasında meydana gələn döyüşdə) məğlubiyyətə uğradılar. I Şah Abbas Kəlbəli sultan Qasım xan oğlu İmanlı-Avşara tapşırdı ki, Bəradost tayfasını Urmiyadan çıxarsın. Onlar osmanlılara qulluq edirdilər və bölgədə yağma ilə məşğul olurdular.

V. Minorski Bəradost tayfası haqqında yazır: "Bəradostlar dövri: "Aləm-araya" görə, Şah Təhmasib zamanında Urmiyada böyük əmirlər vali olarkən Şahsevən kimi tanınan Bəradost tayfası Kara Tac, Tərgəvər ilə Mərgəvəri almış idi. 1012 (1603) –ci ildə I Şah Abbas, Osmanlılara boyun əyməyən Əmir xan Bəradosta sədaqətinin mükafatı olaraq Urmiya ilə Uşnu mahalını verdi. Fəqət bu Əmir xan Bəradost, Urmiya qalasının sağlam olmadığını bahanə edərək Dumdum qalasını da özü üçün istədi. Bu istək şahda şübhə oyandırdı. Dumdum 1019 (1610)-cu ildə ildə zəbt edildi və Urmiyanın Ölgə bölgəsi, Kaban xan Bəydiliyə təslim olundu. Bəradostlar bir hiylə ilə Dumdumu yenidən ələ keçirdilər. Bundan sonra Kaban xanın yerinə (Təbrizli) Budaq xan Pörnək və nəhayət (Maragalı) Ağa xan Müqəddəm gətirildi. Bununla bərabər eyni qaynaq şahlığın böyük rütbəli əmirlərini sayarkən Urmiya valisi olaraq Avşar elinin Imanlu oymağından Qasım xanın oğlu Kəlbəli sultanı zikr edir".

Kəlbəli sultan 1628-ci ildə I Şah Abbasın fərmanı ilə Urmiyanın hakimi təyin olunmuşdu. O, 8 min avşar ailəsini İraq, Fars,

Kerman və Xorasandan köçürüb Urmiyaya yerləşdirmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəara yazır: «Osmanlılar və İranın bir sıra sərhəddə yaşayan kürd tayfaları Təmir xan Əmir xan oğlunun təhriki ilə Avşar elinin Urmiyaya qayıtmasına mane olmaq istədilər. Salmasın Qarasu bölgəsində Kəlbəli xanla üzbəüz gəlib, savaşa başladılar. Avşar elinin qəhrəmanlığı sayəsində məğlub oldular. Bir hisəsi öldürüldü, bir hissəsi isə qaçıb, dağlara sığındı. Kəlbəli xan uğurla, öz eli ilə bərabər Urmiyaya daxil oldu. Elini yerbəyer edib öz idarəsinə başladı. Avşar elinin hər oymağına bir mahal, bir nahiyə verib, yerləşdirdi».

Kəlbəli sultan el-oymaqları mahal və nahiyələrdə yerləşdirəndən sonra paytaxtda az miqdar qoşun saxlmışdı. Bəradost tayfası yenidən Urmiyaya hücum edir. Tayfa ağsaqqalları güclərinin az olduğunu bildirib, barış təklif edirlər. Elə bu vaxt Kəlbəli sultanın hərəmxanasından üstü örtüklü bir qızıl məcməi gəlir. Örtüyü qaldırırlar. Baxırlar ki, bir siyirmə qılınc var. Tayfa başçıları bu işarənin səbəbini soruşurlar. Kəlbəli sultan deyir ki, namusu, şərəfi olan düşmənə təslim olmaz. Savaşmaq istəyən qılıncı götürüb, meydana getsin, təslim olmaq istəyən örtüyü başına bağlayıb, hərəmxanaya daxil olsun.

Bu sözdən sonra avşar əmirləri birləşib düşmən üstünə gedirlər. Qarahəsənli yaxınlığında savaş baş verir. Kəlbəli sultan baxır ki, düşmənlər uşaq kimi qarşılarından qaçır. Fikirləşir ki, qaçmaqla onlara qurğu qurublar. Sonra baxır ki, öz cinahının ardından 300-400 atlı əlində nizə gəlir. Düşmənlər onları görüb, qaçmağa üz tuturlar. Kəlbəli sultan düşmən qaçandan sonraköməyə gələnlərin kimliyi ilə maraqlanır. Onlar kişi paltarı geymiş avşar qadınları idilər…

Təmir xan 1629-cu ildə bir dəstə kürdü başına yığıb, Urmiyaya hücuma keçir. Kəlbəli xan ona məktub göndərib sülhə dəvət edir. Nəsihət kar etmədiyini görüb onun yerləşdiyi Dumdum qalasına qoşun göndərir. Öncə qardaşı və sərkərdəsi Gəncəli xana tapşırır ki, qalanı mühasirəyə alsın. Qala sərhəddə yerləşirdi. Tayfasın mərkəzi sayılırdı. Bu əşirət təəssüb üzündən Təmir xana qoşulmuşdu. Gəncəli xan bir müddət qalanı mühasirədə saxlasa da, ala bilmədi. Kəl-

bəli xan özü onun ardınca gəldi. Avşarın seçmə oğullarını da gətirdi. Həmin günün axşamçağısı qalanın ayağına yetişdi. Mühasirəni yoxladı, hazırlığı, hücum planını nəzərdən keçirdi. Sonra bütün qüvvə ilə sağdan, soldan qalaya hücuma başladı. Qalanın şərq və qərb hissəsini ələ keçirdi. Bu vəziyyəti görən kürdlər özlərini müdafiə etmək üçün qaladan çıxdılar. Günbatana qədər şiddətlə vuruşdular. Kürdlərin çoxu avşarların qılıncına tuş gəldi. Qalanı qaçıb, yenidən qalada daldalandı. Sabahı gün kürdlər avşarların qorxusundan qaladan çıxmadılar. Fəqət, aralıdan top-tüfəng atmaqla günü sovdular.

Kəlbəli sultan gecə müşavirə çağırıb, səngər qazdırdı, yollar çəkdirdi. Onun tapşırığı ilə bir qatırı üç gün yedirdib, su vermədilər. Üç gündən sonra qalanın ətrafına dolandırdılar. Qatır su xəttini tapıb, eşələməyə başladı. Avşarlar qazıb, su xəttinə neft tökdülər. Qaladakılar bir-iki gün də dözəndən sonra təslim olduqlarını bildirdilər. Qaladakı ruhanilərə quran möhrlətdirib, Kəlbəli sultana göndərdilər. Kəlbəli sultan onlarla şərt kəsdi ki, top-tüfənginizi qoyub, özünüz rədd olun. Təmir xan şərtə əməl etdi. Kəlbəli sultan qənimətləri avşar döyüşçüləri arasında bölüşdürdü.

Səfəvilər zamanında Urmiya xalqı arasında şiə məzhəbini qəbul etmə ancaq fərdi olaraq görünür. Bugünə qədər oradaki kürdlər və bəzi kəndlər (Balov) hələ də sünnidir. (Sünni) Nəqşibəndi şeyxlərinin nüfuzu haqqında bu vəqa bir fikir verə bilir: 1639-cu ildə Sultan Murad, Diyarbəkirdə 30.000 – 40.000 müridi olan Urmiyali Şeyx Mahmudu öldürtdü. Onun əcdadı da Urmiya şeyxləri idi".

Cənubdan Tərgəvər, şərqdən Urmiyə mahalları şimaldan Balaşan yüksəkliyi, qərbdən Şəkən bulağı, Dilavan və Nuşİrəvann gədiyi ilə həmsərhəddir. Mahalın kəndləri dağ ətəklərindı və düzənliklərində yerləşmişdir.

Baranduz (Bəradost) adlı çay düzənlikdə salınan kəndləri su ilə təmin edirdi Mahalın hakimləri həmin düzənliyini cənubundakı Bəydostu dağınının üzərində salınmış "Kun-i miş" adlı qalada sakin olurdular. Bu qala Urmiya xanlığının həbsxana funksiyasını da yerinə yetirirdi. Qala başçıları xanın tələb etdiyi vaxtlarda divanxa-

nanın sərəncamına dörd yüzə qədər silahlı döyüşçülər göndərə bilirdilər.

Baranduzda (Bəradostda) avşarlardan əlavə, Bəradost, Şəkkak, Zərza, Cəlali kürdləri və çoxlu aysoru da yaşayırdı.

Məhəmmədmusa xan dayı tayfası olan Zərzalardan məktub alır ki, əgər atanın qisasını almaq istəsən yardımına hazırıq. O, razılaşıb, balbasları da ətrafına toplayır. Baranduz mahalında bir qalaya əyləşib, qoşunun sayını artırır. Sonra şəhərə hucum edir. Urmiyanın kənarında Osmanlı hakimi Yusif paşanın qoşunu ilə rastlaşır. Zərza və Balbas tayfasının əhalisi igidliklə vuruşurlar. Yusif paşa məğlub olub, Urmiya qalasına çəkilir. Avşar ağsaqqaları araya girib, vasitəçilik edirlər. Məhəmmədmusa xan Yusif paşa ilə barışır. Baranduz mahalına çəkilib, aşirət əhlini hörmətlə yurdlarına yola salır. Bu hadisə 1728-ci ildə (hicri qəməri 1140-cı ildə) baş vermişdi.

Baranduz (Bəradost) mahalında Cəlali tayfası da məskunlaşıb. Cəlali tayfası (20 min nəfər) I Şah Abbasın hakimiyyəti dönəmində Osmanlı sədrəzəmi Quyucu Murad paşanın qarşısından qaçaraq Səfəvilərə sığınmışdı. Şah Abbas Cəlalilərdən səkkiz min nəfəri Bəradost bölgəsində, qalanını isə Maku ətrafında yerləşdirmişdi.

### *Ənzəl mahalı*

Urmiya vilayətinin inzibati bölgələrindən biri də Ənzəl mahalı idi. Bu mahal bəzi mənbələrdə Qarabağ da adlanır. Ənzəl mahalı şimaldan Salmas, şərqdən Urmiya gölü, cənubdan Sumay mahalı və qərbdən Baranduz çayı ilə həmsərhəddir. Mahal I Şah Abbas dövründən (1611-ci ildən) başlayaraq, xanlıqlar dövrünədək Yəhya bəy və daha sonra onun nəsli tərəfindən irsi olaraq soyurqal və tiyul hüququ əsasında idarə edilirdi.

Ənzəl mahalının bəyləri Xantaxtı adlı kənddə sakin idilər. Bu kənddə Sasanilər dövrünə dair tarixi abidələr mövcüddur.

Ənzəl mahalında Avşar elinin Çapuqlu oymağı binələyirdi. 1724-cü ildə Qızılbaşlar məmləkətinin hər guşəsində üsyanlar baş vermişdi. Ənzəldə, Göyərçinlik qalasında yaşayan Çapuqlu oyma-

ğından Qasım xan adlı bir nəfər Urmiya hakimi Məhəmmədqasım xan Qasımlı-Avşara qarşı üsyan qaldırmışdı. Məhəmmədqasım xan qoşun çəkib, Urmiyadan Ənzəl tərəfə getdi. Şəhərin yarımağaclığında, Qarahəsənlidə qarşılaşdılar. Döyüş baş verdi. Qasım xan Çapuqlu Məhəmmədqasım xanın qarşısında duruş gətirməyib qaçdı. Onu tutub, hakimin yanına gətirdilər. Məhəmmədqasım xan onun başını kəsdirib, Ənzəl mahalına göndərdi.

Məhəmmədqasım xanın hakimiyyəti dönəmində Osmanlı ordusu Urmiyaya hücum etmişdi. Qasım xan Çapuqlunun qohum-əqrabası Osmanlı ordusunun baş komandanı Sarı Mustafa paşanın yanına gedib, Məhəmmədqasım xandan şikayət etdilər. Sarı Mustafa paşa sərkərdəsi Yusif paşanı 10 min nəfərlik qoşunun başında Urmiyaya göndərdi. O, Urmiyanı alıb, hiylə ilə Məhəmmədqasım xanı əsir tutdu. Məhəmmədqasım xan öncədən ailəsini, oğul-övladlarını şəhərin 2 ağaclığındakı Baranduz mahalına göndərmişdi.

Yusif paşa Məhəmmədqasım xanı bir gecə qonaq saxlayıb, yedirib-içirtdi. Sonra başını kəsib, Sarı Mustafa paşaya yolladı. Sarı Mustafa paşa Ənzəl mahalına gedib onun başını düşməni Qasım xanın ailəsinə verdi.

Məhəmmədqulu xan Ənzəl mahalını xarici basqınlardan qorumaq üçün adlı sanlı sərkərdəsi və divanbəyisi İbrahim xan Araşlı-Avşarı naib təyin etmişdi. Tarixçi Mirzə Rəşid Ədibəşşüara yazır ki, Məhəmmədqulu xan İbrahim xan və başqa sərkərdələrə ənam-ərmağanlar payladı. İbrahim xana göstəriş verdi ki, Ənzəl mahalına qayıdıb, Göyərçinlik qalasında keşik çəksin.

Xoy hakimi Əhməd xan Dünbili İbrahim xana nifrət edirdi. Onun qoçaqlığı, qorxmazlığı, uğurları Əhməd xanı dindən-dondan çıxarırdı. Ona qarşı bir iş görə bilmədiyindən, hiylə işlətməklə onu aradan götürmək qərarına gəldi. Bacısını xeyli pay-pürüşlə Məhəmmədqulu xana arvad göndərib, onunla yaxınlıq etmək istədi. Nikah diplomatiyasından istifadə etdi. Məhəmmədqulu xana məktub yazıb, bildirdi ki, bu qədər uğuruna, qələbələrinə İbrahim xan kölgə salır. Hər yerdə qürrələnib, bildirir ki, Məhəmmədqulu xan mənim qılıncımın hesabına taxta əyləşib. Gəl sən onun çarəsinə bax,

gələcəkdə sənə ziyanı toxuna bilər. Araşlı oymağına etibar etmək olmaz. Əhməd xanın bu məktubu Məhəmmədqulu xanı şübhəyə saldı. İbrahim xanı aradan götürmək üçün çarə axtardı. Fikirləşib, Ənzəl mahalına kəklik ovuna yollandı. İbrahim xan el-oymağı başına yığıb, Məhəmmədqulu xanın pişvazına çıxdı. Ovdan sonra Məhəmmədqulu xan İbrahim xanı Ənzəldə buraxmayıb, özü ilə bərabər Urmiyaya götürdü. Məhəmmədqulu xan İbrahim xanı bir neçə gün sarayda saxlayandan sonra ortalığı boş görüb, bir xali otağa dəvət etdi. Böyük oğlu Mustafaqulu xanı öyrətdi ki, get İbrahim xanın xəncərini al. Mustafaqulu xan atasının tapşırığına əməl etdi. İbrahim xan etibarına, xidmətlərinə görə, heç vaxt ağlına gətirməzdi ki, Məhəmmədqulu xan onu cəzalandıra bilər. Fərraşbaşının müavini Saqi bəy bir dəstə fərraşla otağa girib, bildirdi ki, xanın əmrinə görə sənin gözlərini çıxarmalıyıq. İbrahim xan əllərini yanına salıb susdu.

Ənzəl mahalına daxil olan kəndlər: Alkan, Bəlleyi, Zəngava, Səncilək, Meyşek, Hərmuvə, Kasıb, Koləng və Qırmandan ibarət idi.

## *Sayınqala mahalı*

Bu mahal hazırda Şahindej adlanır. Tarixi kitablarda mahal haqqında yazılır: «Marağanın cənub-şərqində yerləşən bu mahal şimaldan Əcirli, Çahardol mahalları, cənubdan Saqqız mahalı, şərqdən Tikab mahalı, qərbdən Bokan mahalı ilə həmsərhəddir. Əhali əsasən maldarlıqla məşğul idi”.

Mahal onun qərb sərhəddindəki Cığatu çayının Sarıq qolu və burada mövcud olan bulaqların suyu ilə təmin edilirdi. XVIII, XIX yüzillərdə Sayınqaladan başqa yerlərə gedən yollar (Miyandab və Tikab yollarını istisna etməklə) yararsız idi. Nisbətən əlverişli olan Miyandab və Tikab yolları da yağışlı və qarlı günlərdə keçilməz olurdu.

Mahalın cənub-qərbində Kirifli (Kərəftu adlanır) dağı uzanır. Orada bir sıra mağaralar vardır. Dağın müxtəlif yerlərində və mağaraların divarlarında çoxlu daşüstü təsvirlər və yazılar vardır.

Mərkəzi Kürdistan əyalətinə gedən yol üzərində yerləşən Sayınqala kəndi müəyyən strateji və hərbi əhəmiyyətə malik idi. Sayınqalada Böyük xan, Mirzəcan, Qırxayaq və Şah Məhəmməd Novdanı adlı çeşmələr axırdı. Çox güman ki, kənddə müdafiə əhəmiyyətli Sayın adlı qalanın olması ilə əlaqədar olaraq ona həmin ad verilmişdir». Sayınqala ətrafında Avşar elinin Araşlı və Qasımlı oymaqlarının tayfa-tirələri yaşayırlar.

Sayınqala mahalında Mahmudcuq (şiə kürdlər), Səfəxana, Ağtəpə kimi kəndlərdə kürdlər qərar tuturlar.

Məhəmmədmömün xan Sayınqala şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Nadir şah Qırxlı-Avşara xidmət etmişdi. Sayınqalanın hakimi idi. Nadir şah Mosul savaşından qayıdandan sonra Urmiyada oturaq etmişdi. Onu yanına çağırıb, hesab-kitab istəmişdi. Hesabda naqis faktlar olduğunu görüb, Mömün xanın gözlərinə mil çəkilməsini əmr etmişdi. Sonra onu yenidən Sayınqalaya hakim göndərmişdi.

Mömün xan Urmiya xanlarının hamısına can-başla qulluq göstərmişdi. Rüstəm xan Qasımlı-Avşara sərkərdə kimi xidmət etmişdi. Rüstəm xanın hakimiyyətinin ilk illərində Balbas və Zərza əşirətləri üsyana başladılar. Gündüzlü oymağının binə bağladığı Dol mahalını qarət etdilər. Rüstəm xan bu xəbəri eşidib, Sayınqala hakimi Mömün xanı və Qarahəsənli oymağının başçısı Məhəmməd bəyi Qasımlıdərəsi yolu ilə kürdlərin ayaqlanmasını yatırmağa göndərdi. Mömün xan onların fitnəsini dəf etmişdi.

Mömün xan Rüstəm xanın qətl xəbərini eşidib, qoşunu ilə Urmiya şəhərinə yürüş etdi. Şəhərə daxil olub hakimin qəsdçilərini həbs etdirdi. Bazar meydanında Bağır bəyi və yardımçılarını tikə-tikə doğratdırdı. Müvəqqəti olaraq Urmiyaya hakimlik etməyə başladı. Avşar elinin oymaq başçılarını bir araya toplayıb, məsləhətləşmə apardı. Kimin hakim olması məsələsi ortalığa gəldi. Bütün avşar bəyləri bir ağızdan bildirdilər ki, Məhəmmədmusa xanın oğlu Rzaqulu xan məsləhətdir. Dədə-babadan onlar Avşar elinə başçılıq ediblər. Təəssüf ki, o Kərim xan Zəndin yanında girovdur.

Mömün xan və Avşar elinin başçıları məsləhətləşib, Kərim xan Zəndə Rzaqulu xanla ilgili müraciət etdilər. Onun ardınca göndərilən heyətə Mirzə Məhəmmədcəfər İmanlı başçılıq edirdi. Mirzə Məhəmmədcəfər, Lütfulla bəy Ustaclı, Kəlbəli bəy Avşar və başqaları Şiraza yola düşdülər. Kərim xanın yanına gedib, ərizəni təqdim etdilər. Kərim xan olandan çox təəssüflənib, Mömün xanın, avşar elinin başçılarının və Rzaqulu xanın bacısı olan arvadının razılığını nəzərə alıb, bu istəyi qəbul etdi.

Rzaqulu xan Urmiyaya dönəndən sonra Mömün xanı özünə naib təyin etdi.

### *Üşnü mahalı*

Urmiya xanlığına bağlı məntəqələrdən biri də Üşnü mahalı idi. Üşnü mahalı şimaldan Urmiya, şərqdən Sulduz, qərbdən Qasımlı dərəsi ilə həmsərhəddir.Üşnü ümumiyyətlə dağlıq yerdir. Lakin onun əsas kəndləri mahalın mərkəzində uzanan düzənlikdə yerləşir.Qaradağ və Kəlləşin dağları arasındakı dərələrdən axan Əlixan və Ağçay bu düzənliyə tökülür.Həmin çaylar ovalığı suvardıqdan sonra Qədirçayla birləşir. Urmiya şəhərinin su ilə təmin edən məşhur Şəhər çayı da həmin düzənlikdən keçməli olur.

Mahalın mərkəzi Üşnü şəhəri idi. Bəzi qaynaqlarda bu şəhər Üşnəviyyə adlanır. Dağlar qoynunda salınan bu köhnə şəhər gözəl iqlim şəraitinə malikdir. Orada çoxlu taxıl, dənli bitkilər və meyvə məhsulları istehsal edilirdi. Mahal bəylərinin iqamətgahı şəhərin şimal tərfində yerləşən "Dərin qala" adlı kənd idi. Sıldırım qayaları üzərində salınmış bu qalaya "Üşnü qalası" da deyilirdi. Qalada 600-ə yaxın ailə yaşayırdı. Burada iki xanəgah və Çarsu bazarı var idi. Bazarda müxtəlif peşələrlə məşğul olan sənətkarlar və tacirlər fəliyyət göstərirdilər.

Şəhər əhalisi natural vergilərdən başqa xanın xəzinəsinə ildə müəyyən miqdarda pul da göndərirdilər.

İmamqulu xan və Məhəmmədqulu xanın hakimiyyəti dönəmində Üşnəviyyə (Üşnü) mahalının hakimi Nuh bəy Zərza idi.

### *Dəşt mahalı*

Urmiya xanlığına bağlı məntəqələrdən biri də Dəşt mahalı idi. Dəşt mahalının ərazisi əsasən dağlıq və təpəliklərdən ibarətdir. O, cənubdan Mərgəvər, şərqdən Urmiya gölü, şimaldan Bərrə, Rövzə, qərbdən Mirşeyxi və Zərinə çayları ilə həmsərhəddir. Mahalın dərələrindən və düzənliklərindən bir sıra çaylar, çeşmələr axır. XVIII və XIX yüzilliklərdə mahal bəyləri Bərdəsur kəndindəki qalada yaşayırdılar. Dəştin dağlarında bir neçə tayfa, o cümlədən Hərgi adlı kürd tayfası yaşam sürürdü. Onlar qışda Amadi vadisinə köçürdülər.

### *Mərgəvər mahalı*

Mahal Şəmdinan, Ovsi, Qəsəbəli kəndləri və Bərdəsur mahalı ilə həmsərhəddir. Mahalın ərazisi əsasən dağlıqdır. Onun ən böyük düzənliyi uzunluğu 5 və eni 1, 5 mil olan ovalıqdır.

Mərgəvərin əhalisi Pinar çayının suyundan istifadə edirdi. Mahalda çoxlu su mənbələri olduğundan onun havası çox vaxt dumanlı və rütubətli olurdu.

Mərgəvərdə heyvandarlıq geniş inkişaf etmişdir. Mahalda yem ehtiyatı tükənməz olduğundan yerli maldar əhalidən başqa, bir sıra kürd əşirətləri də öz mal-qarasını həmin otlaqlada yemləyirdilər.

Mərgəvər mahalı kürd basqınçıların yolu üzərində yerləşirdi. Tarixən yağmaçı kürdlər bu yoldan istifadə edib Urmiya vilayətinə korluq vururdular.

1639-cu ildə Urmiya vilayətə hücum edən kürdlər mahal əhalisinə xeyli zərər vermişdilər. Kürdlər Tərgəvər, Mərgəvər mahalları tərəfdən Urmiyaya hücuma keçmişdilər. Urmiya ətrafında kürdlərin qabağını kəsən Gəncəli xan İmanlı-Avşar onları məğlub etmişdi.

Kəlləşin dağının qərb tərəfində hündür və əlçatmaz yerdə mövcud olan Pinar qalası mahalın mərkəzi idi. Xanlıq dönəmində qalada iki yüz nəfərlik daimi silahlı dəstə saxlanılırdı.

Mərgəvərin əhalisi cəsarətli və döyüşkən ruhlu adamlar idi. Ağır təbii şərait onların davamlı və dözümlü tərbiyə olunmasına müsbət təsir göstərmişdi. XVIII əsrin 3-cu illərində Azərbaycan ərazisində gedən İran-Osmanlı müharibələri mahal əhalisinin seyrəkləşməsinə və bir çox kəndlərin dağılmasına səbəb olmuşdur.

Məşhur Dumdum qalası Mərgəvər mahalında yerləşirdi.

### *Tərgəvər mahalı*

Cənubdan Dəşt, şərqdən Urmiya mahalları, şimaldan Nazlı çayı, qərbdən Mərgəvərlə həmsərhəddir. Mahalın əsas düzənliyi Deyr dərəsindən başlayaraq şimal-şərqə-Bərdərəş və Ərzin qalalarına qədər geniş məsafədə uzanır. Mahalın ərazisi Nazlı çayından ayrılan və Meşgin adı daşıyan qolun suyu ilə təmin edilir. Bu çaydan əlavə Tərgəvərdə çoxlu bulaq da vardır.

Maşqan çayının sahilində salınan Ərzin qalası Tərgəvər hakimlərinin sakin olduqları yer idi. Lazım gəldikdə mahal xanlığın ixtiyarınna 200 nəfər döyüşçü göndərə bilərdi.

Mahalda aşağıdakı kəndlər daxil idi: Əbni, Telli, Tüləkə, Şeyban, Balaoğlan, Haruran, Məvanə, Həni, Əşki, Xinəki, Əvi, Dostlar və Ərzin. Bu kəndlərdən Tüləki, Məvanə, Həni və Balaoğlan kəndlərinin sakinləri əsasən Aysori xristianları idilər.

XVIII yüzilin sonlarında kürdlərin Hərki tayfası Tərgəvər mahalında binələmişdi. Bu əşirət üsyana başladı. Məhəmmədqulu xan həmin mahaldakı adamlarına göstəriş verdi ki, hərkiləri qovub çıxarsınlar. Hərki üsyanı yatırıldı.

Məhəmmədqulu xan Avşarın hakimiyyəti dönəmində Tərgəvər mahalının naibi İbrahim xan idi.

## *Sumay mahalı*

Cənubdan Baranduz, şərqdən Urmiya, şimaldan Salmas mahalı, İskəndər və Sultan adlı kiçik dağlarla həmsərhəddir. Mahal dağlıq sahə olduğu üçün onun sakinləri əsasən maldarlıqla məşğul olurdular. Eyni zamanda burada əkinçiklik də yayılmışdır.

Sumay Türkiyə sərhəddində yerləşdiyinə görə daima münaqişə obyekti idi. Nəticədə oradakı kəndlərin təxminən yarısı tamamilə dağılmış və sıradan çıxmışdır.

Sumay bəyləri Bələkə kəndində salınmış qalada yaşayırdılar.

## *Bərdəsur mahalı*

Mərgəvər, Şəmdinan, Urmiyə və Tərgəvər mahalları ilə əhatə edilmişdir. Onun inzibati mərkəzi yüzdən artıq evi olan Bərdəsur kəndi idi. Bu qala yerli hakimlərin iqamətgahı idi. Qalada dövlət işləri ilə məşğul olan hissə "Ələmlik", yerli hakimin ailəsinin yaşadığı hissə isə "Hərəmlik" adlanırdı. Orada Nəqşibəndi təriqətinə mənsub xanəgah var idi. Xanlıqlar dövründə burada həmin təiqətin baş ruhanisi Xəlifə Şeyx Səid Saleh və onun xəlifələri otururdu.

Bu ruhaniyə "Pustnişin" Xəlifə deyilirdi. Mahalda bir çox adam həmin Şeyxə etiqad edirdi, o, ümumiyyətlə bütün Urmiya vilayətində nüfuza malik idi. Hakim xanlar bu təriqətə mənsub olan əhalinin ələ almaq məqsədilə şeyxə bir neçə kənd vəqf etmişdilər.

Bərdəsur qalasında mahal hakimindən başqa, nüfuzlu bəylər, ruhanilər və başqa imtiyazlı təbəqələr yaşayırdılar. Bunlardan əlavə, orada 400 nəfərə yaxın silahlı dəstə var idi. Qalanın üzərindəki kitabədən məlum olur ki, o, Gülənbər adlı bəy tərəfindən XII yüzilin axırlarında Osmanlı basqınlarından və yarımköçəri tayfaların hücumlarınndan qorunmaq üçün tikilmişdir.

## *Bəykişili mahalı*

Xanlığın kiçik mahallarından biri olan Bəykişili şimaldan Nazlı çayı, şərqdən Urmiyə gölü, cənubdan Urmiya mahalı, qərbdən Baranduzla həmsərhəddir. Mahal öz adını Avşar elinin Bəykişili oymağından alıb. Bəykişili oymağı əsasən Urmiya bölgəsində köç-düşlə məşğul id. Tarixi ədəbiyyatda bəzən Bəgəşli, Bəgişli kimi də yazılır.

Bəgişli oymağının ünlü nümayəndələrindən biri Pənah bəy idi. Pənah bəy Fətəli xan Araşlı-Avşarın sərkərdələri arasında qoçaqlığı ilə seçilirdi.

Bəgişli oymağının ünlü simalarından biri də Fətəli bəydir. Fətəli bəy Fətəli xan Araşlı-Avşara xidmət etmişdi.

Bəgişli oymağının məşhur nümayəndələrindən biri də Qulu bəydir. Qulu bəy Fətəli xan Araşlı-Avşarın qoşununda qulluq etmişdi.

Bəgişli oymağının tanınmış nümayəndələrindən biri də Mehrab xandır. Mehrab xan Avşar Fətəli şah Qovanlı-Qacarın tanınmış sərkərdələrindən idi.

Bəykişili mahalının ərazisi əsasən düzənlikdir. Onu təşkil edən 51 kənd həmin düzənlikdə yerləşirdi. Burada əkinçilik geniş yayılmışdı. Əkin sahələri, bağ və bostanlar ümumiyyətlə çay və və çeşmə suları ilə suvarılırdı.

Xanlığın əsas limanlarından biri olan Gölmanxana bu mahalda yerləşirdi. Mahalın mərkəzi Miyavəq kəndində kiçik bir qala idi. Bu qala xarici işğalçıların hücumu nəticəsində sonralar xarabaya çevriıdi.

## *Təkab mahalı*

Marağa xanlığının cənub-şərqində yerləşən ən böyük mahallardan biri idi. O, şimaldan Sərəs, Qaraağac, cənubdan Miranşah, şərqdən Ənguran, qərbdən Sayınqala mahalları ilə həmsərhəddir. Mahalın ərazisi dağlıqdır. Bulaq və buradan axan yeganə Təkab

çayı əhalini su ilə təmin edirdi. Təkab mahalı çox geniş əraziyə malik olduğu üçün inzibati cəhətdən Tikantənə və Aşağı Təkab nahiyyələrinə ayrılırdı.

Təkab mahalının ümumi inzibati mərkəzi mühüm ticarət və strateji əhəmiyyəti olan Tikantanə kəndi idi. Burada dükanlar, həftəbazarı və hamam var idi.

### *Miyandab mahalı*

Mahal Marağanın cənub-qərbində, Urmiyə gölünün sahilində və tam düzənlikdə yerləşmişdir. O, şimaldan Kavdil kəndi, cənubdan Tatau, şərqdən Cığıtı və qərbdən Urmiyə gölü ilə həmsərhəddir. Miyandabın havası istiyə maildir və ərazisinin müəyyən hissəsi bataqlıqdır. Burada ilin bütün fəsillərində mal-qaranın otlaması üçün yaş yem olduğu üçün qoyunçuluq geniş yayılmışdır.

Mahalın mərkəzindən əlavə, onun böyük kəndləri olan Qabanava və Zənciravada da həftəlik bazar təşkil edilirdi. Miyandabı başqa şəhər və mahallarda rahat karvan yolları birləşdirir. Mahalın mərkəzi Miyandab qəsəbəsi idi. Xamlığın başqa mahallarına nisbətən burada ipəkçilik daha artıq inkişaf etmişdir.

### *Sovucbulaq mahalı*

Bu mahal hazırda Mahabad adlanır. Qədim zamanlardan Urmiya vilayətinə tabe idi. Bu bölgədə Mükri, Məməş, Dehbokri, Məngur və Gəvrək tayfaları yaşayır.

İmamqulu xan və Məhəmmədqulu xanın hakimiyyəti dönəmində Sovucbulaq mahalının hakimi Budaq xan Mükri idi.

### *Urmiya mahalı*

Urmiya mahalının inzibati mərkəzi Urmiya şəhəri idi. Şəhər əhalisinin suya olan ehtiyacı Urmiyə və yaxud «Şəhər» çayı adlanan

çay vasitəsilə təmin edilirdi. Əhalinin əsas peşəsi bağçılıq, xüsusilə üzümçülük, sənətkarlıq, ticarət, əkinçilik və maldarlıq idi.

Xanlıqlar dövründə şəhər qalın və möhkəm daş hasarla əhatə edilmişdir. Qala divarlarının ətrafında geniş və dərinxəndəklər qazılmışdı. Şəhə daxil olmaq üçün qala divarlarında Torpaqqala, Hazaran, Bazarbaş, Şah Yurdu (Yurte-şah), Hindi, Məşəd, Ərk, adlı darvazalar var idi.

Şəhərdə müxtəlif qollara malik olan üstüörtülü bazar və ticarət əhəmiyyəti daşıyan bazariçi karvansaralar mövcud idi.

Urmiya mahalında Avşar elinin Qasımlı, Araşlı, Dərzili (Tərzili) aymaqları qərar tutmuşdu.

# Mövzu

## XANLIĞIN İDARƏETMƏ APARATI

Urmiya xanlığının idarə olunmasında divan (divanxana), dərbar (saray), məclis (məsləhət şurası) və meydan (şəhər) məmurları iştirak edirdilər.

«Divan» məsləhətçi şurası kimi müəyyən olunmuş funksiyalara malik idi. M.Biberşteyn «divan»ın funksiyasını belə təsvir edirdi: «Divanın qanun məsələlərində, xüsusilə cinayət işlərində məşvərət etmək hüququ var idi. Əgər xan sonsuz səlahiyyətlər sahibi kimi birinə cəza verərdisə, bu hal bəd əməl kimi qiymətləndirilirdi və əgər o, adət-ənənənin əleyhinə olaraq öz hökmünü bu şəkildə göstərməklə davam edərdisə, həmin yerdə Məhəmməd şəriəti qanunlarından başqa bir qanun qüvvədə deyildisə, bu hərəkət xan üçün faciə ilə nəticələnə bilərdi».

Azərbaycanın bütün xanlıqlarında xan qeyri-məhdud hakimiyyətə malik idi və Divan idarə aparatını təmsil edirdi.

### Xan

Xanlığın başında qeyri-məhdud hakimiyyətə malik olan xan dayanırdı. Xanın hakimiyyəti mütləq, qeyri-məhdud səciyyə daşıyırdı. Xanlıq irsi idi. Hakimiyyət atadan böyük oğula keçirdi.

Bervezin yazır: «Xan tam müstəqil şəxs idi… O, heç kimdən soruşmadan, heç kimə hesabat vermədən kimi istəsə dərəcəsindən asılı olmayaraq edam edə və bağışlaya, qova və cəzalandıra bilərdi».

N.Dubrovin isə xan hakimiyyətini dinlə, xalqın adət-ənənəsi ilə hesablaşmayan qatı despotik rejimi kimi dəyərləndirərək yazırdı ki, «Müsəlman əyalətinin bütün silkləri xanın vahid iradəsinə tabe idi. Zorakarlıq və özbaşnalıq xan hakimiyyətinin əsasını təşkil

edirdi. Xan bütün qanunları, qul vəziyyətində olan əhalinin bütün hüquqlarını öz əlində cəmləşdirən nadir şəxs idi. Xan üçün təbəələri arasında zümrə fərqi yox idi. Xanın arzusundan asılı olaraq, bu günkü qul sabah bəy ola bilərdi, və ya əksinə. Hətta xana ən yaxın adam günahı üzündən ölənəcən döyülürdü… Heç bir xan hakim kimi xalqın yaxşı yaşayışı üçün vəzifə borcunu yerinə yetirmirdi. Heç bir xan bütün vasitələrlə xalqdan var-dövlət yığmaqdan yüksək heç nə tanımırdı».

Xan onun hakimiyyəti altında olan ərazilərin bütün əhalisinin hakimi idi. Qonşu feodal hakimləri ilə xarici əlaqələrdə, müharibə elan etmək və sülh bağlamaq, ticarət əlaqələrinin tənzimləmək, xanlaqdan keçən xarici tacirlərə güzəştli imtiyazların qoyulması, öz xeyrinə rusumların alınması hüquqları xanın səlahiyyətində idi. Ölkə daxili funksiyalara vergi və ali məhkəmə işlərinin aparılması hüquqları da ona aid edilirdi.

Abbasqulu ağa Bakıxanov qeyd edir ki, xan həm daxili, həm də xarici siyasətdə tamamilə suveren idi, bütün feodallar ona tabe idilər.

Xan hakimiyyəti həm icra formasında həm feodal hüququnun yardımı ilə məhkəmə formasında gerçəkləşirdi. Hüquq qeyri-rəsmi səciyyə daşıyırdı. Onun mənbəyi şəriət, ilk növbədə Quran idi. Hüququn digər, daha az vacib olmayan mənbəyi yerli adətlər idi. Xanın istədiyi şəxslərə torpaq, yaxud torpaqdan alınan gəliri (və ya bir hissəsini) bağışlamaq hüquq vardı. Torpaq sahibliyini və ümumiyyətlə, mülkiyyət hüququnu təsdiq edən sənəd təliqə adlanırdı. Əgər xan torpağı müəyyən şərtlə (başlıca olaraq torpağı alanın xan ordusunda xidmət etməsi şərti ilə) alırdısa, belə torpaq mülkiyyəti forması tiyul adlanırdı.

Xan hakimiyyətində iki ünsür: prinsipcə müstəbidlik, rejiminə görə feodal ünsürləri çulğaşırdı. Xan mütləqiyyətinin normativ hüquqi sənədi xan fərmanları idi. Sonralar, Rusiya, Azərbaycanı işğal etdikdən sonra rus məmurları da silki mənsubiyyəti və rütbələri müəyyənləşdirmək üçün xan fərmanlarından hüquqi sənəd kimi isitifadə edirdilər.

Xanlar Urmiya vilayətini divan və yaxud divanxana vasitəsilə idarə edirdilər.

## Urmiya xanları

| | |
|---|---|
| Fətəli xan Araşlı-Avşar | 1747-1748 |
| Mehdi xan Qasımlı-Avşar | 1748-1749 |
| Azad xan Əfqan | 1749-1757 |
| Fətəli xan Araşlı-Avşar | 1757-1762 (təkrar) |
| Rüstəm xan Qasımlı-Avşar | 1762-1763 |
| Bağır bəy Qasımlı-Avşar | 1763 |
| Rzaqulu xan Qasımlı-Avşar | 1763-1772 |
| İmamqulu xan Qasımlı-Avşar | 1772-1783 |
| Məhəmmədqulu xan Qasımlı-Avşar | 1784-1795 |
| Qasım xan Qasımlı-Avşar | 1795-1796 |
| Mustafaqulu xan Qasımlı-Avşar | 1796-1797 |
| Məhəmmədqulu xan Qasımlı-Avşar | 1797 (təkrar) |
| Hüseynqulu xan Qasımlı-Avşar | 1797-1821 |
| Nəcəfqulu xan Qasımlı-Avşar | 1821-1865 |

## Mahal hakimləri və naiblər

Urmiya vilayətində xana bir başa tabe olan məmurlardan biri də mahal hakimləri idilər. Urmiyanın böyük mahallarından biri olan Sayınqalanın hakimi Məhəmmədmömün xan Qasımlı-avşar idi. Məhəmmədmömün xan Sayınqala şəhərində anadan olmuşdu. Mömün xan kimi tanınırdı. Mədrəsə təhsili almışdı. Nadir şah Qırxlı-Avşara xidmət etmişdi. Onun hakimiyyəti dönəmində Sayınqalanın hakimi idi. Nadir şah Mosul savaşından qayıdandan sonra Urmiyada oturaq etmişdi. Mahal hakimini yanına çağırıb, hesab-kitab istəmişdi. Hesabda naqis faktlar olduğunu görüb, Mömün xanın gözlərinə mil çəkilməsini əmr etmişdi. Sonra onu yenidən Sayınqalaya hakim göndərmişdi.

Mömün xan Urmiya xanlarının hamısına can-başla qulluq göstərmişdi. Rüstəm xan Qasımlı-Avşara sərkərdə kimi xidmət etmişdi. Rüstəm xanın hakimiyyətinin ilk ilində, 1763-cü ildə Balbas və Zərza əşirətləri üsyana başladılar. Gündüzlü oymağının binə bağladığı Dol mahalını qarət etdilər. Rüstəm xan bu xəbəri eşidib, Sayınqala hakimi Mömün xanı və Qarahəsənli oymağının başçısı Məhəmməd bəyi Qasımlıdərəsi yolu ilə kürdlərin ayaqlanmasını yatırmağa göndərdi. Mömün xan onların fitnəsini dəf etmişdi.

Mömün xan Rüstəm xanın qətl xəbərini eşidib, qoşunu ilə Urmiya şəhərinə yürüşə başladı. Şəhərə daxil olub xanın qəsdçilərini həbs etdirdi. Bazar meydanında Bağır bəyi və yardımçılarını tikə-tikə doğratdırdı. Müvəqqəti olaraq Urmiyaya hakimlik etməyə başladı. Avşar elinin oymaq başçılarını bir araya toplayıb, məsləhətləşmə apardı. Kimin hakim olması məsələsi ortalığa gəldi. Bütün avşar bəyləri bir ağızdan bildirdilər ki, Məhəmmədmusa xanın oğlu Rzaqulu xan məsləhətdir. Dədə-babadan onlar Avşar elinə başçılıq ediblər. Təəssüf ki, o Kərim xan Zəndin yanında girovdur.

Mömün xan və Avşar elinin başçıları məsləhətləşib, Kərim xan Zəndə Rzaqulu xanla ilgili müraciət etdilər. Onun ardınca göndərilən heyətə vəzir Mirzə Məhəmmədcəfər İmanlı başçılıq edirdi. Mirzə Məhəmmədcəfər, Lütfulla bəy Ustaclı, Kəlbəli bəy Avşar və başqaları Şiraza yola düşdülər. Kərim xanın yanına gedib, ərizəni təqdim etdilər. Kərim xan olandan çox təəssüflənib, Mömün xanın, avşar elinin başçılarının və Rzaqulu xanın bacısı olan arvadının razılığını nəzərə alıb, bu istəyi qəbul etdi.

Rzaqulu xan Urmiyaya dönəndən sonra Mömün xanı özünə naib təyin etdi.

## Vəzirlər və səfirlər

Xandan sonrakı yerdə baş vəzir dururdu. Baş vəzir xanın məşvərətçi orqanına – divana və yaxud divanxanaya başçılıq edirdi. «Divan» məsləhətçi şurası kimi müəyyən olunmuş funksiyalara malik idi. M.Biberşteyn «divan»ın funksiyasmı belə təsvir edirdi: «Divanın qanun məsələlərində, xüsusilə cinayət işlərində məşvərət

etmək hüququ var idi. Əgər xan sonsuz səlahiyyətlər sahibi kimi birina cəza verərdisə, bu hal bəd əməl kimi qiymətləndirilirdi və əgər o, adət-ənənənin əleyhinə olaraq öz hökmünü bu şəkildə göstərməklə davam edərdisə, həmin yerdə Məhəmməd şəriəti qanunlarından başqa bir qanun qüvvədə deyildisə, bu hərəkət xan üçün faciə ilə nəticələnə bilərdi».

Xanlığın bütün mədaxili, məxarici baş vəzirin göstərişi, icazəsi ilə alınır və xərclənirdi. Toplanan vergilərə baş vəzir nəzarət edirdi.

Baş vəzir diplomatik əlaqələrin, ilişkilərin yaranmasına cavablı sayıldığından xarici siyasəti əlində cəmləyirdi. Mühim sənədlərin düzgün tərtibinə, yazışmaların oxunmasına, cavablandırılmasına məsuliyyətli idi. Dövlət işlərini nəzarətdə saxlayırdı. O, bütün idarəçilik aparatının aparıcısı və xanın birinci məsləhətçisi idi.

Urmiya xanlığının baş vəzirləri adətən mirzə ünvanı daşıyırdılar.

Vəzirlər öz maaşlarını «Vəziryanə»-vəzirlik adı ilə yığılan vergidən alırdılar.

1748-ci ildə Urmiya hakimi Mehdi xan Həsən xan oğlu Qasımlı-Avşara qarşı öz vəziri üsyan hazırlamışdı. Bu üsyan Təbrizdə baş vermişdi. Üsyançıların arvadlarından biri bu xəbəri saraya çatdırmışdı. Mehdi xan onun tamahı olduğunu zənn edib, xeyli pay-parça verib, yola salmaq istəyəndə arvad ərmağandan boyun qaçırmışdı. Bildirmişdi ki, mən sənin çörəyini yemişəm. Üsyançıların başında Mehdi xanın əlini, dilini kəsdirib, öldürdüyü Mirzə Məhəmmədəli Avşarın oğlu Mirzə Məhəmmədrza vəzir dururdu.

Mehdi xanın vəziri Mirzə Məhəmmədrza Təbrizin əyan-əşrəfi, seçkin təbəqəsi ilə qurduğu məclisin şirin yerində, içkili halda qalxıb bildirmişdi:

– Camaat, siz bilirsiniz ki, mən Mehdi xanın çox yaxınıyam. O, bir siyahı hazırlayıb. Siyahıda Təbriz qoçularının, lotularının adları var. Xorasan səfərindən qayıdan kimi həmin adamları öz cəzasına çatdıracaq.

Təbrizin əhli bu xəbərdən təşvişə düşdü. Şəhərin böyükləri, başbilənləri əndişələndilər. Mirzə Məhəmmədrza arzusuna çatmışdı.

Xalq ayaq üstündə idi. Atası Mirzə Məhəmmədəli Avşarın qisasının alınması çağı gəlmişdi. Ayaqlananları başına toplayıb, saraya hücum çəkdi. Keşikçilərin olmamasından istifadə edib sarayı tutdu. Səs-küyə hövlank yerindən qalxan Mehdi xana güllə dəydi. O, yaralı halda özünü müdafiə etməyə başladı. Üsyançıların kim olduqları ilə maraqlandı. Bildirdilər ki, bir sıra ovbaş, başıpozuq adamlardır. Tez saray adamlarına göstəriş verdi ki, evdəki bahalı əşyalardan pəncərədən bayıra atsınlar. Qoy onların başı qarətə qarışsın. Iç adamları pal-paltara silahları da əlavə edib, pəncərədən bayıra atdılar. Mehdi xanın sursatı qurtarandan sonra üsyançılar içəri daxil olub onu öldürdülər. Bu hadisə tarixi ədəbiyytda "Vəzir qiyamı" adı ilə məşhurdur.

Mirzə Məhəmmədcəfər bəy İmanlı-Avşar öncə Fətəli xan Araşlının, Rüstəm xan Qasımlının, sonra İmamqulu xan Qasımlının vəziri olmuşdu. Rüstəm xanı Bağır bəy öldürəndən sonra onun nəşi yeddi gün şəhər meydanında qalmışdı. Heç kim qorxusundan ora yaxınlaşmırdı. Vəzir Mirzə Məhəmmədcəfər heç kəsdən pəksinməyərək Əbdülməliki tayfasını başına yığıb, Rüstəm xanın cəsədini meydandan götürüb, Bazarbaşı qəbrstanlığında dəfn etdi.

Qorxmaz vəzir Mirzə Məhəmmədcəfər bəy Əbdülməliki-İmanlı Avşar 1778-ci ildə vəfat edib. Urmiyanın «Xan» qəbristanlığında, Rzaqulu xan Qasımlı-Avşarın yanında dəfn olunub.

Mirzə Məhəmmədcəfər bəyin Əbdülhəsən bəy, Məhəmmədşəfi bəy, Əsgər bəy, Əbdüssəməd bəy, Hüseyn bəy adlı oğulları vardı.

Əbülhəsən bəy Urmiya şəhərində doğulmuşdu. Ibtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Əbülhəsən bəy atasından sonra ədliyyə vəkili, sonra vəzir vəzifəsində çalışmışdı.

Mirzə Əbülhəsən bəy bir müddət Məhəmmədqulu xanın zindanında yatmışdı. Qardaşı Əsgər xan Salmasa qaçandan sonra Məhəmmədqulu xan onu zindandan çıxarıb vəzifəsinə qaytarmışdı. Sonra onu Sovməi-Bəradost (Baranduz mahalına) bölgəsinə ezam

etmişdi. Fikirləşmişdi ki, o da qaçıb, qardaşına qoşular, yerləri bəlli olar. Mirzə Əbülhəsən bəy məmuriyyətinə əncam çəkəndən sonra saraya qayıtmışdı. Məhəmmədqulu xanın umudu suya düşmüşdü. Əsgər xanın tapılmadığını görüb, Mirzə Əbülhəsən bəyi yenidən həbs etdirmişdi. Sonra bu adlı-sanlı vəziri Təbriz hakimi Xudadad xanın məsləhəti ilə öldürmüşdü.

Mirzə Əbülhəsən bəyin Məhəmmədnəbi bəy adlı oğlu vardı.

Məhəmmədnəbi bəy Urmiya şəhərində dünyaya pənah gətirmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Məhəmmədnəbi Qasım xan Qasımlı-Avşarın hakimiyyəti dönəmində vəkil vəzifəsində çalışmışdı. Sonra Hüseynqulu xanın hakimiyyəti illərində vəzir vəzifəsinə yüksəlmişdi.

Mirzə Məhəmmədcəfər bəyin ikinci oğlu Məhəmmədşəfi bəy Urmiya şəhərində dünyaya gəlmişdi. İbtidai təhsilini atasından almışdı. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı.

Mirzə Məhəmmədşəfi bəy Zəki xan Zəndin yanında vəzir olmuşdu.

Zəki xan Zənd Sənəndəc hakimi Əmənulla xan Ərdalani ilə savaşarkən ikincisi yenilib, qaçmışdı. Qaçıb, İmamqulu xana sığınmışdı. Zəki xan Mirzə Şəfi bəy Mirzə Məhəmmədcəfər oğlu Əbdülməlikini İmamqulu xanın yanına göndərmişdi. Ondan xahiş etmişdi ki, Əmənulla xanı təhvil versin. İmamqulu xan Zəki xanın təhdidindən hirslənib, İbrahim xan Divanbəyinin başçılığı ilə 4 min avşarı Zəki xanın üstünə göndərdi. Əmənulla xanı da onlara qoşdu. Mirzə Şəfi bəy qəziyyəni necə varsa Zəki xana çatdırmışdı. Zəki xan da Mirzə Şəfini yalançılıqda günahlandırıb, həbs etmişdi.

Zəki xan Zənd Avşar qoşununun yetişdiyini görüb, müqavimət göstərə bilməyəcəyini düşünüb, İraqa tərəf qaçdı. Yolda vəziri Mirzə Şəfi bəyi öldürdü.

## Münşilər

Divanda birbaşa baş vəzirə tabe olan bir neçə məmur də vardı. Bu məmurlardan biri münşi idi. Münşi xanlığın xarici yazışmalarını həyata keçirirdi. Xarici işlər vəziri vəzifəsini yerinə yetirirdi.

## Katiblər (mirzələr)

Divanda baş vəzirə tabe olan məmurlardan biri də divanxana katibi idi. Urmiyada divanxana katiblərinə çox vaxt mirzə də deyirdilər. Katiblər xanlığın daxili yazışmaları ilə məşğul olurdular. Xanın fərmanlarını, təliqələri divanxana katibləri, mirzələr yazırdılar. Katiblər təsərrüfatın dürlü sahələri üzrə hesabatları nəzərdən keçirir, ilin önündə və sonunda verilən göstəriciləri müqayisə edir, sənədləşdirir, divana təqdim edirdilər. Darğaların vergi işlərinə nəzarət edirdilər.

Katiblər maaşlarını «Mirzəyanə»-mirzəlik adlı vergi ilə yığılan pullardan alırdılar.

Hüseynqulu xan Avşarın hakimiyyəti dönəmində Mirzə Saleh Ustaclı və Mirzə Rəfi Ustaclı divanxana katibləri təyin olunmuşdular.

## Nazirlər

Baş vəzirə bağlı olan məmurlardan biri də nazir idi. Nazir xəzinədarlıq vəzifələrini yerinə yetirirdi. Xanlığın xəzinələrinin məsrəfinə, əmlakın düzgün xərclənməsinə nəzarət edirdi. Urmiya xanlığında bu vəzifəyə yaxın mustoufi də vardı.

## Mustoufilər

Mustoufi əl-məmalik – "vilayətlərin xəzinədarı". O, maliyyə idarəsinin rəhbəri idi. Ehtimal etmək olar ki, mülki idarə aparatının başçısı olan vəzirin nəzarəti altında işləyirdi. "Allahın mühafizə

etdiyi vilayətlərin" (məmalik-i məhrusə) ərazisində "divan-i məmalik" idarələrinin bütün maliyyə əməliyyatları, onların əyalət nümayəndələrinə (ümmal) göndərdikləri yazılı təlimatlara müvafiq olaraq həyata keçirilirdi. İdarə vergi aparatının işinə, dövlət büdcəsinin tərtib edilməsinə rəhbərliyi həyata keçirir, vergi siyahılarını təsdiq edirdi.

Bəylərbəyilərin tiyul və digər mükafatları, vəzirlərin, mustoufilərin və kələntərlərin maaşları (rüsumat), mülki və hərbi şəxslərin məvacibləri onun təsdiqləməsi və möhürü olmadan verilmirdi.

Mirzə Cavad bəy Ustaclı öncə divanxanada katib kimi xidmət etmişdi. O, Zərrinqələm və Xoşnefis ünvanlarını daşıyırdı. Fətəli xan Araşlı-Avşar onu divanxanasına mustoufi təyin etdi.

Mirzə Mustafa bəy Səidli-Avşar Fətəli xan Araşlıdan başlamış, Hüseynqulu xan Qasımlıya qədər Urmiya xanlarının mustoufisi işləmişdi.

Mirzə Sultanhüseyn Əbdülməliki İmamqulu xan Qasımlının divanxanasında mustoufi işəmişdi.

Xanlıqda baş vəzirə tabe olan bəzi məmurlar da vardı.

Baş vəzirə tabe olan məmurlardan biri də möhrdar idi. **Möhrdarlar** xanın möhrünü saxlayırdılar.

Baş vəzirə tabe olan məmurlardan biri də davatdar idi. **Davatdarlar** divanxanada yazı-təsərrüfat işlərinə baxırdılar.

Baş vəzirə bağlı olan məmurlardan biri də mehmandar idi. **Mehmandarlar** saraya elçiliyə, səfərə, qonaq gələn adamları xanlığın sərhədlərində qarşılayıb, müxtəlif qonalqalarda əyləyib və yaxud birbaşa ölkənin paytaxtına gətirirdi.

Baş vəzirə bağlı olan məmurlardan biri də çapar idi. **Çaparlar** vilayətlər, mahallarla divanxana arasında əlaqə yaradırdılar. Çaparlar atlı idilər.

Xana tabe olan məmurlardan biri də şatır idi. **Şatırlar** xanın önüncə piyada qaçır, «farağat» deyə qışqırırdılar. Həmişə piyada gəzdiklərindən, bərk qaçdıqlarından dilimizdə «şatır kimi şütüdü» ifadəsi var.

## Əyanlar

Urmiya xanlığının əyan təbəqəsi əsasən hərbi-köçəri zadəgan olan avşarlardan ibarət idi.

Avşar elinin Adaxlı, Araşlı, Alplı, Bəgişli, Qasımlı, Qutulu, Qırxlı, Qılıclı, Qənibəyli, Qarahəsənli, Davudlu, İmanlı, Kərəcli, Giləli, Gözüböyüklü, Gündüzlü, Mahmudlu, Tutmaqlı, Tərzili, Əmirli, Əlibəyli, Ərəbli, Yəhərli, Yorğanlı, Şahboranlı və başqa oymaqları var.

Əhməd Kəsrəvi avşarları bir neçə qola ayırır. Həmin qollar: qırxlı, babalı, cəlayır, kosaəhmədli, gündüzlü, inallı, araşlı, alplı, imirli, bəgəşli.

B. Nikitinə görə avşarlar şamlı, usalı, qasımlı, İmanlı, araşlı, gündüzlü, bəgəşli, kuhgiluyəli qollarına bölünür.

Tarixçi Tohid Məlikzadə «Salmasın on min illik tarixi» adlı əsərində Avşar elinin 11 tayfa-tirəsini göstərir. Həmin tirələr: Şamlı, Usanlu, Qasımlı, İnanlı, Araşlı, Gündüzlü, Təkəşli, Kəhgilulu, Qırxlı, Təkəli, İmirli. Tohid Məlikzadə ilə Nikitinin bölgüləri yaxındır. Lakin T. Məlikzadə Bəgəşli əvəzinə Təkəşli yazıb ki, Avşar elində bu adda oymaq yoxdur.

Oskan Mann avşarları qasımlı, araşlı, kosaəhmədli, qutulu, təkəli, inanlı, bəgəşli, qırxlı, imirli, gündüzlü, təkəlilər qollarına paylaşdırır.

A.Düpreyə görə, Urmiya avşarları Araşlı və Qasımlı adlı oymaqlardan, kərəcli, İmanlı, davudlu, usallı, qılıclı, qənibəyli, kiləli, tutmaqlı, adaqlı, qarahəsənli, əlibəyli, tərzili, şahburanlı, yəhərli, kuhgiluyəli adlı tayfalardan təşkil olunub.

İran tarixçisi Məhəmməd Xaliqi Müqəddəmin yazdıqlarına görə, Təkab (Tikantəpə) yörəsinin Əcirli mahalında Avşar elinin ustaclı, badamlı, pətəkli, cənkli, hasarlı, qəmişli, gözəlli, laləli, nəxtalı, yeləkli tirələri yaşayırlar. Aşağı Əhmədabad mahalında alıçlı, təndirli, çublu, faqılı tirələri qərar tutublar. Göyağac mahalında isə ətaqlı tirəsi binə bağlayıb.

Təkabın ətrafında və bölgələrində yaşayan avşar tirələri: bədirli, sarıcalı, qırxlı, yəhərli.

Şahindej (Sayınqala) şəhərin ətrafında avşar elinin həsənli, xocalı, dəvəli, əqrəbli, qozlu, mamalı tirələri məskunlaşıblar. Şahindejin Çahardəvəli mahalında çiçəkli, davudlu, zeynallı, qanqanlı, qaraqoyunlu, tozlu, novruzlu tirələri qərar tutublar.

Sayınqala məntəqəsində Avşar elinin qurtbəyli, xorasanlı tirələri məskunlaşıblar.

Urmiya xanlığında Qasımlı və Araşlı oymaq əyanlarının xanlıq uğrunda açıq və gizlin mübarizəsi gedirdi. Qasımlı oymağının əyanları hələ I Şah Abbasın hakimiyyət illərindən Urmiyada vali, bəylərbəyi olduqlarından xanlığı da halal haqları bilirdilər. Araşlı oymağının əyanları isə bu prinsipin tərəfdarı idilər ki, "Xanlıq heç kimin boyuna biçilməyib", kim bacarıqlıdırsa, ölkəni idarə etməyi bacarırsa o xan olmalıdır. Bu kimi düşüncələr zaman-zaman iki oymaq əyanlarını qarşıdurmaya gətirib çıxarırdı. Bir neçə Urmiya xanı daxili çəkişmənin güdazına getmişdi.

## Alimənsəb ruhanilər

Urmiya xanlığında bir çox alimənsəb ruhanilər vardı. Onlar divanda əyləşər, xanın, baş vəzirin, divanbəyinin qərarlarını götür-qoy edər, məsləhət verərdilər. Onlar məşvərət qrupuna daxil idilər. Divandan maaş almazdılar. Yalnız xanın bəxşişlərinə göz dikə bilərdilər. Xan bu ruhanilərdən bəzilərinə mülk də bağışlamışdı.

Alimənsəb ruhanilər də feodal sinifinə yaxın vəziyyətdə idi. Ruhanilər xüsusi zümrə sayılırdılar. Onları feodal sinifinə daxil etmirlər.

Urmiya xanlığının ali ruhanilərindən biri Nizaməddin Axund Molla Səfər Avşardır. O, İmamqulu xan Qasımlının, Məhəmmədqulu xan Qasımlının hakimiyyəti dönəmində Urmiyada ruhanilik etmişdi. Məhəmmədqulu xan 1773-cü ildə Nizaməddin Axund Molla Səfər Avşarı Cümə məscidinin pişnamazı və qazı vəzifələrinə yüksəltdi.

Urmiya xanlığının alimənsəb ruhanilərindən biri də Molla Məhəmmədbağır Qasımlı-Avşar idi. O, dövrünün böyük ruhanilərindən sayılırdı. Urmiyanın mərkəzi məscidi olan Cümə məscidində pişnamaz olmuşdu. Məscidin nəzdinəki mədrəsədə təhsil alan tələbələrə yardım etmiş, şəxsən tədrisləri ilə ilgilənmişdi.

Molla Məhəmmədbağır 1778-ci ildə vəfat edib. Qarasandıq qəbristanlığında dəfn edilib. İmamqulu xanın əmri ilə üstündə böyük kümbəz tikilib.

Urmiya xanlığının yüksək rütbəli ruhanilərindən biri də Axund Molla Əli Arif Molla Məhəmmədbağır oğlu Qasımlı-Avşar olmuşdu. O, bir müddət xanlığın qazısı vəzifəsində çalışmışdı.

## Qazılar

Hər mahalda və paytaxtda divanbəyi tərəfindən təyin olunmuş qazı var idi.

Qazılar mahalda və paytaxtda şəriət qanunları əsasında hüquqi işlər aparırdılar. Onlar əsasən dini işlərə, irsi, ailə və məişət məsələlərinə baxırdılar. Baxdıqları məsələlərin ayrıntıları:

1. Məzhəb və ruhanilik
2. Evlənmə və boşanma
3. Küsmüş qohumları barışdırmaq
4. Vərəsələr arasında əmlakı bölmək
5. Şəxsi münasibətlərin nizama salınması
6. Dul qadınları və yetimləri himayə etmək. Belə hallarda ruhanilər xüms və zəkatı bölməli, yaxud əhalidən vəsait yığmalı idi.
7. Vəsiyyətlərin, qəbalələrin və digər alqı-satqı sənədlərinin təsdiq etmək.

Qazılar şəriət qanunlarına dərindən bələd olan savadlı, təmkinli, ədalətli axundlardan seçilirdilər.

Məhəmmədqulu xan Qasımlı-Avşar 1773-cü ildə Nizaməddin Axund Molla Səfər Avşarı Cümə məscidinin pişnamazı və qazı vəzifələrinə yüksəltmişdi. Axund Molla Səfər Avşar uzun müddət Urmiyanın qazısı olmuşdu.

## Divanbəyi

Divanda xandan və baş vəzirdən sonrakı yerdə divanbəyi dayanırdı. Divanbəyi çox vaxt seyid kökənli adamlardan təyin olunurdu. Ədalətə, güvənliyə cavablı sayıldıqlarından çox vaxt məhkəmə hakimi vəzifəsini həyata keçirirdilər. Divanbəyilər, əsasən, dünyəvi məsələlərə baxırdılar. Xanlığın daxili əmin-amanlığına, təhlükəsizliyinə nəzarət edirdilər.

Divanda siyasi suçlular, ağır dövləti cinayət işlətmiş adamlar yarqılanırdılar. Divanbəyi hökmü şəriət qaydalarına əsasən çıxarırdı. Dayaq qanunları müctəhidlər tərəfindən yazılan risalələr olurdu. Divanbəyi daxili işlər vəziri hesab olunurdu.

Divanbəyilər maaşlarını divandan alırdılar. Bundan əlavə divanbəyilər məhkəmə hakimi kimi ayrı-ayrı cəmiyyətlər və şəxslər arasında baş verən konfliklərin çözülməsi zamanı öz xeyrinə müəyyən ödənişlər alırdı.

İmamqulu xan və Məhəmmədqulu xanın hakimiyyəti dönəmində divanbəyi İbrahim xan Əlimərdan xan oğlu Araşlı-Avşar olmuşdu.

Divanbəyiyə tabe olan məmurları sıralayaq. Divanda divanbəyiyə tabe olan məmurlardan biri də fərraş idi. **Fərraşlar** daxili qayda-qanuna nəzarət edir, buyruğa baxırdılar. Divanbəyi tərəfindən verilən yüngül cəzaları fərraşlar yerinə yetirirdilər. Urmiya xanlığının fərraşlarından Saqi bəyin adı məşhurdur. Fərraşbaşı müavini olan Saqi bəy bəzən də cəllad vəzifəsini yerinə yetirirdi.

Xanlığın idarə olunmasında iştirak edən məmurlardan biri də **qalabəyi** idi. O, birbaşa xanın tabeçiliyində fəaliyyət göstərirdi. Qalabəyi paytaxtın komendantı və yaxud polis idarəsi rəisi vəzifəsini icra edirdi. Şəhərin nizam-intizamı, əmin-amanlığı, təhlükəsizliyi, savaş zamanı müdafiəsi ona baxırdı. Qalabəyi şəhərdə mülki məsələlər və ictimai işlərlə məşğul olurdu. Şəhərin maliyyə işləri onun sərəncamında idi. Əsasən əsnafdan (sənətkarlardan, dükandarlardan

və başqalarından) yığılan vergilərə cavablı sayılırdı. Şəhər təsərrüfatını qalabəyi idarə edirdi.

Qalabəyi silahlı dəstə saxlayırdı.

Dərbarda, sarayda ən böyük vəzifə eşikağası sayılırdı. **Eşikağasılar** sarayın bütün təşrifat və təhlükəsizlik məmurlarına başçılıq edirdilər. Mərasim və məclislər eşikağasının nəzarəti altında keçirilirdi. Eşikağasılar eşikağasıbaşına tabe idilər.

Urmiya xanlığının tanınmış eşikağasbaşılarından biri Miran bəydir. Miran bəy Löhrasp bəy oglu Mahmudlu-Avşar Urmiya şəhərində doğulmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Fətəli xan Araşlı-Avşarın təşrifat işlərinə nəzarətçi idi. Eşikağasıbaşı vəzifəsini aparırdı.

Sərməst bəy Avşar İmamqulu xanın eşikağasıbaşısı idi. Döyüşdə Qərəni ağa Balbas tərəfindən öldürüldü. Ondan sonra Əlirza xan xanlığın təşrifat işlərinə nəzarət etdi.

Əlirza xan Qasımlı-Avşar Urmiya şəhərində dünyaya gəlmişdi. İmamqulu xana xidmət etmişdi. Eşikağasıbaşı vəzifəsini icra etmişdi.

İmamqulu xan döyüşdə yaralanıb, vəfat edəndən sonra gözdən düşdü. Avşar eli arasında gəzən rəvayətə görə, tarixçi Mirzə Rəşidin qeydinə əsasən, Əlirza xan İmamqulu xanı savaşdan öncə zəhərləyibmiş.

Urmiya xanlığının məşhur eşikağasıbaşılarından biri Əsgər xandır. Əsgər xan Mirzə Məhəmmədcəfər bəy oğlu Əbdülməliki-İmanlı Urmiya şəhərində dünyaya pənah gətirmişdi. Öncə İmamqulu xanın cilovdarı, sonra əmiraxuru olmuşdu. Döyüşdə yaralanan xanı çiynində qanlı meydandan çıxarıb, Urmiyaya çatdırmışdı.

Əsgər xan sonra Məhəmmədqulu xan Qasımlı-Avşara xidmət etmişdi. Məhəmmədqulu xan onu əmiraxurluqdan eşikağasıbaşı vəzifəsinə yüksəltmişdi. Xan saray çəkişmələrini sevirdi. Bəzən günahı olmayan adamları ağır ittihamla suçlayıb, ölüm ayağına göndərirdi.

Əsgər xan Əbdülməliki Məhəmmədqulu xanın bu siyasi gedişatından şübhəyə düşdü. Qardaşı Mirzə Əbülhəsənə xəlvətcə dedi

ki, mən xanın işlərindən baş çıxara bilmirəm. Bu tezliklə biz də onun qəzəb oxuna tuş gələcəyik. Mirzə Əbülhəsən onu danladı ki, yerində sakit otur, xanın bizimlə işi yoxdur. Əsgər xan qayıtdı ki, qardaş, xanın sarayında baş verən hadisələr göstərir ki, ölümümüz yaxınlaşıb. Fikirləşib, bir qərara gəlirlər ki, heç vaxt ikisi bir yerdə xanın yanına getməsinlər. Elə bu arada Mirzə Əbülhəsəni xanın yanına çağırırlar. Vəkil saraya çatcaq xan əmr etdi ki, onu həbs etsinlər. Əsgər xan yaxınlarından iki nəfəri saraya göndərdi ki, təhqiq edib, vəziyyəti öyrənsinlər. Onlar xəbər gətirdilər ki, qardaşını həbs ediblər. Əsgər xan xəbəri eşitcək qaçıb, Salmasa sığındı. Orda möhkəm bir yerdə gizləndi. Məhəmmədqulu xan bu hadisəni eşidib, peşiman oldu. Bildi ki, Əsgər xan mütləq bir fitnə törədəcək. Sərkərdələrindən Lütfulla bəy və Hadi bəy Ustaclıları onun ardınca göndərdi. Mirzə Əbülhəsən bəydən də Əsgər xana bir məktub aldılar ki, sakitlikdi, saraya qayıt. Lütfulla bəylə Hadi bəy ora-buranı gəzib, əliboş qayıtdılar.

Hüseynqulu xan Avşarın eşikağasıbaşı vəzifəsini Mirzə Məhəmmədhəsən Səidli-Avşar icra etmişdi. Kəlbəli xanın soyundan olan Xanbaba bəy Qasımlı eşikağası vəzifəsini daşıyırdı.

Dərbarda, sarayda sayılan vəzifələrdən biri də **keşikçilər** idilər. Keşikçilərə keşikçibaşı rəhbərlik edirdi. Onlar xanın, sarayın qorunmasına cavablı sayılırdılar.

Rüstəm xan Qasımlı-Avşarın keşikçibaşısı Ilyas bəy idi. Bağır bəy girovluqdan qayıtdıqdan sonra Rüstəm xan Keşikçibaşı Ilyas bəy Avşara özəliklə tapşırdı ki, Bağır bəyin qulluğunda özü dursun. Hər nə istəsə müzayiqə etməsin. Rüstəm xan isə gecə-gündüz ondan ayrılmadı. Bu qonaqpərvərliyə baxmayaraq, Bağır bəy gizlicə Sadıq bəy, Abid bəy və Mehrab bəylə bərabər sui-qəsd hazırladı. Bağır bəy özü Urmiyanın xanı olmaq istəyirdi. Bir axşamüstü qəsdən xanla şam yeməyə getmədi. Həmin gecəni sübhədək yatmadı. Alatoran çağı birini evin üstünə çıxardı ki, yalandan azan çağırsın. Keşikçibaşı İlyas bəy sübh olduğunu düşünüb, hamama getdi. Bu fürsətdən yararlanan sui-qəsdçilər Rüstəm xanın hərəmxanasına daxil oldular. Rüstəm xan özü otaqda yox idi. Eşiyə çıxmışdı.

Bacısı evə qəsdçilərin girdiyini gördü. Bağır bəyin ayağına yıxıldı. Bağır bəy dinməzcə onun başına bir güllə vurdu. Güllə yayınıb, onun boynuna dəydi. Həmin qadın ömrüboyu boynuəyri gəzdi. Qalan sui-qəsdçilər ora-bura boylanıb, Rüstəm xanı tapdılar.

Rüstəm xan Bağır bəyin təhriki ilə 1767-ci ildə sui-qəsdçilər tərəfindən öldürüldü.

Eşikağasıbaşına tabe olan məmurlardan biri də qapıçı idi. **Qapıçılar** saray və divanxana qapılarında dayanırdılar.

Eşikağasıbaşına tabe olan məmurlardan biri də pişxidmət idi. **Pişxidmətlər** sarayda müxtəlif vəzifələri həyata keçirirdilər.

Eşikağasıbaşına tabe olan məmurlardan biri fərraş idi. Dərbar fərraşları sarayda nizam-intizama, təmizliyə cavablı sayılırdılar.

Xanlıqda ikinci dərəcəli məmurlar var idi. Bu məmurlardan biri miraxur idi. Miraxurlar xanın at ilxılarına cavablı sayılırdılar.

İkinci dərəcəli məmurlardan biri də cilovdar idi. **Cilovdarların** işi yürüş, səfər, gəzinti və ov zamanı xan atının cilovundan yapışıb istiqamətlərə yönəltmək idi. Cilovdarlar miraxura tabe idilər.

Xanlığın idarə olunmasında qismən iştirak edən məmurlardan biri də lələ idi. **Lələlər** xanın oğul və qızlarına mürəbbilik edirdilər. Xanzadələrin tərbiyə olunmasında böyük səy göstərirdilər, kamala çatana qədər yanlarından ayırmırdılar. Lələlər həm savadlı, həm də bacarıqlı savaşçı olmalıydılar.

Urmiyanı idarə edən Osmanlı başçısı Yusif paşa Qasımlı oymağı ağsaqqalarının məsləhətilə Məhəmmədmusa xanı yaşının yeniyetmə çağında Urmiyanın hakimi, Qasım xan Əlimərdan xan oğlu Avşarı ona lələ, Əliverdi bəy Gəncəlixanlını isə naib təyin etdi.

Uğurlu bəy Miran bəy oğlu Mahmudlu-Avşar Urmiya şəhərində dünyaya pənah gətirmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Savadlı olduğundan dolayı mirzə ünvanı daşıyırdı. İmamqulu xan Qasımlı-Avşarın övladlarına lələlik etmişdi.

Məhəmmədqulu xan İmamqulu xanın övladlarının lələsi, Heyrət təxəllüslü Mirzə Uğurlu Miran bəy oğlu Araşlını mollabaşı vəzifəsinə çatdırmışdı.

**Müdərrislər**in xanlığın idarə olunmasında mühim rolu olmasa da, divanxana şurasında iştiraklarını nəzərə alıb, yazımızda verməyi məqsədəuyğun hesab etdik.

Xan övladlarına təlim-tərbiyə verməkdə ünlü olan müdərrislərdən biri Mirzə Uğurlu bəy Mahmudlu-Avşardır. Mirzə Uğurlu bəy Miran bəy oğlu İmamqulu xan Qasımlı-Avşarın övladlarına lələlik etmişdi, savad öyrətmişdi. O, şair idi. Məhəmmədqulu xan Heyrət təxəllüslü Mirzə Uğurlu Miran bəy oğlu Mahmudlunu mollabaşı vəzifəsinə çatdırdı

## Minbaşılar

Əhalisi el-oymaqlardan ibarət olan mahalların başçılarının minbaşı ünvanı vardı. El minbaşılarının bəy, sultan, bəzən də xan titulu olurdu.

Xanlığın ərazisində qərar tutan ellər oymaqlara, oymaqlar tayfalara, tayfalar tirələrə, tirələr törəklərə, törəklər evlərə bölünürdü.

Oymaqlar oba biçimində binələyirdilər. Obalar mövsümdən asılı olaraq qışlaqlara, yazlaqlara, yaylaqlara və güzləklərə köçürdülər.

## Yüzbaşılar

Obalara əsasən yüzbaşılar və kədxudalar başçılıq edirdilər. Xanlıq dönəmində bir obanın eyni zamanda həm yüzbaşısı, həm də kədxudası ola bilirdi. Böyük oymaqların başçıları kələntər ünvanı daşıyırdı.

## Kədxudalar (kovxalar)

Mahallara bağlı olan kəndlərin başçılarına kədxuda və yaxud kovxa deyilirdi. Kədxudalar və kovxalar ağsaqqallar arasından seçilir və yaxud soylu adamlardan təyin olunurdu.

Mahallar kədxudalar tərəfindən idarə olunan kəndlərə bölünürdü. Kəndxudaları kənd icması seçirdi. Seçilmiş kəndxudalar xan tərəfindən təsdiq edildikləri üçün həmişə ona minnətdar olardılar. Kədxudalardan baş vermiş hadisə və yeniliklər haqqında ardıcıl olaraq xan divanına məlumat verəcəkləri haqqında yazılı iltizam alırdılar. Bu, əsas etibarilə yerlərdə yeni işçi qüvvəsinin peyda olması və yaşına görə vergi verən gənclərin siyahıya alınması ilə əlaqədar idi. Əgər bu və ya digər şəxsi işlətmək halları müşahidə edilirdisə, o zaman kədxuda gümüş pulla 10 tüməndən 20 tümənə qədər cərimə verməli idi. Bəzi hallarda kədxudalar yol verdikləri günaha görə fələqqə cəzasına da məruz qalırdılar.

# Mövzu

## URMİYA XANLIĞININ İCTİMAİ-SİYASİ HƏYATI

1747-ci ildə Fətəli xan Araşlı-Avşar ana yurdu Urmiyaya gəlib taxta çıxdı. Urmiyanın ilk müstəqil xanı oldu. Onun əsil-nəsəbi haqqında bir çox tarixi kitablarda yanlışlıqlar var. Fətəli xanı bəzən Nadir şah Qırxlı-Avşarın əmisioğlu, bəzən isə bibisioğlu kimi göstərirlər. Fətəli xan Avşar elinin Araşlı, Nadir şah isə Qırxlı oymağındandır. Fətəli xan Urmiyalı, Nadir şah isə Xorasanlıdır. Heç bir tarixi mənbədə bu iki şəxsin qan və süd qohumluğu haqqında bilgi yoxdur.

Fətəli xan Əlimərdan xan oğlu Araşlı-Avşar Urmiya şəhərində doğulmuşdu. Mədrəsə təhsili almış, amma hərb sənətini seçmişdi. 1729-cu ildən sonra Nadir şah Qırxlı-Avşara xidmət etmişdi. Çərxçibaşı rütbəsində qoşun sərkərdəsi olmuşdu. Döyüşə hamıdan əvvəl atılırdı.

Fətəli xan strateq, tədbirli bir sərkərdə idi. Əfqanıstanda Nadir şahın ordusu keçilməz bir çaya dirənmişdi. Fətəli xan qadınların saçlarını, atların quyruğunu kəsdirib, sicim toxutdurub, körpü hazırlamışdı. Əsgərlər bu körpüdən keçib, düşmənləri məhv etmişdilər. Hindistanda fillərdən qorxan əsgərlər naçar qalmışdılar. Fətəli xan dəvələrə yanan məşəllər bağlayıb, fillərin üstünə göndərmişdi. Fillər dəhşətə düşüb, geri qayıdaraq, öz adamlarını əzmişdilər.

Fətəli xan rəhmli, qeyrətli, qoçaq, insansevər bir şəxsiyyət idi. Nadir şahdan incik düşən Avşar elinin oymaq başçılarını ətrafına toplayıb, maaş və məvacib təyin etmişdi. Nadir şah tərəfindən kor edilmiş Məhəmmədkərim xan Qasımlıya və Bəhram xan Araşlıya mehribançılıq göstərmiş, aylıqla təmin etmişdi. O cümlədən Nadir şahın kor etdiyi Bisütun xan Babaəli bəy oğlu Avşarı, Qasım xan Avşarı, Mömün xan Qasımlı-Avşarı da qanadının altına çəkmiş, qayğı göstərmiş, hər birinə tiyul-soyurqal bağışlamışdı.

Fətəli xan elmə dəyər verən, bilik qiymətləndirən bir hakim idi. Ədəbiyyat bilicisi kimi şairə hörmət, şeirə qiymət verirdi. Sarayında neçə-neçə söz, qələm ərbabları yer tapmışdı. Ünlü Avşar şairi Firudin bəy Mina onun sarayında tərbiyə almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli xan Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Firudin bəy Mina-Fətəli xan Avşar Urməvinin qulamzadələrindəndir. Isfahanda uşaqlığında Fətəli xanın oğlanları Rəşid bəy və Cahangir xanla bir yerdə böyüyüb, boya-başa çatmış, bu ölkədə Dərviş Məcid, Azər, Hatif, Səbahi, Aşiq və Müştaq kimi şeir və ədəbiyyat sevən şəxslərdən tərbiyə alıb, görkəmli şeirşünas və söz ustası olmuşdur. Onun bir sıra gözəl məzmunlu və məlahətli şeirləri vardır».

Fətəli xanın ömrü döyüşlərdə, yürüşlərdə keçib. Yaşam yoluna diqqət yetirdikdə, qanlı savaşlar görürük.

Fətəli xan 1738-ci ildə Bəlucistana yürüş edən Avşar ordusuna yardımçı kimi göndərilmişdi. O, bu yürüşdə qəhrəmanlıq göstərmişdi.

Nadir şah Hindistana yürüş edəndə, 1739-cu ildə Ənbalədə ailəsini Fətəli xanın yanına qoymuşdu. Fətəli xan onun inandığı, etibar etdiyi adamlar sırasında idi.

Fətəli xan 1743-cü ildə üsyançı yalançı şahzadə Sam mirzəni və dağlıları ram etmək üçün şahzadə Nəsrulla mirzə ilə 15 minlik qoşunla Şirvana gəlmişdi. 1744-cü ildə Fətəli xan və Aşur xan Babalı-Avşar üsyançıların üzərinə hücuma keçdilər. Onlar qələbə çalıb üsyançıların mərkəzi Ağsu qalasını tutdular. Orda olan ləzgi qarnizonunun əsgərlərini əsir etdilər.

Fətəli xan 1745-ci ildə (hicri qəməri 1158-ci ildə) Nadir şahın göstərişi ilə 5 min nəfərlik qoşunla Urmiyanın sərhədlərini qorumuşdu. Həm də oranın hakimi olmuşdu.

Nadir şahın ölümündən sonra, 1747-ci ildə Fətəli xan Farsın hakimi olmuşdu. Fars əyalətində yaşayan Bayat elinin başçısı Saleh xan onu və qardaşı Məsuməli xanı qovub, Şirazdan çıxartmışdı. 1747-ci ilin sonlarında Fətəli xan ana yurdu Urmiyaya gəlib taxta çıxdı. Urmiyanın ilk müstəqil xanı oldu.

Mehdi xan Həsən xan oğlu Qasımlı-Avşar doğma tayfası qasımlıları başına toplayıb, Fətəli xan Araşlını Urmiya hakimliyindən uzaqlaşdırmaq qərarına gəldi. Urmiya xanlığı qasımlıların qanuni haqqı hesab olunurdu. Fətəli xan özünə arxayın olduğundan onu vecinə almadı. Mehdi xan qoşunla şəhərə yaxınlaşdı. Urmiyanın darvazasında dayanıb, onu təhdid etdi. Urmiya əhli, əsasən də qasımlılar Fətəli xandan narazı olduğundan qaçıb, Mehdi xanın yanına gəldilər. Fətəli xan özünə güvənə-güvənə hakimliyini bada verdi.

1748-ci ildə Mehdi xan taxta yiyələndi. Müstəqilliyini elan etdi. Qılıncının gücünə Urmiyanın başçısı olduğundan Azərbaycan hakimi Əmiraslan xan Qırxlı-Avşarı saya salmırdı. Ətraf xanlar da onun cəsarətindən çəkinirdilər. Üsyançı kürdlər də qorxularından gəlib, tabeçiliklərini bildirdilər.

Mehdi xan Urmiyada möhkəmlənəndən sonra adamlarından bir neçəsini göndərdi ki, Fətəli xanı onun yanına gətirsinlər. Fətəli xan tutulub gətiriləndən sonra Mehdi xan onun mal-dövlətini Avşar eli arasında böldü. Onu və qardaşlarını ev dustağı etdi. Bəzi narazı adamlar Fətəli xanın salamat qalmasını istəmədilər. Mehdi xanı təhrik etdilər ki, onu öldürsün. Fətəli xanın adamları bu xəbəri eşidib, üsyan qaldırdılar. Mehdi xanın atası Həsən xana sifariş etdilər ki, oğlunu bu işdən çəkindirsin. Həsən xan oğlunu yanına çağırıb, danlayıb danladı ki, Fətəli xan el böyüyü və hakim olub. Əgər onu öldürsən, Araşlı tayfası və Azərbaycanın hakimi Əmiraslan xan Qırxlı səndən inciyəcək. Mehdi xan atasını dinlədi və dediklərini yerinə yetirdi. Fətəli xan sağ qaldı.

Əmiraslan xan Qırxlı-Avşar Urmiyada baş verən bu hadisəni eşidib, Mehdi xana qulaqburması vermək qərarına gəldi. Sərkərdəsi Şəhriyar xan Səfi bəy oğlu Gündüzlü-Avşarı bir dəstə mükri və balbas atlısı ilə bərabər Marağa yolu ilə Urmiyaya göndərdi. Şəhriyar xan Marağaya yetişəndən sonra, buradan da 3 min nəfərlik qoşun topladı. Elə bu zamanda Əmiraslan xanın əlavə göndərdiyi əfqanlardan təşkil olunmuş Xorasan qoşunu gəlib hücumçulara birləşdi. Şəhriyar xan Gündüzlü döyüşçülərini Sulduz mahalında yerləşdirib, Mirzə Məhəmmədəli bəy Avşarı danışıq üçün Mehdi xanın yanına

göndərdi. Ondan istəyi bu oldu ki, Fətəli xan Araşlını azad edib, Əmiraslan xana itaət etsin. Yoxsa, Quşçu, Quluncu bölgələrindən Urmiyaya sel kimi qoşun gələcək. Mehdi xan Qasımlı yekə-yekə danışan elçinin dilini və qolunu kəsdirdi. Geri göndərib, təslim olmayacağını bildirdi.

Mehdi xan döyüşə hazırlaşmağa başladı. Əvvəlcə Fətəli xanın nəzarətçilərinin sayını artırdı. Sonra süvarılərdən ibarət qoşun tərtib etdi. Mahallara çapar göndərib yardım istədi.

Tarixçi Mirzə Rəşid Ədibəşşüara yazır ki, Mehdi xan Qasımlı 700 nəfərlik bir dəstə ilə Sulduz mahalına yürüş etdi. Sabahı günü həmin ərazidə Şəhriyar xanla üzləşdi. Döyüş başlandı. Mehdi xan bu savaşda qələbə qazandı. Avşar eli Mükri və Balbas əşirətlərini darmadağın etdi. Düşmən qoşunun sərkərdələrindən Şəhriyar xanla Hacı xan əsir düşdü. Mehdi xan döyüşdə uğur qazanıb, Urmiya şəhərinə dönəndə Göytəpə bölgəsində eşitdi ki, Əmiraslan xan Qarahəsənli kəndinin yarımağaclığında oturaq edib. Əsgərlərinin yorğun olduğunu bilib, savaş meydanına getmədi. Yeni tərtibat üçün şəhərə döndü. Əsirləri həbsxanaya atdırdı.

Mehdi xan bütün gecəni yatmayıb, hazırlıq işləri ilə məşğul oldu. Sabahı qoşunu tərtib edib, Əmiraslan xanla savaşa getdi. 70 günlük müharibədə bir nəticə hasil olmadı.

Fətəli xan zindandan Mehdi xanın atası Həsən xanın yanına adam göndərdi. Bildirdi ki, mən əli-qolu bağlı zindanda dözə bilmirəm. Arvad-uşaqların ağlamaqlarına tablaya bilmirəm. Məni də döyüş meydanına göndərin. Həsən xan Fətəli xanın sözlərini oğluna çatdırdı. Mehdi xan bir az fikirləşib, Fətəli xana arıq, çəlimsiz bir yabı verib, nəzarət altında döyüşməsini istədi. Savaşın qızmar çağında 14 nəfər əfqan Mehdi xanı təklədi. Təhlükə ilə üzləşən Mehdi xan əl-qol atsa da, bir yana çıxa bilmədi. Elə bu zaman Fətəli xan özünü ora çatdırıb, əfqanları qırıb-töküb, Mehdi xanı mühasirədən azad etdi. Həmin döyüşdə Mehdi xanın qoşunu qələbə çaldı. Əfqanlar qaçıb, Təbrizə tərəf getdilər.

Savaşdan sonra Mehdi xan utandığından Fətəli xanın üzünə baxa bilmədi. Onu özünə müavin, naib təyin etdi.

Mehdi xan Təbrizdə öləndən sonra Fətəli xan bir müddət onun qardaşı Nağı xan Qasımlı-Avşarın naibi olmuşdu.

Mehdi xan Təbrizə gedəndən sonra, 1748-ci ildə qardaşı Nağı xanı Urmiyaya hakim təyin etmişdi.

Urmiya hakimi Nağı xan qardaşlarının ölüm xəbərini eşidib, üç gün əza saxlayandan sonra naibi Fətəli xan Araşlı-Avşarla məsləhətləşib, qoşun topladı. Qardaşlarının qisasını almağa hazırlaşdı. Fətəli xanla bərabər Avşar elindən bir qoşun yığdı. Xoyun hakimi Şahbaz xan Dünbilidən, Zur şəhərinin Qaraçoran mahalında əyləşən Azad xan Əfqandan yardım istədi. Onlar bir yerə toplaşıb, hazırlaşmağa başladılar. Hazırlıq bitəndən sonra Sulduz yolu ilə Təbrizə yollandılar. Təbriz əhli bu xəbəri eşidib, təşvişə düşdü. Ətrafdakılar da qorxusundan əhli əyalının əlindən tutub, biçin vaxtı olmasına baxmayaraq şəhərə daşındılar.

Nağı xanın tabeliyindəki əfqanlar yolda kimə rastlaşırdılar, ya öldürür, ya da əsir götürürdülər. Belə-belə irəliləyib, Təbrizi mühasirə etdilər. Təbrizlilər qala qapılarını bağlayıb, içəridən müdafiəyə hazırlaşdılar. Nağı xan 40 gün Təbrizi mühasirədə saxladı. Təbrizin başçıları çaparlar vasitəsilə Qaradağın hakimi Məhəmmədkazım xandan, Qarabağın hakimi Pənahəli xan Cavanşirdən, Muğan və Ərdəbilin hakimi Əhməd xan Şahsevəndən, Sərabın hakimi Əli xan Şəqaqidən yardım istədilər. Onlar 14 minlik qoşunla Təbriz əhalisinə köməyə gəldilər. Bu hücumdan Nağı xanın qoşunu xəbərsiz idi. Onların bir ağaclığına çatanda duydular. Səngər qurub, müdafiyəyə hazırlaşdılar. Nağı xan və Fətəli xan cövşən-cübbələrini geyinib, qoşunun önündə durdular. Avşarlar və müttəfiqləri iki qoşunun arasında qaldılar. Təbrizlilər qaladan çıxıb, arxadan hücuma keçdilər. Avşarlar hər iki tərəfi yenib, meydandan qovdular. Təbriz əhalisi qayıdıb, qalada daldalandı. Sonda mühasirədən bezarıyıb, Nağı xana təslim oldu. Nağı xan uğurla Təbrizə daxil olub, üç gün qardaşlarına yas tutdu. Onların qatillərini ələ keçirib, cəzalandırdı. Qardaşlarının cəsədlərini Urmiyaya köçürdü. Əhalinin istəyi ilə Azad xan Əfqanı Təbrizə hakim təyin edib, özü Urmiyaya qayıtdı.

Nağı xan bu qələbəsindən sonra iddiasını artırıb, millətə zülm etməyə başladı. O cümlədən 7 nəfər Səfəvi əsilli seyidi üsyan qaldırmaqda günahlandırıb, öldürdü. Avşar elinin nüfuzlu başçılarından Miran bəy Löhrasb bəy oğlu Mahmudlunu 4 min tümən cəriməldi. Onu Marağa hakimi İbrahim xan Araşlının adamı və üsyançı olduğunda günahlandırdı. Nağı xanın özbaşınalığından bezən Urmiya camaatı qonşu mahallara daşındı.

Urmiya camaatının narazılığını duyan Mirzə Məhəmmədrza Mirzə Məhəmmədəli oğlu Avşar bir dəstə adamla dilbir oldu. Onlar qərarlaşdılar ki, Urmiyaya gəlib, Nağı xanı öldürsünlər. Zindandan Şəhriyar xan Gündüzlü-Avşarı azad edib, taxta əyləşdirsinlər. Xəbərçilər Nağı xanı bu qəsdən duyuq saldılar. Nağı xan yaxınlarından bir dəstə adamı göndərdi ki, yollarda keşik çəksinlər. O adamlardan kimi görsələr öldürsünlər. Torpaqqala adlı yerdə qəsdçilərlə üzləşən Nağı xanın adamları onları öldürüb, dəfn etdilər. Nağı xan Şəhriyar xanı da aradan götürülməsini əmr etdi. Şəhriyar xan və qardaşı Hacı xan Qaraca hamamında çimərkən yaxalandı. Hacı xan hamamın külbəsindən çıxıb, qaçdı. Şəhriyar xan isə ələ keçirilib, öldürüldü.

Azad xan Əfqan üç ay Nağı xan tərəfindən Təbrizi idarə etdi. Yığılan vergini mütamadi olaraq Urmiyaya göndərirdi. Bu müddətdə əfqanlardan və azərbaycanlılardan ibarət 7 min nəfərlik qoşun toplamışdı. Təbrizin əhalisi Nağı xanın düşmənçiliyindən qorxurdu. Bu nədənlə Azad xanı Azərbaycana müstəqil hakim olmağa tamahlandırıb, təhrik etdilər. Azad xan onlara arxalanıb, Nağı xanın əmrlərini qulaqardına vurdu. Nağı xan onu cəzalandırmaq qərarına gəldi. Xoydan, Salmasdan və ətrafdan topladığı 20 min nəfərlik qoşunla Təbrizə hücuma keçdi. Azad xan Yusif xan və Ata Əbdali ilə məsləhətləşib, Naxçıvana qaçdı. Nağı xanın önündə acizliyini duymuşdu. Avşar qoşunu və müttəfiqi Xoy hakimi Şahbaz xan Dünbili ilə Azad xanı təqibə başladı. Araz çayının kənarında iki qoşun üzləşdi. Əfqanlar qısıldıqlarını görüb, ölüb-öldürməyə qalxdılar. Şəhamət və şücaətlərini ortalığa qoyub, Nağı xana qalib gəldilər. Nağı xan məğlub olub Urmiyaya qaçdı. Qalaya daxil olub,

möhkəmlənməyə başladı. Azad xan öncə Xoy qalasını alıb, ordan Urmiyaya hərəkət etdi.

Sayınqala avşarlarından olan Səfiyar xan Gündüzlü də ona qoşuldu. Gündüzlülərlə Nağı xanın ədavəti vardı. Onlar yığılıb, məsləhətləşdilər ki, Səfiyar xan guya kömək məqsədilə Urmiyaya gedib, Nağı xanın qılığına girsin. Dedikləri kimi etdilər. Səfiyar xan saraya gəldi. Nağı xan tərəfindən sevinclə qəbul olundu. Bir neçə gündən sonra Səfiyar xan fürsət tapıb, Nağı xanı əsir tutdu. Öncə gözlərini çıxardı. Nağı xandan narazı qalan avşarlar bu xəbərə sevindilər. Söz Azad xana çatanda qoşunu yığıb, Urmiyaya daxil oldu.

Azad xan Əfqan Nağı xanı məğlub edəndən sonra Fətəli xanı ordusunun sərkərdəsi təyin etdi. Urmiyanı Azad xanın adından Məhəmmədmusa xan Qasımlı-Avşar idarə edirdi.

Azad xan Əfqan 1749-cu ildə Məhəmmədmusa xanı Urmiyaya hakim müavini, naib vəzifəsinə təyin etdi.

Naxçıvanda Azad xana qarşı üsyan edən Heydərqulu xan Kəngərliyə qarşı Məhəmmədmusa xan və Fətəli xan Araşlını sərkərdə kimi göndərildi. Naxçıvan əhalisi qılıncdan keçirildi. Heydərqulu xan da tutulub, öldürüldü.

Qəzvin hakimi Pənah xan Ənbərlu çoxsaylı bir qoşun tərtib edib şahlıq həvəsinə düşmüşdü. Ilk öncə Təbrizi alıb, paytaxt etmək istəyirdi. Qoşunla gəlib, Təbrizin 6 ağaclığında oturaq etdi. Azad xan Əfqan Fətəli xana göstəriş verdi ki, 4 min nəfərlik qoşunla onu dəf etsin. Fətəli xan böyük şücaətlə, şəhamətlə onu yenib, darmadağın etdi.

1749-cu ildə Fətəli xan Azad xanın qoşunundan istifadə edib, İrəvan xanlığına hücum etdi. Həmin ərəfədə İrəvan hakimi Mir Mehdi xan zəifləmişdi. Vaxtı ilə İrəvan xanı Mir Mehdi xana məğlub olmuş Fətəli xan Avşar intiqam almaq məqsədi ilə özündən nisbətən qüvvətli olan Azad xanın hərbi gücündən istifadə etməyi qərara aldı. Hər iki hakim feodal arasında aparılan danışıqlar nəticəsində birləşmiş qoşunlar İrəvan xanlığı istiqamətində hərəkət etdilər. İlkin yürüşdə əfqan qoşunlarını Fətəli xanın sərkərdələrindən biri müşayiət edirdi. Həmin yürüşdən Azad xanın məqsədi

hərbi qənimət əldə etməkdən, Fətəli xanın məqsədi isə İrəvanlılardan intiqam almaqdan ibarət idi.

Cənubdan yaxınlaşan təhlükəni qarşısını almaq üçün Mir Mehdi xan İrəvan qalasının müdafiə qabiliyyətini möhkəmləndirdi. İrəvanda yaşayan ermənilərin əllərinə girəvə düşdü. Onlar xanlıqda hakim mövqe tutmaq məqsədi ilə Kartli və Kaxetiya çarlıqlarına-Teymuraza və II İrakliyə müraciət edərək İrəvana dəvət etdilər ki, yaxınlaşan təhlükəni sovuşdurub, «xristianların» vasitəsilə hakimiyyəti ələ alsınlar. Gürcülərin yaxın yardımı ilə Urmiya qoşunu yenildi. Fətəli xan, Azad xan məğlub olub geri, Təbrizə çəkildilər.

1757-ci ildə Məhəmmədhəsən xan Qovanlı-Qacar Urmiyaya hücum etdi. Əhalinin mərdliklə müqavimət göstərməsinə baxmayaraq, lazımi miqdarda qoşun və döyüş vəsaiti olmadığından şəhər Məhəmmədhəsən xanın zərbələrinə uzun müddət davam gətirə bilmədi.

Urmiya şəhəri alınmazdan öncə Fətəli xan Araşlı oraya yaxınlaşdı. Lakin Məhəmmədhəsən xan uzaq səfərdən qayıdan döyüşçülərə istirahət etmək, hərbi düşərgə yaratmaq imkanı vermədi və dərhal hücuma keçdi. Bir neçə gün davam edən qanlı döyüşdə hər iki tərəfdən çoxlu adam tələf oldu. Müharibənin uzanmasından və Məhəmmədhəsən xanın qalib gələcəyini ehtimal edən bir sıra sərkərdələr xəyanət edərək Fətəli xanı tərk etdilər. O cümlədən Azad xan Əfqan döyüşçülərlə birlikdə Bağdada qaçdı. Şahbaz xan Dünbili Xoy qoşunları ilə düşmən tərəfinə keçdi. Belə bir xəyanətkarlıq Fətəli xan Araşlının sarsılmasına və Məhəmmədhəsən xan Qacardan asılı vəziyyətə düşməsinə səbəb oldu.

Məhəmmədmusa xan içəridən hələ də qalanı müdafiə edirdi. Fətəli xan Məhəmmədhəsən xana bildirdi ki, qalanın alınmasını mənə tapşır. Məhəmmədhəsən xan razılaşdı. Fətəli xan Məhəmmədmusa xana və qalabəyi Yusif bəy Hutəkiyə məktub yazıb, bildirdi ki, əgər siz qalanı xoşluqla təslim etsəniz, mən Məhəmmədhəsən xandan sizə aman alacağam. Məhəmmədmusa xan naçar qalıb, qalanı təslim etdi.

Urmiya şəhərinə girən Məhəmmədhəsən xan illərdən bəri burada toplanan xəzinəni ələ keçirdi. Məhəmmədmusa xanı və ailəsini həbs etdi. Ondan 5 min əşrəfi qızıl tələb edib, zorla aldı. Daşınmaz əmlakını zəbt etdi. Aldıqlarına qane olmayıb, Məhəmmədmusa xanı qətl etdirdi.

Məhəmmədhəsən xan Qovanlı-Qacarın Azərbaycandakı qələbəsini eşidən Kərim xan Zənd çox narahat oldu. Qardaşı Şıxəli xan və sərkərdəsi Məhəmməd xanın başçılığı ilə öhdəsindəki bütün qoşunu Məhəmmədhəsən xana qarşı göndərdi. İki ordu İsfahan əyalətində üz-üzə gəldi. Məhəmmədhəsən xan ordusunun əsas cinahlarını avşar və qacar döyüşçüləri təşkil edirdi. Baş verən ilk müharibədə Zənd qoşunları darmadağın edildi.

Məhəmmədhəsən xan Qacar altı ay Urmiyada dayandı. Lakin o, Kərim xan Zəndlə qarşılaşmağa tələsdiyi üçün burada daha uzun müddətə qalmadı. Məhəmmədhəsən xan Azərbaycan xanlarını və onlara mənsub olan qoşunları öz döyüşçüləri tərkibinə daxil edərək cənuba doğru yola düşdü. Fətəli xan da ona qoşuldu.

Vəziyyəti belə görən Kərim xan artıq Məhəmmədhəsən xanla döyüşməyə cəsarət etmədi. O, Şiraza çəkilərək şəhər darvazalarını bağladı və müdafiəyəyə hazırlaşdı. Məhəmmədhəsən xan Qovanlı-Qacar və Fətəli xan Şiraza üz tutdular. Fətəli xan Şirazın yaxınlığında Məhəmmədhəsən xanla mübahisə edib geri qayıtdı. Tək qalan Məhəmmədhəsən xan da qayıdıb Mazandaran tərəfə getdi. Qəzvin ətrafında onları izləyən Zənd qoşunu ilə savaş baş verdi. Sərkərdə Məhəmməd xan öldürüldü və Şıxəli xan çətinliklə xilas olaraq qaçdı.

Məhəmmədhəsən xan Qacar qayıdarkən öz adamları tərəfindən öldürüldü.

Fətəli xan Məhəmmədhəsən xanın ölümündən sonra dirçəldi. Təbrizə gəldi. Şəhəri aldıqdan sonra paytaxtını Urmiyadan Təbrizə köçürdü. Top-tüfəng tərtibi ilə məşğul olub, çoxsaylı qoşun təşkil etdi. Qonşu xanlıqları təhdidə başladı. Elçi göndərib tabe olmaqlarını tələb etdi. Qaradağ hakimi Məhəmmədkazım xan Fətəli xanın elçilərinə rədd cavabı verdi. Bir neçə gündən sonra birləşmiş

Urmiya, Xoy və Təbriz qoşunları Qaradağa hücum etdi. Məhəmmədkazım xan Qaradağlı böyük ordunun önündə duruş gətirməyib tabeçiliyini bildirdi.

1751-ci ildən sonra İran və Azərbaycanda nominal da olsun şah qalmamışdı. Lakin şahlıq həvəsinda olanlar vardı. Daha çox həvəsi olanlardan biri də Fətəli xan Araşlı-Avşar idi. O, şahlıq taxtına əyləşib, Azərbaycanı birləşdirmək istəyirdi.

Fətəli xanın şahlığa yolu Kərim xan Zəndi yenməkdən keçirdi. Ona görə də Azərbaycan xanlarına birləşmək təklifi ilə müraciət etdi. Azad xan ona yardım etməyə söz verdi.

Fətəli xan Azərbaycanın görkəmli sərkərdələri ilə birlikdə İranın cənubunda Kərim xan Zəndə qarşı vuruşurdu.

Məhəmməd xan Əfqan Azad xanın məğlubiyyətindən sonra Şirvana qaçmışdı. Fətəli xan ona məktub yazıb, Təbrizə çağırdı. O da 500 nəfərlik qoşunla gəlib Fətəli xana qoşuldu. Ora-bura səpələnən əfqanlar yavaş-yavaş onun başına yığışdılar. Dinc dayanmayan əfqanlar Təbriz əhalisinə zülm etməyə başladılar. Təbriz əhalisi əfqan zülmündən Fətəli xana şikayət etdi. Fətəli xan Təbrizdə saraya yerləşməmiş, «Tağı sultan» bağında oturaq etmişdi. Hay vurub, əfqanları həmin bağın bir hissəsinə topladı. Təbrizin ağsaqqalarına, başçılarına bildirdi ki, əli silah tutan adamları yığıb, əfqanları yuxudaikən qırsınlar. Avşarlara da Təbriz əhlinə kömək etməyi tapşırdı. Təbriz əhli və avşar camaatı birləşib, zülmkar əfqanları qırdılar.

Fətəli xan əfqanları qırıb-tökəndən sonra xoylu Şahbaz xan Dünbilini yanına çağırdı. Qoşuna sərkərdə təyin etdi. Mirzə Məhəmmədcəfər İmanlını Urmiyadan özünə vəzir dəvət etdi. Avşar elinin böyüklərindən, Araşlı oymağının qohumlarından olan Miran bəy Mahmudlu da gəlib, onunla birləşdi. Fətəli xan onun Nağı xan Qasımlı tərəfindən alınmış əmlak və əmvalını geri qaytardı.

Azad xan Əfqan Fətəli xanın dirçəlişini eşidib, İraqdan Azərbaycana gəlmək fikrinə düşdü. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Hicri qəməri 1174-cü ildə Azad xan Məhəmmədhəsən xan tərəfindən məğlub olub, Bağdada qaçmışdı. Ordan İranda baş verən hadisələri izləyirdi. Kərim xan Zəndin Məhəmmədhəsən xana

qələbəsini eşidib, fürsəti münasib görüb, qohumlaşdığı Həkkari tayfasından yardım istədi. Onlar bu qohumluğa görə, 15 min nəfərlik ordu toplayıb, sevincək Təbriz şəhərinə yola düşdülər. Marağa şəhərinin iki ağaclığındakı Binab şəhərinə yetişdilər. Marağa hakimi Hacı Əliməhəmməd ağa Müqəddəm çox huşlu-başlı bir adam olduğundan el və kənd əhli onun bir sözünü iki eləmirdi. O da elə arxalanıb, Azərbaycan hakiminə, Fətəli xana vergi verməkdən imtina etmişdi. Azad xan ordusunun Marağa ətrafına gəlməsinə narahat oldu. Hacı Əliməhəmməd ağa Müqəddəm naçar qalıb, Fətəli xanla dostlaşdı. Ona məktub yazıb yardım istədi. Fətəli xan tabeliyində olan Şahbaz xan Nəcəfqulu xan oğlu Dünbilini 1000 nəfərlik qoşunla ona köməyə göndərdi. Yardım yetişincə Azad xan Binab şəhərini odlayıb, adlı-sanlı adamları öldürüb, qalan kişi və qadınları əsir götürdü. Bu xəbəri eşidən Fətəli xan əfqanların özbaşınalıqlarından səbri tükəndi. Tabeliyində olan qoşunu götürüb, Marağaya üz tutdu. Marağaya yetişəndə Hacı Əliməhəmməd ağa Müqəddəm də ona qoşuldu.

Avşar ordusu, Xoylu Şahbaz xanın qoşunu və Marağalı Hacı Əliməhəmməd ağanın dəstəsi Fətəli xanla birlikdə düşmən ordusuna hücuma başladılar. Bir həmlədə əfqanları və həkkariləri darmadağın etdilər. Azad xan qaçıb Gürcüstana getdi».

Fətəli xan xoylu Şahbaz xan Dünbilinin köməyi ilə qonşu xanlıqları birər-birər ələ keçirməyə başladı.

Fətəli xan əlində olan ərazi ilə kifayətlənməyərək şahlığı dirçəltmək qənaətinə gəlmişdi. Bu məqsədlə müraciətnamə hazırladı. Müraciətnamələri birər-birər Azərbaycan xanlarına göndərdi. Heç bir xan ona müsbət cavab vermədi. Ona görə də böyük ordu toplayıb, qonşu xanlıqların ərazisinə soxuldu.

Fətəli xan belə müraciətnamələrdən birini də vəziri Mirzə Məhəmmədcəfər İmanlının başçılığı ilə Qarabağ xanlığına göndərmişdi. Pənahəli xan onun elçilərini acılayıb, qovmuşdu. Tarixçi Mirzə Camal bəy Cavanşir yazır: «Elçilər qayıdıb (yerlərinə) çatdıqdan sonra Fətəli xan, Azərbaycan, Urmiya və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb qalanı almaq, Qarabağı ələ keçirmək və

Pənah xanı aradan qaldırmaq məqsədilə Şuşa qalasına gəlib qalanın bir ağaclığında düşərgə qurdu».

Mirzə Məhəmmədcəfər İmanlı qayıdıb əhvalatı Azərbaycan hakiminə bildirdi. 1759-cu ildə Fətəli xan Araşlı-Avşar çoxsaylı qoşunla Pənahəli xanın üstünə gəldi. Öncə bir neçə mahalı ələ keçirdi. Qiyamçı məliklər, Çiləbörd məliyi Məlik Hətəm və Talış məliyi Məlik Yusif Fətəli xanla birləşdilər. Fətəli xanın qoşunu Şuşaya yaxınlaşdı. Gecə basqınlarından qorunmaq və qəfil hücumlardan müdafiə olunmaq üçün səngər-sipər hazırladılar. Tarixçi Hüseyn Dəlili yazır: «Şəhər əhalisinin qəhrəmancasına müqavimət göstərməsinə baxmayaraq, Fətəli xanın qoşunları gündən-günə qalaya doğru irəliləyirdilər. Şuşaya gedən yollar bağlandığı üçün orada azuqə, hərbi sursat get-gedə azalır və yeni-yeni çətinliklər meydana çıxırdı. Müharibənin son günlarində Avşar döyüşçüləri artıq qala divarı ətrafında döyüşürdülər. Şəhər süqut etmək təhlükəsi qarşısında idi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Pənahəli xan Fətəli xanla zahiri olsa da sazişə gəlməyə məcbur oldu.

Qarabağda son dövrə kimi «Fətəlixan səngəri» adlı yer vardı. Bu yer qəhrəman avşar oğlunun nişanəsidir.

Qarabağ qoşunları Fətəli xanın ordusuna qarşı yaxşı vuruşsa da, nəticə effektli alınmadı. Mirzə Camal bəy qələbənin Qarabağ tərəfdə olduğunu yazır. Bildirir ki, Fətəli xan İbrahimxəlil ağanı barışıq bağlamağa gələrkən xaincəsinə aparıbmış. Tarixçi yazır: «Bu hadisədən sonra Fətəli xan Avşar, qoşunun məğlub olması və qış fəslinin yaxınlaşmasına görə, sülh və barışıq təklif etdi. Mahir elçilər göndərib, and-aman içərək belə vədə verdi: «Əgər Pənah xan, qoşunumdan aldığı əsirləri geri qaytarsa, mənlə ittifaq və dostuq etsə, qızımın kəbinini onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirəcəyəm. (Beləliklə də) biz əbədi qohum və dost olacağıq. Bir şərtlə ki, İbrahimxəlil ağanı mənim yanıma göndərsin. O isə orduda şirni içilib, kəbin kəsildikdən və iki-üç gün burada (qonaq) qaldığından sonra geri qayıtsın».

Tarixçi Molla Məhəmməd əl-Cari bu olay haqqına yazır: «Sonra Sərdar (Fətəli xan – Ə. Ç.) düşmənlərindən qorxduğu üçün

öz diyarına qayıdır. İrakli xan ona gürcü qoşunu, Şahverdi xanı və Hacı (Çələbi) xanın oğlu (nəvəsi, Həsən ağanın oğlu – Ə. Ç.) Hüseyn xanı götürməyə icazə verir, yalnız onun yanına sülh bağlamağa gəlmiş Pənah xanın oğlundan başqa. O (Pənah xanın oğlu), ondan və atası Pənah xandan icazəsiz gedir».

Lakin tarixçi Abbasqulu ağa Bakıxanov bu tarixçilərin əksini düşünür. Abbasqulu ağa yazır: «...Hicri 1175-ci (1762) ildə (tarix düz deyil. Əslində 1759-cu ildə – Ə. Ç.) Nadir şahın böyük əmirlərindən Fətəli şah Əfşar Azərbaycanı aldı, hökmüranlıq iddiası ilə Gəncə və Qarabağa hərəkət etdi. Pənah xan onunla zahirən itaət edər kimi sazişə girdi, oğlu İbrahimxəlil ağanı ona girov verdi…».

Tarixçi Əbdürrəzzaq bəy Dünbili həmin hadisəylə bağlı yazır: «Padşahlıq iddiasında olan, Azərbaycandan başqa İrəvan, Qarabağ və Şəkini istila edən Urmiya hökmdarı Fətəli xan Hacı Çələbinin nəvəsi, Həsən ağanın oğlu Hüseyn bəyi xanlıq titulu ilə təltif etdi. Lakin Qarabağlı Pənahəli xanın oğlu İbrahimxəlil xanı öz yanında girov saxladı».

Kərim xan Zənd güclənib, Fətəli xanın üstünə gəldi. Təbriz əhlindən bir neçə nəfəri danışıq üçün onun yanına göndərdi. Fətəli xan elçiləri yamanlayıb, geri göndərdi. Təbrizə çəkilib, möhkəmlənməyə başladı. Xoya və Urmiyaya xəbər göndərib, möhkəmlənməklərinə göstəriş verdi. Dərilməmiş məhsulları tələf etməyi tapşırdı.

Kərim xan öncə Marağaya hücum edib, oranı dava-dalaşsız ələ keçirdi. Qarətçi, quldur hesab etdiyi Şahsevən, Şəqaqi ellərini tənbeh edib, yola gətirdi. Özünə tabe etdi.

Kərim xan Mirzə Ələkbər Mollabaşını Fətəli xanın yanına elçi göndərdi. Tabe olmasını tələb etdi. Fətəli xan yenidən rədd cavabı verdi.

Kərim xan özü ilə top gətirmədiyindən çəkilib, getdi. Fətəli xan bu mərəkədən nicat tapdı.

Fətəli xan daha iki il də Azərbaycana müstəqil başçılıq etdi. Savaşa hazırlaşmağa başladı. Kərim xan Zəndlə müharibə qaçılmaz idi. Tabeliyində olduğu Qaradağdan, Qarabağdan, Naxçıvandan,

Ərdəbildən 12 min nəfərlik qoşun topladı. Ətrafına 300 nəfər əfqan yığdı.

Kərim xan Zənd də boş oturmadı. Fətəli xanı özünə tabe etdirməkdən ötrü xeyli qoşun yığdı. Toplar tökdürdü. Müttəfiqlər axtardı. 1762-ci ildə Kərim xan Zənd Qarabağ hakimi Pənahəli xan Cavanşirə məktub göndərdi. Məktubda yazılırdı: «Fitnə və fəsad sahibi Fətəli xan indi bizimlə qan düşməni olmuşdur. Sizinlə də pis xasiyyətli bir düşməndir. Verdiyi sözə və içdiyi andın əksinə hərəkət etmişdir. İbrahimxəlil ağanı apararaq, sizi dərd və qüssəyə salmışdır. Hər an bir fikirdə və hər gün də bir əmirlə hərb etməkdədir. Mən də: «Ey ağıl sahibləri, sizin üçün qisas almaqda həyat vardır» ayəsinin məzmununa əsasən intiqam almağı və ədavət qılıncını qınından çəkib hərbə girişməyi qərara almışam. Buna görə cənabınızdan bir dost kimi xahiş edirəm ki, təcili surətdə durmadan və təxir etmədən, hökümünüz altında olan qalib qoşunlarınızla bizə yoldaşlıq edəsiniz; çünki, əsas məqsədim və günəş kimi işıqlı olan fikrim budur ki, həm də oğlunuzu xilas edim, həm də qardaşımın qanını alım». Pənahəli xan Kərim xanın çağırışını cavablayıb, qoşunla Təbrizə yürüş etməyə söz verdi. Bu iş üçün 3 ay hazırlıq gördü.

Tarixçilər yazırlar: «Bu zaman Kərim xan Zənd İranın bir çox məntəqəsini tutmuşdu. O, Azərbaycanı tutmaq istəyirdi. Fətəli xan onunla müharibəyə başlamalı oldu. Baş vermiş şiddətli döyüşdə Fətəli xan Əfşarın qüvvələri qələbə qazandı. Lakin böyük təlefat verdiyi üçün bu məntəqəni tutmaq istəyən ikinci bir iddiaçı Məhəmməd Həsən xan Qacarın qarşısında tab gətirə bilmədi. Məhəmməd Həsən xan Qacar Şirazda Kərim xan Zəndlə etdiyi müharibədə məğlub oldu. Indi növbə Kərim xan Zəndlə Fətəli xan Əfşara çatmışdı ki, onlar ikinci dəfə güclərini sınasınlar. Bu dəfə Kərim xan Zənd zirək tərpənib müharibəyə başlamazdan əvvəl Fətəli xan Əfşar siyasətindən narazı olan Azərbaycan xanları ilə müzakirəyə başladı. Beləliklə, 1761-ci miladi ildə Pənahəli xan onunla birləşərək Urmiyaya hücum etməyə dəvət etdi ki, həm o, Fətəli xanla döyüşdə öldürülmüş qardaşının intiqamını alsın, həm də Qarabağ

xanı oğlunu azad etsin. Pənahəli xan bu dəvəti qəbul edərək və güclü bir ordu ilə Qarabağdan hərəkət etdi».

1763-cü ilin ortalarında Kərim xan yenidən Azərbaycana gəldi. Bu dəfə Kərim xan top-tüfənglə, xeyli qoşunla gəlmişdi. Fətəli xan qaladan çıxıb, öndə dayanan Kərim xanın dəstəsinə hucum etdi. Onu məğlub edib, döyüş meydanından qovdu. Başqa cəbhədə Kərim xanın sərkərdələri Şıxəli xan Zənd, Zəki xan Zənd Fətəli xana kömək edən dünbililəri dağıtdılar. Şahbaz xanı əsir tutdular. 500 nəfərlik zənd dəstəsi Fətəli xanın qoşunun mərkəzinə hücum etdi. Fətəli xan Şahbaz xanın tutulmasından məyus olub, geri çəkildi. Çəkilib Urmiyaya getdi. Qalan avşarlar hələ də meydanda vuruşurdular.

Çox keçmədən güclənən Zənd qoşunları meydanda tək qalan avşarları məğlub edib döyüş meydanından qovdular.

Kərim xan on gün Təbrizin ətrafında oturaq etdi. Azərbaycanın bütün xanları, Məhəmmədkazım xan Qaradağlı, Pənahəli xan Cavanşir, Əli xan Şəqaqi Şahbaz xan və qardaşı Əhməd bəy Kərim xan Zəndin ətrafına toplandılar. Kərim xan Zənd Təbrizin hakimiyyətini Məhəmmədrza xan Mərəndiyə verdi. Məhəmmədhüseyn xan Zəndi onun məiyyətinə verib, 30 atlı ilə Təbrizə yolladı. Onlar Təbrizə yetişcək Fətəli xanın havadarları tərəfindən həbs edildilər. Amma Təbrizin şeyxülislamı Mirzə Əsədulla törənəcək xətanı hiss edib, Fətəli xanın havadarlarını yanına çağırıb, öyüd-nəsihət verdi ki, bu işin nəticəsi yoxdur. Mən vəkildən aman alım, siz də tutulanları buraxın. Mirzə Əsədulla danışığı bitirib, Kərim xanla görüşdü. Kərim xan onları bağışladı. Fətəli xan hələ sağ idi.

Kərim xan birləşmiş qoşunlarla 9 ay müddətində Urmiyanı mühasirə etdi. Pənahəli xanın oğlu İbrahimxəlil xan zindandan qaçıb, evlərinə tələsirdi. Yolda Şıxəli xan Zəndin qoşunu ilə üzləşdi. Onlara qoşuldu. Qoşaçayın Leylanında əyləşən Fətəli xan Urmiyaya hərəkət etdi. Urmiyaya daxil olub qapıları qapadı. Darvazalara gözətçi təyin edildi. Şahməhəmməd bəy Kəhkəhli, Miran bəy Mahmudlu Torpaqqala darvazasına, Mirzə Məhəmməd bəy və Şahməhəmməd bəy Səidli-Avşar Həzaran darvazasına, Məhəmməd

bəy Qarahəsənli-Avşar, Əlişeşpər bəy Bazarbaşı darvazasına, Qəhrəman bəy, Cəlil bəy Ərəbli Yurdşah darvazasına, Fətəli bəy və Qulu bəy Bəgişli Hindu darvazasına, Əlimustafa bəy Araşlı Ballı (Məşəd) darvazasına təhkim edildilər. Fətəli xan hər qala bürcünə bir top qoydurdu. Divanbəyi İbrahim xan baş sərkərdə təyin olundu.

Fətəli xan qaladan çıxıb Kərim xanın üstünə hücum çəkdi. Adamların sayına, qoşun əhlinin azlığına görə məğlub olub, qalaya çəkildi. Üç dəfə avşar və zənd qoşunu savaşdı. Qalib müəyyən olmadı. Mühasirənin uzanmağı azuqənin tükənməsinə səbəb oldu. Qışın yetişməyi Kərim xanın ordusuna da çətinlik törədirdi. Ordunun sərkərdələrindən bir neçə nəfər Fətəli xana məktub yazıb, bərk, möhkəm dayanmasını istədi. Bildirdilər ki, biz fürsət tapıb Kərim xana ziyanlıq vurub, sənə qoşulacağıq. Keşikçilər qasidləri tutdular. Yeddi nəfər sərkərdə faş olundu. Kərim xan onların boynunu vurdurub, həmin məktublarla bərabər Fətəli xana göndərdi. Fətəli xan Gürcüstanın, Şirvanın, Gəncənin hakimlərinə məktub göndərib, yardım istədi. Heç kimdən kömək gəlmədi. Onlar Kərim xandan qorxurdular.

Kərim xan da məşvərət çağırıb hər tərəfdən hücuma keçməyi qərara aldı.

Urmiyada aclıq başlanmışdı. Avşarlar birər-birər qaçıb, Kərim xana qoşulurdular. Fətəli xan avşar ağsaqqalarını çağırıb, məsləhətləşmə apardı. Bildirdi ki, mənim zəndlərin önündə dayanmağım böyüklük, mal-dövlət həvəsindən irəli gəlmir. Mən çoxillik şöhrətimizi, şərəfimizi, namımızı, namusumuzu düşünürəm. Adamlarınızın başına ağıl qoyun, dəlilik etməsinlər. Təqdir tədbirə qarşı olub. Allah nə istəsə o da olacaq!

Avşar ağsaqqaları bu sözləri eşidib, mütəssir oldular. Bildirdilər ki, sənin istəyin bizim üçün qanundur.

Fətəli xan çox düşünüb, vəziri Mirzə Məhəmmədcəfəri bir çox avşar böyükləri ilə Kərim xanın yanına göndərdi. Kərim xan sevincək oldu. Şeypur çaldırıb bayram etdi. Elçilərin qarşısına getdi. Barışığa razılıq verdi.

Fətəli xan da elçilərin ardınca Kərim xanın yanına yollandı. Kərim xan onu cavan ölmüş qardaşının əvəzinə qəbul etdi. Fətəli xanın təsliminin ikinci günü Kərim xan Urmiyaya girdi. Azad xanın bir müddət hökumətinin olduğu sarayda əyləşdi. Fətəli xanla birlikdə novruz bayramını qeyd etdilər. Avşar əmirləri onun məclisində iştirak etdilər. Kərim xan Fətəli xandan hakimliyi alıb Rüstəm xan Mehdi xan oğlu Qasımlı-Avşara verdi. Fətəli xana isə zər xələt, qiymətli xəncər, yəhərli at bağışladı. Kərim xan Azərbaycan xanlarını və Fətəli xanı götürüb Şiraza yollandı. Yolda eşitdi ki, Balbas və Mənqur əşirətləri üsyan ediblər. Fikirləşdi ki, onların öhdəsindən yalnız Fətəli xan gələ bilər. Əliməhəmməd xan Zəndi də ona qoşub 8 min nəfərlik qoşunla onları yatırmağa göndərdi. Fətəli xan ilk həmlədə əşirətləri darmadağın edib geri döndü. Qardaşı Divanbəyi İbrahim xan onu kənara çəkib, bildirdi ki, Kərim xan qardaşının qanını sənə bağışlamayacaq. Əlinə fürsət düşmüşkən qaç, canını qurtar. Fətəli xan qayıtdı ki, mən də qardaşlarımı onun əlində qoyub qaça bilmərəm.

Onlar İsfahan ətrafına çatanda İskəndər xanın qəbrini ziyarət etməyə getdilər. Kərim xan ağlamağa başladı. Fətəli xanın düşmənləri, Azad xan Əfqan, Zənd əmirləri və başqaları Kərim xanı qisas almağa təhrik etdilər.

Kərim xan Fətəli xan Araşlı-Avşarın ölümünə fərman verdi.

Fətəli xandan sonra, 1763-cü ildə Urmiyanın hakimi Rüstəm xan Araşlı-Avşar oldu.

Rüstəm xan 1763-cü ildə Kərim xan Zəndin iradəsi ilə Urmiyaya başçılıq etmişdi. Onun hakimiyyətinin ilk illərində Balbas və Zərza tayfaları üsyana başladılar. Gündüzlü oymağının binə bağladığı Dol mahalını qarət etdilər. Rüstəm xan bu xəbəri eşidib, Sayınqala hakimi Mömün xanı və Qarahəsənli oymağının başçısı Məhəmməd bəyi Qasımlıdərəsi yolu ilə kürdlərin ayaqlanmasını yatırmağa göndərdi. Ardlarınca özü də Qaşqagədik yolu ilə onların üstünə getdi. Balbas tayfası Mənqur və Pİran tayfaları ilə birlikdə Üşnəviyyə qəsəbəsində oturaq etmişdi. Rüstəm xan Qəndil ətrafına yetişəndə balbaslarla üzləşdi. Ağır bir savaş baş verdi. Nəhayət

Avşar elinin şücaəti ilə Balbas tayfası yenildi. Əşirət (tayfa) əhli Sığnaq mahalına qaçdı. Rüstəm xan əşirət əhlinin bəlasını dəf edəndən sonra Binabın Səhnabad qəsəbəsindəki Baranduz çayının ətrafında oturaq etdi. Ordan Üşnəviyyədəki balbasları nəzarətdə saxlamağa başladı. Mömün xan, Məhəmməd bəy Qarahəsənli ilə Qasımlıdərəsindən Üşnəviyyəyə gedərkən yolkəsən zərzalarla üzləşdilər. Onlara hücum edib, xeyli adam qırdılar. Zərza tayfası özündənrazı olduğundan avşarları saymırdı. Bu əşirət darmadağın olandan sonra Üşnəviyyəyə qaçıb, əlçatmaz dağlara sığındı.

Balbas tayfasının başçısı Kəbaiz ağa Müzəyyən müttəfiqi Zərza tayfasinin vəziyyətini görüb, Məhəmməd bəy Qarahəsənlinin qoşununa hücum etdi. Savaş başlandı. Məhəmməd bəy Kəbaiz ağanı qılıncayıb, yerə sərdi. Qəflətən, Məhəmməd bəyin atının ayağı burxuldu. Məhəmməd bəy yerə yıxılıb yaralandı. Bu yaradan da vəfat etdi.

Kəbaiz ağa Balbas öləndən sonra üsyançılar dağıldılar. Rüstəm xan Urmiyaya döndü.

Bu döyüşdən sonra Rüstəm xan Avşar xalqı əmin-amanlıqla, müdara ilə dolandırdı. Güzəran yaxşılaşdı, fİrəvanlıq hiss olunmağa başladı.

Kərim xan Zənd sarayda girov saxladığı Avşar elinin başçılarını birər-birər yanına çağırıb, söhbət eləyir, xələt verir, Urmiyaya yola salırdı. Bağır bəy Qasımlını cah-cəlal ilə vətəninə yolladı. Bağır bəy Urmiyaya yetişəndə xalq onun pişvazına çıxdı. Rüstəm xan ona imarətində yer verdi. Keşikçibaşı İlyas bəy Avşara özəliklə tapşırdı ki, Bağır bəyin qulluğunda özü dursun. Hər nə istəsə müzayiqə etməsin. Rüstəm xan isə gecə-gündüz ondan ayrılmadı. Bu qonaqpərvərliyə baxmayaraq, Bağır bəy gizlicə Sadıq bəy, Abid bəy və Mehrab bəylə bərabər sui-qəsd hazırladı. Bağır bəy özü Urmiyanın xanı olmaq istəyirdi. Bir axşamüstü qəsdən xanla şam yeməyə getmədi. Həmin gecəni sübhədək yatmadı. Alatoran çağı birini evin üstünə çıxardı ki, yalandan azan çağırsın. Keşikçibaşı İlyas bəy sübh olduğunu düşünüb, hamama getdi. Bu fürsətdən yararlanan sui-qəsdçilər Rüstəm xanın hərəmxanasına daxil oldular. Rüstəm

xan özü otaqda yox idi. Eşiyə çıxmışdı. Bacısı evə qəsdçilərin girdiyini gördü. Bağır bəyin ayağına yıxıldı. Bağır bəy dinməzcə onun başına bir güllə vurdu. Güllə yayınıb, onun boynuna dəydi.

Həmin qadın ömrüboyu boynuəyri gəzdi. Qalan sui-qəsdçilər ora-bura boylanıb, Rüstəm xanı tapdılar.

Rüstəm xan Bağır bəyin təhriki ilə 1767-ci ildə sui-qəsdçilər tərəfindən öldürüldü.

Rüstəm xandan sonra Urmiyanın hakimi Rzaqulu xan Qasımlı-Avşar oldu. O, Kərim xan Zəndin yanında girov saxlanılırdı. Bacısı Kərim xanın arvadlarından biri idi. Onun və Avşar ağsaqqalarının məsləhəti, Mömün xan Qasımlının xahişi ilə 1768-ci ildə Urmiyanın xanı təyin olundu. Rzaqulu xan az müddət ərzində qiyamçı və asiləri yatırdı. Millətə və istiqlala qarşı çıxanları tutub zindana atdı, qatilləri öldürdü. Onun hakimiyyəti dönəmində bütün sərhədlər sakitləşdi. Adamlar əmniyyətdə yaşamağa başladılar.

Rzaqulu xan qurucu və xeyirxah adam idi. Urmiyadıkı qədim məscidlərdən olan, islamın ilk illərindən inşa edilən Came məscidini təmir etdirmişdi. Üstəlik də tələbələr üçün xeyli hücrələr tikdirmişdi. Came məscidinin kümbəzini memarlar vasitəsilə yenidən qurdurmuşdu. Yenidənqurmaya xeyli vəsait xərcləmişdi. Rzaqulu xanın Urmiyada inşa etdirdiyi binalardan biri də dördguşəli qaladır. Bu qalanın hər guşəsində bir bürc vardı. Xanın əziz qonaqları bu qalada qəbul edilirdi. Sonrakı dönəmdə Kərim xan Zənd, eləcə də İranın böyük şəxsiyyətləri bu binada qonaq qalmışdılar. Babizmin banisi Seyid Məhəmmədəli bu imarətdə məhbus kimi saxlanmışdı.

Rzaqulu xan 1771-ci ilə qədər Urmiyaya başçılıq etmişdi.

Rzaqulu xandan sonra Urmiyanın hakimi böyük oğlu İmamqulu xan Qasımlı-Avşar oldu.

O, 1772-ci ildə taxtda əyləşmişdi. Avşar elinin və Qasımlı oymağının böyükləri Kərim xan Zəndə məktubla müraciət edib, onun hakimiyyətinin təsdiqlənməsini istədilər. Məktubu Şiraza Mirzə Məhəmmədcəfər İmanlı apardı. Kərim xan Zənd ona başsağlığı verib, xanlığını təsdiqlədi.

İmamqulu xan da atası kimi qurucu bir şəxsiyyət idi. Xanbulağı adlı yerdə imarət tikdirmişdi. Bu imarətin qalıqları hələ də qalır. Bürcşah adlı yurdun sağında «Dilguşə» adlı bağ saldırmışdı. Urmiya şəhərini abadlaşdırmışdı.

İmamqulu xan xanlığın əvvəlki əzəmətini bərpa etmək istəyirdi. Bu məqsədlə 12 minə qədər qoşun toplamışdı. İmamqulu xan qorxmaz sərkərdə idi. Bütün savaşlarda qoşunun başında dayanardı.

Qoşun tərtibindən sonra İmamqulu xan Kərim xan Zəndə vergi ödəməkdən boyun qaçırdı. Kərim xan Zənd də hirslənib, 1778-ci ildə Fətəli xanın oğlu Cahangir xan Araşlı-Avşarı İmamqulu xanın əvəzinə Urmiyaya hakim təyin etdi. Urmiyada Avşar elinin Qasımlı və Araşlı oymağının xanlıq üstündə gizli mübarizəsi vardı. Kərim xan Zənd onların zəif damarını gözəl bilirdi.

İmamqulu xan tutduğu işdən peşman oldu. Mirzə Məhəmmədcəfər İmanlını şahanə sovqatla və bir neçə illik vergilərlə Şiraza göndərdi. Vəzirinə möhkəm-möhkəm tapşırdı ki, kəşfiyyat aparıb, bu məsələdən hali olsun. İşi onun xeyrinə həll etsin. Təcrübəli vəzir Kərim xanı razı salmağı bacardı. O, pay-parçanı alıb, İmamqulu xana yenidən xanlıq təliqəsi göndərdi.

1778-ci ildə Ərdəbil hakimi Nəzərəli xan Şahsevən Təbrizə hücuma keçdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Nəzərəli xan Təbriz zəlzələsindən istifadə edib, Təbrizə yürüş etmişdi. Nəcəfqulu xan Dünbili onun qarşısını ala bilməyəcəyini düşünüb, Xoya qaçmışdı. Xoyda qardaşı uşaqları Əhməd xan, Salman xan və Məhəmməd bəylə məsləhətləşib, Urmiya hakimi İmamqulu xana yardım məqsədilə müraciət etmişdi. İmamqulu xan bir şərtlə ona kömək etməyə razılaşmışdı ki, Təbriz xanlığı ondan asılı olacaq. Nəcəfqulu xan qohumları ilə məşvərətdən sonra, həmin şərtlə razılaşmışdı. İmamqulu xan ağır qoşunla Təbrizin müdafiəsinə gəldi. Təbrizin Təsuc şəhərində Dünbili xanları İmamqulu xanı qarşılayıb, gəlişinə qurbanlar kəsdilər. Sərabın hakimi Əli sultan Şəqaqi Nəzərəli xanın müttəfəqi olduğundan, ilk hücumu Səraba etdilər. Əli sultan Şəqaqi müdafiə olunmağa gücü çatmadığından Xalxala qaçdı. Nəcəfqulu xan onu izləmək istədi. İmamqulu xan izləməyi

məsləhət görməyib, onunla birlikdə Təbrizə qayıtdı. Urmiya qoşunun hücumunu duyan Nəzərəli xan da Təbrizi tərk edib Ərdəbilə çəkilmişdi. İmamqulu xan Təbrizdə 8 gün qalandan sonra Urmiyaya qayıtdı».

İmamqulu xanla Təbriz yürüşündə iştirak edən Balbas tayfasının başçısı Qərəni ağa Məməş Marağa yolu ilə qayıdarkən Sulduz mahalında qarətlə məşğul olmuşdu. Bu xəbəri eşidən İmamqulu xan Sərməst bəy Avşara tapşırdı ki, Qərəni ağanın yanına gedib, qarət olunmuş malları yiyəsinə qaytarmasını istəsin. Əgər boyun qaçırsa, ona qarşı savaş açsın. Özü də qoşun toplayıb, Sərməst bəyin ardınca getdi. Bilirdi ki, əgər savaş başlasa, Sərməst bəy az miqdar qoşunla bacarmayacaq. Qərəni ağanın da tərsliyinə bələd idi.

Qərəni ağa ilə söhbətləşəndən sonra bəlli-başlı cavab almayan Sərməst bəy Avşar savaş əmri verdi. Savaş zamanı yenilib, qaçdı. Sərməst bəy qaçarkən arxadan vuruldu. Yerdə çabalayarkən özünü yetirən Qərəni ağa onun başını kəsdi. Bu heyndə Avşar qoşunu özünü yetirdi. Çatan qoşun savaşa başladı. İmamqulu xan Sərməst bəyin ölməyini öyrənib, özü də savaşa qatıldı. Qərəni ağa tablamayıb, qaçdı. Digər balbas başçıları da onun ardınca götürüldülər. İmamqulu xan balbasları cəzalandırıb, xeyli qənimətlə Urmiya şəhərinə qayıtdı.

Zəki xan Zənd Sənəndəc hakimi Əmənulla xan Ərdalani ilə savaşarkən ikincisi yenilib, qaçmışdı. Qaçıb, İmamqulu xana sığınmışdı. Zəki xan Mirzə Şəfi bəy Mirzə Məhəmmədcəfər oğlu Əbdülməliki-Avşarı İmamqulu xanın yanına göndərmişdi. Ondan xahiş etmişdi ki, Əmənulla xanı təhvil versin. İmamqulu xan Zəki xanın təhdidindən hirslənib, baş sərkərdəsi İbrahim xan Divanbəyinin başçılığı ilə 4 min avşarı Zəki xanın üstünə göndərdi. Əmənulla xanı da onlara qoşdu.

Danışıqlardan qayıdan Mirzə Şəfi bəy qəziyyəni necə varsa Zəki xana çatdırmışdı. Zəki xan da Mirzə Şəfini yalançılıqda günahlandırıb, həbs etmişdi.

Zəki xan Zənd Avşar qoşununun yetişdiyini görüb, müqavimət göstərə bilməyəcəyini düşünüb, İraq tərəfə qaçdı. Yolda vəziri Mirzə Şəfi bəy Avşarı öldürdü. Mirzə Şəfi bəy Urmiyalı idi.

Əmənulla xan Ərdalani İmamqulu xanın sərkərdələrinə, avşar əsgərlərinə ənam-ərməğan verib, Urmiyaya yola saldı.

İmamqulu xan Xoy hakimi Əhməd xanla müttəfiq idi. O da Qarabağ hakimi ilə dostluq edirdi. 1780-ci ildə İbrahimxəlil xanla Əhməd xanın arası dəymişdi.

1783-cü ildə Əhməd xan Dünbili ilə İbrahimxəlil xan Cavanşir barışdılar. Sonra yenidən savaşdılar. İran tarixçisi yazır: «1195-ci ildə (miladi 1782-ci ildə, tarixçinin yanlışı var-Ə. Ç.) İbrahimxəlil xan Cavanşir Xoyu tutmaq xəyalına düşdü, Xoy və Səlması işğal etmək üçün qoşunlarını Şirvan və Qarabağdan Naxçıvan yolu ilə oraya göndərdi. Qarabağ orduları Arazın 40 km-liyində olan «Nazik» qalasını mühasirə etdilər. Lakin Əhməd xan Dünbülü Ərum (Urmiya-Ə. Ç.) bəylərbəyi İmamqulu xan Əfşardan kömək istədi. İmamqulu xan kürd və əfşarlardan ibarət qoşunla Xoya gəldi. Əhməd xan iki gün sonra Çəmənbağda (şəhərin şərqində) Ərumi qoşunlarını qarşıladı və müttəfiqlər qarabağlılarla döyüşə girib, onları məğlub etdilər.

Tarixçi Mirzə Rəşid Ədibüşşüara «Tarixi-Əfşar» kitabında yazır: «Bu il Təbriz zəlzələsinin ikinci ildönümü idi ki, İbrahimxəlil xan Cavanşir Molla Pənahın təhriki ilə (Cənubi) Azərbaycana hucum etmişdi. Qarabağın münəccimi Molla Pənah rəml atmışdı ki, guya Qarabağ xanı Azərbaycanın şahlığına nail olacaq, o da bu düşüncə ilə Qarabağdan və Şirvandan qoşun toplayıb, arzusunu həyata keçirməyə başlamışdı. Bütün başçıları və o cümlədən İmamqulu xan Əfşarı özünə tabe etmək istəyirdi. Ona görə də Əbdüssəməd bəy və Mirzəli bəyin başçılığı ilə bir dəstəni Xoy və Salması almağa göndərdi. Naxçıvan tərəfdən yüksək əhval-ruhiyyə ilə qoşun hərəkata başladı. Qarabağ qoşunu Xoya bağlı Nazikhəlqəyə hücuma keçdi. Bu qalanın əhalisinin kənarda vuruşmaq üçün gərəkli qüvvələri olmadığı üçün müdafiə ilə keçindilər. Əhməd xan Dünbili bu sel və yel kimi gələn bəlanı Xoydan dəf etmək üçün

İmamqulu xan Əfşara müraciət edib, yardım istədi. İmamqulu xan cavanşirlərin bu xətasını qeyrətinə sığışdırmayıb, əmr verdi ki, qoşun tərtib etsinlər. Az müddət ərzində dəstələr tərtib edilib, təcrübəli sərkərdələrə paylandı. Əsgər ağa miraxur Əbdülməliki tayfasından, Əlirza sultan Qasımlı öz tayfasından, Xanəmir bəy Xələc Barandust tayfasından, Hüseynəli xan Araşlı, Məhəmmədxan bəy Qasımlı, Lütfulla bəy Ustaclı, Allahyar bəy Araşlı və Rəhim xan Qasımlı və Rüstəm xan Qasımlı, Hüseynqulu bəy Araşlı tayfasının ağsaqqalı, Tahir sultan Gündüzlü və başqaları toplandılar. Sərhəddə yaşayan əşirətlərdən, o cümlədən Sovucbulağın hakimi Şeyxəli xan Mükri, Balbas tayfasından Qərəni ağa Müzəyyin, Şəkkak tayfasının başçısı Mirzə ağa, Üşnəviyyənin hakimi Cəfər sultan Zərza öz adamlarını cəm edib, görüş yerinə gəldilər. İmamqulu xan bəylərbəyi hərəkətə keçməzdən əvvəl İbrahim xan divanbəyinin başçılığı altında ağır silah-sursatı Xoy tərəfə göndərdi. Bir gün sonra özü Əlibəyli və Qaslı çəməninə yetişib, ordunu yerbəyer etdi. Oradan köç edib, Xoyun ətrafındakı Çəmənbağ məntəqəsinə yetişdi. Xoyun hakimi Əhməd xan Dünbili İmamqulu xandan öncə gələn ordunu toy-bayramla qarşılayıb, iki gün qonaqladı. Əhməd xan Dünbili cah-cəlalla Xoydan Nazik qalaya tərəf hərəkət etdi. O zaman oraya yetişirlər ki, Molla Pənah, Əbdüssəməd ağa və Mirzəli bəy Cavanşir qalanı mühasirədə saxlayıblar. Qaladakıların vəziyyəti çətinləşmişdi. Qalaya yetişcək savaş başladı».

İmamqulu xan 1783-cü ildə Təbrizi ələ keçirdikdən sonra Qubalı Fətəli xana məktubla müraciət edərək, onu Qarabağ hakimi İbrahimxəlil xanın üzərinə getməyə çağırmışdı.

Təbriz hakimi Nəcəfqulu xan Dünbili İmamqulu xanın asılılığından çıxmaq istəyirdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüara yazır: «Hicri qəməri 1196-cı ildə (1783-cü ildə) novruz bayramında İmamqulu xan Avşar elinin başçılarını saraya toplayıb, hər birinə layiq olan xələt və ənamlar payladı. O cümlədən maliyyə vəkili Mirzə Əbülhəsən İmanlıya, Sayınqala avşarlarının başçısı Mahmud xana, Barandust tayfasinin Xələc tayfasının ağsaqqalı Xanəmir bəyə, Araşlı oymağının ağsaqqaları Allahyar bəyə, Hüseynqulu sultana

mənsəblər verdi. Ölmüş Sərməst bəyin əvəzinə Əlirza sultan Qasımlını eşikağasıbaşı təyin etdi. Onun bacısını alandan sonra, özünə də xan ünvanı da verdi.

Sonra Azərbaycan əyalətinin hər vilayətinə vergi toplamaq üçün Urmiya əyanlarından bir nəfəri məmur etdi. Təbriz hakimi Nəcəfqulu xanın yanına Xanəmir bəy Xələci göndərdi. Ona göndərdiyi məktubda yazırdı: «İbrahimxəlil xan Cavanşir, Nəzərəli xan Şahsevən və Əli xan Şəqaqi cəsarət edib, Təbriz qalasına yürüş etdiklərindən, o bölgənin rəiyyətlərinə külli halda xəsarət dəymişdi. Avşar qoşununun yardımı ilə kürdlər onlara öz zərbi-şəstlərini göstərdilər. Amma mən müxtəlif səbəblərə görə, onların ardınca getməyi məsləhət görmədim. Həqiqətən də onlar sona qədər cəzalarını almadılar. Indi mənim məqsədim var ki, birlikdə bu iç düşmənləri darmadağın edək. Sonra isə çöldəki düşmənlərin bəlasını dəf edərik. Qonşuluq borcu budur ki, sən də bir kamil qoşun tərtib edəsən. Bu məqsədlərə nail olmaq üçün gərəkdir ki, bir miqdar məvacib də sən göndərəsən. Az vaxt ərzində Urmiyadan hərəkət edib, Əhməd xan Dünbilini də götürüb, məqsədimizə çatacağıq».

Xanəmir bəy Xələc Təbrizə yetişib, məktubu Nəcəfqulu xana təqdim etdi. Bir müddət sarayda gözlədi. Nəcəfqulu xanın qırımından başa düşdü ki, onun vergi vermək fikri yoxdur. Yerləşdiyi Mirzə Zaman xanın evindən çıxıb, sağollaşmadan Urmiyaya qayıtdı. Əhvalatı İmamqulu xana bildirdi. İmamqulu xan onun davranışından çox narahat olub, Urmiya avşarlarından, Sayınqala avşarlarından, Marağa müqəddəmlərindən, Zərza, Mükri və Baban əşirətlərindən 8 min nəfərlik qoşun hazırladı. Qoşunu hazırlamaqda məqsədi öncə Təbriz hakimi Nəcəfqulu xanı tənbeh etmək, sonra Əlimurad xan Zəndə yaxşı bir qulaqburması vermək idi. Qoşunu öncə topxana ilə Təbrizə göndərib, özü də ardınca getdi. Nəcəfqulu xan bu yürüşü eşidib, Təbriz qalasına çəkildi və müdafiə ilə məşğul olmağa hazırlaşdı.

İmamqulu xan öndə gedən sərkərdələrinə göstəriş verdi ki, Nəcəfqulu xan Dünbiliyə bildirsinlər ki, biz Nəzərəli xan Şahsevənlə və Əli xan Şəqaqi ilə savaşa gedirik, sən də silah-sursatla

yardım et. Nəcəfqulu xan onların hiyləsini başa düşüb, elçiləri rədd etdi. O, öncə düşmənçilik etdiyi Ərdəbil və Sərab xanlarından yardım istədi. Ərdəbil hakimi Nəcəfqulu xan Şahsevənin, Sərab hakimi isə Hüseynqulu sultanın başçılığı altında qoşun göndərdi.

Təbriz hakiminə yardıma gələn Nəcəfqulu xan Şahsevən və Hüseynqulu sultan Şəqaqi Dünbili xanından üz döndərib, İmamqulu xan Qasımlı-Avşara qoşuldular. Sərab hakimi Əli xan Şəqaqi onların dönüklüyünü eşidib, Nəzərəli xan Şahsevəndən yardım istədi. Nəzərəli xan Ərdəbildən çıxıb, yardım üçün Səraba tələsdi. Əli xan Şəqaqiyə qoşulub, dönük başçıların, Nəcəfqulu xan Şahsevənin və Hüseynqulu sultan Şəqaqinin üstünə getdilər. Sərabın ətrafında qarşılaşıb, döyüşdülər. Nəzərəli xan bu savaşda qalib gəldi. Hüseynqulu sultan Marağaya tərəf qaçdı. Nəzərəli xan onu izləməyə başladı. Marağa qalasını mühasirə etdi. Marağanın hakimi Əhməd xan Müqəddəm İmamqulu xanın yanında idi. Nəzərəli xan 20 gün Marağanı mühasirədə saxladı. Uğur qazanmayacağını görüb, ətraf kəndləri qarət edib, Ərdəbilə döndü.

İmamqulu xan cəryan edən hadisələri izləyib, Təbrizin Şənb-Qazan adlı yerində oturaq etdi. Ordan Təbriz qalasını mühasirəyə aldı. Nəcəfqulu xanın xoşluqla təslim olacağını düşünmüşdü. O, isə şəhər darvazalarını qapayıb, toplara atəş əmrini verdi. İmamqulu xanın topçuları da Təbrizi vurmağa başladılar. Az sonra sülh bağlamağa həvəs göstərsələr də, nəticə alınmadı. İmamqulu xan 6 ay Təbrizi mühasirədə saxladı. Şəhər əhli bu mühasirədən çox əziyyət, İmamqulu xanın qoşunu da soyuqdan əzab çəkirdi. İmamqulu xan mühasirənin uzandığını görüb, Urmiyaya qayıtmaq əmrini verdi.

Nəcəfqulu xan Dünbili mühasirənin götürülməsindən sonra oğlu Xudadad xanı yardım üçün Əlimurad xan Zəndin yanına göndərdi. Əlimurad xan ona yardım etməyə söz verdi. İmamqulu xan bu hadisəni eşidib, Əlimurad xanın üstünə qoşun göndərdi. Qoşun Sovucbulaq tərəfdən yola düşdü. Sənəndəc hakimi Əmənulla xan Ərdalani də yolda Avşar qoşununa qoşuldu.

Xəmsə avşarlarından olan Əli xan Zayirli bir müddət idi ki, Əlimurad xandan üz döndərmişdi. Özünə tərəfdar axtarırdı. İmam-

qulu xan Qasımlının qoşunları Xəmsəyə yetişcək, Əli xan sevincək onlarla birləşdi. Onları ağırlayıb, məsləhət gördü ki, əvvəl evin içi, sonra çölü. Gəlin Azərbaycanı iç düşmənlərdən təmizləyək, sonra Əlimurad xanın üstünə gedərik. İmamqulu xan bu məsləhəti qəbul edib, İraqa getməkdən əl çəkdi. Əli xanın sərkərdələrindən olan Vəli bəyi qoşunla Azərbaycana göndərdi. Ətraf xanlara də məktub yazıb, yardıma çağırdı. Xalxalın hakimi Fərəculla xan Miyanədə Vəli bəyə qoşuldu. Sarabın hakimi Əli xan Şəqaqi də onlara birləşməyi vəd etdi. Bu məqsədlə böyük oğlu Sadıq sultana qoşun götürüb, onlara qoşulmasını tapşırdı. Azərbaycan xanları Təbrizin bir ağaclığında toplanıb, oturaq etdilər. Həmin il qış soyuq gəldiyindən Təbrizi mühasirə etməyə tablamayıb, Urmiyaya yollandılar.

Bir müddət sonra İmamqulu xan yenidən Əlimurad xan Zəndin üstünə yürüş etmək fikrinə düşdü. Təbriz hakimi Nəcəfqulu xan Dünbili bu xəbəri eşidib, İmamqulu xanın yanına elçi göndərdi ki, fikrindən daşın. İmamqulu xanın qaynatası Əhməd xan Dünbili də ona öyüd-nəsihət verdi ki, bu fikirdən əl çək. İmamqulu xan onlara müsbət cavab vermədi.

Nəcəfqulu xan İmamqulu xandan əlini üzüb, qardaşıoğlu Əhməd xan Dünbilinin yanına getdi. Onu öz tərəfinə çəkdi.

Urmiya xanlığının inkişafını Xoy xanlığı üçün təhlükəli hesab edən Əhməd xan Dünbili Təbriz xanı birlikdə İmamqulu xana qarşı çıxdı. Onlar birləşib, Əlimurad xanı Azərbaycana dəvət etmək fikrinə düşdülər. Azərbaycan xanlarını da öz tərəflərinə çəkmək istədilər. Amma İmamqulu xandan incik düşən Marağa hakimi Əhməd xan Müqəddəmdən başqa heç kimə gümanları gəlmədi.

İmamqulu xanın şöhrətini eşidən Əlimurad xan Zənd Əhməd xan və Nəcəfqulu xan Dünbililərə etina etmədi. Yığışıb məşvərət edən Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı Azərbaycan qoşununa sərkərdə təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da, versinlər.

Əmiraslan xan Avşar elinin Araşlı oymağından idi. Bu oymaq camaatı xanlığı ələ keçirmək üçün girəvə gəzirdi. Əlimurad xan Əmiraslan xana bir xanlıq fərmanı da yazdı ki, Dünbili qoşununu da

dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Əmiraslan xan əməliyyata başladı. Əlimurad xan Zəndin yardımçı təyin etdiyi xanları görüş yerinə çağırdı. Əhməd xan Dünbili Salmas bölgəsində Əmiraslan xana qoşuldu.

Göytəpə çəmənində oturaq edən İmamqulu xan Əlirza xan eşikağasıbaşının nəzarətində eyş-işrətlə məşğul idi. Sərkərdə Nağı bəy Avşar ona xəbər çatdırdı ki, Əlimurad xan Zənd Sayınqala mahalının hakimi Əmiraslan xanı sənin üstünə göndərib. Təbriz hakimi Nəcəfqulu xan və Xoy hakimi Əhməd xan da onunla birləşib. Tezliklə Salmasdan Quşçu gədiyinə keçəcəklər. İmamqulu xan divanbəyi İbrahim xan Araşlını bir dəstə ilə ön cəbhəyə göndərdi. Arxasınca Qərəni ağa Balbasla kürdləri yolladı. Ardlarınca özü də döyüş meydanına getdi. Əlibəyli çəmənində qoşununu gözdən keçirtdi. Tərtibatın tamam-kamal olduğunu görüb, Qoşuna yürüş əmrini verdi. Xəmsə (Zəncan) hakimi Əli xan Zayirli-Avşar ilə Əmiraslan xanın qarşısına çıxdı. Əmiraslan xanın qoşunu ilə İmamqulu xanın dəstəsi Quşçu gədiyində qarşılaşdı.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib, İmamqulu xanın qoşununa hücum etdilər. İmamqulu xan öz qoşunun yetişməsini gözləməyib, yanında olan Balbas və Mənqur qoşunu ilə döyüşə başladı. Özü dəstənin önündə dayandı. Ilk döyüşdə düşmən qoşunun avanqardını dağıtdı.

İmamqulu xan güclənən düşmən qoşunu ilə savaşda ağır yaralandı, əmiraxur Əsgər xan Əbdülməliki onu çiyninə alıb, döyüş meydanından çıxartdı. Urmiyanın “Rzaqulu xan darvazası”na yetişəndə böyük sərkərdə can verdi.

İmamqulu xan Qasımlı-Avşar 1783-cü ildə həlak oldu. Məhəmmədxan bəy Qasımlı, Cəfər bəy Gəncəlixanlı, Mirzə Əbülhəsən bəy Əbdülməliki-İmanlı, Əsgər xan Əbdülməliki-İmanlı, Mirzə Uğurlu bəy Mahmudlu, Şeyxülislam Mir Hüseyn, Pişnamaz Molla

Məhəmmədhüseyn elə öldürülən gecəsi onu «Xan» qəbristanlığında, atasının yanında dəfn etdilər.

İmamqulu xandan sonra Urmiyanın hakimi qiyamçı Əmiraslan xan Araşlı-Avşar oldu.

Əmiraslan xan Sayınqala şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. Bir müddət şəhər hakiminin naib olmuşdu. Sonra hakimi əvəz etmişdi.

Əmiraslan xan 1783-cü ildə Urmiya hakimi oldu. Əlimurad xan Zəndin əmri, Əhməd xan Dünbilinin məsləhəti ilə təyin edildiyindən avşarların ondan xoşu gəlmirdi.

Əmiraslan xan Əlirza xan Qasımlı-Avşara özünə naib təyin etdi. İmamqulu xanın qardaşı Məhəmmədqulu xanı Salmasda göz dustağı saxladı. Gördüyü işlər haqqında Əlimurad xan Zəndə məlumat verdi.

Əmiraslan xan Əlirza xan Qasımlının azyaşlı bacısı ilə evləndi. Zifaf gecəsinin sabahı divanxanada qız haqqında nalayiq söz işlətdi. Əlirza xan Avşar elinin içində xar oldu. Əmiraslan xanın bu hərəkəti Avşar ağsaqqalarının xətrinə dəydi. Araşlı oymağından olsa da, İbrahim xan divanbəyi Əmiraslan xanın ləyaqətsizliyini qeyrətinə sığışdırmayıb, ona ağzına gələni deyib, divanxanadan çıxdı. Urmiya ağsaqqlarını, adlı-sanlı əyanları ətrafına toplayıb, Qərəni ağa Balbası yardıma çağırdı. Balbaslar yetişincə avşarlar artıq birləşmişdilər. Qərəni ağa da 1000 atlı ilə özünü yetirdi. İbrahim xan daha artıq cəsarətlənib, divanxananı mühasirə etdi. Əmiraslan xana güllə atıb, ordan çıxmasını gözlədi. Əmiraslan xan qorxuya düşüb, aman istədi. Aman alıb, divanxananı tərk etdi. Qərəni ağa onu soyundurub, Əlimurad xan Zəndin yanına göndərmək istədi. İbrahim xan ona imkan vermədi ki, eldaşını təhqir etsin.

Əmiraslan xan vilayəti idarə edə bilmədiyindən Avşar əyanları tərəfindən taxtdan salındı.

Əmiraslan xandan sonra Urmiyaya Məhəmmədqulu xan Rzaqulu xan oğlu Qasımlı-Avşar başçılıq etdi. O, 1784-cü ildə Avşar ağsaqqallarının iradəsi ilə taxta əyləşdi.

Məhəmmədqulu xan ilk gündən xanlıqda dəyişiklərə başladı. Vəkillik mənsəbini yenidən Mirzə Əbülhəsən Əbdülməliki-İmanlıya verdi. Onun qardaşı Əsgər xanı əmiraxurluq vəzifəsindən çıxarıb, eşikağasıbaşı təyin etdi. Mirzə Mustafa Səidli-Avşarı mustofi vəzifəsində saxladı. Əfrasiyab sultan Zərzaya «Ənisətülhəzrət» ləqəbini əta etdi. Mir Vahid ağa Mirzə Hüseyn Şeyxülislam oğlunu şeyxülislam vəzifəsinə layiq bildi. Nizaməddin Axund Molla Səfər Avşarı Cümə məscidinin pişnamazı və qazı vəzifələrinə yüksəltdi. Rəhim xan Nağı xan oğlu Qasımlını, Mahmud xan Mömün xan oğlu Qasımlını, Hüseynqulu bəy Araşlını, Şəhriyar xan Məhəmmədtahir sultan oğlu Gündüzlünü, Məhəmməd bəy Kuhgiluyəlini, Hüseyn bəy Qarahəsənlini, Novruzəli sultan Araşlını, Hüseyn bəy Quzivəndi, Səfi bəy Yorğanlını, Baba bəy Ərəblini, Əbdürrza bəy Qutulunu, Mirzəxan bəy Xələci, Ağaxan bəy Xələci qoşun sərkərdəliyinə layiq gördü. Onlar hər gün meydanda xanın önündə parad keçirirdilər.

Məhəmmədqulu xan böyük qardaşı İmamqulu xanın övladlarının lələsi, Heyrət təxəllüslü Mirzə Uğurlu bəy Miran bəy oğlu Araşlını mollabaşı vəzifəsinə çatdırdı.

Məhəmmədqulu xan hakimliyinin ilk vaxtlarından qonşu xanlarla mübarizəyə başladı.

Urmiya tarixçi Mirzə Rəşid Ədibəşşüəra qeyd edir ki, atasının ölümündən sonra taxta çıxan Təbriz hakimi Xudadad xan Dünbili xalqa zülm etməyə başlamışdı. Xalqın narazılığını eşidən Sərab hakimi Sadıq xan Şəqaqi Təbrizə qoşun çəkdi. Bazar əhlinin nümayəndəsi Ağa Əliməhəmməd tacirbaşı xeyli sovqatla yardım üçün Urmiya hakimi Məhəmmədqulu xanın yanına yollandı. Məhəmmədqulu xan təbrizlilərə kömək etməyə söz verdi. Divanbəyi İbrahim xan Araşlını 2 min nəfərlik qoşunla Təbrizə göndərdi. Təsuc yaxınlığında Xoy hakimi Əhməd xan Dünbili də ona qoşuldu. Xəbəri eşidən Sadıq xan qorxuya düşüb, Səraba qayıtdı. Təbriz hakimi Xudadad xan yardıma gələnlərin pişvazına çıxıb, onları bir neçə gün qonaq saxladı.

Məhəmmədqulu xan sələfləri kimi qarətçi kürdlərə qarşı mübarizə aparmışdı. Onun hakimiyyətinin ilk dönəmlərində Həkkari kürdləri Urmiyaya yürüş edib, qarət fikrinə düşmüşdülər. Xeyli qoşun toplayıb, Urmiya ərazisinə basqın etmişdilər. Məhəmmədqulu xan Təbrizə qasid göndərib, İbrahim xanı geri çağırtdırdı. İbrahim xan Salmas tərəfindən Həkkari bölgəsinə hücuma keçdi. Ilk həmlədə kürd qoşununu darmadağın etdi. Ənzəl adlı mahalın ərazisində, İstisuyun kənarında qoşuna istirahət verdi. Kürdlərin xasiyyətini bildiyindən qayıdış yollarına qaravul qoydurdu. Həkkari kürdləri geri qayıdıb, yenidən hücuma keçdilər. Qarovullar İbrahim xanı duyuq saldılar. Savaş yenidən başladı. Kürdlər bu dəfə də Avşar qoşununa məğlub olub, böyük tələfat verib, qaçdılar. İbrahim xan 3 ağac onları qovub, xeyli qənimət ələ keçirdi. Qəniməti qoşun arasında böləndən sonra Qarabağ mahalındakı Göyərçin qalasında oturaq etdi. Məhəmmədqulu xanın əmri ilə sərhədlərin keşiyində durdu.

Sadıq xan Şəqaqi yenidən Təbrizə yürüş edib, şəhəri mühasirəyə aldı. Xudadad xan Ağa Əliməhəmməd tacirbaşını 5 min tümənlə yardım üçün Məhəmmədqulu xanın yanına yolladı. Məhəmmədqulu xan təbrizlilərə kömək etməyə söz verdi. Baş sərkərdəsi İbrahim xan Araşlını 3 min nəfərlik qoşunla Təbrizə göndərdi. Sadıq xan Avşar qoşunun gəldiyini eşidib, yenə də qaçdı. İbrahim xan onu Səraba qədər izlədi. Sadıq xanı tuta bilməsə də, onun qoşununa xeyli zərər vurdu.

Qalibiyyətlərdən ruhlanan Məhəmmədqulu xan Marağa hakimi Əhməd xan Müqəddəmin yanına elçi göndərib, bac-xərac istədi. Əhməd xan bac verməkdən boyun qaçırdı. Məhəmmədqulu xan Təbrizə, İbrahim xana məktub yazıb, Marağaya yollanmasını istədi. İbrahim xan Marağaya hərəkət edib, Göytəpə çəmənliyində oturaq etdi. Sovucbulağın hakimi Budaq xan Mükriyə, Balbas tayfasına, Üşnəviyyə hakimi Nuh bəy Zərzaya, Mirzə ağa Şükuftiyə əmr etdi ki, qoşun toplayıb, göstərilən yerə gəlsinlər.

Əhməd xan Müqəddəm Marağadan çıxıb, İbrahim xanın üstünə gəldi.Yolda qasidlər ona xəbər verdilər ki, İbrahim xan Araşlı Tufarqan yolu ilə Marağanı tutmaq istəyir. Əhməd xan Müqəddəm

yoldan qayıdıb, Marağa qalasını möhkəmlətdi. Sərabın hakimi Sadıq xan Şəqaqidən yardım etməsini rica etdi. Sadıq xan qoşun çəkib, Marağaya gəldi. Yolun İbrahim xan tərəfindən kəsildiyini görüb, Xorxor adlı kəndin yanındakı qarğılıqda oturaq etdi. Ona bildirirlər ki, balbaslar Marağanın ətraf kəndlərini çapıb-talayıb, həmin qarğılıqda istirahət edirlər. Qəflətən onların başının üstünü alıb, qılıncdan keçirdilər. Sadıq xan qənimətləri ələ keçirib, Əhməd xanı unudub, Səraba döndü.

Məhəmmədqulu xan Sulduz mahalında əyləşib, hadisələri izləyirdi. Balbasların tar-mar olduğunu eşidib, İbrahim xana məktub göndərir ki, Əhməd xandan intiqam alsın. İbrahim xan hər tərəfdən Marağaya hücum əmrini verdi. Əhməd xan işin pisləşdiyini duyub, elçilər vastəsilə Məhəmmədqulu xandan aman istədi. Ilbəil bac verməyi öhdəsinə götürdü. Məhəmmədqulu xan Əhməd xanla sülh müqaviləsi imzalayıb, İbrahim xanı geri çağırdı. İbrahim xan qalibiyyətdə Sulduz mahalına döndü. Məhəmmədqulu xan İbrahim xan və başqa sərkərdələrə ənam-ərmağanlar payladı. İbrahim xana göstəriş verdi ki, Ənzəl mahalına qayıdıb, Göyərçinlik qalasında keşik çəksin.

Məhəmmədqulu xan Əhməd xan Dünbilinin öyrətməsi ilə baş sərkərdəsi İbrahim xan Araşlı-Avşarın gözlərini çıxartırdı.

Məhəmmədqulu xan 1786-cı ildə əmisiuşaqları tərəfindən təklənən Cəfərqulu xan Batmanqılıc-Dünbiliyə kömək etmişdi. Cəfərqulu xan qaçıb, ona pənah gətirmişdi. Məhəmmədqulu xan Əhməd xanın ölümünə təəssüflənib, sərkərdələri Məhəmməd bəy Qarahəsənlini, Hüseyn bəy Qarahəsənlini, Məhəmməd bəy Kuhgiluyəlini, Ağacan bəy Kuhgiluyəlini, Tahir sultan Gündüzlünü, Məhəmmədhüseyn bəy Məsum bəy oğlu Mahmudlunu baş sərkərdə Mahmud xan Mömün xan oğlu Qasımlıya qoşub, Xoya göndərdi. Cəfərqulu xan da onlara qoşuldu. Şahbaz xanın övladları Tahir ağanın ətrafına cəm olub, Qəzənfər dağının ətəyindəki Xatun körpüsünün yanında qarşılaşdılar. Avşar qoşunun önündə dünbililər müqavimət göstərə bilməyib, Xoy qalasına çəkildilər. Avşarlar onların ardınca Xoya daxil oldular. Gizlənən Tahir ağa ilə Zahir ağanı tapıb

öldürdülər. Onların malını, mülkünü zəbt etdilər. Mahmud xan Məhəmmədqulu xanın əmrilə Əhməd xanın böyük oğlu Hüseynqulu xanı taxta çıxardı.

Məhəmmədqulu xanın hakimiyyəti dönəmində Qərəni ağa Balbasla Budaq xan Mükri arasında dava-dartış, çəkişmə baş verdi. Qərəni ağa hücum edib, Budaq xanın mahalını yağmaladı. Budaq xan Məhəmmədqulu xana yazıb, bildirdi ki, Qərəni ağa yağılığa qurşanıb. Məhəmmədqulu xan Marağa hakimi Əhməd xan Müqəddəmə göstəriş verdi ki, qoşun tərtib edib, Qərəni ağanın fitnəsini yatırsın. Özü də 4 min avşarı cəm edib, Qaşqagədik ətrafında əyləşdi. Eşikağasıbaşı Əsgər xan Əbdülməliki-İmanlını Sulduz mahalına göndərdi. Ona tapşırıq verdi ki, balbasların döyüş vəziyyətini aydınlaşdırsın. Bir də Əhməd xanın gəlişindən xəbər gətirsin. Qərəni ağa Əsgər xanın Sulduza gəlişini eşidib, Məhəmmədqulu xanın yanına gedib, üzr istəmək fikrinə düşdü. Balbas tayfasının bir sıra şər-xəta adamları onu fikrindən daşındırdılar.

Müqəddəm və Mükri qoşunu Sulduza yetməsinin xəbərini gətirən Əsgər xan Məhəmmədqulu xana məruzə etdi.

Qərəni ağa bütün balbasları ətrafına toplayıb, Məhəmmədqulu xanın düşərgəsinə tərəf hücum edir. Lavin çayının kənarında üzləşirlər. Bir gün sərasər döyüşürlər. Birləşmiş qoşunlar balbasları darmadağın edirlər. Ölən ölür, sağlar qaçıb, dağlara sığınırlar. Bu döyüşdə avşarlara çoxlu qənimət qaldı.

Məhəmmədqulu xan iç yağıların ayaqlanmasını yatİrandan sonra başı ayazıyıb, tikinti-abadlıq işlərinə başladı. Urmiyanın Kəlbəli xan İmanlının dövründən qalma hasarı uçub-dağılırdı. Ilk kişi bu hasarı təmir etdirmək oldu. Məhəmmədhəsən bəy Mahmudlunu təmir işlərinə icraçı təyin etdi.

Məhəmmədqulu xan Binab çayının üzərində körpü saldırmışdı. Körpü tikintisinə Hacı Ramazan adlı bir nəfər başçılıq etmişdi.

Məhəmmədqulu xan şəhər qalasının önündə «Qiblə» və «Nəzər» adlı bağlar saldırmışdı.

Məhəmmədqulu xan qəlbisınıq adamlara hörmət edirdi. İmamqulu xanı zəhərləməkdə şübhəli bilinən, eşikağası Əlirza xan

eldən dışqar qalmışdı. Onu məclisə, mərəkəyə buraxmırdılar. Məhəmmədqulu xan vəkil Mirzə Əbülhəsən bəyi yanına alıb, onlara qonaq getdi. Evdə Əlirza xanın 5 bacısı vardı. Məhəmmədqulu xan birini özünə, birini Sovucbulağın hakimi Budaq xan Mükriyə, birini eşikağasıbaşı Əsgər xan Əbdülməlikiyə, birini qardaşıoğlu Hüseynqulu xana, birini də kiçik qardaşı Qasım xana nişanladı. Əlirza xan el içində sayılmağa başladı.

Məhəmmədqulu xan Urmiya xanlığından asılı olan Xoy hakimi Hüseynqulu xan Dünbili ilə bir sıra savaşlar aparmışdı. 1787-ci ildə Abdin bəy Avşar xəbər gətirdi ki, qardaşı Cəfərqulu xanın təhriki ilə Hüseynqulu xan Dünbüli vergi verməkdən imtina edib. Məhəmmədqulu xan bütün Azərbaycan xanlarını Salmas ətrafına topladı. Xudadad xan Dünbili Təbrizdən, Əhməd xan Müqəddəm Marağadan, Sadıq xan Şəqaqi Sərabdan, Kəlbəli xan Kəngərli Naxçıvandan, Məhəmməd xan Qacar İrəvandan qoşunla gəlib, görüş yerinə çatdılar. Avşar qoşunu Xoy ətrafındakı Duzdağında çadır qurdu. Xoy və Salmas əyanları Hüseynqulu xanın yanına gəlib, şivən qopardı. Bildirdilər ki, bizim avşar qoşununu qarşılamağa gücümüz yetməz. Gəl, sən ona öz tabeçiliyini bildir. Əks təqdirdə biz səni tutub, Məhəmmədqulu xana verəcəyik. Hüseynqulu xan öz eşikağasıbaşı İbrahim xanı Məhəmmədqulu xanın yanına göndərib, itaətini izhar etdi. Məhəmmədqulu xan onu dinləyib, vəziri Mirzə Əbülhəsən bəyi Xoya danışıqlara göndərdi. Mirzə Əbülhəsən bəy Hüseynqulu xanı Məhəmmədqulu xanın hüzuruna gətirdi. Hüseynqulu xan Dünbili Məhəmmədqulu xandan üzr istəyib, gecikdirdiyi bac-xəracı ödədi. Sonra Avşar xanını və sərkərdələri Xoydakı «Dağbağı»na qonaq apardı. Sovucbulağın hakimi Budaq xan Mükri qonaqlıq zamanı yetişdi. Urmiya əyanları onu pisləyib, Məhəmmədqulu xanın gözündən saldılar.

Məhəmmədqulu xan Xoydan Urmiyaya döndü. Digər xanlara icazə verdi ki, evlərinə qayıtsınlar. Budaq xan Mükri də evinə döndü. Elə bu vaxt Əfrasiyab sultan Zərza Məhəmmədqulu xana yetişib, Budaq xandan şikayət etdi. Məhəmmədqulu xan Mirzə Salehi Sovucbulağa göndərib, Budaq xanı Urmiyaya çağırtdırdı. Budaq

xan bu çağırışdan şübhələnsə də, özünə əmin olub, Urmiyaya gəldi. Urmiyaya çatcaq həbs olunub, divanxanaya gətirildi. Xan onu mühakimə edib, Baranduz qalasına göndərdi. Ardınca da cəlladı Saqi bəyi yolladı. Saqi bəy Budaq xanın gözlərini çıxardı.

Kürdlərin Hərki tayfası Tərgəvər mahalında üsyana başladı. Məhəmmədqulu xan həmin mahaldakı adamlarına göstəriş verdi ki, hərkiləri qovub çıxarsınlar. Hərki üsyanı yatırıldı.

Məhəmmədqulu xanın daxili siyasətində zəiflik, xasiyyətində ziddiyət vardı. Əyan-əşrəfi, yaxın adamlarını qiymətləndirə bilmirdi. Başqalarının təsirinə düşür, öyrətməyə baxırdı.

Məhəmmədqulu xan eşikağasıbaşı Əsgər xanı ölümlə təhdid etdiyindən o qaçıb, Salmasda gizlənmişdi. Əvəzinə digər qardaşı vəzir Mirzə Əbülhəsən bəyi tutub, zindana atdırmışdı. Əsgər xan qaçandan sonra Məhəmmədqulu xan vəzirini zindandan çıxarıb, vəzifəsinə qaytarmışdı. Sonra onu Sovməi-Bəranduz bölgəsinə ezam etmişdi. Fikirləşmişdi ki, o da qaçıb, qardaşına qoşular, yerləri bəlli olar. Ona görə ardınca güdükçü salmışdı. Xəfiyyələr dörd yandan onu izləyirdilər. Mirzə Əbülhəsən bəy məmuriyyətinə əncam çəkəndən sonra saraya qayıtdı. Məhəmmədqulu xanın umudu suya düşdü. Əsgər xanın tapılmadığını görüb, Mirzə Əbülhəsən bəyi yenidən həbs etdirdi. Ürəyi bununla soyumayıb, əmr verdi ki, Əbdülməliki tayfasının bütün ağsaqqallarını və nüfuzlu adamlarını zindana atsınlar. O cümlədən Pİran bəy, Kəhran bəy, Qoca bəy, Əbdülməlik bəy tutulub, öldürüldü. Onların meyitləri bazar meydanına atıldı ki, xalqa ibrət olsun.

Əsgər xan yaxın adamlarından olan Əhməd bəyi Xoya göndərdi ki, eşikağasıbaşı İbrahim xanı tapıb, Hüseynqulu xanı ona kömək etməyə inandırsın. Əhməd bəy Əbdülməliki tayfasının ağırağsaqqal başçılarından olan Murtazaqulu bəy və Mehrab bəyi götürüb Xoya yollandı. İbrahim xanı tapıb, onun vasitəsilə qəziyyəni Hüseynqulu xana danışdı. Hüseynqulu xan Məhəmmədqulu xanın təsirindən çıxmaq üçün girəvə gəzirdi. Ona görə qoşun tərtibi üçün sərkərdələrinə göstəriş verdi. Bir neçə günün ərzində qoşun hazır oldu. Qardaşı Cəfərqulu xanı qoşun başçısı təyin etdi. Göstəriş verdi

ki, Urmiyaya gedib, əvvəlcə xoşluqla Mirzə Əbülhəsən bəyi Məhəmmədqulu xandan istəsin. Verməsə, Urmiyanı dağıdıb yerlə yeksan etsin. Xoy sərkərdəsi Batmanqılınc Cəfərqulu xan qoşunla Salmasa daxil oldu. Əsgər xan onları qarşıladı.

Xoy xanlığının yürüş xəbəri Urmiyaya yayıldı. Məhəmmədqulu xan bu hadisəni eşidib, qardaşı Qasım xanı qoşunla Salmasa tərəf yola saldı. Qoşunda sərkərdələrdən Tahir sultan Şəhriyar xan oğlu Gündüzlü, Allahyar bəy Araşlı, Lütfullah bəy Ustaclı iştirak edirdilər. Salmasın Ağziyarət məntəqəsində Urmiya və Xoy qoşunları üzləşdilər. Savaş başlandı. Avşarlar Əsgər xana görə, cani-dildən Xoy qoşununa qarşı vuruşmurdu. Ona görə də məğlub olub geri çəkildilər. Cəfərqulu xanın qoşunu avşarları Urmiyanın ətrafındakı Qızqalasınadək izlədi. Bu vəziyyəti görən Məhəmmədqulu xan qalanın qapısını bağlayıb içəridə gizləndi. Xoy qoşunu Urmiyanı mühasirəyə aldı. Ətraf kəndləri dağıtmağa başladı. Xoyun Heydəranlı camaatından təşkil olmuş dəstəsi dinc əhaliyə divan tutmağa başladı.

Avşar bəyləri Xoy qoşununun azğınlığını görüb, qaladan çıxdılar. Şəhərətrafı meydanda üzləşdilər. Sərkərdə Hacı İbrahim Xoylunun atı ürküb, avşarlara tərəf qaçdı. Onun ardınca da bir neçə nəfər sərkərdə getdi. Bu sərkərdələr Cahangir bəy, Ağası bəy, Əsəd bəy Dünbili idilər. Avşarlar onları tutub öldürdülər. Avşar bəyləri öldürdükləri Xoy sərkərdələrinin başlarını Məhəmmədqulu xana apardılar. Məhəmmədqulu xan Məhəmmədhəsən bəy Mahmudlu və digər avşar bəylərinə xeyli ənam-ərmağan payladı.

Əsgər xan Əbdülməlki bu savaşdan mütəssir oldu. Qardaş qırğınını dayandırmaq üçün el böyüklərinə məktub yazdı. Bildirdi ki, Urmiyaya qardaşım üçün gəlmişəm. Verin, qayıdım. Əfrasiyab sultan Zərza barışıq olduğunu görüb, məktubun xana yetişməsinə mane oldu. Avşar bəylərini növbədən götürüb, kürdlərlə əvəzlədi. Xana bildirdi ki, onlar Əsgər xana görə sənə xəyanət edəcəklər. Mühasirənin üçüncü günü Cəfərqulu xan Dünbili qala divarlarına yaxınlaşıb, bildirdi ki, Mirzə Əbülhəsən bəyi verin, qayıdıb, vilayətimizə gedək. Əfrasiyab sultan ətraf mahallardan yardım çağırdığın-

dan, Cəfərqulu xandan üç gün möhlət istədi. Üç gündən sonra ətrafdakı avşarlar və zərzalar gəlib yetişdilər. Məhəmmədqulu xanın qoşunu gücləndi, savaşa hazır oldu. Şahməhəmməd bəy Kuhgiluyəli-Avşar qoşuna sərkərdə təyin olundu. Məhəmmədsəfi bəy Yorğanlı, Məhəmməd bəy və Hüseyn bəy Qarahəsənli avşar dəstələrinin başında savaş meydanına yollandılar. Bu zaman Əsgər xan Xoy qoşunundan aralanıb, avşar qoşununun önünə tək çıxdı. Onu görən avşarlar utanıb, başlarını aşağı tikdilər. Bayraqdar Məhəmmədsəfi bəy Yorğanlı bayrağını əlindən yerə saldı. Xoyun Heydəranlı tayfası bayrağın yerdə olmasını görüb, hücuma keçdi. Zərza cinahına girişib, oranı dağıtdı. Urmiya qoşunu məğlub olub, qalaya çəkildi.

Mühasirənin 12-ci günü Cəfərqulu xanla Əsgər xan yenidən Məhəmmədqulu xana məktub göndərdilər. Əvvəlki şərtlərini təkrar etdilər. Məhəmmədqulu xan onlara bildirdi ki, siz qayıdıb, Xoya gedin, mən Mirzə Əbülhəsəni buraxacağam. Onlar dönüb Xoya qayıtdılar. Vədənin üstündən bir müddət keçməyinə baxmayaraq Məhəmmədqulu xan əhdinə vəfa etmədi.

Hüseynqulu xan Dünbili təkrar qoşun yığıb, Cəfərqulu xanın sərkərdəliyi ilə Salmas yolu ilə Urmiyaya göndərdi. Əsgər xan da onlara qoşuldu. Məhəmmədqulu xan onların hərəkətini eşidib, özü qoşunla qarşılamağa yollandı. Ənzəl mahalının Qarabağ məntəqəsində oturaq etdi. Qoşununun sayı az olduğundan irəli getməyə cəsarət etmədi. Təbriz hakimi Xudadad xandan yardım istədi. Xudadad xan ona məktubla bildirdi ki, savaşın baisi Mirzə Əbülhəsən bəyi öldürsən, bu iş öz-özünə əncam tapacaq. Məhəmmədqulu xan məktubu alan kimi cəlladı Saleh Xələc-Baranduzu Mirzə Əbülhəsən bəyi öldürməyə göndərdi. Saleh Baranduz mahalının Sarıbəyli adlı yurdunda Mirzə Əbülhəsən bəyi boğub öldürdü. Öldürəndən sonra meyidini aparıb qapılarına atdı. Əbdülməliki tayfası həmin ilin Novruz bayramında qara geyindi.

Avşar elinin ağsaqqaları, əyanları yığılıb, Əsgər xana məktub yazdılar ki, Məhəmmədqulu xan ləyaqət hissini itirdiyindən, onları eşitmir. Biz sənin haqq olduğunu bilirik. Sən savaşa başla, biz sənə

yardım edəcəyik. Əsgər xan məktubu Hüseynqulu xana göstərib, hərəkətə gəlməyi xahiş etdi.

Təbriz hakimi Xudadad xan Mirzə Əbülhəsən bəyin öldürülməsini eşidib, şadlandı. Qoşun yığıb, Urmiyanın yardımına yollandı. Salmasın Xandam karvansarasına yetişəndə Cəfərqulu xanın qoşununun ora cəmləşdiyi gördü. Ordan Məhəmmədqulu xana qasid göndərib, bildirdi ki, Cəfərqulu xanla Əsgər xan yolu bağlayıb. Məhəmmədqulu xan başqa yolla onu qarşılamağa 1000 atlı göndərdi. Atlıların başında Xanəmir bəy Xələc, Məhəmməd bəy və Hüseyn bəy Qarahəsənlilər, Mirzə xan Xələc, Hümmət bəy Xələc, Məhəmmədhəsən bəy Mahmudlu, Baba bəy Ərəbli və Sam bəy Qırxlı dururdu. Onlar yola düşəndən sonra özü də Ağziyarət ətrafınadək onları izlədi. Ağziyarət ətrafında Cəfərqulu xan Dünbilinin qoşunu onların önünü kəsdi. Məhəmmədqulu xan onların gəlişinə çaşdı. Savaş etməyə tam gücü yox idi. Əlacsız qalıb, savaş əmrini verdi. Qoşunun qarovul hissəsində dayanan Ağacan bəy Kuhgiluyəli özünü Dünbili dəstəsinə vurdu. Qəflətən atının ayağı sürüşdü. Yerə yıxıldı. Heydəranlı tayfasının döyüşçüləri o dəqiqə onu yaralalayıb, heydən saldılar. Sonra başını kəsdilər.

Avşar elinin başçıları Əsgər xanla öncədən razılığa gəldiyindən bayraqları endirib, geri çəkilməyə başladılar. Məhəmmədqulu xan işin dolaşıq getdiyini görüb, Urmiya gölünün kənarı ilə Ənzəl mahalına qaçdı. Bir gün orda dincəldikdən sonra Xudadad xanla birləşib, Urmiyaya qayıtdı. Urmiyanın girəcəyində Rüstəm bəy Qasımlını məmur etdi ki, Xudadad xanı qonaq saxlasın. Sonra ona gizlincə əmr verdi ki, Xudadad xanı öldürsün. Həm Cəfərqulu xanın əmisioğlu, həm də Mirzə Əbülhəsən bəyi öldürmək onun fikri idi. Bu fikri başa düşən Əfrasiyab sultan Zərza Kəlbəli sultan Avşar vasitəsilə onu duyuq saldı. Bildirdi ki, qalaya girməsin. Qonaqlıqda iştirak etməyəcəyinin üzrünü istəyib, sərvaxt olsun. Xudadad xanın adamları 5 gün «Nəzər» bağında dincəldikdən sonra Təbrizə döndülər. Məhəmmədqulu xan oğlu Xudaqulu xanı, Rəhim xan Qasımlını onlara qoşub, ötürməyi tapşırdı. Onlar Təbriz qoşunununa qoşulub, Sulduz-Qoşaçay yolu ilə Təbrizə yol aldılar.

Əsgər xan onların Təbrizə döndüyünü eşidib, Sadıq xan Şəqaqiyə məktub yolladı ki, Xudadad xanı Tufarqan yolunda qarşılayıb, darmadağın etsin. Sadıq xan məktubu alan kimi pusquya dayandı. Gələnlərin önündə Urmiya nümayəndələri Xudaqulu xanı, Rəhim xanı gördüyündən qolları boşaldı. Avşarlara basqın etməyib, qonaq apardı. Qonaqlıqdan sonra onlar Təbrizə yola düşdülər. Yolda Xudadad xan qardaşları İbrahim xan, Cahangir xan, Məhəmməd xan və Əli xanla mübahisə etdi. Aralarında küdurət düşüb, ədavətə başladılar. Qardaşlar yığışıb, Sadıq xan Şəqaqiyə məktub yazdılar ki, əgər sən Təbrizə gəlmək istəsən, biz səni qarşılayıb, yardım edərik. Sadıq xan Təbrizə hücum etdi. Səidabad ətrafında Dünbili və Şəqaqi qoşunları üzləşdilər. Xudadad xanın qardaşları Sadıq xanın tərəfinə keçdirlər. Dünbili qoşunu pərişan olub, qaçmağa üz qoydu. Xəlil bəy Şəqaqi Xudadad xana yetirib, atdan salıb öldürdü. Sadıq xan zəfər qazanıb, Təbrizə daxil olub, hökuməti ələ aldı. Məhəmmədqulu xanın oğlu Xudaqulu xana, sərkərdələri Rəhim xana, Məhəmmədhəsən bəyə hörmətlə yanaşdı. Xudaqulu xan Məhəmmədhəsən bəyi gecəylə Urmiyaya göndərdi ki, atasına xəbər çatdırsın. Məhəmmədhəsən bəy bu xəbəri öncə qohumu Əsgər xana çatdırdı. Sonra Urmiyaya gedib, Məhəmmədqulu xana məruzə etdi. Məhəmmədqulu xan bu xəbərə sevindi.

İranda güclənən Ağaməhəmməd xan Qovanlı-Qacar (1795-1797) birər-birər müstəqil xanlıqları məğlub edib, bir bayraq ətrafında birləşdirirdi. O, 1792-ci ildə Azərbaycana hücum etdi. Sərab xanlığının (hakimi Sadıq xan Şəqaqi məğlub olub, Qarabağa, İbrahimxəlil xanın yanına qaçdı. İbrahimxəlil xan Ağaməhəmməd xanın qüdrətindən qorxsa da, ona itaət etmədi.

Məhəmmədqulu xan Ağaməhəmməd xanla savaşa hazırlaşdı. Düşməni Əsgər xan Ağaməhəmməd xana məktub göndərib, Urmiyada baş verən hadisələri bildirdi. Ağaməhəmməd xan baş vəziri Mirzə Məhəmmədşəfiyə göstəriş verdi ki, Əsgər xanı Salmasdan yanına dəvət etsin. Ətraflı söhbət edib, yaxından tanısın. Mirzə Məhəmmədşəfi Qoşaçayda Əsgər xanla görüşdü. Bu görüşün sədası bütün Azərbaycana yayıldı. Bəzi Azərbaycan xanları, əsasən

Məhəmmədqulu xanın vassalları və düşmənləri Ağaməhəmməd xanla yaxından əlaqə qurmağa çalışdılar. O cümlədən Urmiyadan Hüseynqulu xan İmamqulu xan oğlu Qasımlı-Avşar, Marağadan Əhməd xan Müqəddəm, İrəvandan Məhəmməd xan Ziyadlı-Avşar, Xoydan Hüseynqulu xan Dünbili və Naxçıvandan Kəlbəli xan Kəngərli Mirzə Məhəmmədşəfinin görüşünə gəldilər. Bu xanlar hamısı bir ağızdan Əsgər xana qahmar çıxıb, tərəfini tutdular. Mirzə Məhəmmədşəfi Ağaməhəmməd xanın tapşırığı ilə Məhəmməd xan İzzəddinli-Qacara göstəriş verdi ki, Məhəmmədqulu xanı Urmiya hakimliyindən azad edib, Hüseynqulu xanı vəzifəyə gətirsin. Məhəmməd xan İzzəddinli-Qacar Hüseynqulu xan Qasımlı-Avşarı götürüb, Urmiyaya getdi. Sadıq xan Şəqaqi bu xəbəri Məhəmmədqulu xana yetirdi. Məhəmmədqulu xan təşvişə düşüb, məşvərət topladı. Avşar elinin başçıları məsləhət verdilər ki, Ağaməhəmməd xana hədiyyə göndərib, itaətini bildirsin. Tarixçi Nisə Mustafayeva yazır: “Ağa Məhəmməd xan ilk növbədə Urmiya xanlığına zərbə endirmək fikrində idi. Onun yaxınlaşmasından xəbər tutan Məhəmmədqulu xan vuruşmaya girişməyib, şəhəri tərk etdi və Urmiya gölünün cənub tərəfindəki dağlıq ərazidə yerləşən Uşnu qalasına sığındı. Urmiyaya gələn Ağa Məhəmməd xan yumşaq davranıb, heç kimi cazalandırmadı və Məhəmmədqulu xanı bağışlayacağını vəd etdi. Məhəmmədqulu xan onun hüzuruna gəldi”.

Məhəmmədqulu xan qardaşı Qasım xanı, sərkərdəsi Rəhim xan Qasımlını, əyanları Əlirza xanı və Kəlbəli bəy Xələci pay-pürüşlə baş vəzirin sərancamına göndərdi. Özü qaçıb, öncə Baranduz qalasında, sonra isə Üşnəviyyədə gizləndi. Hüseynqulu xan Məhəmməd xan İzzədinli-Qacarla Urmiyaya çatanda Məhəmmədqulu xanın qaçdığını duydular. Onlar Məhəmmədqulu xanın bütün mal-mülkünü müsadirə etdilər. Ağaməhəmməd xandan fərman gözləməyə başladılar.

Məhəmməd xan Qacar Üşnəviyyəyə elçi göndərib, Məhəmmədqulu xanı itaətə dəvət etdi. Məhəmmədqulu xan onun elçilərini rədd etdi. Sonra Zərza və başqa əşirətlərdən bir qoşun toplayıb, Baranduza gəldi. Məhəmməd xan Qacar da Avşar eli içindən bir qoşun

tərtib edib, onu qarşılamağa getdi. Onlar Sarıbəyli məzrəsində üzləşdilər. Məhəmməd xanın qoşununda xidmət edən Qəhrəman bəy Avşar irəli çıxıb, Məhəmmədqulu xanı öyüd-nəsihət etdi ki, gəl savaşı burax, təslim ol. Sən bu qoşunla bacarmayacaqsan, avşarları güdaza verəcəksən. Məhəmmədqulu xan Qəhrəman bəyin sözünü dinləyib, qoşununu Əfrasiyab sultana verib, Üşnəviyyəyə göndərdi. Özü isə gəlib Məhəmməd xana təslim oldu. Onlar Urmiyaya döndülər. Məhəmməd xan Məhəmmədqulu xanı şəhərə buraxmayıb, «Nəzər» bağında yerləşdirdi.

Məhəmmədqulu xan bir neçə vaxt Urmiyada qalandan sonra, Qaradağa gedib, Ağaməhəmməd xanın ordusuna qoşuldu. Onu həbs edib, nəzarətxanaya atdılar.

Ağaməhəmməd xan Məhəmmədqulu xanın qardaşı Qasım xan Qasımlını Urmiyaya hakim təyin etdi. Onun hakim təyin olunmasında Əsgər xan Əbdülməlikinin yardım payı vardı. Belə ki, Ağaməhəmməd xana peşkəş aparan Qasım xan Yam məntəqəsinə yetişəndə Əsgər xan Əbdülməliki bir nəfəri onun yanına göndərib məsləhət gördü ki, Məhəmmədqulu xan Ağaməhəmməd xan Qacarın yanında xain, günahkar bir hakim kimi tanınır. Hər nə göndərsə də, qəbul olmayacaq. Sən gətirdiyin hədiyyələri öz adından Qacar xanına təqdim et. Biz də ondan xahiş edərik ki, Urmiyanın hakimliyini sənə versin. Avşar ağsaqqalları da bu fikri bəyəndilər. Əsgər xana da razılıq məktubu göndərdilər. Əsgər xan sevinib, Qasım xanı və Avşar başçılarını çadırına dəvət etdi. Qasım xan Əsgər xanın rəhbərliyi ilə sovqatı baş vəzirə təqdim etdi. Baş vəzir pay-parçanı alıb, Qasım xanı Ağaməhəmməd xan Qacarın fərmanı ilə Urmiyanın hakimi təyin etdi.

Qasım xan Urmiyanın vəzirliyini Mirzə Əbülhəsən bəy Əbdülməlikinin oğlu Mirzə Məhəmmədnəbi bəyə verdi. Əsgər xanı isə 1000 nəfərlik Avşar dəstəsinin başçısı təyin etdi.

Ağaməhəmməd xanın ordusu Qaradağdan Təbrizə gəldi. Qacar xanı Xoyun hakimi Hüseynqulu xan Dünbilini Cənubi Azərbaycanın valisi təyin etdi. Bu zamanlarda Urmiya hakimi Qasım xan Ağaməhəmməd xana məktub yazıb bildirdi ki, Üşnəviyyə hakimi

Əfrasiyab sultan Zərza başqa kürd əşirətlərindən də qoşun toplayıb, Urmiya camaatına korluq verir. Ağaməhəmməd şah Əsgər xan Avşara göstəriş vedri ki, Urmiyaya gedib, Üşnəviyyə kürdlərinin qətl-qarətinin qarşısını alsın. Sovucbulağın hakimi Budaq xana da fərman göndərdi ki, Əsgər xana yardım etsin.

Qasım xan Əsgər xanla birləşib, az miqdar qoşunla Üşnəviyyəyə hücuma keçdi. Zərzalar da balbaslarla ittifaq bağlayıb müdafiəyəyə hazırlaşdılar. Mükrilər də xəlvətcə zərzalara xəbər göndərirlər ki, biz ilk həmlədə geri çəkiləcəyik. Mahmud xan Mükri öz tayfasının xəyanətini Qasım xana xəbər verdi. Qasım xan ona inanmadı. Elə bu vaxt balbasların hücumu başlandı. Mükrilər qaçmağa üz qoydular. Avşarların nizamı pozuldu. Qasım xan və Əsgər xan geri çəkildi. Bu savaşda Avşar və Dünbili ellərindən 1000 nəfər döyüşçü həlak oldu. Əsgər xan hərbi hiyləsini, taktikasını işə salıb, döyüşçülərin böyük hissəsini ölüm meydanından salamat çıxardı.

Urmiyanın yeni hakimi Qasım xanın kürdlərlə savaşda uduzması xəbəri Ağaməhəmməd xana çatdı. Qacar xanı bu xəbərdən təəssüfləndi. Onun cavan, təcrübəsiz olduğunu duydu. Urmiya sərhəd nöqtəsi olduğundan ora bacarıqlı adam gərək idi. Məhəmmədqulu xan onun fikrini duyub, saray adamlarını vasitəçi saldı. 4 min Təbriz tüməni də peşkəş hazırladı. Şah onun oğlu Mustafaqulu xanın adına hakimlik fərmanı imzaladı. Məhəmmədqulu xanı da ona naib təyin etdi.

Məhəmmədqulu xan Urmiya qoşununun başında 1793-cü ildə Ağaməhəmməd xanın ordusunda Şiraza, Lütfəli xan Zəndin üstünə yollanmışdı. Lütfəli xan Zəndin məğlubiyyətindən sonra Urmiyaya qayıtdı. Əsgər xan onun Urmiyaya dönüşünə etiraz etdi. Bilirdi ki, o, qalmaqalı sevir, mütləq həngamə törədəcək. Baş vəzir Rəhim xan Qasımlını Məhəmmədqulu xana naib təyin edib, Urmiyaya göndərdi. Rəhim xan öz ailəsini və Əsgər xanın əhli-əyalını Urmiyadan köçürüb, Quşçu qəsəbəsində yerləşdirdi.

Məhəmmədqulu xan Urmiyaya yetişcək zülm bayrağını dalğalandırmağa başladı. Qaynı Əlirza xandan 4 min tümən pul alıb, özünü də zindana atdı. Əsgər xan bu hadisəni baş vəzirə çatdırdı.

Əlirza xanın azad olmasına çalışdı. Ağaməhəmməd xandan fərman alıb, Urmiyaya gəldi. Ənzəl mahalına çatanda qardaşıoğlu Əhməd bəyə əmr verdi ki, özü ilə 17 atlı götürüb, Urmiyaya getsin. Zindanın qapısını qırıb, Əlirza xanı azad etsin. Onlar da günün günorta çağı zindanın qapısını qırıb, Əlirza xanı Ənzələ gətirdilər. Əsgər xanın tərəfdarları Quşçuya köçdülər.

1795-ci ildə Ağaməhəmməd xan Qarabağa, ordan da Gürcüstana yürüş etdi. Urmiya xanlığından Məhəmmədqulu xan və Əsgər xan da sərkərdə kimi bu yürüşdə iştirak etdilər. Gəncə ətrafına çatanda Urmiya şikayətçiləri gəlib, Ağaməhəmməd xana yetişdilər. Onlarla pişnamaz Molla Məhəmmədhüseyn də vardı. O, Tiflis şəhərinin alınmasında iştirak etdi. Ağaməhəmməd xan fəthdən sonra avşar şikayətçiləri yanına çağırdı. Onları birlikdə və təkbətək dinlədi.

Məhəmmədqulu xan Tiflisdə baş verən hadisəni öyrənib, Əsgər xana yaxınlaşmağa başladı. Saraydakı tanışlarına da peşkəş göndərib, şahın könlünü almağa girişdi. Əsgər xan bir şərtlə ona yaxınlaşdı ki, daha millətə zülm etməsin. Məhəmmədqulu xan and içib, söz verdi. Yenidən hakim təyin olundu. Urmiyaya dönərkən 3 gün Quşçu qəsəbəsində Əsgər xanla Rəhim xan Qasımlıya qonaq oldu. Şəhərə dönəndən sonra ədl-ədalətlə idarəçiliyə başladı. Əsgər xanın evlərinin yenidən qurulmasına əmr verdi. Qabil memarlar vasitəsilə uçurulan evlər bərpa olundu. Bu evlər hələdə «Əsgər xan darvazası» məhəlləsində bərqərardır.

Məhəmmədqulu xan bacılarından birini Əfrasiyab sultan Zərzaya, birini Əsgər xanın oğluna verib Urmiyada möhkəmləndi.

Urmiya xanlığında qızışdırıcı xasiyyəti ilə tanınan Əfrasiyab sultan Zərza Məhəmmədqulu xanın Urmiyaya döndüyünü eşidib, şəhərə gəldi. Yeni planları vardı. Məhəmmədqulu xan onu məhəbbətlə qarşılayıb, saraya gətirdi. Başına gələn əhvalatlar onun baiskarlığı ilə olduğundan, yeməyinə zəhər qatdırdı.

1797-ci ildə Ağaməhəmməd şah Qacar Qarabağa ikinci yürüş etdi. Urmiyaya çapar göndərib, Məhəmmədqulu xana əmr etdi ki, Avşar qoşununu Mömün xan Mahmud xan oğlu Qasımlının başçılığı ilə Qarabağa göndərsin.

Ağaməhəmməd şah Qarabağda öldürüləndən sonra Məhəmmədqulu xan müstəqil olmaq istəyən xanlara, Sadıq xan Şəqaqiyə və Cəfərqulu xan Dünbiliyə qoşuldu.

Müstəqillik hərəkatı Xoyda başlandı. Hüseynqulu xan Dünbili qasidi Süleyman bəy vasitəsilə Urmiyaya, Məhəmmədqulu xana xəbər göndərdi ki, fəallaşsın. Məhəmmədqulu xan Avşar elinin ağsaqqallarını bir yerə toplayıb, məsləhət istədi. Avşar başçıları ona məsləhət verdilər ki, özü həmin xanların yanına gedib, işi dərindən öyrənsin. Eyni zamanda Sadıq xan Şəqaqi də qoşunu ilə Xoya gəldi. Hüseynqulu xan onları təntənəli qəbul etdi.

Məhəmmədqulu xanın dəstəsi Xoyun ətrafındakı «Dağbağı»nda yerləşdi. Hüseynqulu xan, Cəfərqulu xan və Sadıq xan hamısı bir ağızdan Məhəmmədqulu xanı özlərinə rəhbər seçdilər. Onun sözündən çıxmayacaqlarına vəd verdilər. Ətraf xanlara da məktub göndərib, ittifaqa dəvət etdilər. İrəvan hakimi Məhəmməd xan Ziyadlı-Qacara, Naxçıvan hakimi Abbasqulu xan Kəngərliyə, Meşkin hakimi Ata xan Şahsevənə, Marağa hakimi Əhməd xan Müqəddəmə və digər xanlara çaparlar göndərib, Təbrizə dəvət etdilər. Məhəmmədqulu xan, Cəfərqulu xan və Sadıq xan Təbrizə yollandılar. Məhəmmədqulu xan yolda Urmiyadan məktub aldı. Ona bildirirdilər ki, qardaşıoğlu Hüseynqulu xan üsyan qaldırıb. Məhəmmədqulu xan Xanəmir bəy Xələci daha səhih xəbər üçün Urmiyaya göndərdi. Sonra ürəyi sakitləşməyib, özü Urmiyaya qayıtmalı oldu. Əsgər xanı nümayəndəsi kimi Təbrizdə saxladı.

Məhəmmədqulu xan Urmiyaya çatıb, təhqiqata başladı. Öyrəndi ki, Hüseynqulu xanı üsyana qardaşları Məhəmmədisa xan və Lütfəli xan təhrik edib. Onların tutulmasını əmr etdi. Gecə ikən Məhəmmədisa xan və Lütfəli xan Səidli kəndindəki Baranduz qalasına qaçmağı planlaşdırdılar. Yolu azıb, Mərgəvər mahalına getdilər. Bu xəbəri eşidən Məhəmmədqulu xan qardaşıoğullarının ardınca bir neçə atlə göndərdi. Atlılar onları tutub, Urmiyaya qaytardılar. Hüseynqulu xan isə dayı tayfası olan xələçlərlə Üşnəviyyə mahalına qaçdı. Hüseynqulu xan 3 ay Üşnəviyyədə qaldıqdan sonra, Sovucbulağa, Budaq xan Mükrinin yanına getdi. Budaq xan

Məhəmmədqulu xanla düşmənçilik etdiyindən, İmamqulu xanın övladlarına dost olduğundan onu hörmətlə qarşıladı. Hüseynqulu xan burda da çox qalmadı. Marağa yolu ilə Tehrana getdi. Marağa şəhərində Əhməd xan Müqəddəm də onu isti-ılıq qarşıladı. Məsləhət gördü ki, İrana yeni hökmdar təyin olunmuş Fətəli şahın yanına getsin.

Fətəli şah Qacar bəzi Azərbaycan xanlarının üsyan xəbərini eşidib, Azərbaycana gəlirdi. Hüseynqulu xan yolda şah ordusuna qoşuldu. Fətəli şah onu hərarətlə qarşıladı. Yəhər-yüyəni qızıldan olan at, qını qızıl işləməli xəncər verib, fərmanla Urmiyaya hakim təyin etdi.

Məhəmmədqulu xan Hüseynqulu xanın Urmiyaya yürüşünü eşidib, 6 min nəfərlik qoşunla qarşısına çıxdı. Onlar Qaşqagədikdə qarşılaşdılar. Əsgər xan onları barışdırmağa tələsirdi. Qorxurdu ki, savaş başlayar, iş işdən keçər. Quşçu gədiyinə çatıb, onlara xəbər yolladı. Məktub şahın möhürü ilə möhrlənmişdi. Məhəmmədqulu xan məktubu alıb məzmunu ilə tanış oldu. Oxudu ki, şahın əmri ilə Əsgər xan hər işə məmurdur, Hüseynqulu xan söhbət aparmaqdan azaddır.

Məhəmmədqulu xan savaşa girməyib, geri çəkildi. Əsgər xan Urmiyaya çatıb, Məhəmmədqulu xanı ora dəvət etdi. Hüseynqulu xan 6 gün Dolmalar məntəqəsində qalandan sonra, şəhərə daxil oldu. Əmilik hörmətini saxlayıb, divanxanaya getmədi. Rəhim xan Qasımlının Bazarbaşı məhəlləsindəki evində oturaq etdi. Divanxananın boşalmasını gözlədi.

Məhəmmədqulu xan 1798-ci ilədək Urmiyanın hakimi olmuşdu. 1798-ci ildə Fətəli şah fərmanla Hüseynqulu xanı Məhəmmədqulu xanın əvəzinə Urmiyaya hakim təyin etdi. Tərgəvərin hakimi İbrahim xan 30 yük atı ilə Urmiyaya gəlib, Məhəmmədqulu xanın ev əşyalarını Kürdüstana köçürmək istədi. Fətəli şahın yüzbaşısı Məhəmmədəli xan Ərəb ona imkan vermədi. Ona Məhəmmədqulu xanı tutmaq əmr olunmuşdu. Əsgər xan yenə araya girib, məsləhət verdi ki, hələlik Məhəmmədqulu xan onun evində otursun, şahdan

nə əmr gəlsə yerinə yetirsinlər. Divanxana boşaldı. Hüseynqulu xan ora köçdü.

Məhəmmədhüseyn xan Qacar Urmiyaya gəldi. Fətəli şahın bura yetişəcəyini elan etdi. Onun ardınca Hüseynqulu xan Sərdar Qəzvini də Urmiyaya gəlib, şah üçün düşərgə seçdi. Əsgər xan Məhəmmədqulu xana məsləhət verir ki, Salmasa gedib Süleyman xan Etizadüddövlə Qacardan xahiş etsin ki, bağışlanması üçün şaha araçı olsun. Məhəmmədəli xan Ərəb onun getməsini öyrənib, dalınca atlı saldı. Məhəmmədqulu xanı Əsgərabad kəndindən tutub, geri qaytardılar.

Fətəli şah Urmiyaya gəldi. Mirzə Rzaqulu Münşi Nəvai və Məhəmmədəli xan Ərəb Bəstami Məhəmmədqulu xanın mal-mülkünü siyahıya alıb, şaha təqdim etdilər. Fətəli şah Hüseynqulu xanın bacısı ilə evləndi. Qasımlı tayfasından 43 ailənin Qəzvinə köçürülməsinə əmr verdi. Məhəmmədqulu xanı Mazandarana sürgün etdi. Mazandaranda onu bir otağa salıb, hər tərəfini qapadılar.

Məhəhəmmədqulu xan Mazandaranda vəfat etdi.

Qasım xan Rzaqulu xan oğlu Urmiya şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Qardaşı Məhəmmədqulu xanın ordusunda sərkərdə kimi xidmət etmişdi.

Qasım xan bir müddət Urmiyanın hakimi olmuşdu. Hakimliyə gedən yol:

Məhəmmədqulu xan qardaşı Qasım xanı, Rəhim xan Qasımlını, Əlirza xan Qasımlını və Kəlbəli bəy Xələci pay-pürüşlə Ağaməhəmməd şah Qovanlı-Qacarın baş vəzirinin sərancamına göndərir. Özü qaçıb öncə Baranduz qalasında, sonra isə Üşnəviyyədə gizlənir. Urmiya hakimliyinə iddialı Hüseynqulu xan Qasımlı Məhəmməd xan İzzədinli-Qacarla Urmiyaya çatanda baxır ki, Məhəmmədqulu xan qaçıb. Onlar Məhəmmədqulu xanın bütün mal-mülkünü müsadirə edirlər. Ağaməhəmməd şahdan fərman gözləməyə başladılar.

Qasım xan Yam məntəqəsinə yetişəndə Əsgər xan Əbdülməliki bir nəfəri onun yanına göndərib deyir ki, Məhəmmədqulu xan Ağaməhəmməd xan Qacarın yanında xain, günahkar bir hakim kimi

tanınır. Hər nə göndərsə də qəbul olmayacaq. Sən gətirdiyin hədiyyələri öz adına təqdim et. Biz də ondan xahiş edək ki, Urmiyanan hakimliyini sənə versin. Avşar ağsaqqalları da bu fikri bəyəndilər. Əsgər xana da razılıq məktubu göndərdilər. Əsgər xan sevinib, Qasım xanı və Avşar başçılarını çadırına dəvət etdi. Qasım xan Əsgər xanın rəhbərliyi ilə sovqatı baş vəzirə təqdim etdi. Baş vəzir pay-parçanı alıb, Qasım xanı Ağaməhəmməd xan Qacarın fərmanı ilə Urmiyanın hakimi təyin etdi.

Qasım xan Urmiyanın vəkilliyini Mirzə Əbülhəsən bəyin oğlu Mirzə Məhəmmədnəbiyə verdi. Əsgər xanı isə 1000 nəfər avşarın başçısı təyin etdi.

Ağaməhəmməd şahın ordusu Qaradağdan Təbrizə gəlir. Xoyun hakimi Hüseynqulu xan Dünbilini Azərbaycanın valisi təyin edir. Qasım xan şaha məktub yazıb bildirir ki, Üşnəviyyə hakimi Əfrasiyab sultan Zərza başqa kürd əşirətlərindən də qoşun toplayıb, Urmiya camaatına korluq verir. Ağaməhəmməd şah Əsgər xan Avşara göstəriş verir ki, Urmiyaya gedib, Üşnəviyyə kürdlərinin qətl-qarətinin qarşısını alsın. Sovucbulağın hakimi Budaq xana da fərman göndərir ki, Əsgər xana yardım etsin.

Qasım xan Əsgər xanla birləşib, az miqdar qoşunla Üşnəviyyəyə hücuma keçdi. Zərzalar da balbaslarla ittifaq bağlayıb müdafiəyəyə hazırlaşdılar. Mükrilər də xəlvətcə zərzalara xəbər göndərirlər ki, biz ilk həmlədə geri çəkiləcəyik. Mahmud xan Mükri öz tayfasının xəyanətini Qasım xana məlumat verdi. Qasım xan ona inanmadı. Elə bu vaxt balbasların hücumu başlandı. Mükrilər qaçmağa üz qoydular. Avşarların nizamı pozuldu. Qasım xan və Əsgər xan geri çəkildi. Bu savaşda Avşar və Dünbili ellərindən 1000 nəfər döyüşçü həlak oldu. Əsgər xan hərbi hiyləsini, taktikasını işə salıb, döyüşçüləri ölüm meydanından salamat çıxardı.

Qasım xanın bu savaşda uduzması xəbəri Ağaməhəmməd şah Qacara çatdı. Şah bu xəbərdən təəssüfləndi. Onun cavan, təcrübəsiz olduğunu duydu. Urmiya sərhəd nöqtəsi idi. Ora bacarıqlı adam gərək idi. Məhəmmədqulu xan onun fikrini duyub, saray adamlarını vasitəçi saldı. 4 min Təbriz tüməni də peşkəş hazırladı. Şah Məhəm-

mədqulu xanın oğlu Mustafaqulu xanın adına hakimlik fərmanı imzaladı. Məhəmmədqulu xanı da ona naib təyin etdi.

Qasım xan isə Dizəc kəndindəki mülkünə gedib, guşənişin oldu. Xanlıq daxilində gedən çəkişmələrə qoşulmadı.

Mustafaqulu xan Məhəmmədqulu xan oğlu Qasımlı-Avşar Urmiya şəhərində dünyaya gəlmişdi. Saray təhsili almışdı. Atasının sərkərdələrindən biri idi.

Məhəmmədqulu xan baş sərkərdəsi və divanbəyi İbrahim xan Araşlını aradan götürmək istəyirdi. Onu bir neçə gün sarayda saxlayandan sonra ortalığı boş görüb, bir xali otağa dəvət etdi. Böyük oğlu Mustafaqulu xanı öyrətdi ki, get İbrahim xanın xəncərini al. Mustafaqulu xan atasının tapşırığına əməl etdi. Xəncəri alınmış İbrahim xanın gözləri çıxarıldı.

Mustafaqulu xan əmisi Qasım xandan sonra Urmiyanın hakimi təyin edildi. Onun təyinatında atası böyük rol oynadı. Beləki Ağaməhəmməd xan Urmiyaya ötkəm, təcrübəli bir hakim axtarırdı. Qasım xan bacarıqsız, Məhəmmədqulu xan etibarsız idi. Məhəmmədqulu xan saray adamlarını şaha vasitəçi saldı. 4 min Təbriz tüməni də peşkəş hazırladı. Şah onun oğlu Mustafaqulu xanın adına hakimlik fərmanı imzaladı. Məhəmmədqulu xanı da oğluna naib təyin etdi.

Mustafaqulu xanın hakimiyyəti Urmiya tarixində o qədər də əhmiyyətli olmayıb. Ondan sonra Məhəmmədqulu xan yenidən hakimiyyətə yiyələnmişdi.

Məhəmmədqulu xanın ikinci hakimiyyətindən sonra Urmiyaya başçı olan Hüseynqulu xan İmamqulu xan Qasımlı-Avşarın oğludur.

Hüseynqulu xan Urmiya hakimiyyətini öz qanuni haqqı bilirdi. Ona görə də əmisinə qarşı gah gizlin, gah aşkar mübarizə aparırdı. Ağaməhəmməd şah Qovanlı-Qacarın ölümündən sonra Güney Azərbaycan xanlarından bəziləri müstəqillik eşqinə düşdülər. Məhəmmədqulu xan da onlara qoşuldu. Onlar Təbrizə yığışıb, qacarlara qarşı hərəkətə başlamağı qərara aldılar.

Məhəmmədqulu xan yolda Urmiyadan məktub aldı. Ona bildirirdilər ki, qardaşıoğlu Hüseynqulu xan üsyan qaldırıb. Xan Xanəmir bəy Xələci ətraflı informasiya toplamaq üçün Urmiyaya göndərdi. Qiyam xəbərindən ürəyi sakitləşməyib, özü Urmiyaya qayıtmalı oldu. Əsgər xan Əbdülməlikini səlahiyyətli nümayəndəsi kimi Təbrizdə saxladı.

Məhəmmədqulu xan Urmiyaya çatıb, təhqiqata başladı. Öyrəndi ki, Hüseynqulu xanı üsyana qardaşları Məhəmmədisa xan və Lütfəli xan təhrik edib. Qiyamçı qardaşlar Məhəmmədisa xan və Lütfəli xan gecə ikən Səidli kəndindəki Baranduz qalasına qaçmağı planlaşdırdılar. Gecə yolu azıb, Mərgəvər mahalına getdilər. Bu xəbəri eşidən Məhəmmədqulu xan qardaşıoğullarının ardınca bir neçə atlı göndərdi. Atlılar onları tutub, Urmiyaya qaytardılar. Hüseynqulu xan isə dayısı tayfası olan xələclərlə Üşnəviyyə mahalına qaçdı. Hüseynqulu xan 3 ay Üşnəviyyədə qaldıqdan sonra, Sovucbulağa, Budaq xan Mükrinin yanına getdi. Budaq xan Məhəmmədqulu xanla düşmənçilik etdiyindən, İmamqulu xanın övladları ilə dost olduğundan onu hörmətlə qarşıladı.

Hüseynqulu xan burda da çox qalmadı. Marağa yolu ilə Tehrana getməli oldu. Marağa şəhərində Əhməd xan Müqəddəm də onu isti-ılıq qarşıladı.

Fətəli şah Qovanlı-Qacar (1797-1834) xanların üsyan xəbərini eşidib Azərbaycana yola düşmüşdü. Hüseynqulu xan yolda şah ordusuna qoşuldu. Fətəli şah onu hörmətlə qarşıladı. Ona qızıl əsbablı, yəhər-yüyənli at, qızıl qınlı xəncər bağışladı. Marağa hakimi Əhməd xan Müqəddəmə fərman verib, Sami soylu qulamların yüzbaşısı Məhəmmədəli xan Ərəb-Bəstamini də ona qoşub, Urmiyaya göndərdi ki, Məhəmmədqulu xanı ordan dəf edib Hüseynqulu xanı hakimiyyətə çatdırsın. Tapşırıq alan Əhməd xan Müqəddəm, Məhəmmədəli xan Ərəb və Hüseynqulu xan Qasımlı-Avşar Urmiyaya yollandılar. Fətəli şah da ordu ilə onların ardınca tərpəndi.

Hüseynqulu xan Marağaya çatıb, qoşun toplamağa başladı. Ordan da Sovucbulağa getdi. Budaq xandan məsləhət və yardım

aldı. Ana tərəfdən qohumu İsmayıl bəy Xələci Balbas tayfasının yanına göndərib, yardım üçün Sulduz çayının yaxasına dəvət etdi.

Kürd tayfasının rəisləri Mömənd ağa, İbrahim sultan Məməş, Balık, Pİran və Mənqur tayfalarından topladıqları qoşunla Sulduz çayının kənarında Hüseynqulu xana qoşuldular. Ordan Urmiyaya tərəf yollandılar.

Məhəmmədqulu xan Hüseynqulu xanın Urmiyaya yürüşünü eşidib, 6 min nəfərlik qoşunla onların qarşısına çıxdı. Hər iki qoşun Qaşqagədikdə qarşılaşdı.

Avşar elinin sayılan ağsaqqalı Əsgər xan Əbdülməliki onları barışdırmağa tələsdi. Qorxdu ki, savaş başlayar, iş işdən keçər. Quşçu gədiyinə çatıb, onlara xəbər yolladı. Məktub şahın möhürü ilə möhürlənmişdi. Məhəmmədqulu xan məktubu alıb, tanış oldu. Oxudu ki, şahın əmri ilə Əsgər xan hər işə məmurdur, Hüseynqulu xan söhbət aparmaqdan azaddır.

Məhəmmədqulu xan savaşa girməyib, geri çəkildi. Əsgər xan Urmiyaya çatıb, Məhəmmədqulu xanı ora dəvət etdi. Hüseynqulu xan 6 gün Dolmalar məntəqəsində qalandan sonra, onların ardınca şəhərə girdi. Əmilik hörmətini saxlayıb, divanxanaya getmədi. Rəhim xan Qasımlının Bazarbaşı məhəlləsindəki evində oturaq etdi.

Tərgəvər mahalının hakimi İbrahim xan 30 yük atı ilə Urmiyaya gəlib, Məhəmmədqulu xanın ev əşyalarını Kürdüstana köçürmək istədi. Fətəli şahın yüzbaşısı Məhəmmədəli xan Ərəb ona imkan vermədi. Ona Məhəmmədqulu xanı nəzarətdə saxlamaq əmr olunmuşdu. Əsgər xan yenə araya girib, sakitlik yaratdı. Onlara məsləhət verdi ki, hələlik Məhəmmədqulu xan onun evində əyləşsin, şahdan nə əmr gəlsə, can-başla yerinə yetirsinlər. Razılaşdılar. Məhəmmədqulu xan Əsgər xanın evinə yerləşdi. Divanxana boşaldı. Hüseynqulu xan ora köçdü.

Hüseynqulu xan İmamqulu xan oğlu 1797-ci ildə Urmiyanın hakimi təyin olmuşdu. Taxta 1798-ci ildə əyləşmişdi.

Hüseynqulu xan Urmiyaya çox ədl-ədalətlə hakimlik etmişdi. Urmiya əhalisi onun hakimiyyəti dönəmində sakitlik tapdı. O, şəriət işlərini Mir Vahid Şeyxülislama və Axund Molla Hüseyn Pişnama-

za tapşırdı. Mirzə Məhəmmədnəbi bəy Əbdülməliki maliyyə vəkili, vəzir oldu. Urmiyanın mustofiliyini Mirzə Mustafa Səidliyə verdi. Xüsusi təşrifat işlərini, eşikağasıbaşı vəzifəsini Mirzə Məhəmmədhəsən Səidli apardı. Mirzə Saleh Ustaclı və Mirzə Rəfi Ustaclı divanxana katibləri, Kəlbəli xanın soyundan olan Xanbaba bəy Qasımlı eşikağası vəzifələrinə təyin edildilər. Xanəmir bəy Xələc hökumət işlərinə baxmalı oldu.

Hüseynqulu xanın hakimliyi dönəmində Mustafa bəy Həkkari Çəhriq məntəqəsindən üsyan qaldırıb, sərhəd bölgələrini qarət etmişdi. Hüseynqulu xan Əsgər xana 500 atlı verib, onun üstünə göndərdi. Əsgər xan Mustafa bəy Həkkarinin dəstəsini darmadağın etdi. Həmin döyüşdə Avşar dəstəsi cəmi bir nəfər itki verdi. Məşhur Avşar sərkərdəsi Hüseyn bəy Qarahəsənli güllə yarasından həlak oldu. Xan göstərdiyi şücaətə görə Əsgər xana ənam-ərmağan, xələt-xəncər verdi.

1805-ci ildə Abbas mirzə Qovanlı-Qacar Təbrizdə Hüseynqulu xana göstəriş verdi ki, Marağa hakimi Əhməd xan Müqəddəmi də götürüb, üsyan etmiş Zərza, Şimiznan, Kəlhor, Balbas əşirətlərini yatırsınlar. Hüseynqulu xan Təbrizdən Marağaya gəldi. Fərmanı Əhməd xana təqdim etdi. Qərarlaşıb, Sulduz çayının yaxasında görüş yeri seçdilər. Hüseynqulu xan avşarları toplamaq üçün Urmiyaya gəldi.

Xəbəri eşidən Balbas tayfası digər tayfaları duyuq saldı. Onlar da qərarlaşdılar ki, Laican ətrafında Avşar və Müqəddəm ellərini silahla qarşılasınlar.

Avşar və Müqəddəm qoşunu görüş yerindən tərpənib, üsyançıların üstünə getdi. Laicanda qarşılaşdılar. Əhməd xan Müqəddəm topları cəbhənin cinahlarına düzdü. Hüseynqulu xan qoşunun mərkəzində dayandı. Toplar atəş açdı. Kürd əşirətləri dağıldılar. Avşar və müqəddəmlər hücum edib, üsyançıları qırıb-tökməyə başladılar. Sağ qalanlar qaçdılar. Qoşun əhli arxayınlaşıb, dincəlməyə başladı. Elə bu vaxt Balbas tayfasının rəisləri Mömənd ağa Pİran, Həmzə ağa Mənqur, Məməş ağa, İbrahim sultan gizləndikləri yerdən çıxıb, hücuma keçdilər. Avşar və Müqəddəm ellərinə tələfat verməyə

başladılar. Sayınqala hakimi Mahmud xan Qasımlı özünə sipər tutub, sıyırmaqılınc Balbas rəislərinin üstünə cumdu. Rəislər onu görüb, karıxdılar. Müqəddəm qoşununun sərkərdələrindən Qasım bəy Mahmud xana dəstək verdi. Bu iki qəhrəman, şücaətli sərkərdə çiyin-çiyinə verib, balbasları qırıb çatdılar. Qəndil dağı balbasların qanına bələndi. Birləşmiş qoşuna 6 min at qənimət qalmışdı. Bu atları Fətəli şah Qacara göndərdilər.

Hüseynqulu xan qələbədən sonra Üşnəviyyə gəldi. Üşnəviyyə hakimi Qasım sultan Zərza onu qarşılayıb, Urmiyaya qədər mehmandarlıq etməyə başladı. Yolda sözləri çəpləşdi. Tutulmasını əmr etdi. Urmiyada Hüseynqulu xan Qasım sultan Zərzanı falaqqaya saldırıb, o ki var çubuqlatdırdı…

Hüseynqulu xan 1805-ci ildə Urmiya qoşununun başında, Azərbaycan ordusunun tərkibində İrəvan səfərində iştirak etmişdi.

Hüseynqulu xan Avşar qoşununun başında, Ismayıl xan Qacarla Gəncə və Tiflis yürüşlərinə qatılmışdı. Abbas mirzə onlara əmr vermişdi ki, Gəncəni alandan sonra Tiflisə yollanıb, oranı qaydasına salsınlar. Rus komandanı Şaft Tiflis şəhərində əyləşib, İran qoşunlarına qarşı təxribat yaradırdı. Hüseynqulu xangil Tiflis şəhərinin iki mənziliyinə çatırlar. Bu qoşunun hərbi taktikası və strategiyası Əsgər xan və qardaşı Əbdüssəməd xan tərəfindən düzənlənirdi. Onlar qoşunu yoxlayıb, sahman yaratdılar. Avşar qoşunu irəli hücum edib, rus qoşunlarını darmadağın etdi. Rus toplarını ələ keçirib, öncə Gəncəyə, Gəncədən İrəvana, ordan da İrana apardılar.

Hüseynqulu xan 1821-ci ilədək Urmiyanın hakimi olmuşdu.

Hüseynqulu xanın Nəcəfqulu xan, Məhəmməd xan, Xudadad xan, Məhəmmədqasım xan, Məhəmmədmusa xan, Rzaqulu xan, İmamqulu xan adlı oğulları, Bəyim xanım adlı qızı vardı.

Nəcəfqulu xan Hüseynqulu xan oğlu Urmiya şəhərində anadan olmuşdu. Mükəmməl saray təhsili almışdı.

Nəcəfqulu xan 1821-ci ildə Urmiyanın hakimi təyin olunmuşdu. B. Nikitin yazır: «Atası bəylərbəyi Hüseynqulu xan Salmas və Urmiya karvanlarını yağmalayan Albak kürdlərinin bölgədə yaratdıqları qarışıqlığa bir son vermək və qayda-qanunu yenidən

yaratmaq üçün, ölən sədrəzəm Məhəmməd Hüseyn xan Isfahiyə yerinə keçməli olan adamı saraya gətirilməsini əmr etdi, lakin 1236-cı ildə öldü».

Abbas mirzə 1827-ci ildə Urmiyaya gəlmişdi. "Şahzadə Urmunun (Urmiyanın) hökumətini Nəcəfqulu xan Avşara tapşırdı. Şaha çatdırmaq üçün bir məktub yazıb, qardaşı Qasım mirzəyə verib, Tufarqana yola düşdü. Şahzadə Tufarqana gedərkən sadəcə beş yüz süvari yanına aldı. Qalan kiçik qrupunda sərkərdəliyi Mərhəmədabadda Bəhram mirzəyə buraxdı. Şahzadə öz qrupuna Məhəmməd xan əmirintizam, İbrahim xan Sərdar, Fətəli xan və oğlu Xosrov mirzə kimi bəzi önəmli sərkərdələri də aldı. Şahzadənin sağlıq durumu çox ağır olduğu üçün təxt-i rəvanla səfər etmək zorunda qalmışdı. 1827-ci ilin noyabr ayı idi".

Nəcəfqulu xan 1865-ci ilədək Urmiyanın hakimi olmuşdu.

# Mövzu

## URMİYA XANLIĞININ QONŞU XANLIQLARLA SİYASİ MÜNASİBƏTLƏRİ

### Urmiya və Xoy xanlığı

Urmiya hakimi İmamqulu xan Qasımlı-Avşar Xoy hakimi Əhməd xan Dünbili ilə müttəfiq idi. O da Qarabağ hakimi ilə dostluq edirdi. 1780-ci ildə İbrahimxəlil xan Sarıcalı-Cavanşirlə Əhməd xanın arası dəymişdi. Bu məsələdə İmamqulu xanın təsiri vardı.

1783-cü ildə Əhməd xan Dünbili ilə İbrahimxəlil xan Cavanşir barışdılar. Sonra yenidən pozuluşdular. İran tarixçisi yazır: «1195-ci ildə (miladi 1782-ci ildə, tarixçinin yanlışı var-Ə. Ç.) İbrahimxəlil xan Cavanşir Xoyu tutmaq xəyalına düşdü, Xoy və Səlması işğal etmək üçün qoşunlarını Şirvan və Qarabağdan Naxçıvan yolu ilə oraya göndərdi. Qarabağ orduları Arazın 40 kmliyində olan «Nazik» qalasını mühasirə etdilər. Lakin Əhməd xan Dünbülü Ərum (Urmiya-Ə. Ç.) bəylərbəyi İmamqulu xan Əfşardan kömək istədi. İmamqulu xan kürd və əfşarlardan ibarət qoşunla Xoya gəldi. Əhməd xan iki gün sonra Çəmənbağda (şəhərin şərqində) Ərumi qoşunlarını qarşıladı və müttəfiqlər qarabağlılarla döyüşə girib, onları məğlub etdilər".

Urmiya xanlığının inkişafını Xoy xanlığı üçün təhlükəli hesab edən Əhməd xan Dünbili Təbriz xanı birlikdə İmamqulu xana qarşı çıxdı. Onlar birləşib Əlimurad xanı Azərbaycana dəvət etmək fikrinə düşdülər. Azərbaycan xanlarını da öz tərəflərinə çəkmək istədilər. Amma İmamqulu xandan incik düşən Marağa hakimi Əhməd xan Müqəddəmdən başqa heç kimə gümanları gəlmədi.

Xoy hakimi Əhməd xan Əlimurad xanın yanına elçi göndərdi. Urmiya xanlığının qoşunu haqqında müfəssəl məlumat verib cavab gözlədi.

İmamqulu xanın şöhrətini eşidən Əlimurad xan Zənd Əhməd xan və Nəcəfqulu xan Dünbililərə etina etmədi. Yığışıb məşvərət edən Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı İmamqulu xana qarşı yürüş edən Azərbaycan qoşununa sərkərdə təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da, versinlər. Əlimurad xan Əmiraslan xana bir fərman da yazdı ki, Dünbili qoşununu da dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Əmiraslan xan əməliyyata başladı. Əlimurad xan Zəndin yardımçı təyin etdiyi xanları görüş yerinə çağırdı. Əhməd xan Dünbili Salmas bölgəsində Əmiraslan xana qoşuldu.

Göytəpə çəmənində oturaq edən İmamqulu xan Əlirza xan eşikağasıbaşının nəzarətində eyş-işrətlə məşğul idi. Nağı bəy Avşar ona xəbər çatdırdı ki, Əlimurad xan Zənd Əmiraslan xanı sənin üstünə göndərib. Təbriz hakimi Nəcəfqulu xan və Xoy hakimi Əhməd xan da onunla birləşib. Tezliklə onlar Salmasdan Quşçu gədiyinə keçəcəklər. İmamqulu xan divanbəyi İbrahim xan Araşlı-Avşarı bir dəstə ilə ön cəbhəyə göndərdi. Arxasınca Qərəni ağa Balbasla kürdləri yolladı. Ardlarınca özü də getdi. Əlibəyli çəmənində qoşununu gözdən keçirtdi. Tərtibatın tamam-kamal olduğunu görüb, Qoşuna yürüş əmrini verdi. Urmiya xanlığının müttəfiqi Xəmsə hakimi Əli xan Zayirli-Avşar ilə Əmiraslan xanın qarşısına getdi. Əmiraslan xanın qoşunu ilə İmamqulu xanın dəstəsi Quşçu gədiyində qarşılaşdı.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib, İmamqulu xanın qoşununa hücum etdilər. İmamqulu xan öz qoşunun yetişməsini gözləməyib, azsaylı Balbas və Mənqur qoşunu ilə döyüşə başladı. Özü qoşunun önündə dayandı. Ilk həmlədə düşmən qoşunun avanqardını dağıtdı.

İmamqulu xan güclənən düşmən qoşunu ilə savaşda ağır yaralandı, əmiraxur Əsgər xan Əbdülməliki-Avşar onu çiyninə alıb

döyüş meydanından çıxartdı. Urmiyanın Rzaqulu xan darvazasına yetişəndə böyük sərkərdə can verdi.

İmamqulu xan Qasımlı-Avşar 1783-cü ildə həlak oldu.

Qardaşından sonra hakimiyyətə gələn Məhəmmədqulu xan Xoy xanlığı ilə dostluq ilişgiləri qurdu. 1786-cı ildə əmisi uşaqları tərəfindən təklənən Cəfərqulu xan Batmanqılıc-Dünbiliyə kömək etdi. Həmin dönəmdə Cəfərqulu xan qaçıb ona pənah gətirmişdi. Məhəmmədqulu xan Əhməd xanın ölümünə təəssüflənib, sərkərdələri Məhəmməd bəy Qarahəsənlini, Hüseyn bəy Qarahəsənlini, Məhəmməd bəy Kuhgiluyəlini, Ağacan bəy Kuhgiluyəlini, Tahir sultan Gündüzlünü, Məhəmmədhüseyn bəy Məsum bəy oğlu Mahmudlunu baş sərkərdə Mahmud xan Mömün xan oğlu Qasımlıya qoşub Xoya göndərdi. Cəfərqulu xan da onlara qoşuldu. Şahbaz xanın övladları Tahir ağanın ətrafına cəm olub Qəzənfər dağının ətəyindəki Xatun körpüsünün yanında Urmiya qoşunu ilə qarşılaşdılar. Avşar qoşunun önündə dünbililər müqavimət göstərə bilməyib Xoy qalasına çəkildilər. Avşarlar onların ardınca Xoya daxil oldular. Gizlənən Tahir ağa ilə Zahir ağanı tapıb öldürdülər. Onların malını, mülkünü zəbt etdilər. Mahmud xan Məhəmmədqulu xanın əmrilə Əhməd xanın böyük oğlu Hüseynqulu xanı taxta çıxardı.

Məhəmmədqulu xan Xoy hakimi Hüseynqulu xan Dünbili ilə bir sıra savaşlar aparmışdı. 1787-ci ildə Abdin bəy Avşar xəbər gətirdi ki, Cəfərqulu xanın təhriki ilə Hüseynqulu xan Dünbüli vergi verməkdən imtina edib. Məhəmmədqulu xan bütün Azərbaycan xanlarını Salmas ətrafına topladı. Xudadad xan Dünbili Təbrizdən, Əhməd xan Müqəddəm Marağadan, Sadıq xan Şəqaqi Sərabdan, Kəlbəli xan Kəngərli Naxçıvandan, Məhəmməd xan Qacar İrəvandan qoşunla gəlib görüş yerinə çatdılar. Avşar qoşunu Xoy ətrafındakı Duzdağında çadır qurdu. Xoy və Salmas əhalisi Hüseynqulu xanın yanına gəlib, şivən qopardı. Bildirdilər ki, bizim avşar qoşununu qarşılamağa gücümüz yetməz. Gəl, sən ona öz tabeçiliyini bildir. Əks təqdirdə biz səni tutub Məhəmmədqulu xana verəcəyik. Hüseynqulu xan eşikağası İbrahim xanı Məhəmmədqulu xanın yanına göndərib, itaətini izhar etdi. Məhəmmədqulu xan onu

dinləyib, vəziri Mirzə Əbülhəsən bəy Əbdülməlikini Xoya danışıqlara göndərdi. Mirzə Əbülhəsən bəy Hüseynqulu xanı Məhəmmədqulu xanın hüzuruna gətirdi. Hüseynqulu xan Dünbili Məhəmmədqulu xandan üzr istəyib yığılan bac-xəracı ödədi. Sonra Avşar xanını və sərkərdələri Xoydakı «Dağbağı»na qonaq apardı. Ziyafətdən sonra Məhəmmədqulu xan Xoydan Urmiyaya döndü.

1794-cü ildə Urmiya xanlığı ilə Xoy xanlığı arasında münasibətlər yenidən pisləşdi. Məhəmmədqulu xan eşikağasıbaşı Əsgər xan Əbdülməlikini ölümlə təhdid etdiyindən o qaçıb Salmasda gizlənmişdi.

Əsgər xan yaxın adamlarından olan Əhməd bəyi Xoya göndərdi ki, eşikağası İbrahim xanı tapıb Hüseynqulu xanı ona kömək etməyə inandırsın. Əhməd bəy Murtazaqulu bəy və Mehrab bəyi götürüb Xoya yollandı. İbrahim xanı tapıb onun vasitəsilə qəziyyəni Hüseynqulu xana danışdı. Hüseynqulu xan Məhəmmədqulu xanın təsirindən çıxmaq üçün girəvə gəzirdi. Ona görə qoşun tərtibi üçün sərkərdələrinə göstəriş verdi. Bir neçə günün ərzində qoşun hazır oldu. Qardaşı Cəfərqulu xanı qoşun başçısı təyin etdi. Göstəriş verdi ki, Urmiyaya gedib, xoşluqla Mirzə Əbülhəsən bəyi Məhəmmədqulu xandan istəsin. Verməsə, Urmiyanı dağıdıb gəlin. Cəfərqulu xan qoşunla Salmasa daxil oldu. Əsgər xan onları qarşıladı.

Məhəmmədqulu xan bu hadisəni eşidib qardaşı Qasım xanı qoşunla Salmas tərəfə yola saldı. Yürüşdə avşar sərkərdələrdən Tahir sultan Şəhriyar xan oğlu Gündüzlü, Allahyar bəy Araşlı, Lütfullah bəy Ustaclı iştirak edirdilər. Salmasın Ağziyarət məntəqəsində qoşunlar üzləşdilər. Savaş başlandı. Avşarlar Əsgər xana görə, cani-dildən vuruşmurdu. Ona görə də məğlub olub qaçdılar. Cəfərqulu xanın başçılıq etdiyi Xoy qoşunu avşarları Urmiyanın ətrafındakı Qızqalasınadək izlədi. Bu vəziyyəti görən Məhəmmədqulu xan qalanın qapısını bağlayıb içəridə gizləndi. Xoy qoşunu Urmiyanı mühasirəyə aldı. Avşar bəyləri Xoy qoşununun azğınlığını görüb qaladan çıxdılar. Elə bu zaman sərkərdə Hacı İbrahim Xoylunun atı ürküb avşarlara tərəf qaçdı. Onun ardınca da bir neçə nəfər sərkərdə getdi. Bu sərkərdələr Cahangir bəy, Ağası bəy, Əsəd bəy Dünbili

idilər. Avşarlar onları tutub öldürdülər. Avşar bəyləri onların başını Məhəmmədqulu xana apardılar. Məhəmmədqulu xan Məhəmmədhəsən bəy Mahmudlu və digər avşar bəylərinə xeyli ənam-ərmağan verdi. Əsgər xan bu savaşdan mütəssir oldu. Qardaş qırğınını dayandırmaq üçün el böyüklərinə məktub yazdı. Bildirdi ki, Urmiyaya qardaşım üçün gəlmişəm. Verin, qayıdım. Əfrasiyab sultan Zərza barışıq olduğunu görüb, məktubun xana yetişməsinə mane oldu. Avşar bəylərini növbədən götürüb, kürdlərlə əvəzlədi. Xana bildirdi ki, onlar Əsgər xana görə sənə xəyanət edəcəklər.

Mühasirənin üçüncü günü Cəfərqulu xan Dünbili qala divarlarına yaxınlaşıb, bildirdi ki, Mirzə Əbülhəsən bəyi verin, qayıdıb, vilayətimizə gedək. Əfrasiyab sultan ətraf mahallardan yardım çağırdığından, Cəfərqulu xandan üç gün möhlət istədi. Üç gündən sonra ətrafdakı avşarlar və zərzalar gəlib yetişdilər. Məhəmmədqulu xanın qoşunu gücləndi, savaşa hazır oldu. Şahməhəmməd bəy Kuhgiluyəli-Avşar qoşuna sərkərdə təyin olundu. Məhəmmədsəfi bəy Yorğanlı, Məhəmməd bəy və Hüseyn bəy Qarahəsənli avşar dəstələrinin başında savaş meydanına yollandılar. Bu zaman Əsgər xan Xoy qoşunundan aralanıb, avşar qoşununun önünə tək çıxdı. Onu görən avşarlar utanıb, başlarını aşağı tikdilər. Bayraqdar Məhəmmədsəfi bəy Yorğanlı bayrağını əlindən yerə saldı. Xoyun Heydəranlı tayfası bayrağın yerdə olmasını görüb, qəflətən hücuma keçdi. Zərza cinahına həmlə edib həmin qolu dağıtdı. Urmiya qoşunu məğlub olub qalaya çəkildi.

Mühasirənin 12-ci günü Cəfərqulu xanla Əsgər xan yenidən Məhəmmədqulu xana məktub göndərdilər. Əvvəlki şərtlərini təkrar etdilər. Məhəmmədqulu xan onlara bildirdi ki, siz qayıdıb, Xoya gedin, mən Mirzə Əbülhəsəni buraxacağam. Onlar çəkilib Xoya getdilər. Bir müddət keçməyinə baxmayaraq Məhəmmədqulu xan əhdinə vəfa etmədi.

Hüseynqulu xan Dünbili təkrar qoşun yığıb Cəfərqulu xanı sərkərdəliyi ilə Salmas yolu ilə Urmiyaya göndərdi. Əsgər xan da onlara qoşuldu. Məhəmmədqulu xan onların hərəkətini eşidib qoşunla qarşılamağa yollandı. Ənzəl mahalının Qarabağ məntəqəsində

oturaq etdi. Qoşununun sayı az olduğundan irəli getməyə cəsarət etmədi. Təbriz hakimi Xudadad xandan yardım istədi. Xudadad xan ona məktubla bildirdi ki, savaşın baisi Mirzə Əbülhəsən bəyi öldürsən, bu iş öz-özünə əncam tapacaq. Məhəmmədqulu xan məktubu alan kimi cəlladı Saleh Xələc-Baranduzu Mirzə Əbülhəsən bəyi öldürməyə göndərdi. Saleh Baranduz mahalının Sarıbəyli adlı yurdunda Mirzə Əbülhəsən bəyi boğub öldürdü. Öldürəndən sonra aparıb qapılarına atdı. Həmin hadisə novruz bayramı ərəfəsində baş verdiyindən Avşar elinin Əbdülməliki tayfası nümayişkaranə qara geyindi.

Avşar elinin ağsaqqaları yığılıb Əsgər xana məktub yazdılar ki, Məhəmmədqulu xan ləyaqət hissini itirdiyindən onları eşitmir. Biz sənin haq yolda olduğunu bilirik. Sən savaşa başla, biz sənə yardım edəcəyik. Əsgər xan məktubu Hüseynqulu xana göstərib hərəkətə gəlməyi xahiş etdi. Hüseynqulu xan sərkərdələrinə qoşun tərtib etməyi əmr etdi.

Məhəmmədqulu xan Təbriz hakimindən yardım istədi. Xudadad xan Mirzə Əbülhəsən bəyin öldürülməsini eşidib şadlandı. Qoşun yığıb Urmiyaya tərəf yürüşə başladı. Salmasın Xandam karvansarasına yetişəndə Cəfərqulu xanın qoşununun ora cəmləşdiyi gördü. Ordan Məhəmmədqulu xana qasid göndərib bildirdi ki, Cəfərqulu xanla Əsgər xan yolu bağlayıb. Məhəmmədqulu xan başqa yolla onu qarşılamağa 1000 atlı göndərdi. Atlıların başında Xanəmir bəy Xələc, Məhəmməd bəy və Hüseyn bəy Qarahəsənlilər, Mirzə xan Xələc, Hümmət bəy Xələc, Məhəmmədhəsən bəy Mahmudlu, Baba bəy Ərəbli və Sam bəy Qırxlı dururdu. Qoşun əhli yola düşəndən sonra özü qvardiyası ilə bərabər Ağziyarət ətrafınadək onları izlədi. Ağziyarət ətrafında Cəfərqulu xan Dünbilinin qoşunu onların önünü kəsdi. Məhəmmədqulu xan onların gəlişinə çaşdı. Savaş etməyə tam gücü yox idi. Əlacsız qalıb qvardiyasına və azsaylı Avşar qoşununa savaş əmrini verdi. Qoşunun qarovul hissəsində dayanan Ağacan bəy Kuhgiluyəli özünü Dünbili dəstəsinə vurdu. Qəflətən atının ayağı sürüşdü. Yerə yıxıldı. Heydəranlı tayfasının

döyüşçüləri o dəqiqə onu mühasirə edib heydən saldılar. Sonra başını kəsdilər.

Avşar elinin başçıları Əsgər xanla öncədən razılığa gəldiyindən bayraqları endirib geri çəkilməyə başladılar. Məhəmmədqulu xan işin dolaşıq getdiyini görüb Urmiya gölünün kənarı ilə Ənzəl mahalına qaçdı. Bir gün orda dincəldikdən sonra Xudadad xanla birləşib Urmiyaya döndü.

Ağaməhəmməd şahın Azərbaycanda başlayan fəaliyyəti bir ara Urmiya-Xoy ilişgilərini yavaşıtdı.

Ağaməhəmməd şah Qarabağda öldürüləndən sonra Məhəmmədqulu xan müstəqil olmaq istəyən xanlara, Sadıq xan Şəqaqiyə və Cəfərqulu xan Dünbiliyə qoşuldu.

Qeyd etdiyimiz kimi müstəqillik hərəkatı Xoyda başlandı. Hüseynqulu xan Dünbili ona qasidi Süleyman bəy vasitəsilə Urmiyaya, Məhəmmədqulu xana xəbər göndərdi ki, fəallaşsın. Məhəmmədqulu xan Avşar elinin ağsaqqallarını bir yerə toplayıb, məsləhət istədi. Avşar başçıları ona məsləhət verdilər ki, özü həmin xanların yanına gedib, işi dərindən öyrənsin. Sadıq xan Şəqaqi də qoşunu ilə Xoya gəldi. Hüseynqulu xan onu təntənəli qəbul etdi.

Məhəmmədqulu xanın dəstəsi «Dağbağı»nda yerləşdi. Hüseynqulu xan, Cəfərqulu xan və Sadıq xan hamısı bir ağızdan Məhəmmədqulu xanı özlərinə rəhbər seçdilər. Onun sözündən çıxmayacaqlarına vəd verdilər. Ətraf xanlara məktub göndərib, ittifaqa dəvət etdilər. İrəvan hakimi Məhəmməd xan Ziyadlı-Qacara, Naxçıvan hakimi Abbasqulu xan Kəngərliyə, Meşkin hakimi Ata xan Şahsevənə, Marağa hakimi Əhməd xan Müqəddəmə çaparlar göndərib Təbrizə çağırdılar. Məhəmmədqulu xan, Cəfərqulu xan və Sadıq xan Təbrizə yollandılar. Məhəmmədqulu xan yolda Urmiyadan məktub aldı. Ona bildirirdilər ki, qardaşıoğlu Hüseynqulu xan üsyan qaldırıb. Xanəmir bəy Xələci daha səhih xəbər üçün Urmiyaya göndərdi. Sonra ürəyi sakitləşməyib, özü Urmiyaya qayıtmalı oldu. Əsgər xanı nümayəndəsi kimi Təbrizdə saxladı.

Fətəli şah Qovanlı-Qacarın yürüşü ilə Urmiya və Xoy xanlıqlarının müstəqilliklərinə son qoyuldu.

## Urmiya və Təbriz xanlığı

Nadir şah Qırxlı-Avşarın ölümündən sonra Təbrizə şəhərinə Əmiraslan xan Qırxlı-Avşar, sonra Mehdi xan Qasımlı-Avşar başçılıq etmişdi. Təbriz camaatı üsyan qaldırıb Mehdi xan Qasımlını öldürmüşdü. Onun qardaşı, Urmiya hakimi Nağı xan intiqam məqsədilə güclü bir ordu ilə Təbrizə hücum etmişdi.

Nağı xan qardaşlarının ölüm xəbərini eşidib, üç gün əza saxlayandan sonra naibi Fətəli xan Araşlı-Avşarla məsləhətləşib, qoşun topladı. Qardaşlarının qisasını almağa hazırlaşdı. Fətəli xanla bərabər Avşar elindən bir qoşun yığdı. Xoyun hakimi Şahbaz xan Dünbilidən, Zur şəhərinin Qaraçoran mahalında əyləşən Azad xan Əfqandan yardım istədi. Onlar bir yerə toplaşıb, hazırlaşmağa başladılar. Hazırlıq bitəndən sonra Sulduz yolu ilə Təbrizə yollandılar. Təbriz əhli bu xəbəri eşidib, təşvişə düşdü. Ətrafdakılar da qorxusundan əhli-əyalının əlindən tutub, biçin vaxtı olmasına baxmayaraq şəhərə daşındılar.

Nağı xanın tabeliyindəki əfqanlar yolda kimə rastlaşırdılar, ya öldürür, ya da əsir götürürdülər. Belə-belə irəliləyib, Təbrizi mühasirə etdilər. Təbrizlilər qala qapılarını bağlayıb, içəridən müdafiəyə hazırlaşdılar.

40 günlük mühasirədən sonra Təbrizin başçıları çaparlar vasitəsilə Qaradağın hakimi Məhəmmədkazım xandan, Qarabağın hakimi Pənahəli xan Cavanşirdən, Muğanın hakimi Əhməd xan Şahsevəndən, Ərdəbilin hakimi Rzaqulu xan Şahsevəndən, Sərabın hakimi Əli xan Şəqaqidən yardım istədilər. Onlar 14 minlik qoşunla Təbriz əhalisinə köməyə gəldilər. Bu hücumdan Nağı xanın qoşunları xəbərsiz idilər. Onların bir ağaclığına çatanda birləşmiş qoşunun gəlişini duydular. Avşarlar səngər qurub müdafiyəyə hazırlaşdılar. Nağı xan və Fətəli xan cövşən-cübbələrini geyinib qoşunun önündə durdular. Avşarlar və müttəfiqləri iki qoşunun arasında qaldılar. Təbrizlilər qaladan çıxıb avşarların üstünə hücuma keçdilər. Avşarlar hər iki tərəfi yenib meydandan qovdular. Təbriz əhalisi qayıdıb

qalada daldalandılar. Sonda mühasirədən bezarıyıb Nağı xana təslim oldular.

Nağı xan uğurla Təbrizə daxil olub, üç gün qardaşlarına yas tutdu. Onların qatillərini tutub, cəzalandırdı. Qardaşlarının cəsədlərini Urmiyaya köçürdü. Əhalinin istəyi ilə Azad xan Əfqanı Təbrizə hakim təyin edib, Urmiyaya qayıtdı.

Azad xan Əfqan üç ay Nağı xan tərəfindən Təbrizi idarə etdi. Yığılan vergini mütamadi olaraq Urmiyaya göndərirdi. Bu müddətdə əfqanlardan və azərbaycanlılardan ibarət 7 min nəfərlik qoşun toplamışdı. Təbrizin əhalisi Nağı xanın düşmənçiliyindən qorxurdu. Bu nədənlə Azad xanı Azərbaycana müstəqil hakim olmağa tamahlandırıb, təhrik etdilər. Azad xan onlara arxalanıb, Nağı xanın əmrlərini qulaqardına vurdu. Nağı xan onu cəzalandırmaq qərarına gəldi. Xoydan, Salmasdan və ətrafdan topladığı 20 min nəfərlik qoşunla Təbrizə hücuma keçdi. Azad xan Yusif xan və Ata Əbdali ilə məsləhətləşib, Naxçıvana qaçdı. Nağı xanın önündə acizliyini duymuşdu. Avşar qoşunu və müttəfiqi Xoy hakimi Şahbaz xan Dünbili ilə Azad xanı təqibə başladı. Araz çayının kənarında iki qoşun üzləşdi. Əfqanlar qısıldıqlarını görüb, ölüb-öldürməyə qalxdılar. Şəhamət və şücaətlərini ortalığa qoyub, Nağı xana qalib gəldilər. Nağı xan Urmiyaya qaçdı. Qalaya daxil olub, möhkəmlənməyə başladı. Azad xan öncə Xoy qalasını alıb, Urmiyaya hərəkət etdi.

Sayınqala avşarlarından olan Səfiyar xan Gündüzlü də ona qoşuldu. Gündüzlülərlə Nağı xanın ədavəti vardı. Onlar yığılıb, məsləhətləşdilər ki, Səfiyar xan guya kömək məqsədilə Urmiyaya gedib, Nağı xanın qılığına girsin. Dedikləri kimi etdilər. Səfiyar xan saraya gəldi. Nağı xan tərəfindən sevinclə qəbul olundu. Bir neçə gündən sonra Səfiyar xan fürsət tapıb, Nağı xanı əsir tutdu. Öncə gözlərini çıxardı. Nağı xandan narazı qalan avşarlar bu xəbərə sevindilər. Söz Azad xana çatanda qoşunu yığıb, Urmiyaya daxil oldu.

1757-ci ildə Məhəmmədhəsən xan Qovanlı-Qacar Təbriz xanlığına hücum etdi. Azad xan onun qarşısına çıxdı. Ilk döyüşdə məğlub olub Bağdada qaçdı. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Hicri qəməri 1174-cü ildə Azad xan Məhəmmədhəsən xan

tərəfindən məğlub olub, Bağdada qaçmışdı. Ordan İranda baş verən hadisələri izləyirdi».

Məhəmmədhəsən xan oğlu Ağaməhəmməd xanı Təbrizə hakim təyin edib Urmiyaya yollandı.

Məhəmmədhəsən xanın öldürülməsindən sonra Ağaməhəmməd xan çəkilib Astrabada getdi.

Fətəli xan Məhəmmədhəsən xanın ölümündən sonra dirçəldi. Təbrizə gəldi. Şəhəri aldıqdan sonra paytaxtını Urmiyadan Təbrizə köçürdü. Top-tüfəng tərtib edib, xeyli qoşun təşkil etdi. Qonşu xanlıqları təhdidə başladı. Elçi göndərib tabe olmaqlarını tələb etdi. Qaradağ hakimi Məhəmmədkazım xan Fətəli xanın elçilərinə rədd cavabı verdi. Bir neçə gündən sonra birləşmiş Urmiya, Xoy və Təbriz qoşunları Qaradağa hücum etdi. Məhəmmədkazım xan Qaradağlı böyük ordunun önündə duruş gətirməyib tabeçiliyini bildirdi.

Məhəmməd xan Əfqan Azad xanın məğlubiyyətindən sonra Şirvana qaçmışdı. Fətəli xan ona məktub yazıb, Təbrizə çağırdı. O da 500 nəfərlik qoşunla gəlib Fətəli xana qoşuldu. Ora-bura səpələnən əfqanlar yavaş-yavaş onun başına yığışdılar. Dinc dayanmayan əfqanlar Təbriz əhalisinə zülm etməyə başladılar. Xalq əfqan zülmündən Fətəli xana şikayət etdi. Fətəli xan Təbrizdə saraya yerləşməmiş, «Tağı sultan» bağında oturaq etmişdi. Hay vurub, əfqanları həmin bağın bir hissəsinə topladı. Təbrizin ağsaqqalarına, başçılarına bildirdi ki, əli silah tutan adamları yığıb, əfqanları yuxuda ikən qırsınlar. Avşarlara da Təbriz əhlinə kömək etməyi tapşırdı. Təbriz əhli və avşar camaatı birləşib, zülmkar əfqanları qırdılar.

Fətəli xan əfqanları qırıb-tökəndən sonra xoylu Şahbaz xan Dünbülünü yanına çağırdı. Qoşuna sərkərdə təyin etdi. Mirzə Məhəmmədcəfər İmanlını Urmiyadan özünə vəzir dəvət etdi. Avşar elinin böyüklərindən, Araşlı oymağının qohumlarından olan Miran bəy Mahmudlu da gəlib, onunla birləşdi. Fətəli xan onun Nağı xan Qasımlı tərəfindən alınmış əmlak və əmvalını geri qaytardı.

Kərim xan Zənd güclənib, Fətəli xanın üstünə gəldi. Təbriz əhlindən bir neçə nəfəri danışıq üçün onun yanına göndərdi. Fətəli xan elçiləri yamanlayıb, geri göndərdi. Təbrizə çəkilib, möhkəmlən-

məyə başladı. Xoya və Urmiyaya xəbər göndərib, möhkəm-lənmək-lərinə göstəriş verdi. Dərilməmiş məhsulları tələf etməyi tapşırdı.

Kərim xan öncə Marağaya hücum edib, oranı dava-dalaşsız, vuruşsuz ələ keçirdi. Qarətçi, quldur hesab etdiyi Şahsevən, Şəqaqi ellərini tənbeh edib, yola gətirdi. Özünə tabe etdi.

Kərim xan Mirzə Ələkbər Mollabaşını Fətəli xanın yanına elçi göndərdi. Tabe olmasını tələb etdi. Fətəli xan yenidən rədd cavabı verdi.

Kərim xan Zənd özü ilə top gətirmədiyindən çəkilib getdi. Fətəli xan bu mərəkədən müvəqqəti nicat tapdı.

Fətəli xan daha iki il də Azərbaycana müstəqil başçılıq etdi. Savaşa hazırlaşmağa başladı. Kərim xan Zəndlə müharibə qaçılmaz idi. Tabeliyində olduğu Qaradağdan, Qarabağdan, Naxçıvandan, Ərdəbildən 12 min nəfərlik qoşun topladı. Ətrafına 300 nəfər əfqan yığdı.

Kərim xan Zənd də boş oturmadı. Fətəli xanı özünə tabe etdirməkdən ötrü xeyli qoşun yığdı. Toplar tökdürdü. Müttəfiqlər axtardı. 1762-ci ildə Kərim xan Zənd Qarabağ hakimi Pənahəli xan Cavanşirə məktub göndərdi. Məktubda yazılırdı: «Fitnə və fəsad sahibi Fətəli xan indi bizimlə qan düşməni olmuşdur. Sizinlə də pis xasiyyətli bir düşməndir. Verdiyi sözə və içdiyi andın əksinə hərəkət etmişdir. İbrahimxəlil ağanı apararaq, sizi dərd və qüssəyə salmışdır. Hər an bir fikirdə və hər gün də bir əmirlə hərb etməkdədir. Mən də: «Ey ağıl sahibləri, sizin üçün qisas almaqda həyat vardır» ayəsinin məzmununa əsasən intiqam almağı və ədavət qılıncını qınından çəkib hərbə girişməyi qərara almışam. Buna görə cənabınızdan bir dost kimi xahiş edirəm ki, təcili surətdə durmadan və təxir etmədən, hökümünüz altında olan qalib qoşunlarınızla bizə yoldaşlıq edəsiniz; çünki, əsas məqsədim və günəş kimi işıqlı olan fikrim budur ki, həm də oğlunuzu xilas edim, həm də qardaşımın qanını alım». Pənahəli xan Kərim xanın çağırışını cavablayıb, qoşunla Təbrizə yürüş etməyə söz verdi. Bu iş üçün 3 ay hazırlıq gördü.

Tarixçilər yazırlar: «Bu zaman Kərim xan Zənd İranın bir çox məntəqəsini tutmuşdu. O, Azərbaycanı tutmaq istəyirdi. Fətəli xan onunla müharibəyə başlamalı oldu. Baş vermiş şiddətli döyüşdə Fətəli xan Əfşarın qüvvələri qələbə qazandı. Lakin böyük tələfat verdiyi üçün bu məntəqəni tutmaq istəyən ikinci bir iddiaçı Məhəmməd Həsən xan Qacarın qarşısında tab gətirə bilmədi. Məhəmməd Həsən xan Qacar Şirazda Kərim xan Zəndlə etdiyi müharibədə məğlub oldu. İndi növbə Kərim xan Zəndlə Fətəli xan Əfşara çatmışdı ki, onlar ikinci dəfə güclərini sınasınlar. Bu dəfə Kərim xan Zənd zirək tərpənib müharibəyə başlamazdan əvvəl Fətəli xan Əfşar siyasətindən narazı olan Azərbaycan xanları ilə müzakirəyə başladı. Beləliklə, 1761-ci miladi ildə Pənahəli xan onunla birləşərək Urmiyaya hücum etməyə dəvət etdi ki, həm o, Fətəli xanla döyüşdə öldürülmüş qardaşının intiqamını alsın, həm də Qarabağ xanı oğlunu azad etsin. Pənahəli xan bu dəvəti qəbul edərək və güclü bir ordu ilə Qarabağdan hərəkət etdi».

1763-cü ilin ortalarında Kərim xan yenidən Azərbaycana gəldi. Bu dəfə Kərim xan top-tüfənglə, xeyli qoşunla gəlmişdi. Fətəli xan qaladan çıxıb, öndə dayanan Kərim xanın dəstəsinə hucum etdi. Onu məğlub edib, döyüş meydanından qovdu. Başqa cəbhədə Kərim xanın sərkərdələri Şıxəli xan Zənd, Zəki xan Zənd Fətəli xana kömək edən dübililəri dağıtdılar. Şahbaz xanı əsir tutdular. 500 nəfərlik zənd dəstəsi Fətəli xanın qoşunun mərkəzinə hücum etdi. Fətəli xan Şahbaz xanın tutulmasından məyus olub, geri çəkildi. Çəkilib Urmiyaya getdi. Qalan avşarlar hələ də meydanda vuruşurdular.

Çox keçmədən güclənən Zənd qoşunları meydanda tək qalan avşarları məğlub edib döyüş meydanından qovdular.

Kərim xan on gün Təbrizin ətrafında oturaq etdi. Azərbaycanın bütün xanları, Məhəmmədkazım xan Qaradağlı, Pənahəli xan Cavanşir, Şahbaz xan və qardaşı Əhməd bəy Kərim xan Zəndin ətrafına toplandılar. Kərim xan Zənd Təbrizin hakimiyyətini Məhəmmədrza xan Mərəndiyə verdi. Məhəmmədhüseyn xan Zəndi onun məiyyətinə verib, 30 atlı ilə Təbrizə yolladı. Onlar Təbrizə

yetişcək Fətəli xanın havadarları tərəfindən həbs edildilər. Amma Təbrizin şeyxülislamı Mirzə Əsədulla törənəcək xətanı hiss edib, Fətəli xanın havadarlarını yanına çağırıb, öyüd-nəsihət verdi ki, bu işin nəticəsi yoxdur. Mən vəkildən aman alım, siz də tutulanları buraxın. Mirzə Əsədulla danışığı bitirib, Kərim xanla görüşdü. Kərim xan onları bağışladı. Fətəli xan hələ sağ idi.

Kərim xan birləşmiş qoşunlarla 9 ay müddətində Urmiyanı mühasirə etdi. Pənahəli xanın oğlu İbrahimxəlil xan zindandan qaçıb, evlərinə tələsirdi. Yolda Şıxəli xan Zəndin qoşunu ilə üzləşdi. Onlara qoşuldu. Qoşaçayın Leylanında əyləşən Fətəli xan Urmiyaya hərəkət etdi. Urmiyaya daxil olub qapıları qapadı. Darvazalara gözətçi təyin edildi. Şahməhəmməd bəy Kəhkəhli, Miran bəy Mahmudlu Torpaqqala darvazasına, Mirzə Məhəmməd bəy və Şahməhəmməd bəy Səidli-Avşar Həzaran darvazasına, Məhəmməd bəy Qarahəsənli-Avşar, Əlişeşpər bəy Bazarbaşı darvazasına, Qəhrəman bəy, Cəlil bəy Ərəbli Yurdşah darvazasına, Fətəli bəy və Qulu bəy Bəgişli Hindu darvazasına, Əlimustafa bəy Araşlı Ballı (Məşəd) darvazasına təhkim edildilər. Fətəli xan hər qala bürcünə bir top qoydurdu. Divanbəyi İbrahim xan baş sərkərdə təyin olundu.

Fətəli xan qaladan çıxıb Kərim xanın üstünə hücum çəkdi. Adamların sayına, qoşun əhlinin azlığına görə məğlub olub, qalaya çəkildi. Üç dəfə avşar və zənd qoşunu savaşdı. Qalib müəyyən olmadı. Mühasirənin uzanmağı azuqənin tükənməsinə səbəb oldu. Qışın yetişməyi Kərim xanın ordusuna da çətinlik törədirdi. Ordunun sərkərdələrindən bir neçə nəfər Fətəli xana məktub yazıb, bərk, möhkəm dayanmasını istədi. Bildirdilər ki, biz fürsət tapıb Kərim xana ziyanlıq vurub, sənə qoşulacağıq. Keşikçilər qasidləri tutdular. Yeddi nəfər sərkərdə faş olundu. Kərim xan onların boynunu vurdurub, həmin məktublarla bərabər Fətəli xana göndərdi. Fətəli xan Gürcüstanın, Şirvanın, Gəncənin hakimlərinə məktub göndərib, yardım istədi. Heç kimdən kömək gəlmədi. Onlar Kərim xandan qorxurdular.

Kərim xan da məşvərət çağırıb hər tərəfdən hücuma keçməyi qərara aldı.

Urmiyada aclıq başlanmışdı. Avşarlar birər-birər qaçıb, Kərim xana qoşulurdular. Fətəli xan avşar ağsaqqalarını çağırıb, məsləhətləşmə apardı. Bildirdi ki, mənim zəndlərin önündə dayanmağım böyüklük, mal-dövlət həvəsindən irəli gəlmir. Mən çoxillik şöhrətimizi, şərəfimizi, namımızı, namusumuzu düşünürəm. Adamlarınızın başına ağıl qoyun, dəlilik etməsinlər. Təqdir tədbirə qarşı olub. Allah nə istəsə o da olacaq!

Avşar ağsaqqaları bu sözləri eşidib, mütəssir oldular. Bildirdilər ki, sənin istəyin bizim üçün qanundur.

Fətəli xan çox düşünüb, vəziri Mirzə Məhəmmədcəfəri bir çox avşar böyükləri ilə Kərim xanın yanına göndərdi. Kərim xan sevincək oldu. Şeypur çaldırıb bayram etdi. Elçilərin qarşısına getdi. Barışığa razılıq verdi.

Fətəli xan da elçilərin ardınca Kərim xanın yanına yollandı. Kərim xan onu cavan ölmüş qardaşının əvəzinə qəbul etdi. Fətəli xanın təsliminin ikinci günü Kərim xan Urmiyaya girdi. Azad xanın bir müddət hökumətinin olduğu sarayda əyləşdi. Fətəli xanla birlikdə novruz bayramını qeyd etdilər. Avşar əmirləri onun məclisində iştirak etdilər. Kərim xan Fətəli xandan Urmiya hakimliyi alıb Rüstəm xan Mehdi xan oğlu Qasımlı-Avşara verdi. Fətəli xana isə zər xələt, qiymətli xəncər, yəhərli at bağışladı. Kərim xan Azərbaycan xanlarını və Fətəli xanı götürüb Şiraza yollandı.

Kərim xan Zənd Nəcəfqulu xan Dünbilini Təbrizə hakim təyin etdi.

Fətəli xan Araşlı-Avşarın tutulmasından sonra Təbriz xanlığını Dünbüli tayfasından olan hakimlər idarə edirdilər. Ilk müstəqil hakim Nəcəfqulu xan idi. Nəcəfqulu xan 1763-ci ildən 1783-cü ilədək Təbrizdə xanlıq etdi.

1778-ci ildə Nəzərəli xan Şahsevən Təbrizə hücuma keçmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Nəzərəli xan Təbriz zəlzələsindən istifadə edib, Təbrizə yürüş etmişdi. Nəcəfqulu xan Dünbili onun qarşısını ala bilməyəcəyini düşünüb, Xoya qaçmışdı. Xoyda qardaşıuşaqları Əhməd xan, Salman xan, Məhəmməd bəylə məsləhətləşib, Urmiya hakimi İmamqulu xana yardım məqsədilə

müraciət etmişdi. İmamqulu xan bir şərtlə ona kömək etməyə razılaşmışdı ki, Təbriz xanlığı ondan asılı olacaq. Nəcəfqulu xan qohumları ilə məsləhətləşib, həmin şərtlə razılaşmışdı. İmamqulu xan ağır qoşunla Təbrizin müdafiəsinə gəlmişdi. Təbrizin Təsuc şəhərində Dünbili xanları İmamqulu xanı qarşılayıb, gəlişinə qurbanlar kəsdilər. Sərabın hakimi Əli sultan Şəqaqi Nəzərəli xanın müttəfəqi olduğundan, ilk hücumu Səraba etdilər. Əli sultan Şəqaqi müdafiə etməyə gücü olmadığından Xalxala qaçdı. Nəcəfqulu xan onu izləmək istədi. İmamqulu xan məsləhət görməyib, birlikdə Təbrizə qayıtdılar. Nəzərəli xan da Təbrizi tərk edib, Ərdəbilə çəkilmişdi. İmamqulu xan Təbrizdə 8 gün qalandan sonra Urmiyaya qayıtdı».

İmamqulu xan 1783-cü ildə Təbrizi ələ keçirdikdən sonra Qubalı Fətəli xana məktubla müraciət edərək, onu Qarabağ hakimi İbrahimxəlil xanın üzərinə getməyə çağırmışdı.

Təbriz hakimi Nəcəfqulu xan Dünbili İmamqulu xanın asılılığından çıxmaq istəyirdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüara yazır: «Hicri qəməri 1196-cı ildə (1783-cü ildə) novruz bayramında İmamqulu xan Avşar elinin başçılarını saraya toplayıb, hər birinə layiq olan xələt və ənamlar payladı. O cümlədən maliyyə vəkili Mirzə Əbülhəsən İmanlıya, Sayınqala avşarlarının başçısı Mahmud xana, Barandust tayfasının Xələc tayfasının ağsaqqalı Xanəmir bəyə, Araşlı oymağının ağsaqqaları Allahyar bəyə, Hüseynqulu sultana mənsəblər verdi. Ölmüş Sərməst bəyin əvəzinə Əlirza sultan Qasımlını eşikağasıbaşı təyin etdi. Onun bacısını alandan sonra, özünə də xan ünvanı da verdi.

Sonra Azərbaycan əyalətinin hər vilayətinə vergi toplamaq üçün avşar elindən bir nəfəri məmur etdi. Təbriz hakimi Nəcəfqulu xanın yanına Xanəmir bəy Xələci göndərdi. Ona göndərdiyi məktubda yazırdı: «İbrahimxəlil xan Cavanşir, Nəzərəli xan Şahsevən və Əli xan Şəqaqi cəsarət edib, Təbriz qalasına yürüş etdiklərindən, o bölgənin rəiyyətlərinə küllü halda xəsarət dəymişdi. Avşar qoşununun yardımı ilə kürdlər onlara öz zərbi-şəstlərini göstərdilər. Amma mən müxtəlif səbəblərə görə, onların ardınca getməyi məsləhət görmədim. Həqiqətən də onlar sona qədər cəzalarını almadılar. İndi

mənim məqsədim var ki, birlikdə bu iç düşmənləri darmadağın edək. Sonra isə çöldəki düşmənlərin bəlasını dəf edərik. Qonşuluq borcu budur ki, sən də bir kamil qoşun tərtib edəsən. Bu məqsədlərə nail olmaq üçün gərəkdir ki, bir miqdar məvacib də sən göndərəsən. Az vaxt ərzində Urmiyadan hərəkət edib, Əhməd xan Dünbilini də götürüb, məqsədimizə çatacağıq».

Xanəmir bəy Xələc Təbrizə yetişib, məktubu Nəcəfqulu xana verdi. Nəcəfqulu xanın qırımından başa düşdü ki, vergi vermək fikri yoxdur. Yerləşdiyi Mirzə Zaman xanın evindən çıxıb, sağollaşmadan Urmiyaya qayıtdı. Əhvalatı İmamqulu xana bildirdi. İmamqulu xan çox narahat olub, Urmiya avşarlarından, Sayınqala avşarlarından, Marağa müqəddəmlərindən, Zərza, Mükri və Baban əşirətlərindən 8 min nəfərlik qoşun hazırladı. Qoşunu hazırlamaqda məqsədi öncə Təbriz hakimi Nəcəfqulunu tənbeh etmək, sonra Əlimurad xan Zəndə yaxşı bir qulaqburması vermək idi. Qoşunu öncə topxana ilə Təbrizə göndərib, özü də ardınca getdi. Nəcəfqulu xan bu yürüşü eşidib, Təbrizə çəkildi və müdafiə ilə məşğul olmağa başladı.

İmamqulu xan sərkərdələrinə göstəriş vermişdi ki, Nəcəfqulu xan Dünbiliyə bildirsinlər ki, biz Nəzərəli xan Şahsevənlə və Əli xan Şəqaqi ilə savaşa gedirik, sən də silah-sursatla yardım et. Nəcəfqulu xan onların hiyləsini başa düşüb, elçiləri rədd etdi.

İmamqulu xan cəryan edən hadisələri izləyib, Təbrizin Şənb-Qazan adlı yerində oturaq etdi. Ordan Təbriz qalasını mühasirəyə aldı. Nəcəfqulu xanın xoşluqla təslim olacağını düşünmüşdü. O, isə şəhər darvazalarını qapayıb, toplara atəş əmrini verdi. İmamqulu xanın topçuları da Təbrizi vurmağa başladılar. Az sonra sülh bağlamağa həvəs göstərsələr də, nəticə alınmadı. İmamqulu xan 6 ay Təbrizi mühasirədə saxladı. Şəhər əhli bu mühasirədən çox əziyyət, İmamqulu xanın qoşunu da soyuqdan əzab çəkirdi. İmamqulu xan mühasirənin uzandığını görüb, Urmiyaya qayıtmaq əmrini verdi.

Nəcəfqulu xan Dünbili mühasirənin götürülməsindən sonra oğlu Xudadad xanı yardım üçün Əlimurad xan Zəndin yanına göndərdi. Əlimurad xan ona yardım etməyə söz verdi.

Bir müddət sonra İmamqulu xan yenidən Əlimurad xan Zəndin üstünə yürüş etmək fikrinə düşdü. Təbriz hakimi Nəcəfqulu xan Dünbili bu xəbəri eşidib, İmamqulu xanın yanına elçi göndərdi ki, fikrindən daşın. İmamqulu xanın qaynatası Əhməd xan Dünbili də ona öyüd-nəsihət verdi ki, bu fikirdən əl çək. İmamqulu xan onlara müsbət cavab vermədi.

Nəcəfqulu xan İmamqulu xandan əlini üzüb, qardaşıoğlu Əhməd xan Dünbilinin yanına getdi. Onu öz tərəfinə çəkdi.

Urmiya xanlığının inkişafını Xoy xanlığı üçün təhlükəli hesab edən Əhməd xan Dünbili Təbriz xanı birlikdə İmamqulu xana qarşı çıxdı. Onlar birləşib, Əlimurad xanı Azərbaycana dəvət etmək fikrinə düşdülər. Azərbaycan xanlarını da öz tərəflərinə çəkmək istədilər. Amma İmamqulu xandan incik düşən Marağa hakimi Əhməd xan Müqəddəmdən başqa heç kimə gümanları gəlmədi.

İmamqulu xanın şöhrətini eşidən Əlimurad xan Zənd Əhməd xan və Nəcəfqulu xan Dünbililərə etina etmədi. Yığışıb məşvərət edən Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı Azərbaycan qoşununa sərkərdə təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da, versinlər. Əlimurad xan Əmiraslan xana bir fərman da yazdı ki, Dünbili qoşununu da dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Əmiraslan xan əməliyyata başlayır. Əlimurad xan Zəndin yardımçı təyin etdiyi xanları görüş yerinə çağırdı. Əhməd xan Dünbili Salmas bölgəsində Əmiraslan xana qoşuldu.

Göytəpə çəmənində oturaq edən İmamqulu xan Əlirza xan eşikağasıbaşının nəzarətində eyş-işrətlə məşğul idi. Nağı bəy Avşar ona xəbər çatdırdı ki, Əlimurad xan Zənd Əmiraslan xanı sənin üstünə göndərib. Təbriz hakimi Nəcəfqulu xan və Xoy hakimi Əhməd xan da onunla birləşib. Tezliklə Salmasdan Quşçu gədiyinə keçəcəklər. İmamqulu xan divanbəyi İbrahim xan Araşlını bir dəstə ilə ön cəbhəyə göndərdi. Arxasınca Qərəni ağa Balbasla kürdləri yolladı. Ardlarınca özü də getdi. Əlibəyli çəmənində qoşununu gözdən keçirtdi. Tərtibatın tamam-kamal olduğunu görüb, Qoşuna yürüş əmrini verdi. Xəmsə hakimi Əli xan Zayirli-Avşar ilə Əmiraslan

xanın qarşısına getdi. Əmiraslan xanın qoşunu ilə İmamqulu xanın dəstəsi Quşçu gədiyində qarşılaşdı.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib, İmamqulu xanın qoşununa hücum etdilər. İmamqulu xan öz qoşunun yetişməsini gözləməyib, Balbas və Mənqur qoşunu ilə döyüşə başladı. Özü qoşunun önündə dayandı. İlk döyüşdə düşmən qoşunun avanqardını dağıtdı.

İmamqulu xan güclənən düşmən qoşunu ilə savaşda ağır yaralandı, əmiraxur Əsgər xan Əbdülməliki onu çiyninə alıb, döyüş meydanından çıxartdı.

İmamqulu xandan sonra Urmiya hakimi olan Məhəmmədqulu xan Təbriz xanlığı ilə dostluq münasibətləri qurmuşdu.

Atasının ölümündən sonra taxta çıxan Təbriz hakimi Xudadad xan Dünbili xalqa zülm etməyə başlamışdı. Xalqın narazılığını eşidən Sərab hakimi Sadıq xan Şəqaqi Təbrizə qoşun çəkdi. Xalqın nümayəndəsi Ağa Əliməhəmməd tacirbaşı xeyli sovqatla yardım üçün Məhəmmədqulu xanın yanına yollandı. Məhəmmədqulu xan təbrizlilərə kömək etməyə söz verdi. İbrahim xan Araşlını 2 min nəfərlik qoşunla Təbrizə göndərdi. Təsuc yaxınlığında Əhməd xan Dünbili də ona qoşuldu. Xəbəri eşidən Sadıq xan qorxuya düşüb, Səraba qayıtdı. Xudadad xan gələnlərin pişvazına çıxıb, bir neçə gün qonaq saxladı.

Xoy hakimi Hüseynqulu xan Dünbili Urmiya xanlığının eşikağası, asi Əsgər xan Əbdülməlikinin öyrətməsi nəticəsində Məhəmmədqulu xanın üstünə hücum etmişdi.

Məhəmmədqulu xan onların hərəkətini eşidib, qoşunla qarşılamağa yollandı. Ənzəl mahalının Qarabağ məntəqəsində oturaq etdi. Qoşununun sayı az olduğundan irəli getməyə cəsarət etmədi. Təbriz hakimi Xudadad xandan yardım istədi. Xudadad xan ona məktubla bildirdi ki, savaşın baisi Mirzə Əbülhəsən bəy Əbdülməliki-Avşarı öldürsən, bu iş öz-özünə əncam tapacaq. Məhəmmədqulu

xan məktubu alan kimi cəlladı Saleh Xələc-Baranduzu Mirzə Əbülhəsən bəyi öldürməyə göndərdi. Saleh Baranduz mahalının Sarıbəyli adlı yurdunda Mirzə Əbülhəsən bəyi boğub, öldürdü.

Avşar elinin ağsaqqaları yığılıb, Əsgər xana məktub yazdılar ki, Məhəmmədqulu xan ləyaqət hissini itirdiyindən, onları eşitmir. Biz sənin haqq olduğunu bilirik. Sən savaşa başla, biz sənə yardım edəcəyik. Əsgər xan məktubu Hüseynqulu xana göstərib hərəkətə gəlməyi xahiş etdi.

Təbriz hakimi Xudadad xan Mirzə Əbülhəsən bəyin öldürülməsini eşidib, şadlandı. Qoşun yığıb, Urmiyaya tərəf yürüşə başladı. Salmasın Xandam karvansarasına yetişəndə Cəfərqulu xanın qoşununun ora cəmləşdiyi gördü. Ordan Məhəmmədqulu xana qasid göndərib bildirdi ki, Cəfərqulu xanla Əsgər xan yolu bağlayıb. Məhəmmədqulu xan başqa yolla onu qarşılamağa 1000 atlı göndərdi. Atlıların başında Xanəmir bəy Xələc, Məhəmməd bəy və Hüseyn bəy Qarahəsənlilər, Mirzə xan Xələc, Hümmət bəy Xələc, Məhəmmədhəsən bəy Mahmudlu, Baba bəy Ərəbli və Sam bəy Qırxlı dururdu. Onlar yola düşəndən sonra özü də Ağziyarət ətrafınadək onları izlədi. Ağziyarət ətrafında Cəfərqulu xan Dünbilinin qoşunu onların önünü kəsdi. Məhzəmmədqulu xan onların gəlişinə çaşdı. Savaş etməyə tam gücü yox idi. Əlacsız qalıb, savaş əmrini verdi. Qoşunun qarovul hissəsində dayanan Ağacan bəy Kuhgiluyəli özünü Dünbili dəstəsinə vurdu. Qəflətən atının ayağı sürüşdü. Yerə yıxıldı. Heydəranlı tayfasının döyüşçüləri o dəqiqə onu yaralalayıb, heydən saldılar. Sonra başını kəsdilər.

Avşar elinin başçıları Əsgər xanla öncədən razılığa gəldiyindən bayraqları endirib, geri çəkilməyə başladılar. Məhəmmədqulu xan işin dolaşıq getdiyini görüb, Urmiya gölünün kənarı ilə Ənzəl mahalına qaçdı. Bir gün orda dincəldikdən sonra Xudadad xanla birləşib, Urmiyaya getdi. Urmiyanın girəcəyində Rüstəm bəy Qasımlını məmur etdi ki, Xudadad xanı qonaq saxlasın. Sonra ona gizlincə əmr verdi ki, Xudadad xanı öldürsün. O, Cəfərqulu xanın əmisioğlu idi. Bu fikri başa düşən Əfrasiyab sultan Zərza Kəlbəli sultan Avşar vasitəsilə onu duyuq saldı. Bildirdi ki, qalaya girməsin.

Qonaqlıqda iştirak etməyəcəyinin üzrünü istəyib sərvaxt olsun. Xudadad xanın adamları 5 gün Urmiyanın «Nəzər» bağında dincəldikdən sonra Təbrizə döndülər. Məhəmmədqulu xan oğlu Xudaqulu xanı, Rəhim xan Qasımlını onlara qoşub Təbrizədək ötürməyi tapşırdı. Onlar Təbriz qoşunununa qoşulub Sulduz-Qoşaçay yolu ilə Təbrizə yol aldılar.

Əsgər xan onların Təbrizə döndüyünü eşidib, Sadıq xan Şəqaqiyə məktub yolladı ki, Xudadad xanı Tufarqan yolunda qarşılayıb darmadağın etsin. Sadıq xan məktubu alan kimi pusquya dayandı. Gələnlərin önündə Xudaqulu xanı, Rəhim xanı gördüyündən qolları boşaldı. Avşarlara basqın etməyib qonaq apardı. Qonaqlıqdan sonra onları Təbrizə yola saldı. Yolda Xudadad xanla qardaşları İbrahim xan, Cahangir xan, Məhəmməd xan və Əli xanla mübahisə etdi. Aralarında küdurət düşüb ədavətə başladılar. Qardaşlar yığışıb Sadıq xan Şəqaqiyə məktub yazdılar ki, əgər sən Təbrizə gəlmək istəsən, biz səni qarşılayıb yardım edərik. Sadıq xan Təbrizə hücum etdi. Səidabad ətrafında Dünbili və Şəqaqi qoşunları üzləşdilər. Xudadad xanın qardaşları Sadıq xanın tərəfinə keçdirlər. Dünbili qoşunu pərişan olub qaçmağa üz qoydu. Xəlil bəy Şəqaqi Xudadad xanı öldürdü.

Sadıq xan Şəqaqi Təbrizə daxil olub hökuməti ələ aldı. Məhəmmədqulu xanın oğlu Xudaqulu xana, sərkərdələri Rəhim xana, Məhəmmədhəsən bəyə hörmətlə yanaşdı. Xudaqulu xan Məhəmmədhəsən bəyi gecəylə Urmiyaya göndərdi ki, atasına xəbər aparsın. Məhəmmədhəsən bəy bu xəbəri öncə qohumu Əsgər xana çatdırdı. Sonra Urmiyaya gedib Məhəmmədqulu xana məruzə etdi. Məhəmmədqulu xan bu xəbərə sevindi.

İranda güclənən Ağaməhəmməd xan Qovanlı-Qacar (1795-1797) birər-birər müstəqil xanlıqları məğlub edib, bir bayraq ətrafında birləşdirirdi. O, 1792-ci ildə (1206 hicri qəməri) Azərbaycana hücum etdi. Sərab xanlığının (hakimi Sadıq xan Şəqaqi məğlub olub, Qarabağa, İbrahimxəlil xanın yanına qaçdı. İbrahimxəlil xan Ağaməhəmməd xanın qüdrətindən qorxsa da, ona itaət etmədi.

Ağaməhəmməd şah Qarabağda öldürüləndən sonra Məhəmmədqulu xan müstəqil olmaq istəyən xanlara, Sadıq xan Şəqaqiyə və Cəfərqulu xan Dünbiliyə qoşuldu.

Ağaməhəmməd şahdan sonra müstəqillik hərəkatı Xoyda başlandı. Hüseynqulu xan Dünbili ona qasidi Süleyman bəy vasitəsilə Urmiyaya, Məhəmmədqulu xana xəbər göndərdi ki, fəallaşsın. Məhəmmədqulu xan Avşar elinin ağsaqqallarını bir yerə toplayıb, məsləhət istədi. Avşar başçıları ona məsləhət verdilər ki, özü həmin xanların yanına gedib, işi dərindən öyrənsin. Sadıq xan Şəqaqi də qoşunu ilə Xoya gəldi. Hüseynqulu xan onu təntənəli qəbul etdi.

Məhəmmədqulu xanın dəstəsi «Dağbağı»nda yerləşdi. Hüseynqulu xan, Cəfərqulu xan və Sadıq xan hamısı bir ağızdan Məhəmmədqulu xanı özlərinə rəhbər seçdilər. Onun sözündən çıxmayacaqlarına vəd verdilər. Ətraf xanlara məktub göndərib, ittifaqa dəvət etdilər. İrəvan hakimi Məhəmməd xan Ziyadlı-Qacara, Naxçıvan hakimi Abbasqulu xan Kəngərliyə, Meşkin hakimi Ata xan Şahsevənə, Marağa hakimi Əhməd xan Müqəddəmə çaparlar göndərib, Təbrizə çağırdılar. Məhəmmədqulu xan, Cəfərqulu xan və Sadıq xan Təbrizə yollandılar. Məhəmmədqulu xan yolda Urmiyadan məktub aldı. Ona bildirirdilər ki, qardaşıoğlu Hüseynqulu xan üsyan qaldırıb. Xanəmir bəy Xələci daha səhih xəbər üçün Urmiyaya göndərdi. Sonra ürəyi sakitləşməyib, özü Urmiyaya qayıtmalı oldu. Əsgər xanı nümayəndəsi kimi Təbrizdə saxladı.

Fətəli şah Qovanlı-Qacarın yürüşü ilə Urmiya və Təbriz xanlıqlarının müstəqilliklərinə son qoyuldu.

## Urmiya və Marağa xanlığı

Marağa xanlığına Qarabağın Otuziki elinin tərkibindən çıxıb müstəqil elə çevrilən Müqəddəm tayfasından çıxan hakimlər başçılıq edirdilər.

Marağa hakimi Əhməd xan Müqəddəm Urmiya hakimi İmamqulu xan Qasımlı-Avşar ilə dostluq münasibətləri qurmuşdu. İmamqulu xan qonşu xanları cəzalandırmaq istəyəndə Marağa qoşunundan istifadə edirdi.

Nəcəfqulu xan Dünbili İmamqulu xanın asılılığından çıxmaq istəyirdi. İmamqulu xan çox narahat olub, Urmiya avşarlarından, Sayınqala avşarlarından, Marağa müqəddəmlərindən, Zərza, Mükri və Baban əşirətlərindən 8 min nəfərlik qoşun hazırladı. Qoşunu hazırlamaqda məqsədi öncə Təbriz hakimi Nəcəfqulunu tənbeh etmək, sonra Əlimurad xan Zəndə yaxşı bir qulaqburması vermək idi. Qoşunu öncə topxana ilə Təbrizə göndərib, özü də ardınca getdi. Nəcəfqulu xan bu yürüşü eşidib, Təbrizə çəkildi və müdafiə ilə məşğul olmağa başladı.

Əhməd xan Urmiyanın müttəfiqi olduğundan bir çox qonşu xanların düşmənçiliyini üstünə çəkmişdi.

Öncə Təbriz hakiminə yardım edən Nəcəfqulu xan Şahsevən və Hüseynqulu sultan Şəqaqi Əli xan Şəqaqidən üz döndərib, İmamqulu xan Qasımlı-Avşara qoşuldular. Sərab hakimi Əli xan Şəqaqi onların dönüklüyünü görüb, Nəzərəli xan Şahsevəndən yardım istədi. Nəzərəli xan Ərdəbildən çıxıb, yardım üçün Səraba tələsdi. Əli xan Şəqaqiyə qoşulub, dönük başçıların, Nəcəfqulu xan Şahsevənin və Hüseynqulu sultan Şəqaqinin üstünə getdilər. Sərabın ətrafında qarşılaşıb, döyüşdülər. Nəzərəli xan bu savaşda qalib gəldi. Hüseynqulu sultan Marağaya tərəf qaçdı. Nəzərəli xan onu izləməyə başladı. Marağa qalasını mühasirə etdi. Marağanın hakimi Əhməd xan Müqəddəm İmamqulu xanın yanında idi. Nəzərəli xan 20 gün Marağanı mühasirədə saxladı. Uğur qazanmayacağını görüb, ətraf kəndləri qarət edib Ərdəbilə döndü.

Əhməd xan İmamqulu xanla yollarını ayırmaq fikrinə düşdü. Fikirləşdi ki, başı cəncəldən qurtaracaq. Daha betərinə ürcah oldu. Tezliklə Dünbili xanlarının təsiri altına düşdü.

Urmiya xanlığının inkişafını Xoy xanlığı üçün təhlükəli hesab edən Əhməd xan Dünbili Təbriz xanı ilə birlikdə İmamqulu xana qarşı çıxdı. Onlar birləşib, Əlimurad xanı Azərbaycana dəvət etmək fikrinə düşdülər. Azərbaycan xanlarını da öz tərəflərinə çəkmək istədilər. Amma İmamqulu xandan incik düşən Marağa hakimi Əhməd xan Müqəddəmdən başqa heç kimə gümanları gəlmədi.

Əlimurad xan Zənd Əhməd xan və Nəcəfqulu xan Dünbililərə etina etmədi. Yığışıb məşvərət edən Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı Azərbaycan qoşununa sərkərdə təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da, versinlər. Əlimurad xan Əmiraslan xana bir fərman da yazdı ki, Dünbili qoşununu da dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Əmiraslan xan əməliyyata başlayır. Əlimurad xan Zəndin yardımçı təyin etdiyi xanları görüş yerinə çağırdı.Əhməd xan Əmiraslan xan Araşlı-Avşara qoşuldu.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib İmamqulu xanın qoşununa hücum etdilər. İmamqulu xan öz qoşunun yetişməsini gözləməyib, Balbas və Mənqur qoşunu ilə döyüşə başladı. Özü qoşunun önündə dayandı. İlk döyüşdə düşmən qoşunun avanqardını dağıtdı.

İmamqulu xan güclənən düşmən qoşunu ilə savaşda ağır yaralandı, əmiraxur Əsgər xan Əbdülməliki onu çiyninə alıb, döyüş meydanından çıxartdı. Urmiyanın Rzaqulu xan darvazasına yetişəndə böyük sərkərdə can verdi.

Qardaşı Rzaqulu xandan sonra Urmiya taxtına əyləşən Məhəmmədqulu xan Marağa hakimi Əhməd xan Müqəddəmin yanına elçi göndərib bac-xərac istədi. Əhməd xan bac verməkdən boyun qaçırdı. Məhəmmədqulu xan Təbrizə, sərkərdəsi İbrahim xan divanbəyinə məktub yazıb, Marağaya yollanmasını istədi. İbrahim xan Marağaya hərəkət edib, Göytəpə çəmənliyində oturaq etdi. Sovucbulağın hakimi Budaq xan Mükriyə, Balbas tayfasınə, Üşnəviyyə hakimi Nuh bəy Zərzaya, Mirzə ağa Şükuftiyə əmr etdi ki, qoşun toplayıb, göstərilən yerə gəlsinlər.

Əhməd xan Müqəddəm Marağadan çıxıb İbrahim xanın üstünə gəldi. Yolda qasidlər ona xəbər verdilər ki, İbrahim xan Araşlı Tufarqan yolu ilə Marağanı tutmaq istəyir. Əhməd xan Müqəddəm yoldan qayıdıb, Marağa qalasını möhkəmlətdi. Sərabın

hakimi Sadıq xan Şəqaqidən yardım etməsini rica etdi. Sadıq xan qoşun çəkib Marağaya gəldi. Yolun İbrahim xan tərəfindən kəsildiyini görüb, Xorxor adlı kəndin yanındakı qarğılıqda oturaq etdi. Ona bildirdilər ki, balbaslar Marağanın ətraf kəndlərini çapıb-talayıb, həmin qarğılıqda istirahət edirlər. Qəflətən onların başının üstünü alıb, qılıncdan keçirdilər. Sadıq xan qənimətləri ələ keçirib, Əhməd xanı unudub Səraba döndü.

Məhəmmədqulu xan Sulduz mahalında əyləşib, hadisələri izləyirdi. Balbasların tar-mar olduğunu eşidib, İbrahim xana məktub göndərdi ki, Əhməd xandan amansız intiqam alsın. İbrahim xan hər tərəfdən Marağaya hücum əmrini verdi. Əhməd xan işin pisləşdiyini duyub, elçilər vastəsilə Məhəmmədqulu xandan aman istədi. Ilbəil bac verməyi öhdəsinə götürdü. Məhəmmədqulu xan Əhməd xanla sülh müqaviləsi imzalayıb İbrahim xanı geri çağırdı.

1805-ci ildə Abbas mirzə Qovanlı-Qacar Təbrizdə Hüseynqulu xana göstəriş verdi ki, Marağa hakimi Əhməd xan Müqəddəmi də götürüb, üsyan etmiş Zərza, Şimiznan, Kəlhor, Balbas əşirətlərini yatırsınlar. Hüseynqulu xan Təbrizdən Marağaya gəldi. Fərmanı Əhməd xana təqdim etdi. Qərarlaşıb, Sulduz çayının yaxasında görüş yeri seçdilər. Hüseynqulu xan avşarları toplamaq üçün Urmiyaya gəldi.

Xəbəri eşidən Balbas tayfası digər tayfaları duyuq saldı. Onlar da qərarlaşdılar ki, Laican ətrafında Avşar və Müqəddəm ellərini qarşılasınlar.

Avşar və Müqəddəm qoşunu görüş yerindən tərpənib, üsyançıların üstünə getdi. Laicanda qarşılaşdılar. Əhməd xan Müqəddəm topları cəbhənin cinahlarına düzdü. Hüseynqulu xan qoşunun mərkəzində dayandı. Toplar atəş açdı. Kürd əşirətləri dağıldılar. Avşar və müqəddəmlər hücum edib, üsyançıları qırıb-tökməyə başladılar. Sağ qalanlar qaçdılar. Qoşun əhli arxayınlaşıb, dincəlməyə başladı. Elə bu vaxt Balbas tayfasının rəisləri Mömənd ağa Pİran, Həmzə ağa Mənqur, Məməş ağa, İbrahim sultan gizləndikləri yerdən çıxıb, hücuma keçirlər. Avşar və Müqəddəm ellərinə tələfat verməyə başladılar. Sayınqala hakimi Mahmud xan Qasımlı özünə sipər

tutub, sıyırmaqılınc Balbas rəislərinin üstünə cumdu. Rəislər onu görüb, karıxdılar. Müqəddəm qoşununun sərkərdələrindən Qasım bəy Mahmud xana dəstək verdi. Bu iki qəhrəman, şücaətli sərkərdə çiyin-çiyinə verib, balbasları qırıb çatdılar. Qəndil dağı balbasların qanına bələnmişdi. Birləşmiş qoşuna 6 min at qənimət qalmışdı. Onları Fətəli şah Qacara göndərdilər.

## Urmiya və Sərab xanlığı

Sərab xanlığına Şəqaqi elinin Şatıranlı oymağından çıxan feodallar başçılıq edirdilər. Öncə Əli xan Sərab xanlığına başçılıq etmişdi. Əli xan Şəqaqi Urmiya xanlığı ilə Təbriz xanlığı üstündə çəkişirdi. Hər iki tərəf öz təsiri qorumaq istəyirdi.

1780-ci ildə Nəzərəli xan Şahsevən Əli xan Şəqaqi ilə bərabər Təbrizə hücuma keçmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Nəzərəli xan Təbriz zəlzələsindən istifadə edib, Təbrizə yürüş etmişdi. Nəcəfqulu xan Dünbili onun qarşısını ala bilməyəcəyini düşünüb, Xoya qaçmışdı. Xoyda qardaşıuşaqları Əhməd xan, Salman xan, Məhəmməd bəylə məsləhətləşib, Urmiya hakimi İmamqulu xana yardım məqsədilə müraciət etmişdi. İmamqulu xan bir şərtlə ona kömək etməyə razılaşmışdı ki, Təbriz xanlığı ondan asılı olacaq. Nəcəfqulu xan qohumları ilə məsləhətləşib, həmin şərtlə razılaşmışdı. İmamqulu xan ağır qoşunla Təbrizin müdafiəsinə gəlmişdi. Təbrizin Təsuc şəhərində Dünbili xanları İmamqulu xanı qarşılayıb, gəlişinə qurbanlar kəsdilər. Sərabın hakimi Əli sultan Şəqaqi Nəzərəli xanın müttəfəqi olduğundan, ilk hücumu Səraba etdilər. Əli sultan Şəqaqi müdafiə etməyə gücü olmadığından Xalxala qaçdı. Nəcəfqulu xan onu izləmək istədi. İmamqulu xan məsləhət görməyib, birlikdə Təbrizə qayıtdılar. Nəzərəli xan da Təbrizi tərk edib, Ərdəbilə çəkilmişdi. İmamqulu xan Təbrizdə 8 gün qalandan sonra Urmiyaya qayıtdı».

İmamqulu xan Qasımlı-Avşar Əli xan Şəqaqini zəif salmaq üçün onun sərkərdələrini, dayaqlarını pulla ələ alır, şirnikdirib özünə çəkirdi.

Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, öncə Təbriz hakiminə yardım edən Nəcəfqulu xan Şahsevən və Hüseynqulu sultan Şəqaqi Əli xan Şəqaqidən üz döndərib, İmamqulu xan Qasımlı-Avşara qoşuldular. Sərab hakimi Əli xan Şəqaqi onların dönüklüyünü görüb, Nəzərəli xan Şahsevəndən yardım istədi. Nəzərəli xan Ərdəbildən çıxıb, yardım üçün Səraba tələsdi. Əli xan Şəqaqiyə qoşulub, dönük başçıların, Nəcəfqulu xan Şahsevənin və Hüseynqulu sultan Şəqaqinin üstünə getdilər. Sərabın ətrafında qarşılaşıb, döyüşdülər. Nəzərəli xan bu savaşda qalib gəldi. Hüseynqulu sultan Marağaya tərəf qaçdı.

İmamqulu xan Təbriz və Xoy hakimlərini diz çökdürmək istəyərkən Əli xana müraciət edib ittifaqa cəlb etmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, İmamqulu xan Zəncan hakimi Əli xan Zayirli-Avşarın məsləhətini qəbul edib, Irağa getməkdən əl çəkdi. Əli xanın sərkərdələrindən olan Vəli bəyi qoşunla Azərbaycana göndərdi. Ətraf xanlara də məktub yazıb, yardıma çağırdı. Xalxalın hakimi Fərəculla xan Miyanədə Vəli bəyə qoşuldu. Sarabın hakimi Əli xan Şəqaqi də onlara birləşməyi vəd etdi. Bu məqsədlə böyük oğlu Sadıq sultana qoşun götürüb, onlara qoşulmasını tapşırdı. Azərbaycan xanları Təbrizin bir ağaclığında toplanıb, oturaq etdilər. Həmin il qış soyuq gəldiyindən Təbrizi mühasirə etməyə tablamayıb, Urmiyaya yollandılar.

Əli xandan sonra onun oğlu Sadıq xan hakim olmuşdu. Sadıq xan da atasının siyasətini davam etdirirdi.

Sadıq xan İmamqulu xana qarşı hazırlanan koalisiyaya qoşulmuşdu. Bu koalisiyanın başçıları Zənd xanları idilər. Yığışıb məşvərət edən Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı Azərbaycan qoşununa sərkərdə təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da, versinlər. Əlimurad xan Əmiraslan xana bir fərman da yazdı ki, Dünbili qoşununu da dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Əmiraslan xan əməliyyata başlayır. Əlimurad xan Zəndin yardımçı təyin etdiyi xanları görüş yerinə çağırdı.Əhməd xan Əmiraslan xan Araşlı-Avşara qoşuldu.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib İmamqulu xanın qoşununa hücum etdilər. Bu döyüşdə İmamqulu xan yaralandı. Həmin yaradan da vəfat etdi.

İmamqulu xandan sonra hakimiyyətə gələn Məhəmmədqulu xan da Sərab hakimi ilə çəkişirdi.

Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, Dünbili xalqa zülm etməyə başlamışdı. Xalqın narazılığını eşidən Sərab hakimi Sadıq xan Şəqaqi Təbrizə qoşun çəkdi. Xalqın nümayəndəsi Ağa Əliməhəmməd tacirbaşı xeyli sovqatla yardım üçün Məhəmmədqulu xanın yanına yollandı. Məhəmmədqulu xan təbrizlilərə kömək etməyə söz verdi. İbrahim xan Araşlı-Avşarı 2 min nəfərlik qoşunla Təbrizə göndərdi. Təsuc yaxınlığında Əhməd xan Dünbili də ona qoşuldu. Xəbəri eşidən Sadıq xan qorxuya düşüb Səraba qayıtdı. Xudadad xan gələnlərin pişvazına çıxıb, bir neçə gün qonaq saxladı.

Sərab hakimi Sadıq xan Şəqaqi yenidən Təbrizə yürüş edib, şəhəri mühasirəyə aldı. Xudadad xan Ağa Əliməhəmməd tacirbaşını 5 min tümənlə yardım üçün Məhəmmədqulu xanın yanına yolladı. Məhəmmədqulu xan təbrizlilərə kömək etməyə söz verdi. İbrahim xan Araşlı-Avşarı 3 min nəfərlik qoşunla yenidən Təbrizə göndərdi. Sadıq xan Avşar qoşunun gəldiyini eşidib, bu dəfə də qaçdı. İbrahim xan onu Səraba qədər izlədi. Sadıq xanı tuta bilməsə də, onun qoşununa xeyli zərər vurdu.

Məhəmmədqulu xan Xoy hakimi Hüseynqulu xan Dünbili ilə bir sıra savaşlar aparmışdı. Bu savaşların birində bir çox qonşu xanlar ilə bərabər Sadıq xanı da özünə müttəfiq etmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, 1787-ci ildə Abdin bəy Avşar xəbər gətirdi ki, qardaşı Cəfərqulu xanın təhriki ilə Hüseynqulu xan Dünbüli vergi verməkdən imtina edib. Məhəmmədqulu xan bütün Azərbaycan xanlarını Salmas ətrafına topladı. Xudadad xan Dünbili Təbrizdən, Əhməd xan Müqəddəm Marağadan, Sadıq xan Şəqaqi Sərabdan, Kəlbəli xan Kəngərli Naxçıvandan, Məhəmməd xan

Qacar İrəvandan qoşunla gəlib görüş yerinə çatdılar. Birləşmiş qoşun əhli Xoy ətrafındakı Duzdağda çadır qurdu. Xoy və Salmas əhalisi Hüseynqulu xanın yanına gəlib şivən qopardı. Ağsaqqallar bildirdilər ki, bizim avşar qoşununu qarşılamağa gücümüz yetməz. Gəl, sən ona öz tabeçiliyini bildir. Əks təqdirdə biz səni tutub, Məhəmmədqulu xana verəcəyik. Hüseynqulu xan eşikağası İbrahim xanı Məhəmmədqulu xanın yanına göndərib, itaətini izhar etdi. Məhəmmədqulu xan onu dinləyib, Mirzə Əbülhəsən bəyi Xoya danışıqlara göndərdi. Mirzə Əbülhəsən bəy Hüseynqulu xanı Məhəmmədqulu xanın hüzuruna gətirdi. Hüseynqulu xan Dünbili Məhəmmədqulu xandan üzr istəyib, bac-xəracı ödədi.

Sadıq xan Şəqaqi Məhəmmədqulu xana qarşı üsyan edən eşikağası Əsgər xan Əbdülməliki-Avşar ilə həmrəy idi. Bir-birlərinə mütamadi məlumat verir, gərəyi gələndə yardımlaşırdılar. Əsgər xan Məhəmmədqulu xanaköməyə gələn Xudadad xanın Təbrizə döndüyünü eşidib, Sadıq xan Şəqaqiyə məktub yolladı. Ondan xahiş etdi ki, Xudadad xanı Tufarqan yolunda qarşılayıb, darmadağın etsin. Sadıq xan məktubu alan kimi pusquya dayandı. Gələnlərin önündə Məhəmmədqulu xanın oğlu Xudaqulu xanı, sərkərdə Rəhim xan Qasımlı-Avşarı gördüyündən qolları boşaldı. Avşarlara basqın etməyib, qonaq apardı. Qonaqlıqdan sonra avşarlar və dünbililər Təbrizə yola düşdülər.

Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, yolda Xudadad xanla qardaşları İbrahim xan, Cahangir xan, Məhəmməd xan və Əli xanla mübahisə etdi. Aralarına küdurət düşüb, bir-birlərinə qarşı ədavətə başladılar. Asi qardaşlar yığışıb, Sadıq xan Şəqaqiyə məktub yazdılar ki, əgər sən Təbrizə gəlmək istəsən, biz səni qarşılayıb, yardım edərik. Sadıq xan Təbrizə hücum etdi. Səidabad ətrafında Dünbili və Şəqaqi qoşunları üzləşdilər. Xudadad xanın qardaşları Sadıq xanın tərəfinə keçdirlər. Dünbili qoşunu pərişan olub, qaçmağa üz qoydu. Xəlil bəy Şəqaqi Xudadad xana yetirib öldürdü. Sadıq xan Təbrizə daxil olub hökuməti ələ aldı. Məhəmmədqulu xanın oğlu Xudaqulu xana, sərkərdələri Rəhim xana, Məhəmmədhəsən bəyə hörmətlə yanaşdı. Xudaqulu xan Məhəmmədhəsən bəyi gecəylə

Urmiyaya göndərdi ki, atasına xəbər çatdırsın. Məhəmmədhəsən bəy bu xəbəri öncə qohumu Əsgər xana çatdırdı. Sonra Urmiyaya gedib, Məhəmmədqulu xana məruzə etdi. Məhəmmədqulu xan bu xəbərə sevindi.

İranda güclənən Ağaməhəmməd xan Qovanlı-Qacar (1795-1797) birər-birər müstəqil xanlıqları məğlub edib, bir bayraq ətrafında birləşdirirdi. O, 1792-ci ildə (1206 hicri qəməri) Azərbaycana hücum etdi. Sərab xanlığının hakimi Sadıq xan Şəqaqi məğlub olub, Qarabağa, İbrahimxəlil xanın yanına qaçdı. İbrahimxəlil xan Ağaməhəmməd xanın qüdrətindən qorxsa da, ona itaət etmədi. Qardaşı qızını Sadıq xana verib qohum oldu. Onu İranda hakimiyyətə hazırladı.

Ağaməhəmməd şah Qarabağda öldürüləndən sonra Məhəmmədqulu xan müstəqil olmaq istəyən xanlara, Sadıq xan Şəqaqiyə və Cəfərqulu xan Dünbiliyə qoşuldu.

Əksər Azərbaican xanları Xoya toplandılar. Xoy hakimi Hüseynqulu xan Dünbili qasidi ilə Səraba xəbər göndərdi. Sadıq xan Şəqaqi qoşunu ilə Xoya gəldi. Hüseynqulu xan onu təntənəli qəbul etdi.

Urmiya hakimi Məhəmmədqulu xanın dəstəsi Xoy ətrafında olan «Dağbağı»nda yerləşdi. Hüseynqulu xan, Cəfərqulu xan və Sadıq xan hamısı bir ağızdan Məhəmmədqulu xanı özlərinə rəhbər seçdilər. Onun sözündən çıxmayacaqlarına vəd verdilər. Ətraf xanlara məktub göndərib, ittifaqa dəvət etdilər. İrəvan hakimi Məhəmməd xan Ziyadlı-Qacara, Naxçıvan hakimi Abbasqulu xan Kəngərliyə, Meşkin hakimi Ata xan Şahsevənə, Marağa hakimi Əhməd xan Müqəddəmə çaparlar göndərib, Təbrizə çağırdılar. Məhəmmədqulu xan, Cəfərqulu xan və Sadıq xan Təbrizə yollandılar. Məhəmmədqulu xan yolda Urmiyadan məktub aldı. Ona bildirirdilər ki, qardaşıoğlu Hüseynqulu xan üsyan qaldırıb. Xanəmir bəy Xələci daha səhih xəbər üçün Urmiyaya göndərdi. Sonra ürəyi sakitləşməyib, özü Urmiyaya qayıtmalı oldu. Əsgər xanı nümayəndəsi kimi Təbrizdə saxladı.

Əsgər xan Ağaməhəmməd şahın ölümündən sonra üsyançı xanlara, Məhəmmədqulu xan Avşara, Cəfərqulu xan Dünbiliyə, Sadıq xan Şəqaqiyə meyl etdi. Sadıq xan Şəqaqi ilə birləşib, Təbrizdən Marağaya gəldi. Əhməd xan Müqəddəmin və Mahmud xan Qasımlı-Avşarın onlara qoşulacağını zənn edirdi. Gözlədiklərinin əksinə onlar üsyançılara qoşulmadılar. Əsgər xan və Sadıq xan Marağanı mühasirəyə aldılar. Marağa 12 gün mühasirədə qaldı. Fətəli şah ordusu Nikpey adlı yerə çatanda Cəfərqulu xan Dünbili Əsgər xanla Sadıq xanı öldürmək fikrinə düşdü. Əsgər xan bu qəsddən duyuq düşdü. Sadıq xanı da xəbərdar etdi. Hər ikisi qaçıb, şahın ordusuna qoşuldular. Sadıq xan Süleyman xan Etizaddövlə Qacarı araçı saldı ki, şah onları bağışlasın. Hər ikisi bağışlandı.

Əsgər xan Fətəli şah Qovanlı-Qacar tərəfindən ordunun bir bölməsinə sərkərdə təyin edildi. Üsyançı Cəfərqulu xan Dünbiliyə qarşı vuruşdu. Məhəmmədqulu xanla danışıqlar apardı.

Fətəli şah Qovanlı-Qacarın yürüşü ilə Urmiya və Sərab xanlıqlarının müstəqilliklərinə son qoyuldu.

## Urmiya və Ərdəbil xanlığı

Urmiya xanlığı ilə Ərdəbil xanlığının birbaşa nə dostluq, nə düşmənçilik əlaqələri vardı. Onların maraqları Təbriz xanlığının üstündə bəzən toqquşurdu. Təbriz xanlığı gücsüz olduğundan daim qüdrətli xanlara müdafiə üçün müraciət edirdi.

Ərdəbil xanlığı Qarabağ xanından asılı olduğu üçün çox zaman onun iradəsi ilə qonşu xanlara yürüş edirdi.

1780-ci ildə Nəzərəli xan Şahsevən Təbrizə hücuma keçmişdi. Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır: «Nəzərəli xan Təbriz zəlzələsindən istifadə edib, Təbrizə yürüş etmişdi. Nəcəfqulu xan Dünbili onun qarşısını ala bilməyəcəyini düşünüb, Xoya qaçmışdı. Xoyda qardaşıuşaqları Əhməd xan, Salman xan, Məhəmməd bəylə məsləhətləşib, Urmiya hakimi İmamqulu xana yardım məqsədilə müraciət etmişdi. İmamqulu xan bir şərtlə ona kömək etməyə razılaşmışdı ki, Təbriz xanlığı ondan asılı olacaq. Nəcəfqulu xan

qohumları ilə məsləhətləşib, həmin şərtlə razılaşmışdı. İmamqulu xan ağır qoşunla Təbrizin müdafiəsinə gəlmişdi. Təbrizin Təsuc şəhərində Dünbili xanları İmamqulu xanı qarşılayıb, gəlişinə qurbanlar kəsdilər. Sərabın hakimi Əli sultan Şəqaqi Nəzərəli xanın müttəfiqi olduğundan, ilk hücumu Səraba etdilər. Əli sultan Şəqaqi müdafiə etməyə gücü olmadığından Xalxala qaçdı. Nəcəfqulu xan onu izləmək istədi. İmamqulu xan məsləhət görməyib, birlikdə Təbrizə qayıtdılar. Nəzərəli xan da Təbrizi tərk edib, Ərdəbilə çəkilmişdi. İmamqulu xan Təbrizdə 8 gün qalandan sonra Urmiyaya qayıtdı».

İmamqulu xan Qasımlı-Avşar Nəzərəli xan Şahsevəni zəif salmaq üçün onun sərkərdələrini, dayaqlarını pulla ələ alır, şirnikdirib özünə çəkirdi.

Tarixçi Mirzə Rəşid Ədibüşşüəra yazır ki, öncə Təbriz hakiminə yardım edən Nəcəfqulu xan Şahsevən və Hüseynqulu sultan Şəqaqi Əli xan Şəqaqidən üz döndərib İmamqulu xan Qasımlı-Avşara qoşuldular. Sərab hakimi Əli xan Şəqaqi onların dönüklüyünü görüb Nəzərəli xan Şahsevəndən yardım istədi. Nəzərəli xan Ərdəbildən çıxıb Səraba tələsdi. Əli xan Şəqaqiyə qoşulub dönük başçıların, Nəcəfqulu xan Şahsevənin və Hüseynqulu sultan Şəqaqinin üstünə getdilər. Sərabın ətrafında qarşılaşıb döyüşdülər. Nəzərəli xan bu savaşda qalib gəldi. Hüseynqulu sultan Marağaya tərəf qaçdı. Nəzərəli xan onu izləməyə başladı. Marağa qalasını mühasirə etdi. Marağanın hakimi Əhməd xan Müqəddəm İmamqulu xanın yanında idi. 20 gün Marağanı mühasirədə saxladı. Uğur qazanmayacağını görüb ətraf kəndləri qarət edib Ərdəbilə döndü.

## Urmiya və Zəncan xanlığı

Xəmsə avşarlarından olan Əli xan Zayirli bir müddət idi ki, Əlimurad xandan üz döndərmişdi. Özünə tərəfdar axtarırdı. İmamqulu xan Qasımlının qoşunları Xəmsəyə yetişcək, Əli xan sevincək onlarla birləşdi. Onları ağırlayıb, məsləhət gördü ki, əvvəl evin içi, sonra çölü. Gəlin Azərbaycanı iç düşmənlərdən təmizləyək, sonra

Əlimurad xanın üstünə gedərik. İmamqulu xan bu məsləhəti qəbul edib, Irağa getməkdən əl çəkdi. Əli xanın sərkərdələrindən olan Vəli bəyi qoşunla Azərbaycana göndərdi. Ətraf xanlara də məktub yazıb, yardıma çağırdı. Xalxalın hakimi Fərəculla xan Miyanədə Vəli bəyə qoşuldu. Sarabın hakimi Əli xan Şəqaqi də onlara birləşməyi vəd etdi. Bu məqsədlə böyük oğlu Sadıq sultana qoşun götürüb, onlara qoşulmasını tapşırdı. Azərbaycan xanları Təbrizin bir ağaclığında toplanıb, oturaq etdilər. Həmin il qış soyuq gəldiyindən Təbrizi mühasirə etməyə tablamayıb, Urmiyaya yollandılar.

## Urmiya və Xalxal xanlığı

Əmirgünə xan Avşar Fətəli xan Araşlı-Avşarla birləşib Kərim xan Zəndə qarşı çıxdı. Sonra Kərim xanın tərəfini tutub Fətəli xanı satdı. Kərim xan onu Şiraza «fəxri qonaqlığa» aparıb ali şuraya daxil etdi.

Kərim xanın vəfatından sonra Əmirgünə xan Taroma qayıdıb özünün xanlığını elan etmişdi. İranı birləşdirməyə başlayan Ağaməhəmməd xanı tanımaq istəmirdi. İlk növbədə Urmiya hakimi Məhəmmədqulu xan Qasımlı-Avşara müraciət etdi. Məhəmmədqulu xan ona etina etmədi.

Əmirgunə xan 1782-ci ildə başqa xanlarla birləşib Mazandarana hücum etdi. Savaşda yaralanıb qaçdı.

## Urmiya və Ərdəlan xanlığı

Sənəndəc hakimi Əmənulla xan Ərdalani Zəki xan Zənd ilə savaşarkən yenilib, qaçmışdı. Qaçıb, İmamqulu xana sığınmışdı. Zəki xan Mirzə Şəfi bəy Mirzə Məhəmmədcəfər oğlu Əbdülməliki-Avşarı İmamqulu xanın yanına göndərmişdi. Ondan xahiş etmişdi ki, Əmənulla xanı ona təhvil versin. İmamqulu xan Zəki xanın təhdidindən hirslənib, baş sərkərdəsi İbrahim xan divanbəyinin başçılığı ilə 4 min avşarı Zəki xanın üstünə göndərdi. Əmənulla xanı da onlara qoşdu.

Danışıqlardan qayıdan Mirzə Şəfi bəy qəziyyəni necə varsa Zəki xana çatdırmışdı. Zəki xan da Mirzə Şəfini yalançılıqda günahlandırıb, həbs etmişdi.

Zəki xan Zənd Avşar qoşununun yetişdiyini görüb, müqavimət göstərə bilməyəcəyini düşünüb, İraq tərəfə qaçdı. Yolda vəziri Mirzə Şəfi bəy Avşarı öldürdü.

Əmənulla xan Ərdalani İmamqulu xanın sərkərdələrinə, avşar əsgərlərinə ənam-ərməğan verib, Urmiyaya yola saldı.

İmamqulu xan bu hadisəni eşidib, Əlimurad xanın üstünə qoşun göndərdi. Qoşun Sovucbulaq tərəfdən yola düşdü. Sənəndəc hakimi Əmənulla xan Ərdalani də yolda Avşar qoşununa qoşuldu.

## Urmiya və Fars xanlığı

Urmiya və Fars xanlığının daim düşmənçilik münasibətləri olmuşdur. Nadir şah Qırxlı-Avşarın ölümündən sonra, 1747-ci ildə Fətəli xan Araşlı-Avşar Fars əyalətinə başçılıq etməyə başlamışdı. Fars əyalətində yaşayan Bayat elinin başçısı Saleh xan onu və qardaşı Məsuməli xanı qovub Şirazdan çıxartmışdı. 1747-ci ilin sonlarında Fətəli xan ana yurdu Urmiyaya gəlib taxta çıxdı. Urmiyanın ilk müstəqil xanı oldu. Bayatlara qarşı vuruşan lorlara yardım etdi.

Bir müddət bu bölgələrin xanları qonşu torpaqlara göz tikdiklərindən əlaqə saxlamağa macal tapmadılar. Məhəmmədhəsən xan Qovanlı-Qacarın Azərbaycandakı qələbəsini eşidən Kərim xan Zənd çox narahat oldu. Qardaşı Şıxəli xan və sərkərdəsi Məhəmməd xanın başçılığı ilə öhdəsindəki bütün qoşunu Məhəmmədhəsən xana qarşı göndərdi. İki ordu İsfahan əyalətində üz-üzə gəldi. Məhəmmədhəsən xan ordusunun əsas cinahlarını avşar və qacar döyüşçüləri təşkil edirdi. Baş verən ilk müharibədə Zənd qoşunları darmadağın edildi.

Vəziyyəti belə görən Kərim xan artıq Məhəmmədhəsən xanla döyüşməyə cəsarət etmədi. O, Şiraza çəkilərək şəhər darvazalarını bağladı və müdafiəyə hazırlaşdı. Məhəmmədhəsən xan Qovanlı-Qacar və Fətəli xan Şiraza üz tutdular. Fətəli xan Şirazın yaxın-

lığında Məhəmmədhəsən xanla mübahisə edib geri qayıtdı. Tək qalan Məhəmmədhəsən xan da qayıdıb Mazandaran tərəfə getdi. Qəzvin ətrafında onları izləyən Zənd qoşunu ilə savaş baş verdi. Fars qoşununun sərkərdəsi Məhəmməd xan öldürüldü və Şıxəli xan isə çətinliklə xilas olaraq qaçdı.

Kərim xan Zənd az sonra güclənib Fətəli xanın üstünə gəldi. Təbriz əhlindən bir neçə nəfəri danışıq üçün onun yanına göndərdi. Fətəli xan elçiləri yamanlayıb geri göndərdi. Təbrizə çəkilib, möhkəmlənməyə başladı. Xoya və Urmiyaya xəbər göndərib, möhkəmlənməklərinə göstəriş verdi. Dərilməmiş məhsulları tələf etməyi tapşırdı.

Kərim xan öncə Marağaya hücum edib, oranı dava-dalaşsız ələ keçirdi. Qarətçi, quldur hesab etdiyi Şahsevən, Şəqaqi ellərini tənbeh edib, yola gətirdi. Özünə tabe etdi.

Kərim xan Mirzə Ələkbər Mollabaşını Fətəli xanın yanına elçi göndərdi. Tabe olmasını tələb etdi. Fətəli xan yenidən ona rədd cavabı verdi.

Kərim xan özü ilə top gətirmədiyindən çəkilib, Şiraza getdi. Fətəli xan bu mərəkədən nicat tapdı.

Fətəli xan daha iki il də Azərbaycana müstəqil başçılıq etdi. Savaşa hazırlaşmağa başladı. Kərim xan Zəndlə müharibə qaçılmaz idi. Tabeliyində olduğu Qaradağdan, Qarabağdan, Naxçıvandan, Ərdəbildən 12 min nəfərlik qoşun topladı. Ətrafına 300 nəfər əfqan yığdı.

Kərim xan Zənd də boş oturmadı. Fətəli xanı özünə tabe etdirməkdən ötrü xeyli qoşun yığdı. Toplar tökdürdü. Müttəfiqlər axtardı. 1762-ci ildə Kərim xan Zənd Qarabağ hakimi Pənahəli xan Cavanşirə məktub göndərdi. Məktubda yazılırdı: «Fitnə və fəsad sahibi Fətəli xan indi bizimlə qan düşməni olmuşdur. Sizinlə də pis xasiyyətli bir düşməndir. Verdiyi sözə və içdiyi andın əksinə hərəkət etmişdir. İbrahimxəlil ağanı apararaq, sizi dərd və qüssəyə salmışdır. Hər an bir fikirdə və hər gün də bir əmirlə hərb etməkdədir. Mən də: «Ey ağıl sahibləri, sizin üçün qisas almaqda həyat vardır» ayəsinin məzmununa əsasən intiqam almağı və ədavət qılıncını

qınından çəkib hərbə girişməyi qərara almışam. Buna görə cənabınızdan bir dost kimi xahiş edirəm ki, təcili surətdə durmadan və təxir etmədən, hökümünüz altında olan qalib qoşunlarınızla bizə yoldaşlıq edəsiniz; çünki, əsas məqsədim və günəş kimi işıqlı olan fikrim budur ki, həm də oğlunuzu xilas edim, həm də qardaşımın qanını alım». Pənahəli xan Kərim xanın çağırışını cavablayıb, qoşunla Təbrizə yürüş etməyə söz verdi. Bu iş üçün 3 ay hazırlıq gördü.

Tarixçilər yazırlar: «Bu zaman Kərim xan Zənd İranın bir çox məntəqəsini tutmuşdu. O, Azərbaycanı tutmaq istəyirdi. Fətəli xan onunla müharibəyə başlamalı oldu. Baş vermiş şiddətli döyüşdə Fətəli xan Əfşarın qüvvələri qələbə qazandı. Lakin böyük tələfat verdiyi üçün bu məntəqəni tutmaq istəyən ikinci bir iddiaçı Məhəmməd Həsən xan Qacarın qarşısında tab gətirə bilmədi. Məhəmməd Həsən xan Qacar Şirazda Kərim xan Zəndlə etdiyi müharibədə məğlub oldu. İndi növbə Kərim xan Zəndlə Fətəli xan Əfşara çatmışdı ki, onlar ikinci dəfə güclərini sınasınlar. Bu dəfə Kərim xan Zənd zirək tərpənib müharibəyə başlamazdan əvvəl Fətəli xan Əfşar siyasətindən narazı olan Azərbaycan xanları ilə müzakirəyə başladı. Beləliklə, 1761-ci miladi ildə Pənahəli xan onunla birləşərək Urmiyaya hücum etməyə dəvət etdi ki, həm o, Fətəli xanla döyüşdə öldürülmüş qardaşının intiqamını alsın, həm də Qarabağ xanı oğlunu azad etsin. Pənahəli xan bu dəvəti qəbul edərək və güclü bir ordu ilə Qarabağdan hərəkət etdi».

1763-cü ilin ortalarında Kərim xan yenidən Azərbaycana gəldi. Bu dəfə Kərim xan top-tüfənglə, xeyli qoşunla gəlmişdi. Fətəli xan qaladan çıxıb, öndə dayanan Kərim xanın dəstəsinə hucum etdi. Onu məğlub edib, döyüş meydanından qovdu. Başqa cəbhədə Kərim xanın sərkərdələri Şıxəli xan Zənd, Zəki xan Zənd Fətəli xana kömək edən dübililəri dağıtdılar. Şahbaz xanı əsir tutdular. 500 nəfərlik zənd dəstəsi Fətəli xanın qoşunun mərkəzinə hücum etdi. Fətəli xan Şahbaz xanın tutulmasından məyus olub, geri çəkildi. Çəkilib Urmiyaya getdi. Qalan avşarlar hələ də meydanda vuruşurdular.

Çox keçmədən güclənən Zənd qoşunları meydanda tək qalan avşarları məğlub edib döyüş meydanından qovdular.

Kərim xan on gün Təbrizin ətrafında otraq etdi. Azərbaycanın bütün xanları, Məhəmmədkazım xan Qaradağlı, Pənahəli xan Cavanşir, Şahbaz xan və qardaşı Əhməd bəy Kərim xan Zəndin ətrafına toplandılar. Kərim xan Zənd Təbrizin hakimiyyətini Məhəmmədrza xan Mərəndiyə verdi. Məhəmmədhüseyn xan Zəndi onun məiyyətinə verib, 30 atlı ilə Təbrizə yolladı. Onlar Təbrizə yetişcək Fətəli xanın havadarları tərəfindən həbs edildilər. Amma Təbrizin şeyxülislamı Mirzə Əsədulla törənəcək xətanı hiss edib, Fətəli xanın havadarlarını yanına çağırıb, öyüd-nəsihət verdi ki, bu işin nəticəsi yoxdur. Mən vəkildən aman alım, siz də tutulanları buraxın. Mirzə Əsədulla danışığı bitirib, Kərim xanla görüşdü. Kərim xan onları bağışladı. Fətəli xan hələ sağ idi.

Kərim xan birləşmiş qoşunlarla 9 ay müddətində Urmiyanı mühasirə etdi. Pənahəli xanın oğlu İbrahimxəlil xan zindandan qaçıb, evlərinə tələsirdi. Yolda Şıxəli xan Zəndin qoşunu ilə üzləşdi. Onlara qoşuldu. Qoşaçayın Leylanında əyləşən Fətəli xan Urmiyaya hərəkət etdi. Urmiyaya daxil olub qapıları qapadı. Darvazalara gözətçi təyin edildi. Şahməhəmməd bəy Kəhkəhli, Miran bəy Mahmudlu Torpaqqala darvazasına, Mirzə Məhəmməd bəy və Şahməhəmməd bəy Səidli-Avşar Həzaran darvazasına, Məhəmməd bəy Qarahəsənli-Avşar, Əlişeşpər bəy Bazarbaşı darvazasına, Qəhrəman bəy, Cəlil bəy Ərəbli Yurdşah darvazasına, Fətəli bəy və Qulu bəy Bəgişli Hindu darvazasına, Əlimustafa bəy Araşlı Ballı (Məşəd) darvazasına təhkim edildilər. Fətəli xan hər qala bürcünə bir top qoydurdu. Divanbəyi İbrahim xan baş sərkərdə təyin olundu.

Fətəli xan qaladan çıxıb Kərim xanın üstünə hücum çəkdi. Adamların sayına, qoşun əhlinin azlığına görə məğlub olub, qalaya çəkildi. Üç dəfə avşar və zənd qoşunu savaşdı. Qalib müəyyən olmadı. Mühasirənin uzanmağı azuqənin tükənməsinə səbəb oldu. Qışın yetişməyi Kərim xanın ordusuna da çətinlik törədirdi. Ordunun sərkərdələrindən bir neçə nəfər Fətəli xana məktub yazıb, bərk, möhkəm dayanmasını istədi. Bildirdilər ki, biz fürsət tapıb Kərim

xana ziyanlıq vurub, sənə qoşulacağıq. Keşikçilər qasidləri tutdular. Yeddi nəfər sərkərdə faş olundu. Kərim xan onların boynunu vurdurub, həmin məktublarla bərabər Fətəli xana göndərdi. Fətəli xan Gürcüstanın, Şirvanın, Gəncənin hakimlərinə məktub göndərib, yardım istədi. Heç kimdən kömək gəlmədi. Onlar Kərim xandan qorxurdular.

Kərim xan da məşvərət çağırıb hər tərəfdən hücuma keçməyi qərara aldı.

Urmiyada aclıq başlanmışdı. Avşarlar birər-birər qaçıb, Kərim xana qoşulurdular. Fətəli xan avşar ağsaqqalarını çağırıb, məsləhətləşmə apardı. Hamıya ürək-dirək verdi. Avşar ağsaqqaları onun sözlərini eşidib mütəssir oldular. Bildirdilər ki, sənin istəyin bizim üçün qanundur.

Fətəli xan çox düşünüb, vəziri Mirzə Məhəmmədcəfəri bir çox avşar böyükləri ilə Kərim xanın yanına göndərdi. Kərim xan sevincək oldu. Şeypur çaldırıb bayram etdi. Elçilərin qarşısına getdi. Barışığa razılıq verdi.

Fətəli xan da elçilərin ardınca Kərim xanın yanına yollandı. Kərim xan onu cavan ölmüş qardaşının əvəzinə qəbul etdi. Fətəli xanın təsliminin ikinci günü Kərim xan Urmiyaya girdi. Azad xanın bir müddət hökumətinin olduğu sarayda əyləşdi. Fətəli xanla birlikdə novruz bayramını qeyd etdilər. Avşar əmirləri onun məclisində iştirak etdilər. Kərim xan Fətəli xandan hakimliyi alıb Rüstəm xan Mehdi xan oğlu Qasımlı-Avşara verdi. Fətəli xana isə zər xələt, qiymətli xəncər, yəhərli at bağışladı. Kərim xan Azərbaycan xanlarını və Fətəli xanı götürüb Şiraza yollandı. Yolda eşitdi ki, Balbas və Mənqur əşirətləri üsyan ediblər. Fikirləşdi ki, onların öhdəsindən yalnız Fətəli xan gələ bilər. Əliməhəmməd xan Zəndi də ona qoşub 8 min nəfərlik qoşunla onları yatırmağa göndərdi. Fətəli xan ilk həmlədə əşirətləri darmadağın edib geri döndü. Qardaşı Divanbəyi İbrahim xan onu kənara çəkib, bildirdi ki, Kərim xan qardaşının qanını sənə bağışlamayacaq. Əlinə fürsət düşmüşkən qaç, canını qurtar. Fətəli xan qayıtdı ki, mən də qardaşlarımı onun əlində qoyub qaça bilmərəm.

Onlar İsfahan ətrafına çatanda Iskəndər xanın qəbrini ziyarət etməyə getdilər. Kərim xan ağlamağa başladı. Fətəli xanın düşmənləri, Azad xan Əfqan, Zənd əmirləri və başqaları Kərim xanı qisas almağa təhrik etdilər. Kərim xan zənd Fətəli xanı öldürdü.

Fətəli xandan sonra Urmiya xanları Kərim xan Zənddən hakimlik fərmanını alırdılar. İlbəil ona vergi ödəyirdilər. Rüstəm xan Qasımlı-Avşar 1763-cü ildə Kərim xan Zəndin iradəsi ilə Urmiyanın hakimi olmuşdu.

İmamqulu xan Qasımlı-Avşar 1772-ci ildə Urmiyanın hakimi olmuşdu. Avşar elinin və Qasımlı oymağının böyükləri Kərim xan Zəndə məktubla müraciət edib, onun hakimiyyətinin təsdiqlənməsini istədilər. Məktubu Şiraza vəzir Mirzə Məhəmmədcəfər İmanlı aparmışdı. Kərim xan Zənd ona başsağlığı verib, İmamqulu xanın Urmiyaya hakimliyini təsdiqlədi. İmamqulu xan yerində möhkəmlənəndən sonra müstəqillik fikrinə düşmüşdü.

Kərim xan Zənd 1777-ci ildə (hicri-qəməri 1190-cı ildə) Fətəli xanın oğlu Cahangir xanı İmamqulu xan Qasımlının əvəzinə Urmiyaya hakim təyin etmişdi. İmamqulu xan bu xəbəri eşitcək maliyə vəkili Mirzə Məhəmmədcəfər İmanlını şahanə sovqatla və bir neçə illik vergilərlə Şiraza göndərdi. Vəzirinə möhkəm-möhkəm tapşırdı ki, kəşfiyyat aparıb bu məsələdən hali olsun. Kərim xan pay-parçanı alıb, İmamqulu xana yenidən xanlıq təliqəsi göndərdi.

Kərim xan Zəndin vəfatından sonra İmamqulu xan Urmiyanın müstəqilliyini bərpa etdi. Zəndlərə vergi ödəmədi.

Zəki xan Zənd Sənəndəc hakimi Əmənulla xan Ərdalani ilə savaşarkən ikincisi yenilib qaçmışdı. Qaçıb, İmamqulu xana sığınmışdı. Zəki xan Mirzə Şəfi bəy Mirzə Məhəmmədcəfər oğlu Əbdülməliki-Avşarı İmamqulu xanın yanına göndərmişdi. Ondan xahiş etmişdi ki, Əmənulla xanı ona təhvil versin. İmamqulu xan Zəki xanın təhdidindən hirslənib, baş sərkərdəsi İbrahim xan Divanbəyinin başçılığı ilə 4 min avşarı Zəki xanın üstünə göndərdi. Əmənulla xanı da onlara qoşdu.

Danışıqlardan qayıdan Mirzə Şəfi bəy qəziyyəni necə varsa Zəki xana çatdırmışdı. Zəki xan da Mirzə Şəfini yalançılıqda günahlandırıb, həbs etmişdi.

Zəki xan Zənd Avşar qoşununun yetişdiyini görüb, müqavimət göstərə bilməyəcəyini düşünüb, İraq tərəfə qaçdı. Yolda vəziri Mirzə Şəfi bəy Avşarı öldürdü.

Avşarlarla zəndlərin arasındakı düşmənçilik dərinləşdi.

İmamqulu xan Qasımlı-Avşarın şöhrətini eşidən Fars hakimi Əlimurad xan Zənd yardım üçün ona müraciət edən Əhməd xan və Nəcəfqulu xan Dünbililərə etina etmədi. Zənd başçıları bu qərara gəldilər ki, Sayınqala hakimi Əmiraslan xan Avşarı Azərbaycan qoşunun sərkərdəsi təyin etsinlər. Ona 1000 nəfərlik qoşun da versinlər. Əlimurad xan Əmiraslan xana bir fərman da yazdı ki, Dünbili qoşununu da dəstək götürüb, üsyançı İmamqulu xanı cəzalandırsın. Salmas bölgəsində Əhməd xan Dünbili Əmiraslan xana qoşuldu.

Göytəpə çəmənində oturaq edən Urmiya hakimi İmamqulu xan Qasımlı Əlirza xan eşikağasıbaşının nəzarətində eyş-işrətlə məşğul idi. Nağı bəy Avşar ona xəbər çatdırdı ki, Əlimurad xan Zənd Əmiraslan xanı sənin üstünə göndərib. Təbriz hakimi Nəcəfqulu xan və Xoy hakimi Əhməd xan da onlarla birləşib. Tezliklə Salmasdan Quşçu gədiyinə keçəcəklər. İmamqulu xan İbrahim xan Araşlını bir dəstə ilə ön cəbhəyə göndərdi. Arxasınca Qərəni ağa Balbasla kürdləri yolladı. Əlibəyli çəmənində qoşununu gözdən keçirtdi. Xəmsə hakimi Əli xan Zayirli-Avşarı götürüb, Əmiraslan xanın qarşısına getdi. Əmiraslan xanın qoşunu ilə İmamqulu xanın dəstəsi Quşçu gədiyində qarşılaşdı.

Əmiraslan xanın qoşununun sərkərdələri Əhməd xan Müqəddəm, Nəcəfqulu xan Dünbili, Əhməd xan Dünbili, Sadıq sultan Şəqaqi, Abbasqulu xan Kəngərli, Süleyman xan Dünbili, Şahbaz xan Dünbili və başqaları idilər. Onlar Quşçu gədiyindən keçib, İmamqulu xanın üstünə hücum etdilər. İmamqulu xan Avşar qoşununun yetişməsini gözləməyib, Balbas və Mənqur tayfası ilə döyüşə

başladı. Özü qoşunun önündə dayandı. Ilk döyüşdə düşmən qoşunun avanqardını dağıtdı.

İmamqulu xan güclənən düşmən qoşunu ilə savaşda ağır yaralandı, əmiraxur Əsgər xan Əbdülməliki onu çiyninə alıb, döyüş meydanından çıxartdı. Urmiyanın Rzaqulu xan darvazasına yetişəndə böyük sərkərdə can verdi.

Əmiraslan xan İmamqulu xandan sonra, 1783-cü ildə Urmiya hakimi oldu. Əlimurad xan Zəndin əmri, Əhməd xan Dünbilinin məsləhəti ilə təyin edildiyindən avşarların ondan xoşu gəlmirdi.

Əmiraslan xan Əlirza xan Qasımlı-Avşara özünə naib təyin etdi. İmamqulu xanın qardaşı Məhəmmədqulu xanı Salmasda göz dustağı saxladı. Gördüyü işlər haqqında Əlimurad xan Zəndə məlumat verdi.

Əmiraslan xan Əlirza xan Qasımlının azyaşlı bacısı ilə evləndi. Zifaf gecəsinin sabahı divanxanada qız haqqında qabiliyyətsiz söz işlətdi. Əlirza xan Avşar elinin içində xar oldu. Əmiraslan xanın bu hərəkəti Avşar ağsaqqalarının xətrinə dəydi. İbrahim xan divanbəyi bu sözü qeyrətinə sığışdırmayıb, Əmiraslan xana ağzına gələni deyib, divanxanadan çıxdı. Ağsaqqları ətrafına toplayıb, Qərəni ağa Balbası yardıma çağırdı. Balbaslar yetişincə avşarlar artıq birləşmişdilər. Qərəni ağa da 1000 atlı ilə özünü yetirdi. İbrahim xan daha artıq cəsarətlənib, divanxananı mühasirə etdi. Əmiraslan xana güllə atıb, ordan çıxmasını gözlədi. Əmiraslan xan qorxuya düşüb, aman istədi. Aman alıb, divanxananı tərk etdi. Qərəni ağa onu soyundurub, Əlimurad xan Zəndin yanına göndərmək istədi. İbrahim xan ona imkan vermədi.

Əmiraslan xan vilayəti idarə edə bilmədiyindən Avşar ağsaqqalları tərəfindən taxtdan salındı. Fars əyaləti ilə Urmiya xanlığının əlaqələrinə son qoyuldu.

## Urmiya və Qarabağ xanlığı

Qarabağ xanlığını Cavanşir elinin Sarıcalı oymağından çıxmış hakimlər idarə edirdilər. İlk müstəqil xan Pənahəli xan idi.

Fətəli xan Araşlı-Avşar əlində olan ərazi ilə kifayətlənməyərək şahlığı dirçəltmək qənaətinə gəlmişdi. Bu məqsədlə müraciətnamə hazırladı. Müraciətnamələri birər-birər Azərbaycan xanlarına göndərdi. Heç bir xan müsbət cavab vermədi. Ona görə də böyük ordu toplayıb, qonşu xanlıqların ərazisinə soxuldu.

Fətəli xan belə müraciətnamələrdən birini də vəziri Mirzə Məhəmmədcəfər İmanlı-Avşarın başçılığı ilə Qarabağ xanlığına göndərmişdi. Pənahəli xan onun elçilərini acılayıb, qovmuşdu. Tarixçi Mirzə Camal bəy Cavanşir yazır: «Elçilər qayıdıb (yerlərinə) çatdıqdan sonra Fətəli xan, Azərbaycan, Urmiya və başqa vilayətlərin əhalisindən çoxlu qoşun toplayıb, qalanı almaq, Qarabağı ələ keçirmək və Pənah xanı aradan qaldırmaq məqsədilə Şuşa qalasına gəlib qalanın bir ağaclığında düşərgə qurdu».

Mirzə Məhəmmədcəfər İmanlı qayıdıb, əhvalatı xana bildirdi. 1759-cu ildə Fətəli xan Araşlı-Avşar çoxsaylı qoşunla Pənahəli xanın üstünə, Qarabağa gəldi. Öncə bir neçə mahalı ələ keçirdi. Çiləbörd məliyi Məlik Hətəm və Talış məliyi Məlik Yusif Fətəli xanla birləşdi. Urmiya qoşunu Şuşaya yaxınlaşdı. Gecə basqınlarından qorunmaq və qəfil hücumlardan müdafiə olunmaq üçün səngərsipər hazırladılar. Tarixçi Hüseyn Dəlili yazır: «Şəhər əhalisinin qəhrəmancasına müqavimət göstərməsinə baxmayaraq, Fətəli xanın qoşunları gündən-günə qalaya doğru irəliləyirdilər.Şuşaya gedən yollar bağlandığı üçün orada azuqə, hərbi sursat get-gedə azalır və yeni-yeni çətinliklər meydana çıxırdı. Müharibənin son günlərində Avşar döyüşçüləri artıq qala divarı ətrafında döyüşürdülər. Şəhər süqut etmək təhlükəsi qarşısında idi. Yaranmış vəziyyətlə əlaqədar olaraq Pənahəli xan Fətəli xanla zahiri olsa da, sazişə gəlməyə məcbur oldu".

Qarabağ qoşunları Fətəli xanın ordusuna qarşı yaxşı vuruşsa da, nəticə effektli alınmadı. Mirzə Camal bəy qələbənin Qarabağ tərəfdə olduğunu yazır. Bildirir ki, Fətəli xan İbrahimxəlil ağanı barışıq bağlamağa gələrkən xaincəsinə aparır. Tarixçi Molla Məhəmməd əl-Cari bu olay haqqına yazır: «Sonra Sərdar (Fətəli xan – Ə. Ç,) düşmənlərindən qorxduğu üçün öz diyarına qayıdır. Irakli xan

ona gürcü qoşunu, Şahverdi xanı və Hacı (Çələbi) xanın oğlu (nəvəsi, Həsən ağanın oğlu – Ə. Ç.) Hüseyn xanı götürməyə icazə verir, yalnız onun yanına sülh bağlamağa gəlmiş Pənah xanın oğlundan başqa. O (Pənah xanın oğlu), ondan və atası Pənah xandan icazəsiz gedir».

1762-ci ildə Kərim xan Zənd Pənahəli xana məktub göndərir. Məktubda yazılırdı: «Fitnə və fəsad sahibi Fətəli xan indi bizimlə qan düşməni olmuşdur. Sizinlə də pis xasiyyətli bir düşməndir. Verdiyi sözə və içdiyi andın əksinə hərəkət etmişdir. İbrahimxəlil ağanı apararaq, sizi dərd və qüssəyə salmışdır. Hər an bir fikirdə və hər gün də bir əmirlə hərb etməkdədir. Mən də: «Ey ağıl sahibləri, sizin üçün qisas almaqda həyat vardır» ayəsinin məzmununa əsasən intiqam almağı və ədavət qılıncını qınından çəkib hərbə girişməyi qərara almışam. Buna görə cənabınızdan bir dost kimi xahiş edirəm ki, təcili surətdə durmadan və təxir etmədən, hökümünüz altında olan qalib qoşunlarınızla bizə yoldaşlıq edəsiniz; çünki, əsas məqsədim və günəş kimi işıqlı olan fikrim budur ki, həm də oğlunuzu xilas edim, həm də qardaşımın qanını alım».

Pənahəli xan Kərim xan Zəndin çağırışına hay verib, qoşunla Urmiyaya yürüş etdi. Birləşmiş qoşunlar 9 ay müddətində Urmiyanı mühasirə etdilər. 1763-cü ilin ortalarında Fətəli xanı yenib əsir tutdular. Pənahəli xan oğlu İbrahimxəlil ağanı azad etdi.

İmamqulu xan Xoy hakimi Əhməd xanla müttəfiq idi. 1780-ci ildə İbrahimxəlil xanla Əhməd xanın arası dəymişdi. İran tarixçisi yazır: «1195-ci ildə İbrahimxəlil xan Cavanşir Xoyu tutmaq xəyalına düşdü, Xoy və Səlması işğal etmək üçün qoşunlarını Şirvan və Qarabağdan Naxçıvan yolu ilə oraya göndərdi. Qarabağ orduları Arazın 40 km-liyində olan «Nazik» qalasını mühasirə etdilər. Lakin Əhməd xan Dünbülü Ərum (Urmiya-Ə. Ç.) bəylərbəyi İmamqulu xan Əfşardan kömək istədi. İmamqulu xan kürd və əfşarlardan ibarət qoşunla Xoya gəldi. Əhməd xan iki gün sonra Çəmənbağda (şəhərin şərqində) Ərumi qoşunlarını qarşıladı və müttəfiqlər qarabağlılarla döyüşə girib onları məğlub etdilər.

İmamqulu xan Əhməd xanın təsirindən çıxmaq istəyirdi. Buna görə Sərablı Əli xan Şəqaqi ilə ittifaq yaratdı. Urmiya xanlığının inkişafını Xoy xanlığı üçün təhlükəli hesab edən Əhməd xan Dünbili Təbriz xanlığının qoşunları ilə birlikdə İmamqulu xana qarşı çıxdı.

İmamqulu xan 1783-cü ildə Təbrizi ələ keçirdikdən sonra Qubalı Fətəli xana məktubla müraciət edərək, onu İbrahimxəlil xanın üzərinə getməyə çağırmışdı.

## Urmiya və İrəvan xanlığı

İrəvann xanlığını Qacar elinin Zyadlı oymağından çıxmış xanlar idarə edirdilər.

Fətəli xan Azad xanın qoşunundan istifadə edib, İrəvan xanlığına hücum etmişdi. Həmin ərəfədə Iravan hakimi Mir Mehdi xan zəifləmişdi. Vaxtı ilə İrəvan xanı Mir Mehdi xana məğlub olmuş Fətəli xan Avşar intiqam almaq məqsədi ilə özündən nisbətən qüvvətli olan Azad xanın hərbi gücündən istifadə etməyi qərara aldı. Hər iki hakim feodal arasında aparılan danışıqlar nəticəsində birləşmiş qoşunlar İrəvan xanlığı istiqamətində hərəkət etdilər. Ilkin yürüşdə əfqan qoşunlarını Fətəli xanın sərkərdələrindən biri müşayiət edirdi. Həmin yürüşdən Azad xanın məqsədi hərbi qənimət əldə etməkdən, Fətəli xanın məqsədi ilə İrəvanlıları intiqam almaqdan ibarət idi.

Cənubdan yaxınlaşan təhlükəni qarşısını almaq üçün Mir Mehdi xan İrəvan qalasının müdafiə qabiliyyətini möhkəmləndirdi. İrəvanda yaşayan ermənilərin əllərinə girəvə düşdü. Onlar xanlıqda hakim mövqe tutmaq məqsədi ilə Kartli və Kaxetiya çarlıqlarına-Teymuraza və II İrakliyə müraciət edərək onları İrəvana dəvət etdilər ki, yaxınlaşan təhlükəni sovuşdurub, «xristianların» vasitəsi ilə hakimiyyəti ələ alsınlar. Gürcülərin yaxın yardımı ilə Urmiya qoşunu yenildi. Fətəli xan, Azad xan məğlub olub geri çəkildilər.

## Urmiya və Naxçıvan xanlığı

Naxçıvan xanlığını Kəngərli elindən çıxmış hakimlər idarə edirdilər.

Naxçıvanda Azad xana qarşı üsyan edən Heydərqulu xan Kəngərliyə qarşı Məhəmmədmusa xan və Fətəli xan Araşlını sərkərdə kimi göndərildi. Naxçıvan əhalisi qılıncdan keçirildi. Heydərqulu xan da tutulub, öldürüldü.

Urmiya xanlığı ilə Naxçıvan xanlığının əlaqələri geniş deyildi.

## Urmiya və Astrabad xanlığı

Astrabad xanlığını Qacar elinin Qovanlı oymağından çıxmış hakimlər idarə edirdilər.

1757-ci ildə Məhəmmədhəsən xan Qovanlı-Qacar Urmiyaya hücum etdi. Əhalinin mərdliklə müqavimət göstərməsinə baxmayaraq, lazımi miqdarda qoşun və döyüş vəsaiti olmadığından şəhər Məhəmmədhəsən xanın zərbələrinə uzun müddət davam gətirə bilmədi.

Urmiya şəhəri alınmazdan öncə xanlığın sərkərdəsi Fətəli xan Araşlı oraya yaxınlaşdı. Lakin Məhəmmədhəsən xan uzaq səfərdən qayıdan döyüşçülərə istirahət etmək, hərbi düşərgə yaratmaq imkanı vermədi və dərhal hücuma keçdi. Bir neçə gün davam edən qanlı döyüşdə hər iki tərəfdən çoxlu adam tələf oldu. Müharibənin uzanmasından və Məhəmmədhəsən xanın qalib gələcəyini ehtimal edən bir sıra sərkərdələr xəyanət edərək Fətəli xanı tərk etdilər. O cümlədən Azad xan Əfqan döyüşçülərlə birlikdə Bağdada qaçdı. Şahbaz xan Dünbüli Xoy qoşunları ilə düşmən tərəfinə keçdi. Belə bir xəyanətkarlıq Fətəli xan Araşlının sarsılmasına və Məhəmmədhəsən xan Qacardan asılı vəziyyətə düşməsinə səbəb oldu.

Urmiyanın hakimi Məhəmmədmusa xan içəridən hələ də qalanı müdafiə edirdi. Fətəli xan Məhəmmədhəsən xana bildirdi ki, qalanın alınmasını mənə tapşır. Məhəmmədhəsən xan razılaşdı. Fətəli

xan Məhəmmədmusa xana və qalabəyi Yusif bəy Hutəkiyə məktub yazıb, bildirdi ki, əgər siz qalanı xoşluqla təslim etsəniz, mən Məhəmmədhəsən xandan sizə aman alacağam. Məhəmmədmusa xan naçar qalıb, qalanı Məhəmmədhəsən xana təslim etdi.

Urmiya şəhərinə girən Məhəmmədhəsən xan illərdən bəri burada toplanan xəzinəni ələ keçirdi. Məhəmmədmusa xanı və ailəsini həbs etdi. Ondan 5 min əşrəfi qızıl tələb edib, zorla aldı. Daşınmaz əmlakını zəbt etdi. Aldıqlarına qane olmayıb, Məhəmmədmusa xanı qətl etdirdi.

## Urmiya xanlığı və Osmanlı dövləti

Urmiya xanlığı və Osmanlı dövlətinin əlaqələrinə basqınçı kürdlərdən dolayı zərbə dəyirdi.

Həkkari kürdləri Urmiyaya yürüş edib, qarət fikrinə düşmüşdülər. Məhəmmədqulu xan bu xəbəri eşidib, Təbrizə qasid göndərib, İbrahim xanı geri çağırtdırdı. İbrahim xan Salmas tərəfindən Həkkari bölgəsinə hücuma keçdi. Kürd qoşununu darmadağın etdi. Ənzəl adlı mahalın ərazisində, Istisuyun kənarında qoşuna istirahət verdi. Həkkari kürdləri geri qayıdıb, yenidən hücuma keçdilər. Qarovullar yeni hücumdan İbrahim xanı duyuq saldılar. Savaş yenidən başladı. Kürdlər Avşar qoşununa məğlub olub, böyük tələfat verib, geri qaçdılar. İbrahim xan 3 ağac onları qovub, xeyli qənimət ələ keçirdi. Qəniməti qoşun arasında böləndən sonra Qarabağ mahalındakı Göyərçin qalasında oturaq etdi. Sərhədlərin keşiyində durdu.

# Mövzu

## URMİYA XANLIĞIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

Şah Sultan Hüseyn Səfəvinin hakimiyyəti çox zəif idi. XVII yüzilin sonu- XVIII yüzilin önlərində Səfəvi İranı qorxunc bir iqtisadi və siyasi böhran keçirirdi. Ölkənin mərkəzi və şərq hissəsi əfqan işğalı altına düşmüşdü. Azərbaycan, Şirvan və bunlarla həmsərhəd ərazilər Türkiyə (Osmanlı dövləti) tərəfindən işğal olunmuşdu. Belə bir şəraitdə Rusiya da Qafqazı ələ keçirməyə cəhd göstərirdi. 1723-cü ildə I Pyotr Bakı üzərinə yürüş etmiş və Xəzərboyu əraziləri zəbt etmişdi. Urmiya ətrafında və qonşu Osmanlı dövlətində yaşayan kürdlər də fəallaşmışdılar.

Sulduz mahalında yaşayan Balbas kürd tayfası Gündüzlü avşarlarının üstünə hücum edib, qətl-qarətlə məşğul idilər.

Mövcud ictimai-siyasi vəziyyət Urmiyanın sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərirdi. Eyni zamanda Urmiyanın karvan yolları üzərində yerləşməsi ticarət və sənətkarlığın inkişafına təsir göstərirdi.

### Urmiya əhalisinin sosial tərkibi

#### *Mülkədarlar*

Urmiya xanlığının ən seçkin təbəqəsi mülkədarlar idilər. Mülkədar – ərəbcə mülk və farsca daştən, yiyəlik, sahiblik anlamında olan sözlərdən düzəlmiş termindir. Mülkədarlar feodal təbəqəsinin başında dayanırdılar.

Urmiya xanlığında mülkədar zümrəsinə başda xan olmaqla, oğulları, qızları, qohum-əqrəbaları, vəzirlər, ali ruhanilər, məliklər,

naiblər, sultanlar, bəylər, ağalar, bir sözlə tiyulu, soyurqalı olan bütün feodallar daxil idilər.

### *Məaflar*

Urmiya xanlığında seçilib-sayılan zümrələrdən biri də məaflar idilər. Məaf – ərəbcə vergidən azad olunmuş anlamındadır. Məaf terminin türkcə sinonimi tarxandır. Urmiya xanlığında məaf adı daha çox işlək idi. Onlar xan fərmanı, təliqəsi ilə hər cür mükəlləfiyyətlərdən azad olunurdular. Vergidən azad şəxslərə məaflar deyirdilər.

Bir arxiv sənədində deyilir: «məafların vəzifəsi ondan ibarətdir ki, xanların hökmü ilə düşmənə qarşı hücuma göndərilir, yerli rəislərin göstərişlərini yerinə yetirir, gözətçilərə başçılıq edir, ancaq xəzinəyə vergi vermirdilər».

Məaflıq həm bir şəxsə, həm də bütövlükdə bir obaya, hətta elə də aid edilirdi. Xanlıq dönəmində Avşar və başqa ellərin sıravi eldaşları da məaf sayılırdılar. Ona görə ki, onlar savaş zamanı canları, qanları ilə borclarını ödəyirdilər.

### *Rəiyyətlər*

Əlimizdə olan bir çox tarixi ədəbiyyatda yazılır ki, kəndli təbəqəsinə rəiyyət deyilir. Əslində xəzinəyə və yaxud mülkədara vergi ödəyənlər rəiyyət adlanırlar. Rəiyyətlər kəndlərdə və şəhərlərdə də ola bilərdi.

Urmiya xanlığında iki qrup rəiyyət vardı. Birincisi dövlətə, divana (xəzinəyə) vergi ödəyən rəiyyətlər.

İkinci qrup rəiyyətlər asılı olduqları mülkədarlara ödənc verirdilər. Belə ödənclər üşr – ondabir adlanırdı. Deməli rəiyyət öz payına düşən torpağı becərir və əldə etdiyi məhsulun 1/10 hissəsini torpaq sahibinə verirdi. Mülkədar (sahibkar) rəiyyətləri bəzi vergiləri xəzinəyə ödəyirdilər.

Onlar dövlətə üşr və bəhrə, malik torpaqlarından, arx və kanallarından istifadə etdikləri üçün malcəhət verirdilər.

Rəiyyətin boynunda digər mükəlləfiyyətlər də vardı. Onlar asılı idilər. Rəiyyətlər ağaya gənəşmədən, məsləhət və xeyir-dua almadan kənddən köçə bilməzdilər. Qaçdıqları halda tutulub yerlərinə qaytarılırdılar. Lakin mülkədarlar digər xanlıqdan qaçan rəiyyətləri həvəslə qəbul edir, torpaq, xış, öküz və digər təsərrüfat vasitələri verib, kəndlərdə yerləşdirirdilər. Dövlət, divan kənd və obalarında yerləşdikdə 3 il vergidən azad edirdilər.

## *Rəncbərlər*

Xanlıq dönəmində maliklərin, mülkədarların mülklərində çalışıb müəyyən pay alan kəndli zümrəsi də vardı ki, onlar rəncbər adlanırdılar. Rəncbərlər xanlıq dönəmində vergi dəftərində ayrıca qeyd olunurdular.

Rəncbər qrupuna məxsus kəndlilər daha ağır vəziyyətdə yaşayırdılar. Nə torpağı, nə də əmək aləti olmayan rəncbərlər xan, sultan, məlik, bəy və digər feodalların torpaqlarında işləyir və əldə edilmiş məhsulun, adətən üçdə bir hissəsini alırdılar.

Torpaqdan məhrum rəncbərlər faktiki olaraq bir qarın çörəkdən ötrü öz əməklərini satmağa məcbur idilər: Rəncbərlərin əməyindən nisbətən ağır işlərdə – çəltikçiliklə, pambıqçılıqla və ipəkçiliklə bağlı təsərrüfat işlərində istifadə edilirdi. Əslində rəncbərlər üzərində feodal hüququ heç nə ilə məhdudlaşdırılmırdı. Belə ki, feodal rəiyyətindən fərqli olaraq rəncbəri torpaqla birlikdə istədiyi adamlara, xüsusilə vəzifə sahiblərinə həmişəlik verə bilərdi. Bəzən bu və ya digər vəzifəli şəxs xidmətdən getdikdən sonra onun ixtiyarındakı rəncbərlər həmin vəzifəyə yeni təyin edilmiş şəxsə verilirdi.

Rəncbərlər müxtəlif vergiləri ödəməklə yanaşı, həm də torpağı şumlamalı, məhsulu yığmalı və digər işləri yerinə yetirməli, həmçinin çəltik plantasiyalarını becərməli, çəltiklikləri artırmalı, təsər-

rüfat üçün ağac məmulatları hazırlamalı, odun gətirməli və kənd təsərrüfatı məhsullarını lazımi yerə çatdırmalı idilər.

Rəncbərlərin çoxalmasına bir sıra amillər təsir göstərirdi. Bəzi hallarda aclığa məruz qalan və iflasa uğrayan rəiyyət özünün kiçik torpaq sahəsini satmağa məcbur olurdu.

### *Torpaq mülkiyyəti*

Xanlıq idarəçiliyi aqrar münasibətlərdə mühüm dəyişikliklər etmədi. Məlumdur ki, Səfəvi dövlətinin bütün ərazisində, o cümlədan Urmiyada da torpaqlar dövlət (divan), sülab (xass va ya xasseyi-şərifə), feodalların xüsusi mülkiyyəti (mülk), dini idaralər və ruhani torpaqları (vəqf) va kənd icmalarının torpaqlarına (camaat torpağı) bölünürdü.

### *Divani (Xəzinə) torpağı*

Urmiya xanlığında dövlətə bağlı olan torpaqlar divani və ya xəzinə torpağı adlanırdı. Bu torpaqların gəliri bütövlükdə xəzinəyə çatırdı. Belə torpaq mülkiyyəti «divani» adlanırdı. Lakin əvvəlki əsrlərdən fərqli olaraq XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarında dövlət torpaqları tədricən əvvəlki əhəmiyyətini itirərək bir növ xanın şəxsi mülkiyyətinə çevrilmişdi. İ. P. Petruşevski Azərbaycanda feodal münasibətlərini öyrənərək belə qənaətə gəlmişdir ki, XVIII əsrin ikinci yarısında dövlət torpaqları ilə xan ailəsinin torpaqları birləşdirilib vəhdət təşkil etmiş və beləliklə də «... şəxsi torpaq sahibliyi divan torpaqları hesabına artmışdır». Bu torpaqlar xanın və xan ailəsi üzvlərinin varlanmasına şərait yaradırdı. Əksər hallarda divan torpaqları xanın razılığı ilə hər hansı şəxsə bu və ya digər xidmətinə görə «tiyul» hüququnda istifadəyə verilirdi.

### *Xalisə (xas) torpağı*

Xan və onun ailəsinə bağlı torpaqlara xas (şəxsi, özəl) torpaqlar deyilirdi. Xas torpaqlardan divanın, xəzinənin nəfinə heç bir vergi alınmadığından xalisə də adlanırdı.

### *Mülk torpağı*

Feodalların ata-babalarından irs qalmış torpaqlarına mülk deyilirdi. Mülk torpaqlarını bəzi feodallar üstün xidmətlərinə görə tiyul biçimində də alırdılar.

Urmiya xanları səxavətlə, comərdliklə bəylərə, ağalara, ruhanilərə mülklər bağışlamışdılar. Məaflar mülkləri üstün xidmətlərinə görə alırdılar.

Mülk torpağı bəzən tiyul da adlanırdı.

Tiyul hüququ Urmiya xanlığında təkcə kənd yerlərinə deyil, həmçinin şəhərə də şamil edilirdi. Torpaqdan tiyul hüququ əsasında istifadə edən şəxs «tiyuldar» adlanırdı.

Tiyuldar ona verilmiş torpaqlardan və sahələrdən öz şəxsi mülkiyyəti kimi istifadə edirdi. Tiyul torpaq sahələri tiyuldar vəfat etdikdən sonra yenidən xəzinəyə qaytarılırdı. Bu o demək idi ki, tiyul hüququ nəsildən-nəslə keçmirdi. Lakin verilən torpaqdan toplanılan vergilərə tam sahib olmaqda ona mane olmurdu. Tiyuldar əldə edilmiş məhsulun müəyyən hissəsini xəzinəyə göndərməli idi. Azərbaycanın digər xanlıqlarından fərqli olaraq Urmiya xanlığında əkin sahələrindən əldə edilən məhsuldan alınan vergi «bəhrə» adlanırdı. Bəhrə tiyul torpaqlarından toplanılan məhsulun onda üç hissəsini təşkil edirdi.

### *Vəqf torpağı*

Vəqf torpaqları--ziyarətgahlara (imamzadələrə, türbələrə, məscidlərə və digər müqəddəs yerlərə) bağışlanmış torpaqlara deyilirdi. Vəqf öz əmlakını allah yolunda ziyarətgahlara bəxş etmək ba-

rəsində müqavilə deməkdir. Vəqfnaməyə əsasən torpaq sahibi öz mülkünün istifadəsi hüququndan keçirdi. Bu torpaqlardan xan xəzinəsinə vergilər alınmır, işçilərin boynuna mükələfəliyyət qoyulmurdu. Vəqf torpaqları ziyarətgahların mütəvəlliləri idarə edirdilər.

Vəqf əmlakından gələn gəlirlər dini idarələrin, məktəb və mədrəsələrin normal fəaliyyət göstərməsi üçün sərf olunurdu.

### *Camaat (icma) torpağı*

Camaat (icma) torpaqları – El-oba camaatının istifadə etdikləri torpaqlara deyilirdi.

### *Vergi*

Urmiya xanlığında isə kəndli həyətlərinin böyük hissəsinin yerləşdiyi mülkədar kəndlərində rəiyyətlərindən bəhrənin bir hissəsi kimi buğda və arpanın 1/10-i, darğalıq, bağbaşı vergiləri mülkədarın, bəhrənin digər hissəsi-salyana vergisi, taxıl və ya pul şəklində evbaşı təyin edilən otaq xərci, ixracat (xan qoşunun saxlanmasına sərf edilən)-digər vergi və yığımlar xan xəzinəsinin xeyrinə yığılırdı. Feodalların mülk və tiyul torpaqlarında xüsusi olaraq bəy üçün ayrılan əkin sahələri sahibkarların əmək alətləri, toxum və iş heyvanı vasitəsilə yardalıq-icarə şərtləri ilə becərildiyindən yığılan məhsulun keyfiyyətindən asılı olaraq bəzi yerlərdə isə ¾-ü və 4/5 hissəsi feodalların xeyrinə alınırdı.

Urmiya xanlığının əhalisi hüquq və vəzifələri baxımından vergi verənlərə və vergidən azad olunanlara bölünürdü. Vergidən azad olunanlara xan ailəsinin üzvləri, bəylər, sultanlar, məliklər, din xadimləri (axund, molla, seyid və s.) daxil idilər. Yerdə qalanlar isə, yəni kəndlilər, sənətkarlar, ticarətlə məşğul olanlar, bir sözlə, gəliri olan şəxslər vergi verənlər qrupuna daxil idilər.

Maldarlardan vergi bilavasitə saxladıqları heyvanlardan əldə etdikləri məhsulla bağlı idi. Əhalidən çöpbaşı vergisi yığılırdı.

Kəndlilər əkib-becərdikləri torpağın müqabilində Urmiya xanlarına aşağıdakı vergiləri vermək məcburiyyətində idilər:

1 – “Mali cihət” vergisi vermək. Bu vergi məhsulun onda birindən ibarət idi. Əgər torpaq mülk sahibini toxum və kənd təsərrüfatı texnikası ilə əkilmişsə bu verginin miqdarı beşdə birə qalxırdı. Bağ və bostanın məhsulundan “mali cihət” vergisi üçdə bir nisbətində idi.

2 – Hər on ailə ağaya, yaxud bəyə bir kişi və hər on beş ailə bir qadın xidmətçi verməyə borclu idi.

3 – Məhsuldan verilən “mali cihət” vergisi torpaq sahibinin anbarına və ya göstərdiyi yerə məcburi olaraq əkinçilər tərəfindən daşınmalı idi.

4 – Hər əkinçi ailəsi öz heyvanı ilə ildə on səkkiz gün mülk sahibinin torpağını pulsuz əkib-becərməli, mülk sahibinin köçünü, odununu daşımalı, ev işlərinə kömək etməli və tapşırdığı başqa işləri görməli idi. Torpağa bağlı olan kəndli bu işləri görməzsə, hər bir gün üçün mülk sahibinə 20 qəpik pul ödəməli idi.

5 – “Avraz” adlandırılan və mülkədarın torpağının iki gün ərzində kənd əkinçiləri tərəfindən kollektiv surətdə əkilməsini nəzərdə tutan xanlıq dövründən qalma icbar yenə də qüvvədə idi. Kəndlilər bu məcburi işi də yerinə yetirməli idilər.

6 – “Çöpbaşı” adıyla tanınan və otlaqlara aid olan xanlıq dövründən qalma vergi kəndlilər tərəfindən yerinə yetirilir və ödənilirdi.

7 – Mülkədarın torpağında müvəqqəti olaraq yaşayan köçəri əkinçilər ailə başına dörd manat ödəməli idilər.

Kəndlilərdən alınan vergilərin sayı və miqdarı müxtəlif idi. Vergilərin müxtəlifliyi, ilk növbədə, iqlim şəraitindən və tez-tez baş verən feodal ara müharibələrinin vurduğu zərərdən asılı idi. Məlum olduğu kimi XVIII əsrin ikinci yarısında Azərbaycanın bütün xanlıqları çox ağır siyasi şəraitlə qarşılaşırdılar. Tez-tez baş verən hərbi yürüşlər, saray çevrilişləri kəndli təsərrüfatına da ağır zərbə endirirdi.

Belə bir şəraitdə feodallar istər-istəməz yaşayış mənbəyi olan kəndli əməyini qorumaqda məcbur idilər.

### *Kənd təsərrüfatı*

Bildiyimiz kimi Urmiya xanlığı Səfəvi-Osmanlı savaşlarının getdiyi yerdə bərqərar olmuşdu. Sonralar Nadir şah Qırxlı-Avşarın apardığı uzunmüddətli müharibələr nəticəsində xalq yoxsul vəziyyətə düşmüşdü. Tarix boyu bir-birini əvəz edən savaşlar məhsuldar qüvvələrin inkişafına mane olmuşdu. Səfəvi-Osmanlı dövlətlərinin sərhədində yaşayan kürd əşirətləri Urmiya əkinçilərinin əsas zərərvericisi idi. Məhsul hasilata gəlincə "Əcəmin malı halaldır" deyən kürd basqınçıları Urmiyaya yürüş edirdilər.

Urmiya vilayəti ərazisinin böyük bir hissəsi əkinçilik üçün yararlı olduğuna görə burada buğda, arpa, darı, çəltik, pambıq, tütün, mərcimək, noxud əkib-becərir, bağçılıq və bostançılıqla məşğul olurdular.

Otlaqların bol olması Urmiyada maldarlığın inkişafı üçün əlverişli şərait yaradırdı. Xırda və iribuynuzlu mal-qara bəsləyən Urmiya vilayətinin əhalisi dəri aşılamaqla, yağ-süd məmulatlarının istehsalı ilə də məşğul olurdu.

Urmiya xanlığınıın iqtisadiyyatının əsas sahələri olan əkinçilikdə, maldarlıqda natural təsərrüfatçılığın aparıcı mövqedə olması və xanlıq dövründən qalma torpaq mülkiyyəti formalarının və istehsal münasibətlərinin qüvvədə qalmasıdır.

Urmiya xanlığı üzrə əkilən torpaqların əksəriyyəti dənli bitkilər və pambıq üçün istifadə olunurdu. Misal üçün, üçün, 1200 xalvar əkilən torpağı olan Urmiya mahalında 600 xalvar torpaq sahəsində buğda və arpa, 500 xalvar torpaq sahəsində pambıq, 100 xalvar torpaq sahəsində çəltik əkirdilər.

### *Pambıqçılıq*

Xanlıqlarının kənd təsərrüüfatında pambıqçılıq və ipəkçilik də müəyyən yer tuturdu. Xanlıqlar dövründə pambıq, ipək istehsalı Urmiya, Marağa və Ərdəbil xanlıqlarında daha geniş yayılmışdı.

Xanlıqlarda pambıqçlıqla məşğul olan kəndlilərin sayı ilk illərdə çox az idi. İstehsal edilən pambıq məhdud miqdarda olub, yalnız yerli əhalinin ehtiyacının ödənilməsinə sərf olunurdu. Lakin XVII əsrin axırlarından başlayaraq, pambıq alveri ilə məşğul olan bir sıra xarici tacirlərin Azərbaycana gəlməsi, həmçinin bazarlarda pambığa olan tələbatın artması onun istehsalının genişlənməsinə səbəb oldu. Tacirlər öz ölkələrinə xammal, o cümlədən pambıq göndərməklə məşğul olurdular. Doktor Tağı Bəhraminin verdiyi məlumata görə, 1667-ci ildə Stakonk adlı amerikalı keşiş birinci dəfə olaraq Urmiyəyə yerli çeşiddən fərqlənən yüksək keyfiyyətli pambıq toxumu gətirmişdir. Bundan sonra həmin növ pambığın əkini bütün vilayətdə yayılır. XVIII yüzilin ikinci yarısı və XIX əsrin əvvəlində çoxlu miqdarda əla növlü pambıq Urmiya xanlığından başqa ölkələrə aparılırdı.

Azərbaycan xanlıqlarında ipəkçiliyin, pambıqçılığın inkişafı və onların qonşu ölkələrə ixrac edilməsi inkişaf etməkdə olan pul-mal tədavülünə müəyyən qədər müsbət təsir göstəririd.

Xanlıqlarda, xüsusi ilə Təbriz, Marağa, Sərəb və Urmiyada geniş tut ağacları sahələri var idi ki, bu da həmin vilayətdə ipəkçiliyin inkişafına əlverişli şərait yaradırdı.

Xanlıqlarda bostançılıq və tərəvəzçilik də geniş yer tuturdu. İstehsal edilən bitki yağı dərmanların hazırlanmasında, metalların pasdan qorunmasında, evlərin, hərbi düşərgələrin və müharibələr zamanı döyüş meydanlarının işıqlandırılması işində istifadə edilirdi. Bitki yağları içərisində gərçək yağına tələbat daha çox olduğu üçün, onun hazırlanmasına xüsusi diqqət verilirdi.

## *Sənətkarlıq*

Urmiya xanlığının əhalisinin əsas faizi avşarlardan ibarət idi. Avşar eli Oğuz ulusunun içində mədəniyyəti ilə seçilirdi. Bu da onların güclü soy duyğusu ilə bağlı idi. Avşarlar soy-köklərinə hörmətlə yanaşırdılar. Onlar özgəni söyməz, özlərini öyməzdilər. Birliyi, bütövlüyü siyasət halına gətirmişdilər. Birlikləri sayəsində rifah

və zənginliyə qovuşmuşdular. Maraqlıdır ki, avşarlar sənətə kasıblıqdan yox, zənginləkdən meyl edirdilər.

Avşarlar damğalı bir qurum idi. Onlar öz damğalarını yaratdıqları əsərlərə, rəsmi sənədlərə, bayraqlarına, mal-qaralarına, dana-davarlarına, at-ayqırlarına vururdular. Avşar damğalarına xalı-xalçalarda, qab-qacaqlarda, geyim-gecimlərdə, keçə-kedizlərdə, bəzən də məzar daşlarında rast gəlinir.

Avşarların qurşadığı xəncər «ovşarı» adlanırdı. Qədim bir bayatıda deyilir:

**Əzizim Ovşarı var,**
**Ovçunun ovşarı var.**
**Gözlərindən tanıram**
**Yarıma oxşarı var.**

Avşarları daşıdıqları qılınc «kirmani» adlanırdı. Bu qılıncın Avşarların Kerman qrupu tərəfindən hazırlandığı güman olunur. Dadaloğlu deyirdi:

**Belimizdə qılıncımız kirmani,**
**Daşı dələr mizrağımın dəmrəni…**

Urmiya qonşu xanlıqlar içində öz sənətkarlığı ilə tanınırdı. Maraqlıdır ki, Fətəli xan Araşlı-Avşar paytaxtını Təbrizə köçürərkən Urmiyadan xeyli sənətkar ailəsi aparmışdı. Nisə Mustafayeva yazır: “Məsələn, Fətəli xan Əfşar paytaxtı Təbrizə köçürdü. Sənətkarların bir çoxu da buraya köçürüldü. Böyük ziyana düşməkdən qorxan ustalar çox vaxt şagird, usta köməkçiləri götürmür, əlverişli yerlərdə yer icarə etmir, ev şəraitində sənətlə məşğul olurdular. Şəhərlərdə sənətkar birliklərinin (sexlərin) və təkbaşına ustaların paralel mövcud olması da bununla izah edilir. Cənubi Azərbaycan şəhərlərində sənərkar birlikləri İranda olduğu kimi əsnaf adlanırdı.

Azərbaycan əsnafları Yaxın Şərqdəki bütün sənətkar təşkilatları kimi təkcə sənətkarları deyil, başqa peşə sahiblərini də bir-

ləşdirirdi. Sənətkar, dəmirçi, çəkməçi, papaqçı, dərzi, əsnafları ilə yanaşı allaf dükançılarının, qulluqçuların, pəhləvanların da əsnafları var idi. Bir sözlə elə bir sənət və peşə yox idi ki, onun nümayəndələri əsnaflarda birləşməsinlər".

## *Dəmirçilik*

Urmiyanın zəngin dəmir filizi yataqları qədim zamanlardan başlayaraq yerli xammal əsasında dəmirçilik sənətinin meydana gəlməsində mühüm rol oynamışdır.

Urmiyada bəsit istehsal texnikasına əsaslanan filizəritmə işində, əsasən, körüklü kürələrdən istifadə olunmuşdur. Bunun üçün filiz parçaları kömür ilə birlikdə kürənin odluğuna yığılırdı. Qoşa körük vasitəsilə yaradılmış yüksək hərarət nəticəsində filiz əridikcə kürənin odluğunda qaynar metal ərintisi kütləsinə çevrilirdi. Ərintidə əmələ gələn pasa mütəmadi olaraq qədgir vasitəsi ilə çıxarılıb təmizlənirdi. Lakin sırf dəmir əldə etmək üçün bu kifayət etmirdi. Ona görə də ərinti yumşalıb saf dəmir halına düşünədək zindan üzərində döyülürdü. İstidöymə proscsində ərintinin tərkibindəki pasa qalığı qəlpələnib tamam çıxır, dəmirin məğzi saflaşırdı.

Urmiya ərazisində yanacaq israfı və metal çıxan baxımından iqtisadi cəhətdən az sərfəli olmasımı baxmayaraq, əritmə-döymə üsulu ilə yüksək keyfiyyətli dəmir əldə olunurdu. Ona görə də yerli dəmir ərintisindən hazırlanmış məmulat çox möhkəm və davamlı olmağı ilə fərqlənirdi. Bununla belə, kənardan gətirilmə "zavod dəmiri" ucuz başagəldiyindən kıstar üsulla hazırlanan yerli dəmir istehsalını tədricən tənəzzülə uğratrmşdır

Köhnə dəmir iki yolla, ya korlanıb istifadədən çıxmış məişət və təsərrüfat alətləri hesabına, ya da kənardan satınalma yolu ilə tədarük olunurdu. XIX əsrin ikimi yarısında Urmiyada satınalma dəmiri ən çox Bakı sərmayədarlarmdan, qismən isə dəmir yolu stansiyalarındakı təmir emalatxanalanndan əldə edirdilər.

Keçmişdə Urmiyada polad qıtlığı daha çox hiss olunurdu. Xüsusilə xas polad çətinliklə əldə olunduğundan qənaətlə işlədilirdi.

Soyuq silah (xəncər, qəmə, qəddarə, qılınc) istehsalı dəbdə olan dövrlərdə poladın kasadlığı daha çəx nəzərə çarpırdı

Silahsazlar arasında uzun müddət Dəməşq və Xorasan poladı üstün tutularmış. Bununla yanaşı, urmiyalıı silah ustaları özləri də xüsusi üsulla xas polad əldə edirmişlər. Urmiya ərazisindəki dəmirçixanalarda ən çox polad qarışıq dəmir işlənirdi. Bunun üçün xassə etibarilə bir-birindən fərqlənən dəmir və poladı qızdırıb istidöymə yolu ilə qaynaq edirdilər. Qaynaq nəticəsində asanlıqla əyilən yumşaq dəmirdən və tez sınan sərt poladdan daha keyfıyyətli yeni bir metal-poladqarışıq dəmir əldə edilirdi.

Urmiyada digər sənət dükanları kimi, dəmirçixanalar da, əsasən, bazar və ya karvansaralarda yerləşirdi. Dəmirçixana bir qayda olaraq, həm istehsal emalatxanası, həm də satış dükanı vəzifəsini yerinə yetirməklə ikili səciyyə daşıyırdı.

Urmiyada məişət və təsərrüfat alətlərinin xeyli hissəsi, xüsusilə kəsici alətlər (balta, nacaq, dəhrə, məngəl, dəryaz, əraq, cin, qırxılıq, kərki, qiyməkeş, bıçaq, qazan və s.) bir qayda olaraq poladqarışıq dəmirdən hazırlamrdı. Bu məqsədlə, əsasən, qaynaq üsulundan istifadə əlunmuşdur. Kəsici alətləri düzəltmək üçün əvvəlcə poladqarışıq dəmir hazırlanırdı. Xassə etibarilə xas poladdan və dəmirdən fərqlənən polad-qarışıq dəmir çox vaxt "qaynaq dəmiri" adlanırdı.

Urmiyalı dəmirçilər qaynaq dəmiri hazırlamaq üçün lazımi ölçüdə kəsilmiş dəmir parçasını kürədə qızdırıb arasını 1,5-2 sm dərinlikdə yarmaqla "ağız" açırdılar. Sonra həmin yarığa müvafiq ölçüdə polad "işığına" kəsilirdi. Bu məqsədlə əvvəlcə polad parçası kürədə qızdırıhb "suyu alınır" və yumşaq dəmir həddinə salınırdı. Sərtlik xassəsini itirmi işığa istidöymə yolu ilə yastılanaraq lazımi formaya salınandan sonra qələm vasitəsilə müvafiq ölçüdə kəsilirdi. Poladın qıt olduğu keçmiş dövrlərdə kəsici alətin tiyəsinin "dodaq şığası" çox vaxt yararsız hala düşmüş polad alətlərdən (yeyə, törpü, dəryaz və s.) düzəldilirdi. Məmulatın növündən və şığanın qalınlığından asılı olaraq, qaynaq əməliyyatı müxtəlif üsıllarla aparılırdı.

Urmiyada poladqarışıq dəmirin əldə edilməsinin ən bəsit və qədim üsulu xalis qaynaq olmuşdur. Bu halda ərintinin gücləndi-

rilməsinə və calağın möhkəm tutmasına kömək edəcək yardımçı vasitələrdən istifadə olunmurdu. Dəmirçilik sənətində nisbətən az tətbiq olunan bu üsulla, əsasən, xırda məmulatlar hazırlanırdı.

Göründüyü kimi, Urmiyalı dəmir ustaları çoxəsrlik əməli təcrübə nəticəsində metalların xassələrini dərindən müşahidə edib öyrənməklə, istehsal texnologiyasının təkmilləşdirilməsinə və beləliklə də daha mükəmməl əmək alətləri hazırlamağa nail ola bilmişlər.

Qaynaq ənənəvi Urmiya dəmirçilik sənətində başlıca yer tutsa da, dəmir məmulatının. Xüsusilə kəsici alətlərin hazırlanması daha bir sıra texnoloji proseslərlə bağlı idi. Məmulat növündən asılı olaraq istehsal prosesində dibçıxarma, küpaçma, sulğuc-çıxarma, dişəmə, növsalma və s. kimi bir sıra texnoloji üsullardan istifadə olunurdu. Bu əməliyyatların çoxu spesifık səciyyə daşımaqla, müəyyən qrup alətlərin hazırlanmasında tətbiq olunurdu. Məsələn, dibçıxarma dəryaz və qırxlığın, küpaçma nacaq, balta, kərki, təxa və çəkicin, sulğucçıxarma dəhrə və qiyməkeşin, dişəmə isə çinin hazırlanmasında tətbiq edilirdi. Soyuq silahlarm (xəncər, qılınc) hazırlanmasında növsalma əməliyyatmdan istifadə olunurdu. Bunlardan fərqli olaraq tamamlama əməliyyatları (sığalçəkmə və s.) qismən ümumi səciyyə daşıyırdı. Dəmir məmulatlarının hazırlanması prosesində ”Qara iş” görülüb başa çatdırılandan sonra tamamlama əməliyyatına başlanılırdı. Bu məqsədlə ilkin formaya salınmış iş nər çəkiclə döyülüb lazımi həddə salınır, əyilmiş və ya xaşallanmış hissələri tapdanıb (döyülüb) düzəldilirdi. Döymə əməliyyatından çıxmış “iş”in üzərində isə, adətən, zərbə izləri qalırdı. Ona görə də həmin izlər törpü və yeyə vasitəsilə sürtülüb hamarlanırdı, Bir qayda olaraq, dəmir məmulatı qaynar halda törpülənir, soyuq halda yeyələnirdi. Həmçinin, kəsici alətlərin hazırlanmasında ən vacib əməliyyatlardan biri onlara düzgün suvermə idi. Məlum olduğu kimi, kəsici alətlərin tiyəsi poladqarışıq dəmirdən hazırlandığından qızdırılan zaman sərtliyni itirirdi. Poladın sərtlik xassəsi aləti yenidən qızdırıb suyatutma yolu ilə bərpa edilirdi.

Urmiya dəmirçilik sənətində ən bəsit əməliyyatlardan biri çarxatutma idi. Müəyyən qədər peşə məharəti tələb cdən bu əməliyyata

düzgün əməl etmədikdə alətin tiyəsi qızır və ağzının bir üzü çox yonulub əks tərəfə qatlanırdı. Sənət dili ilə buna ”qılov” deyilirdi. Qılovlu alət kəsəndə küt və yorucu olur.

Urmiyalı dəmir ustaları təzə məmulat düzəltməklə yanaşı, sınıb korlanmış, yaxud kütləşmiş alətləri təmir etməklə də məşğul olurdular. Təmir işinin də özünəməxsus istehsal üsulları formalaşmışdı. Adətən, qalın kütləli məmulatlar (balta, tapun və s.) zodlama üsulu ilə təmir olunurdu. Bu məqsədlə alətin sınığına müvafiq ölçüdə kəsilmiş şığanı məmulatla birgə qızdırıb istidöymə yolu ilə bir-birinə calayırdılar.

Urmiya dəmirçiliyində sınıq məmulatın calaq edilməsi qadaqlama üsulu ilə də görülürdü. Qadaqvurma ən çox təsərrüfat alətlərinin təmirində tətbiq olunurdu. Bunun üçün məmulatm calaq ediləcək hissələrini isti, yaxud soyuq halda sünbə ilə dcşib qadaq vasitəsilə bir-birinə bərkidirdilər. Kütləşmiş kəsici alətlər isə (balta, dəhrə, qiyməkeş və s.) ovxarlama üsulu ilə itilənib yenidən işlək hala salınırdı. Bu məqsədlə alətin ağac dəstəyini çıxarıb tiyəsini kürədə qızdırandan sənra məngənə arasında tutub isti-isti yeyələyirdilər. Əgər alətin künəsi çəx qalın olarsa, onu bir-iki əl istidöymə yolu ilə döyüb nazildir, sonra ovxarlayırdılar. Ovxarlama əməliyyatı əvvəlcə iri dişli, sonra xırda dişli, nəhayət, axırda narın dişli yeyə ilə görülürdü.

## *Dulusçuluq*

Dulusçuluq Azərbaycanda, eləcə də onun bir guşəsi olan Urmiyada sənətkarlıq istehsalının ən qədim sahələrindən biri olub. Mütəxəssislər sənətin bu sahvəsinin meydana çıxmasını neolit dövrünə aid edirlər. Əvvəlcə, əsasən qadınların məşğul olduğu dulusçuluq eneolit dövründə tətbiq edilən bir sınıfl texniki nailiyyətlər nəticəsində müstəqil sənət sahəsinə çevrilmişdi.

İlk orta əsrlərin sonlarından başlayaraq Azərbaycanda dulusçuluq istehsalı daha yüksək səviyyəyə çatmışdı. Monqol işğallarına qədər davam etmiş bıı yüksəliş dövründə dulusçuluqda güclü kə-

miyyət və keyfiyyət dəyişikliyi baş vermişdi. Ayaqla hərəkətə gətirilən çarxın meydana gəlməsi, müxtəlif dulusçuluq mərkəzlərində şirli qablar istehsalının başlanması, dulus kül rələrinin kutləvi şəkildə tətbiq edilməsi yüksək keyfıyyətli saxsı məmulatınıı. istehsalı üçün daha əlverişli şərait yaradırdı.

Bu dövrdə saxsı qabların yayılması arealı Azərbaycanın demək olar kil bütün şəhər və vilayətlərini əhatə edirdi. Bir çox yaşayış məntəqələrində, ol cümlədən Beyləqanda aparılan arxeoloji qazıntılar nəticəsində Azərbaycanda şirsiz və şirli qablar istehsalının yüksək səviyyədə olduğunu sübut edən çoxlul materiallar aşkar edilmişdir.

Müstəqil Azərbaycan xanlıqların mövcud olduqları XVIII əsrin ikinci yarısı - XIX əsrin əvvəlində dulusçuluq istehsahnın aparıcı sahəsi kimi daha çox məişət keramikasından söhbət açmaq olar. Azərbaycanın dulus ustaları məişətin müxtəlif sahələrində işlədilən çoxlu gil məmulatları hazırlayırdılar. Etnoqrafık tədqiqatlar göstərir ki, məişətdə işlədilən dulusçuluq məhsulları öz təyinatlarına görə bir neçə qrupa bölünürdülər. Bunların arasında su qabları, yemək qabları, I süd məhsulları üçün qablar, evlərin qızdırılması və işıqlandınlması üçün nəzərdə I tutulan qablar əsas yer tuturdular. Təkcə məişətdə işlədilən su qabları I nm bir neçə növü-su daşımaq üçün (səhəng, cürdək, bardaq, şəhrəng, kuzə), «I saxlamaq və süfrədə işlətmək üçün (küp, sürahı, qurqur, dolça, parç, tayqulp), yuyunmaq və dəstamaz almaq üçün (aftafa, lülyəin və s.) çox müxtəlif saxsı qablar istehsal edilirdi. Ümumiyyətlə isə, dulus ustaları 50-dən çox müxtəlif növlü qab-qacaq istehsal etməyi bacarırdılar.

Xanlıqlar dövrünə aid arxiv sənədlərində və digər yazılı mənbələrdə Azərbaycanın Şamaxı, Şəki, Ərdəbil, Təbriz, Urmiya, Naxçıvan, Gəncə, Ordubad və s. şəhərlərində saxsı məmulatının istehsalı barədə məlumat verilir.

## *Toxuculuq*

Urmiya qədim toxuculuq mərkəzlərindən biridir. Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsindən aşkar edilmiş qızıl camın (e. ə. I minillik) səthində üstünə çul salınmış şir təsviri və başqa tapıntılar bu bölgədə xalça sənətinin nə qədər qədim tarixə malik olduğunu göstərir.

Urmiya xanlığının iqtisadi yaşamında qoyunçuluq təsərrüfatı ilə bağlı olan toxuculuq sahəsi önəmli yer tuturdu. Onların toxuculuq məhsullarından kilim, cecim, keçə, çadır, çuval, məfrəş, xurcun, hor, heybə və sairə el-elat arasında yüksək dəyərləndirilirdi. Avşar elinin bin tutub, buta bağladığı yerlərdə «Avşar» adlı xalça toxunurdu. Avşar xalçaları bütün Şərq köçərilərinin istehsal etdikləri xalçalar arasında ən kefiyyətlisi və zərifi hesab olunurdu. Tehranda çıxan «Bərrəsi-ye sənət-e fərş dər İran» nəşrinin verdiyi bilgiyə görə, Urmiyada istehsal edilən xalça növləri içərisində «Avşar» və yaxud «Əfşari» adlı xalçalar daha gözəl, daha keyfiyyətli idi. «Avşar» xalçalarının alıcısı çox olduğundan sonralar belə xalıların istehsalı Azərbaycanda və İranda yayılmağa başlanmışdı.

Avşar ulusu həm çöl, həm də el dönəmində tutarlı mədəniyyət örnəkləri yaratmışdır.

Xanlıq dövründə Urmiyada xalça istehsalı xeyli genişlənmiş, hər mahalın özünün xalçaçılıq karxanası olmuşdur. Bu dövrdə xalçaçılıq sənətinin inkişafı gələcəkdə xalçaçılıq məktəbinin yaranmasına zəmin yaratdı.

## *Ticarət*

Feodal pərakəndəliyi, daxili çəkişmələr, çoxsaylı gömrük rüsumları, hər bir xanlığın özünün pul vahidinin olması, ölçü, çəki sisteminin müxtəlifliyi, vergi və rüsumların toplanmasının tez-tez iltizama verilməsi kimi faktorlar xanlıqlarda sənətkarlıq və ticarətin, bütövlükdə iqtisadiyyatın inkişafına xeyli ziyan vurmuşdur.

XVIII əsrdə demək olar ki, Urmiyada karvansaraylar tikilməmişdir. Bu ticarət yollarının bağlanması və ticarətin zəifləməsi ilə əlaqədar idi.

Urmiyada çəki vahidi xutgər idi. Bu vilayət əlverişli ticarət yollarının üzərində yerləşdiyindən digər xanlıqlara nisbətən geniş bazarı vardı. Rus tarixçisi İ. P. Berezin bazarlardakı ümumi vəziyyəti belə təsvir edir: “Əhalinin çox əksəriyyəti səhərdən axşama qədər bazarlarda dolaşırlar. Varlı kişi və qadınlar bazarlara öz nökərləri ilə gəlirlər. Onların arxalarında və qabaqlarında gedən nökərlər qarşıya çıxan bir şeyi itələyib yol açmağa çalışırlar. Yüklü və yüksüz heyvanların dolaşmaları bazardakı hərəkəti daha da çətinləşdirir. Ümumi basabas, o yan bu yana qaçan hanballarn hay-küyü, dəmirçi, dülgər, misgər dükanlarından ucalan çəkic səsləri, at və eşşəklərin səs-küyü, yük daşıyanların “xəbərdar” səsləri, itələnib kənarlarda yıxılmış yoxsulların iniltisi, dilənçilərin “ya Əli, ya Hüseyn” nalələri, piştaxta üzərində oturan tacirlərin pulsuz mal aparmaq istəyən dövlət məmurları ilə söyüşmələri, qəsidə oxuyan dərvişlərin səsləri və sairə ilk dəfə bazarı müşahidə edən avropalılarda unudulmaz bir xatirə yaradıb”.

Səyyah Q. Druvil yazır ki, o Urmiya bazarında olarkən bir çörəkçinin müəyyən edilmiş qiymətdən baha satdığının və darğa tərəfindən cəzalandığının şahidi olmuşdur. Darğa çörəkçinin öldürülməsi haqqında göstəriş verir. Lakin Q. Druvilin bu hadisəni müşahidə etdiyini görərək. Ölüm fərmanını müqəssirin burun və qu-laqlarının kəsilməsi ilə əvəz edir. Hökm icra edildikdən sonra darğa üzünü çörəkçiyə tutaraq deyir: “Get bu kişiyə dua et ki, təkcə burun-qulağın kəsildi elə özün sağ qaldın”.

# Mövzu

## MƏDƏNİYYƏT

### Xanlıq dönəmində yazıb-yaratmış şəxsiyyətlər

### Şairləri

#### *Minnət Məhəmmədkərim xan Qasımlı-Avşar*

Minnət Məhəmmədkərim xan Avşar Isfəhan şəhərində anadan olmuşdu. Nadir şah Qırxlı-Avşarın hakimiyyəti dönəmində Tehran şəhərinin hakimi idi. Bir çox müharibələrdə böyük igidliklər göstərmişdi.

Əmiraslan xan Qırxlı-Avşar onu Məhəmmədisa xan Qasımlı-Avşarın yerinə Urmiyaya hakim təyin etmişdi. 1745-ci ildə Urmiyanın hakimi olarkən Nadir şaha qarşı çıxdığından tutulub kor edilmişdir.

Məhəmmədkərim xan şair idi. Minnət təxəllüsü ilə incə təbli şeirlər yazırdı. Şerlərindən örnək.

Bu gecə səndən ayrı ahımın tüstüsündən gülşən elə qaraldı ki,
Səhər bülbül öz yuvasının yolunu tapa bilmədi.

#### *Mina Firudin bəy Avşar*

Firudin bəy Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Fətəli xan Avşar Urməvinin qulamzadələrindəndir. Isfahanda uşaqlığında Fətəli xanın oğlanları Rəşid bəy və Cahangir xanla bir yerdə böyüyüb, boya-başa çatmış, bu ölkədə Dərviş Məcid, Azər, Hatif,

Səbahi, Aşiq və Müştaq kimi şeir və ədəbiyyat sevən şəxslərdən tərbiyə alıb, görkəmli şeirşünas və söz ustası olmuşdur. Onun bir sıra gözəl məzmunlu və məlahətli şeirləri vardır.

Firidun bəy bir müddət Isfəhanda müəllifin («Nigaristan-Dara əsərinin müəllifinə işarədir) yanında olmuş, daha sonra Azərbaycana, Urmiya şəhərinə gəlib, Hüseynqulu xan Bəylərbəyi Avşarın yanında xidmət etmiş və hicri qəməri 1235 (1819)-ci ildə orda vəfat etmişdir. Aşağıdakı beytlər onundur:

**Hər gecə bir fəsil, aman rəqibin ayıq bəxtindən,**
**Fələk ölüm yuxusunda, sanki heç ayılmır ondan.**

**Bu doqquz fələk yansa təəccüb etməsin heç kəs,**
**Mən on nəfəsli quşam bunlardır bir neçə qəfəs».**

## ***Aşıq Mustafa ( ? - 1871)***

Aşıq Mustafa Urmiyanın Sitanabad kəndində dünyaya gəlmişdi. Dogum tarixi dəqiq bilinmir. Uzun müddət çobanlıq edib. Röyasında bir gözələ aşıq olmus və bu gözəli tapmaq üçün diyar-diyar gəzərək ta Eçmiadzinə (Üçkilsəyə) qədər getmisdi. Bəzi informatorlara görə ona həmin qız buta verilibmiş. Təhsili olmadıgı halda çox gözəl qoşmalar yazmıs, saz çalıb məclis idarə etmisdi.

Aşıq Mustafa "Əslı və Kərəm" və "Koroglu" dastanlarını yeni variantlarını işləmişdi. Bunlarla bərabər özünə aid çox gözəl bayatılar, gəraylılar və qoşmalar söyləmişdi.

Aşıq Mustafa 1871-ci ildə Cənubi Azərbaycanının Urmiya vilayətinin Baranduz mahalında vəfat edib.

**Qadir Allah, budur səndən diləyim,**
**Altmıs min gülşənim, bagım olaydı.**
**Hay-hay deyib düsmən üstə gedəndə**
**Dalımca altmıs min dəlim olaydı.**

**Altmış min naxırım, altmış min bozum,**
**Altmış min qoyunum, altmış min quzum,**
**Altmış min gəlinim, altmış min qızım,**
**Altmış min incə belli yarım olaydı..**

**Altmış min oglanım kəkili dəstə,**
**Altmış min gəlinim dodagı püstə,**
**Altmış min toyugum yumurta üstə,**
**Ona görə, ördək, qazım olaydı.**

## Arifləri

### *Ağa Məhəmmədrəhim Naibüssədr Avşar*

Ağa Məhəmmədrəhim Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Məşhur arif və ariflər rəhbəri olan Mirzə Nəsrulla Nəsr Ərdəbilinin şagirdi olmuşdur. O, Mirzə Nəsrulla tərəfindən irfani fikirləri xalq içərisində yaymaq üçün xüsusi göstəriş almışdır. Ağa Məhəmməd Rəhimin qəzəllər divani məşhurdur. O, hicri qəməri 1285 (1868)-ci ildə vəfat etmişdir. Oğlu Hacı Mirzə Naibüssədr də öz dövrünün ariflərindən olmuş, şikəstə və nəstəliq xətlərin yazmaqda çox mahir idi.

### *Hacı Mirzə Naibüssədr Avşar*

Hacı Mirzə Ağa Məhəmmədrəhim oğlu Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı.

### *Mirzə Ağa Sahibqələm Avşar*

Mirzə Ağa Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «O, İstambulda bir neçə kitab yazıb, çap etdirmişdir. Onlardan «Gülüstan» kitabıdır ki, hicri qəməri 1291 (1874)-ci ildə rəvan dildə və bədii qələmlə yazılmışdır».

Mirzə Ağa Sahibqələm Avşar Sultan Əbdülhəmid Osmanlının sarayında katib kimi çalışıb.

## Rəssamları

### *Usta Allahverdi Avşar*

Allahverdi Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Dövrünün böyük rəssamlarından sayılırdı.

Usta Allahverdinin Əbülhəsən adlı oğlu vardı.

### *Usta Əliəşrəf Avşar*

Əliəşrəf Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı.

### *Ağa Əbülhəsən Nəqqaşbaşı Avşar*

Əbülhəsən Allahverdi oğlu Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Onun rəssamlıq əsərləri və rəngli peyzaclarını əmisi, məşhur rəssam Əliəşrəf Avşarın qələmdan və kitab üzərində çəkdiyi miniatur və rəsmlərindən ayırd etmək mümkün deyildir. Əziz xan Sərdar onun əsərlərini töhfə kimi Tehrandakı əyanlara göndərərdi.

Onun qələmdan üzərində çəkdiyi rəsmlər hələ sağlığında əlli tümənə satılırdı.

Əbülhəsən hicri qəməri 1306 (1888)-cı ildə vəfat etmişdir. («Əl-məsair vəl-asar»-«Hünərlər və əsərlər»)

## Avşar elinin astroloqları

### *Mirzə Məhəmməd Münəccim Avşar*

Mirzə Məhəmməd Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Mirzə Məhəmməd Ağa Tağı Münəccim Avşarın qohumlarındandır. O, nucum elmində böyük müvəffəqiyyət əldə etmiş və bu barədə onun verdiyi hökmlər səhvsiz və xətasız olmuşdur. Məhəmməd neçə il vəfatından əvvəl öz vəfatı tarixini nücum vasitəsilə bir səhifədə müəyyən etmişdi. Hal-hazırda (Hicri qəməri 1306/1888) bu səhifə onun uşaqlarındandır. Bu tarix təmamilə düzgün çıxmışdır. («Əl-məasir vəl-asar»)

### *Ağa Tağı Münəccim Avşar*

Ağa Tağı Hacı Ağa Əbülhəsən oğlu 1817-ci ildə Urmiyə şəhərində dünyaya gəlmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «nücum elmində məharətli, hikmət və digər biliklərdə orta səviyyəli olmuşdur. O, bir müddət Ətabatda dini bilikləri öyrənmiş, sonra atası Hacı Ağa Əbülhəsənin istədiyinə görə Urmiya şəhərinə qayıtmışdır. Atasının arzusu bu idi ki, o, Urmiyada məscid və minbər sahibi olsun. Ancaq o, qəbul etməmiş, guşənişin olub, hicri qəməri 1284 (1867)-ci ildə əlli yaşında vəfat etmişdir. O, ədad (sayların xüsusiyyətini aydınlaşdıran elm) və

ovfaq (ay, həftə, gün və illərin sayların xüsusiyyətini aydınlaşdıran elm), eləcə də cəfr elmlərində məharət qazanmışdır. Mirzə Məhəmməd Münəccim Avşar Urməvi onun qohumlarından olmuş, o da nücum elmində məşhur olmuşdur. («Əl-məasir vəl-asar»)»

### *Molla Əli Münəccim Avşar*

Əli Urmiya civarında anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Münəccim olmaqla yanaşı müdərrislik də edirdi. Bir çox tanınmış münəccimlərin müəllimidir.

### *Molla Hüseyn Münəccim Avşar*

Hüseyn Urmiya şəhərində doğulmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Ünlü ədəbiyyatşünas və bioqraf Məhəmmədəli Tərbiyət «Danişməndani-Azərbaycan» kitabında yazır: «Mirzə Məhəmməd Avşarın şagirdlərindəndir. O, bir müddət də Molla Ağa Münəccim Avşarın və Molla Əli Münəccim Avşarın yanında oxumuşdur. Molla Hüseyn nücum və astrologiya elmində bilikli, təqvim tərtib etməkdə məharətli idi. O, hicri qəməri 1273 (1856)-cü ildə vəfat etmişdir».

Molla Hüseyn Ağa Mirpəncin qızı ilə ailə qurmuşdu. Övladları olmadı.

## Urmiyanın xanlıq dönəmində tanınmış ruhaniləri

### *Nizaməddin Axund Molla Səfər Avşar*

Nizaməddin Axund Molla Səfər Avşar Urmiya şəhərində dünyaya pənah gətirmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. İmam-

qulu xan Qasımlının, Məhəmmədqulu xan Qasımlının hakimiyyəti dönəmində Urmiyada ruhanilik etmişdi.

Məhəmmədqulu xan 1773-cü ildə Nizaməddin Axund Molla Səfər Avşarı Came məscidinin pişnamazı və qazı vəzifələrinə yüksəltdi.

### *Molla Məhəmmədbağır Qasımlı-Avşar*

Molla Məhəmmədbağır Urmiya şəhərində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı. Dövrünün böyük ruhanilərindən sayılırdı. Urmiyanın mərkəzi məscidi olan Came məscidində pişnamaz olmuşdu. Məscidin nəzdinəki mədrəsədə təhsil alan tələbələrə yardım etmiş, şəxsən tədrisləri ilə məşğul olmuşdu.

Molla Məhəmmədbağır 1778-ci ildə vəfat edib. Qarasandıq qəbristanlığında dəfn edilib. İmamqulu xanın əmri ilə üstündə böyük kümbəz tikilib.

Molla Məhəmmədbağırın Məhəmməd, Əli adlı oğulları vardı.

### *Hacı Molla Məhəmməd Qasımlı-Avşar*

Hacı Molla Məhəmməd Molla Məhəmmədbağır oğlu Urmiya şəhərində doğulmuşdu. İbtidai təhsilini atasından almışdı. Mədrəsədə oxumuşdu. Bir müddət qazı işləmişdi.

### *Axund Molla Əli Arif Qasımlı-Avşar*

Axund Molla Əli Molla Məhəmmədbağır oğlu Urmiya şəhərində dünyaya gəlmişdi. Ibtidai təhsilini atasından almışdı. Mədrəsədə oxumuşdu. Bir müddət qazı işləmişdi.

### *Mirzə Uğurlu bəy (Heyrət) Mahmudlu-Avşar*

Mirzə Uğurlu bəy Miran bəy oğlu Urmiya şəhərində dünyaya pənah gətirmişdi. Mükəmməl mədrəsə təhsili almışdı. İmamqulu xan Qasımlı-Avşarın övladlarına lələlik etmişdi.

Məhəmmədqulu xan İmamqulu xanın övladlarının lələsi, Heyrət təxəllüslü Mirzə Uğurlu Miran bəy oğlu Mahmudlunu mollabaşı vəzifəsinə çatdırdı.

### *Şeyx Mirzə Məhəmmədhəsən Bəgişli-Avşar*

Mirzə Məhəmmədhəsən Məhəmmədvəli bəy oğlu Urmiya şəhərində dünyaya pənah gətirmişdi. İbtidai təhsilini Təbriz şəhərində almışdı. Ordan Qəzvinə yollanmış, ali savada yiyələnmişdi. Fiqh, üsul və hədisləri Üçüncü Şəhid ləqəbli molladan, Molla Məhəmmədsaleh Bərğanidən öyrənmişdi. Türkmənçay müqaviləsi zamanı Kərbəlaya getdi. Şərifülülama Mazandarani-Hairidən dərs aldı. Ustadının vəfatından sonra vətəninə döndü.

Şeyx Mirzə Məhəmmədhəsən Bəgişli-Avşarın əsərləri: «Baharul-Ənvar»ın 13 cildinin tərcüməsi (Məhəmməd şah Qacar üçün), «Bərdeyi-Busirinin qəsidələrinin şərhi».

Şeyx Məhəmmədhəsən şair idi. Divanı vardı. Şeirlərinin çoxu peyğəmbər və imamların şəninə həsr olunub.

# NƏTİCƏ

Urmiya xanlığının yaranması, sosial-iqtisadi inkişafı, inzibati-siyasi quruluşu, qonşu xanlıqlarla münasibətləri, Urmiyanın mədəni həyatı dərs vəsaitində lazımi səviyyədə işıqlandırılması aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Urmiya Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biridir. Urmiyanın əlverişli təbii-coğrafi şəraiti, münbit, məhsuldar torpaqları xanlığın sosial-iqtisadi inkişafına müsbət təsir göstərmişdir.

2. Urmiya xanlığı Azərbaycanın müstəqil dövlətçilik tarixində önəmli yer tutur.

3. Urmiya xanlığı XVIII əsrdə mədəniyyət, ticarət, səbətkarlıq mərkəzi kimi Azərbaycan tarixinin şərəfli səhifələrindən birini təşkil edir.

4. Urmiya xanlığı da Azərbaycanın digər xanlıqları kimi, mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində meydana gəlmiş və uzun müddət öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

5. Xanlığın qonşu feodal dövlətlərlə münasibətləri diplomatiya tariximiz üçün olduqca əhəmiyyətldir. Bundan başqa xanlığın təkcə güney Azərbaycan xanlıqları ilə münasibətləri qurmamış eyni zamanda o öz əlaqələrini genişləndirərək Şimali Azərbaycan xanlığı və Osmanlı dövləti ilə münasibətləri xarici siyasət baxımından dəyərlidir.

6. Xanlığın idarəetmə aparatı, idarəçilik formaları xanın qeyri-məhdud hakimiyyəti, irsi hakimlik institutu Urmiyada monarxiya quruluşunun bərqərar olmasını təsdiq edir.

7. Ara çəkişmələri Azərbaycanda feodal pərakəndəliyi, Urmiyada siyasi quruluşu zəifləmiş, nəticədə mərkəzləşdirilmiş dövlətə tabeçilik göstərmək məcburiyyətində qalmışdı.

# MƏNBƏ VƏ ƏDƏBİYYAT


*Arxiv*

1. Az.MDTA, f. 130, siyahı 1, saxlama vahidi 35, vər. 45.
2. Rus. MDTA, f. 82. Siy.1/194 iş 234, vər. 2

*Azərbaycan dilində*

3. Azərbaycan tarixi. Bakı. 1996.
4. Azərbaycan tarixi. 7 cilddə. III-IV cildlər. Bakı. 2000.
5. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı, 1989.
6. Abbasqulu ağa Bakıxanov, "Gülüstani-İrəm", Bakı, 1951.
7. Ağamalı Yalçın, Qarabağ xanlığının qonşu xanlıqlar və dövlətlər-lə münasibətləri, Bakı, 1998.
8. Ağamalı Fəzail, XVIII əsrin II yarısı-XIX əsrin əvvələrində Quzey Azərbaycan xanlıqlarının Sosial-iqtisadi vəziyyəti, Bakı, «Azərbaycan Ensiklopediyası», 1999.
9. Bayramlı Z., Əzizli B. Azərbaycan Övliya Çələbinin 1654-cü il «Səyahətnamə»sində, Bakı, 2000.
10. C.Cunior, Unudulmuş qəhrəmanlar, 2004.
11. Çingizoğlu Ənvər, Sözün nübar çağından, Bakı, «Ozan», 1998.
12. Çingizoğlu Ənvər, Aydın Avşar, Avşarlar, Bakı, "Şuşa", 2008.
13. Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları. Bakı, 1979.
14. Dəlili H.Ə. Fətəli xan Əfşarın Azərbaycan dövləti yaratmaq təşəbbüsü (XVIII əsrin 50-60-cı illəri). Azərb.SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1975, №1, səh.40-48.
15. Дялили Щ.Я. Азярбайсанын сийаси щяйатында Яфшарларын мювгейи щаггында. Азярб ССР Елмляр Академийасынын Хябярляри. Тарих, фялсяфя вя щцгуг серийасы, №3, 1969.
16. E. Çələbi, Səyahətnamə, Bakı, 1997.
17. Əbubəkr Tihrani, Kitabi-Diyarbəkriyyə, Bakı, «Elm», 1998.
18. Əliyev F. M. Azərbaycan XVIII əsrdə. – Bax: Azərbaycan tarixi, Bakı: Elm, 1993.
19. Əliyev F.A., Əliyev M.M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996, s. 106.

20. Əliyev F., Həsənov U. İrəvan xanlığı, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1997.
21. Əfəndiyev Oqtay, Azərbaycan Səfəvilər dövləti, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993
22. İsmayılov M.Ə. Şəki xanlığı (tarixi oçerk). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1982.
23. Məmmədli Bəhram, Azərbaycan Övliya Çələbinin 1654-cü il «Səyahətnamə»sində (Bayramlı Z, Əzizli B. tərcüməsi haqqında).
24. Məhəmmədhəsən Vəlili, Azərbaycan –coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat, Bakı, 1993.
25. Məhəmməd Hüseyn Quddusi, Nadir şah, Bakı, «Gənclik», 1999.
26. Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, Əxbarnamə, Bakı, Elm, 2000.
27. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, «Elm», 2002, 272 səh.
28. Mustafayev T. XVIII yüzillik-X1X yüzilliyin əvvələrində Osmanlı-Azərbaycan münasibətləri, Bakı, Elm, 2002.
29. Mustafayev T.T. XVIII əsrin birinci yarısında Azərbaycanda Rusiyaya meylin güclənməsi. Bakı: Elm, 1986.
30. Mustafayeva N, Cənubi Azərbaycan xanlıqları, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995.
31. Molla Məhəmməd əl-Cari, Car salnaməsi, Bakı, «Səda», 1997.
32. Yüzbaşov.R. Əliyev, Sədiyev Ş. Azərbaycan coğrafi adları kitabı, Bakı, 1972.
33. Qarabağnamələr, 1-ci kitab, Bakı, «Yazıçı», 1989
34. Qarabağnamələr, 2-ci kitab, Bakı, «Yazıçı», 1991.
35. Qızılbaşlar tarixi, Bakı, “Azərnaycan” nəşriyyatı, 1993.
36. Gülmalıyev M. M.. XVIII əsrin sonu — XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial iqtisadi strukturu. Bakı, Elm, 1989.
37. Tərbiyət M. Danişməndani-Azərbaycan, Bakı, Azərnəşr, 1987.
38. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövlətilə siyasi əlaqələri (XVIII əsrin ikinci yarısı). Bakı, «Nurlan», 2002.
39. Sümer Faruq, Oğuzlar, “Yazıçı”, Bakı.
40. Şah Təhmasibin təzkirəsi, Bakı, 1996.
41. Şükürov K. Azərbaycan tarixi.Bakı 1998.
42. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi, «Təkmilətül-Əxbar», Bakı, «Elm», 1996.

43. Зейналоьлу Ъ. Мцхтясяр Азярбайсан тарихи. Бакы, Азярбайсан Дювлят Китаб палатасы, 1992, 118 с.

*Türk dilində*

44. Emenova A. Tebriz hanlığı. Türkler. VII c. Ankara, Yeni Türkiye yayınları, 2003, s. 113-122.

45. Yılmaz Ilik, Dikənin gülü avşarlar, Antalya, 2005

46. Köprülü, M. F.; Avşarlar, İslam Ansiklopedisi C. 2, MEB Yayınları, Ġstanbul, (1979), s. 28-38.

47. Osmanlı devleti ile Azərbaycan türk hanlıqları arasındakı münasibetlere dair arxiv belgeleri (1575-1918), c.II, Ankara, 1993, 483 səh.

48. Memmedova, G. N.; Urmiye Hanlığı, Türkler C. 7, (Editörler: Güzel, H. C., Çiçek, K., Koca, S.), Yeni Türkiye Yayınları, Ankara, (2002), s. 133-148.

49. Uzun, E.; İran Avşarları, Türkler C. 20, (Editörler: Güzel, H. C., Çiçek, K., Koca, S.), Yeni Türkiye Yayınları, Ankara, (2002), s. 652-657.

50. Gürsoy, C. R.; Urmiye, Türk Ansiklopedisi XXXIII, Milli Eğitim Basımevi, Ankara, (1984), s. 88-89.

51. Minorsky, V.; Urmiye, İslam Ansiklopedisi XIII, MEB Yayınları, Ankara, (1984), s. 59-65

52. İsmail Hakkı Uzunçarsılı, Osmanlı Tarihi IV, Ankara 1982, s.315 vd.

*Rus dilində*

53. Арунова М., Ашрафян К. Государство Надир-шаха. М. 1958.

54. Алиев Ф. М. Антииранские выступления и борьба против турецкой агрессии в Азербайджане в первой половине XVIII века.- Баку: Элм, 1975..

55. Ализаде А. А. Социально-Экономическая и политическая история Азербайджана XVIII-XIV вв.-Баку: Элм, 1956.

56. Альтман М.М. Гяндже с 1606 по 1804гг. АМЕА ТИЕА фонд 1, с 1891, д. 2.

57. Бартольд, В. Историко-географический обзор Ирана. СПб., 1903.

58. Березин И. Путешествие по Дагестану и Закавказъю. Казан,1850.

59. Дубровин Н. Закавказъе от 1803-1806 года. СПб, 1866, 542 с.

60. Искендерова М.С. Бакинское ханство. Баку, Чашыоглы, 1999.

61. История Ирана с древнейших времен до конца XVIII века, Л., 1958.
62. Иванов М.С. Очерк истории Ирана. Москва, «Политической литературы », 1952.
63. Книга Орудж-бека Баяата Дон Жуана Персидского, Баку, «Язычы», 1988
64. Петрушевсkий И. П. Земледелие и аграрные отношения в Иране XIII-XIV вв. – М. – Л.,1960. vv.
65. Кузнецова Н. А. Иран в первой половине XIX века. Москва, 1983.
66. Петрушевсkий И. П. Очерkи по истории феодальных отношений в Азербайджане и Армении в XVI- нач. XIX вв.- Л., 1949.
67. Маршал фон Биберштейн. Описание провинций расположенных на левом берегу Каспийсkого моря между реkами Терkи Кура. (перевод с фран. С.Ашурбейли). EATİEA, sənəd 467
68. Мустафазаде. Т. Т. Азербайджан и руссkо-турецkие отношения в первой трети XVIII в.- Баkу; Элм, 1993.
69. Лоkkарт Л. Надир шах. Критичесkое исследование на основе первоисточниkов. Пер. с англ. Гезаловой Н.Р. Баkу, 2004, 396 с.
70. Шараф-хан Бидлиси, Шарафнаме, тт. 1 - 2. М. 1967 - 76.
71. Ханвей Д. Историчесkий очерk британсkой торговли на Каспийсkом море, с журналом автора о путешествии из Англии через Россию и Персию и обратно через Россию, Германию и Голландию. 1 том (перевод с англ.яз. Л.М.Кирякова) АМЕА ТИЕА , фонд 1, сийащы 1, иш 155

*Fars dilində*
72. İskəndər bəy Türkmən (Münşi), Tarixi-aləm-arayi-Əbbasi, 1-ci cild və 2-ci cildin yarısı, Tehran, Əmir Kəbir, 1382 hicri şəmsi.
73. İskəndər bəy Türkmən (Münşi), Tarixi-aləm-arayi-Əbbasi, 2-ci cildin yarısı və 2-ci cild, Tehran, Əmir Kəbir, 1382 hicri şəmsi.
74. Mirzə Rəşid Ədibüşşüara, Tarixi Əfşar, Təbriz, «Şəfəq»
75. Əbdürrəzzaq Dünbülü, Məasər-e Sultaniyyə. Sədri Əfşarın tərtibatı ilə. Tehran, İbni-Sina nəşriyyatı, 1351.
76. Riyahi, Məhəmməd Əmin. Xoy tarixi. I cild. Tehran, Tus, 1372, səh. 181, 164.
77. Məhəmməd Təmməddün, Tarixe-Rzaiyye, Urmiya, «Təməddün», 1350, hicri-şəmsi.

78. Mərvi, Məhəmməd Kazım (Mərv vəziri) Aləmarayi-Nadiri. Məhəmməd Əmin Riyahinin tərtibi ilə. Tehran, «Elm» nəşriyyatı, 1366
79. Məhəmməd Əhməd Pənahi Simnani, Nadir şah, Tehran, 1375
80. Qulamhüseyn Müqtədir, Nəbərdhayi bozorgi Nadir şah, Tehran, 1376
81. Əliəsğər Abdullahi, İran dər zamani Nadir şah, Tehran, 1376
82. Rza Şəbani, Tarixi Ictimai İran (dər əsri əfşariyyə) cilide-əvvəl, Tehran, 1369
83. Rza Şəbani, Tarixi Ictimai İran (dər əsri əfşariyyə) cilide-duvvum, Tehran, 1369
84. Əli Məhəmmədi, Tarixi-Tikabi-Əfşar, Tehran, 1384
85. Nəvayi, Əbdülhüseyn, İran və Cahan. Tehran, 1377
86. M. A. Arunova, K. Z. Aşrafyan, Nadir şah Əfşarın dövləti (tərcümə Həmid Əminindir). I cild.Tehran, «Səbgir» nəşriyyatı, 1356
87. Məlikzadə, T.; Tarixçə-i Darün-nişat-ı Urmiyə, Urmiyə, (2009).
88. Dünbülü Əbdülrəzaq Məftun, Təcrübətül-Əhrar və təsliyətül-əbrar». Hüseyn Qazi Təbətəbainin düzəlişi və əlavəsi ilə. Təbriz, İran mədəniyyətinin tarixi, 1349, səh. 189
89. Mirza Mehdi xan Astrabadi. Tarixi-Nadiri. Təbriz-1268 h.,

*İnternet*

90. 1.B. Nikitine, Urmiye avşarları,
91. http://www.angelfire.com/or3/etnografya/depo1/urmiyeav.htm 2. V. Minorsky, Urmiye.
92. http://www.angelfire.com/or3/etnografya/depo1/minurmiye.htm 3. Urmiyə xanl